Soylu Atalı

# Özümlü Yaşamağın Həqiqətləri
## I toplu (cild)

**Atakənd-48**
**(Bakı-2026)**

Çapa hazırlayanlar*: Nurtəkin, Göytəkin Atalılar*
Bilgisayar işi: Göytəkin Atalı.

**Soylu Atalı.**
**Özümlü Yaşamağın Həqiqətləri – I toplu (Deyimlər).**
**(Atakənd-48). Bakı, "Elm və təhsil"- 2026, 266 səh.**

*Asif Atanın (İnam Atanın) Mütləqə İnam Ocağının Yükümlüsü, Ruhaniyyat yönündən araşdırmaçı filosof, görkəmli publisist, yazar Soylu Atalı, on dördüncü bitiyi ilə, Asif Atanın işini (İnsanlığın Yeni Ölçüsünü) soraqlayanların qarşısına gəlir. Bu bitiqdə onun insan kimdir, həyat nədir, dünya necədir yönündə axtarışları, düşüncələri öz əksini tapmışdır. Ruhaniyyat Qurucusunun (Asif Atanın) İşini davam eləməsi, İnam Fəlsəfəsinin anlayışlarını, yönünü, məzmununu yorumlamaq çabaları Mütləqə İnam Xalqının yaranması sürəcinə qulluq edir. Soylu Atalı bütün şüurlu həyatını buna yönəldib, usanmadan bu ömrü yaşamaqdadır. Bu açıdan onun çabaları (fəaliyyəti) ulusal düşünərlər üçün gerçək bir örnək anlamı daşıyır.*

**İSBN**

## Ön söz

Ürəyinizdə Ata Günəşi olsun!

Deyirlər indi internet dünyasıdır, hər kəs istədiyini tapıb oxuya bilir. Özəllikcə Yapay Zəka (Süni İntellekt) hər bir məsələdə hər kəsin qolundan tutur, anındaca yardımına qoşur. Heç kim özünə zəhmət vermir. Şahanə bir rahatlıq varkən heç zəhmətə gərək də qalmır.

Telefon var, Yapay Zəka var, bəlkə universitetlər də qapansın. Hər kəsin yerinə Yapay Zəka düşünür, axtarır, bilgiləndirir. Bozbaş bişirə bilməyən qızlara bozbaş bişirmək öyrədir. Arvadına söz çatdıra bilməyənlərə söz öyrədir. Yata bilməyənlərə layla çalır. Bir sözlə, həyatımızın avanqardı, lokomativi, yolbaşıdır. Biz də durub qalın-qalın kitablar yazırıq, oxucu axtarıb yalvarırıq ki, kitablarımızı oxusunlar.

Doğrudan da yalvarırıq! Yalvarırıq ki, insanlar oxuyub özlərinə sual versinlər: Mən kiməm? Mən niyə varam? Dünya nədir, ölüm nədir? Varlıq nə deməkdir? Doğrudanmı həyat bizi ölümə təhvil vermək üçün var? Bəs onda Tanrı nə deməkdir, nəyə gərəkdir? Sivilizasiya batmalıdırmı? Yenidəndoğulma, ölümsüzlük varmı? Namusun, şərəfin funksiyası nədə özünü ifadə edir? Kef, əyləncə xeyirxahlıqdan, mərhəmətdən üstündürmü? Toplum səfalət içində ola-ola, əyləncə yaradan əxlaqsızları niyə sevib alqışlayır? Şəxsiyyətin mühitinə sayğı olacaqmı?

Sayğılı oxucu, bu soruların cavabını Yapay Zəka vermək iqtidarında deyil. Bu bitiqi oxumaqla soruların cavabını tapacağına əmin ola bilərsən.

Uğurlar diləyirəm, gözlərinə, ürəyinə sağlıq.

**Yükümüzdən Böyük Fərəhimiz yoxdur!**
**Atamız Var olsun!**

Soylu Atalı
Mütləqə İnam Ocağının Yükümlüsü

***

Gerçəklik idealın görsənişi deyilsə, insan yoxdur.
Həyat Amalın görsənişi deyilsə, insan yoxdur.
Dövlət Birliyin görsənişi deyilsə, insan yoxdur.
Ömür – ruhun tələbi deyilsə, dünya yoxdur.

***Köçəri Ayı, 23-cü il.***

***

Daşa, qayaya, ağaca səcdə qılırlar. Pir deyib qutsallaşdırırlar. İnsana səcdə qılmağı gerilik sayırlar.

İtə, pişiyə sevgi bəsləyirlər, onları özləri ilə bir otaqda saxlayırlar, çimizdirirlər, darayırlar. İnsana doğma ola bilmirlər, çünkü bioloji yaşamaqdan yüksəyə qalxa bilmirlər.

***

Mövlana evində qıtlıq olanda, onu peyğəmbər evinə bənzədir. Ancaq hökmdarlıq əldə eləmiş peyğəmbərin evi heç zaman yoxsul olmayıb. Qənimətlər onu hər kəsdən zəngin eləmişdi.

***

-Din qismətçiliyə (heç nə insandan asılı deyil) inam yaradıb, Asif Ata özüylə döyüşə (özünü dəyişmək, böyütmək olanaqlarına).

-Din insanı "o biri dünya"da hüri-pəri nəşəsinə çağırır, Asif Ata imtinalarla, özündənkeçmələrlə yaşadığımız Dünyanı gözəlləşdirməyə.

-Din cəhənnəm qorxusu yaradır, Asif Ata Özünü Dəyişmək (Fəlsəfi anlamda Yenidəndoğulma) sevinci.

-Din insana müti itaət öyrədir, Asif Ata vüqarlı yaşamaq.
Din öldürür, Asif Ata dirildir. Ona görə din ölməli, İnam yaşamalıdır.

***Köçəri Ayı, 23-cü il.***

***

Xalqın boğazına ortaq olanlar əməlin gözəlliyindən çox danışırlar.

***

Məişət yoxsulluğu o vaxt amansız olur ki, ömür yoxsulluğu ilə birləşir.

***

Təvazökarlıq o vaxt gözəldir ki, fərdilik itmir. Özünü öydürmək üçün təvazökarlıq eləmək oyundur.

***

Bəzən ömrün nizamı bir anda dəyişir. Sanki indiyə qədər olanlar adamı sonradan heyifsiləndirmək üçün var imiş.

***

Elə insan var, onun varlığı başqası üçün dünyaya çevrilir. Onu itirmək – dünyanı itirmək kimi olur.

***

Adam sədaqətin qırıldığı nöqtədə duranda özünü boşluqda, uçurumda görür.

***

…Qayıtdım dərdimin yanına yenə. Dərdimə sadiqəm...

***

Dərdə doğma olan könül gözəldir.

***

Vətənin yükünü əyləncəli könül deyil, dərdli könül daşıyar.

***

Qürbət eldə dərd yaşanmaz, sürünər.

***

Qürbətə vətən deyənin ürəyi qürbət olar.

***

Dərdsiz ürəyə sevgi sığınmaz.

***

Hürufilər insanın Allah olduğunu dedilər, – onları öldürməyə başladılar.

Asif Ata insanda Mütləq olduğunu deyir, onu eşidəcəklərmi?!

***

Quruluşları fərqli olan dövlətlər arasında münasibət bərabərlik səviyyəsində qurula bilmir. Çünkü burada quruluşa "güc" də əklənir (əlavə olunur).

Dövlətlər daşıdıqları yükə görə mahiyyətcə eynidirlər. Quruluşca da eyni ola bilərlər, ancaq münasibət axıra kimi sağlam alınmaz. Çünkü birinin o birindən güclü olması əlavə istəklər ortaya çıxarır. Ona görə Asif Ata Ruhani Dövlət modelini irəli sürür.

***

Zərurəti düşünən ürəkdə azadlıq bəslənməz. Dinin məntiqinə görə hər şey Allahın yaratdığı qanunauyğunluq içində zəruri olaraq baş verir. Bu deyiliş doğru olsaydı, Allaha ancaq nifrət eləmək olardı. Çünkü baş verən bütün qorxulu işlərin Allaha bağlı olduğu ortaya çıxardı. Belədə isə, haqlı olaraq, insanların qarşısına sorular çıxır: – bəs nədən Allahın pis qanunları, qanunauyğunluqları var?!

Asif Ataya görə Təsadüf – dünyanın qanunlardan üstün olduğunu sübut edir...

***

Asif Ata deyir: "Ziddiyyətlərin münaqişəsiylə səciyyələnən cəmiyyət vəhdətdən məhrum olan cəmiyyətdir".

Bu açıdan baxanda demokratiya Birliyin ölümüdür. Çünkü toplumda İnsanlaşmanı sağlamadan çoxdüşüncəlilik yaradır. Bununla da birgəyaşayış ölçüsündə anarxiya oluşdurur.

Dövlət ona görə yarandı, böyük dəyərlər, böyük mədəniyyət qorunsun. Çünkü Birliyi (hamı üçün ortaq olan) Dəyər yaradır. Ancaq bu gün dövlət bu işi yerinə yetirmir, çünkü birgəyaşayış ölçüsü xəlqi anlam daşımır.

***

Cahillə cahilin birliyi insana qarşı olmaq anlamı daşıyır. Ona görə də ibadət evlərində insan yetişmir.

İnsanla İnsanın birliyi mənəviyyat ölçüsü yaradar.

***

Asif Ata deyir: – "xalqın əsarət dövrü olur, kölə dövrü olmur". Kölə olan – xalq sayılmaz. Xalq əsarətdə olanda da dəyər yaradır. Ancaq kölə heç bir dəyər yaratmır.

***

Faciələrlə əylənmək – cəhalətdən doğar.

***

Köləliyin çeşidlərini tanımırlar. Ona görə özgədəki köləni görürlər, özlərindəki köləni görmürlər. Məsələn, səhnələrdə yarımçılpaq hərcayilər çadraya bürünəni kölə sayır, özünü azad.

***

Dində Allaha inam – Allahın insan üzərində mütləq hökmranlığını ödəyir.

Mütləqə İnam – həyatın İnsanlığa yüksəlməsini ödəyir.

***

Asif Ataya aylıq verirdik (Ocağına görə işdən çıxmışdı). Mən elə bilirdim, aylıq verdiyimiz üçün, Asif Ata da, Ocağı da bizdən asılı

durumdadır. Bu hal (Asif Atanı anlamadan) süni böyüklük şüuruna qapılmaq idi.

Bu günlərdə, bir işi təşkil eləməsi üçün, birinə işimiz düşdü. Bizi özündən asılı bilib süni böyüklük şüuruna qapıldı.

İnsanlığın sorunu hər zaman yanlış düşüncələrdə qaba bir şəklə düşüb gözə girir. Asif Ata ona görə çağırır: İnsanlaşın – İnsanlaşdırın!

***

İnsan yaranmır – təşkilatlar yaranır, rütbələr yaranır, ödül növləri yaranır, əsərlər, kitablar yaranır. İnsansız dünyada hər şey yaranır, ancaq dünya işıqlanmır.

Asif Ata deyir: "Azərbaycan haqqında bilik yaratmaq azdır, Azərbaycan haqqında inam yaratmaq gərəkdir".

Çağdaşlarımız Azərbaycanın ancaq coğrafi yerini tanıdırlar, neft ölkəsi olduğunu yayırlar, elə bilirlər Azərbaycanı var edirlər.

Siyasi dünya iqtisadiyyatdan başqa həqiqət tanımır. Ona görə dünyanı yönətənlər harda şirə var, axtarıb tapırlar. Onlara bunu tapmaqda kömək edən çağdaşlarımız Azərbaycanı dərk eləmirlər. Azərbaycanı dəyərlər ölkəsi kimi tanıtmaq gərəkdir, o bu dəyərləri yarada bilir, yaratmağa yetənəklidir.

Azərbaycanı mənəviyyat ölkəsinə çevirmək gərəkdir. O bu olanaqlarının olduğunu böyük şəxsiyyətləri ilə sübut edibdir.

Dünyanı yönətənlər dəyərləri sevmirlər, dəyərlərə "yenidən baxıb" sıradan çıxarırlar.

Dəyər yaradan xalq Bir olur – bütöv olur, qüdrətli olur. Qüdrətli xalqın iqtisadiyyatını heç kim talaya, sata, oğurlaya bilməz.

Asif Atanın İnsanlaşma çağırışı – xalqyaratma tələbidir. Bu tələblər ödənilməsə, dağılmanın qabağını nə ələşdirmələrlə (tənqidlərlə) almaq olar, nə də lokal etirazlarla.

Qırağa söykənməklə Xalq Birliyi yaratmaq olmusuzdur. Qıraq etkilər istənilən təşkilatı istədiyi vaxt aktivləşdirir, özünə gərək olmayanda passivləşdirir.

Siyasəti, ədəbiyyatı, fəlsəfəni, sənəti, mədəniyyəti bir nöqtədə birləşdirən ölçü olmasa, Milli Birlik yaranmaz.

Asif Atanın inama çağırışı – Milli Birliyimizin ölçüsüdür – öyrənməli, götürməli.

***9 Od Ayı, 40-cı il.***

***

Bilim yüksək düzeydə gəlişdi, ancaq gerilik (cəhalət) aradan qalxmadı. Ruhaniyyat yenilənməlidir!

***

Babalarımıza kafir deyib malını, canını, arvadını özünə halal bilən ərəbçiliyin qarşısında çağdaş soyumuz hələ də əyilir.

***

Sufizmin qırıntıları ilə (özünü hal əhli sayıb) var göstərməyə çalışanlar bu gün də meydana soxulurlar.

***

İnsanlar hər il Allaha qurban kəsirlər. (Qurbançılıq köhnə geriliyin yeni gerilik biçimində qalığıdır). Ancaq deyək ki, həqiqət üçün nələrindənsə keçə bilirlər. Ancaq insanın Allaha münasibəti xurafat düzeyində – qorxu kimi qalır, yaltaqlıq kimi qalır, mənəvi zəlillik olaraq qalır. Bununla insan necə var, elə qalır, mənəviyyatı dəyişmir, gəlişmir.

***

Toplum həyatda əxlaq, ədalət, xeyirxahlıq görməyəndə bu keyfiyyətlərə umudunu itirməmək üçün onları "yaradıcı qüvvə"yə bağlayır. Ömürdə, münasibətlərdə gerçəkləşməyən keyfiyyətləri Qıraqda örnək ölçü kimi göstərməklə toplum özünü aldadır.

***

Biz ata-anamızın bizim üçün yaratdığı ailə qəlibinə girmək istəmirik, onların basqısına kəskin etirazlar edirik, bu etirazları içsəl azadlıq sayırıq. Ancaq işğalçı güclərin əsarətinə dözürük, bəzən onların üzərimizdə ağalığına yardım edirik. Kosmopolitizm budur.

***

İnsana o qədər nəzəriyyələr, doktrinalar sunulur ki, bu sunmalar insanın özümləşməsi yolunda əngələ çevrilir.

Deyirlər insan ona sunulanlar içərisindən özü seçim eləməlidir. Bunun alınması olumsuzdur. Ölçüsü olmayan nəyi seçməlidir, necə seçməlidir axı?!

***

Xalq hakimiyyəti yox, xalqın dövləti.

***

Anın üzərində qələbəyə can atmaq məğlubiyyət deməkdir.

***

Vedalarda yazılır: "Tanrının planeti başqadır". Əgər Tanrının maddi məkanı varsa, o, ölümlüdür. Ya da o planet dağılsa, gərək Tanrı özünə başqa planet seçə.

Bütün dinlərdə, dünyagörüşlərdə Tanrı anlamına yanaşmada yanlışlıq görürük. Əslində Məna ayrıca maddi məkanda yaşamır, ifadə olunur. Məna bütövlükdə Dünyanın özündədir.

***

İslamın Azərbaycana gəlişi ilə Azərbaycan bir çox yönlərdə ciddi zədələr götürdü. O sıradan dili. Nəsimi Azərbaycan türkcəsini Doğu dilləri içərisində özəl bir səviyyəyə qaldırdı. Çünkü Nəsimi yaradıcılığı Azərbaycanın bədii-fəlsəfi düşüncə tarixinin zirvəsində dayandı. Eyni halda, Doğu xalqlarının bədii-fəlsəfi düşüncə yaradıcılığına sanballı yön verdi. Nəsimi özündən öncəki qüdrətli sənətkarların dilimizi bədii yaradıcılıq səviyyəsindən məhrum etmələrinə qarşı tarixi bir örnək oldu.

Mədrəsə təhsilli Nəsimi içində olduğu qaranlığın fəlakətlərini ən dərin səviyyədə dərk etmiş, özü işıqlı yola çevrilmişdi. Onun aşiqliyi təbdən, ehtirasdan artıq idi. Yaşadığı dövrdən uzaqgörənliyi ilə qat-qat üstün idi...

***

Bir adamın özünün bildiyi, bundan əzab çəkdiyi bir suçu qıraqdan ona xatırladanda yeni bir iztirab yaradır. Bu iztirab, onu xatırladanın naşılığının ortaya çıxartdığı inamsızlığın, ümidsizliyin doğurduğu bir haldır. İkrah, nifrət belə başlayır. Suçun bəraətlənməsi də belə oluşur.

Suç – Adamlıq halıdır, onu (suç işlədib bundan əzab çəkənə) xatırlatmaq da Adamlıq halıdır (İnsanlıq halı deyil). Adamlıq – suçu həm doğurur, həm bəsləyir, həm də yaşadır.

***

Ən humanist, istedadlı adam belə, cındır içində olana insan kimi baxmır. Çolağa, cındır geyimdə olana münasibət iki cəhətdən üstdən aşağı olur: Birinci, münasibət bəsləyənin mənəvi yoxsulluğundan irəli gələn kobud baxış; ikinci, qarşıdakının (yoxsulluğun, çolaqlığın etkisi ilə) mənən döyülməsini, özünü aşağılamasını qəbul etməsi.

***

Aşıqlıq – Tanrı işığından bəslənən Doğanın səsi!

***

Adam Məna üstə yaşayanda baxdığı hər şeyin sirrinə vara bilir. Məna üstə yaşamayanda sanki hər şeyin yanından gözüyumulu keçir.

Nəyi düşünürsənsə, onu görürsən...

***

İdeyanın anlamına girməklə dəyişikliklərə yetmək olur. Dəyişiklik yaratmayan adam ideyanı öz şüuruna uyğunlaşdırmaqla gerilikçi əhvalda yaşayır. İstənilən proqressiv ideya gəlişmə yaratmaqla yaşamı qabağa aparır.

***

Millət – Bəşərin varlığıdır. Onu danan ideyanın bəşəri gücü ortadan gedir.

Ümmətçilik, kommunizm, kürəselləşmə Milləti danan ideyalardır.

***

Hər kəs sosial şəbəkələrdə yaxşı şeylər yazmağa çalışmaqla başqalarından ağıllı olduğunu, başqalarından çox şeylər bildiyini göstərməyə çalışır. Bu zaman o, qədimdə olan milli üstünlükləri, ya da sözdə deyilən yaxşı şeyləri qullanır. Halbuki öz ömrünü yaradıb yaratdıqlarından yazsa idi, daha uğurlu işlər görmüş olardı.

***

Mahiyyət bireylər arasında bölünmür. Deyək ki, İnsanlıq bireylərə paylanmır, hər kəsdə bütöv imkan kimi olur. Anlamaq üçün bir misal göstərmək olar: Günəş səhər doğur, axşam batır. Bu, bəlli, bütöv bir bilgidir. Bu bilgi insanlar arasında bölünmür, hamıda bütöv şəkildə var. Bir insan öləndə bu bilgi onunla ölmür, İnsanlıqda (Mənada) – Bəşərdə qalır. Bilgi bədənə yapışmış, onun üzvi hissəsinə çevrilmiş maddi bir şey olmadığı üçün torpağa gömülmür. Sadəcə ölən insan həmin bilgini özündə daşımaq, yaşatmaq qabiliyyətini, olanağını itirir.

***

Düşmənləri çox olan (özündən ideyası olmayan) millət uyuyar. Çünkü hər düşməni bu millətə bir yalan, bir nəşə verər. Düşmənin işi uyutmaqdır.

***

Deyirlər, Türkün peyğəmbərə ehtiyacı yoxdur. Deyirəm, necə yoxdur ki, Məhəmməddən dördəlli yapışmısan. Bu münasibət öz içində yarananı qəbul etməməkdən irəli gəlir.

***

Sonsuz (qısır anlamında) adam özünə övladlıq götürür. Bu, yetim uşaqlara yiyə durmaq açısından nə qədər mərhəmətli görünsə də, özünü aldatmaqdan başqa bir şey deyil.

Xalqlar da belədir, özü dəyər yarada bilməyəndə başqalarının dəyərlərini mənimsəməyə çalışırlar. Bu da özünü aldatmaq gedişidir. Bu addımlarla onlar dünyanın siyasi anarxiyasında özlərini qoruyan

görünürlər. Bəşərdə insani nizam yarananda onlar tarix səhnəsindən çıxacaqlar. Belələrinin əriməsi doğaldır, qaçılmazdır.

***

Hürufilər Azərbaycanı ərəblərin ruhani işğalından qurtarmağa çalışırdılar. Teymur buna əngəl oldu. Bununla da Teymur Azərbaycan qarşısında ən böyük günahkarlardan biri oldu.

***

İslam Allahın sirlərini insandan gizlədi. Nəsimi bu sirləri insana açmağa başladı, ona görə də edam olundu.

***

Nəsimilik – 1394-cü ildən, yəni Nəimini tanıdığı gündən başladı. Hər kəs Nəsimiyə 1394-cü ildən öncədə baxır, ona görə heç kim onu axıra kimi tanıya bilmir. Nəimini tanıyana kimi Nəsimi sufi idi, Nəimini tanıdıqdan sonra hürufi oldu. Bu dönəmdən sonra onun yaradıcılığı İslamla uzlaşmadı.

***

Harda İslam vardı, orada hürufilər öldürülürdü. İslamın qanlı əli Azərbaycanı cəhalətə çevirdi. Çağdaşlarımız həqiqəti görə bilmədikləri üçün Nəsimini müsəlman adlandırırlar.

***

Babəki Samirədə doğradılar, başını kəsib şəhərdə gəzdirərək hamıya göstərirdilər.

Sultan Müəyyəddinin göstərişi ilə Nəsiminin dərisini soydular. Yeddi gün Hələbdə gəzdirib hamıya göstərirdilər. Əl-ayağını kəsib qardaşına göndərmişdilər.

Böyük Ürək, Böyük Düşüncə İslam məntiqində kafirlik göstəricisidir. Azərbaycanın böyüklərinə kafirlik damğası vurmaqla Azərbaycana kafirlik damğası vurdular.

***

Nəimi ardıcıllarını (hürufiləri) qorumaq üçün onlara üzdə namaz qılmalarını önərirdi. İndikilər də deyirlər, hürufilər müsəlman idilər…

***

İnsanda bəlli bir çağa kimi böyümə, gəlişmə gedir. Bu zaman düşüncənin doğru formalaşmasına çalışmaq gərəkdir. Fiziki gəlişmə, böyümə dayandıqdan sonra mənəvi formalaşmaq istəyi, demək olar, özünü doğrultmur.

Ruh bədəndən qıraqda gəlişmir. Qarımış bədəndə qarımış duyğularla ruhu kamilləşdirmək alınmır. Ən yaxşı halda, ruhun kamilləşməsi gec başlayanda passiv olur.

Böyüməkdə, gəlişməkdə olan bədəndə duyğuların böyüməsi də baş verərsə, Yenidəndoğulma – ruhun kamilləşməsi alınar.

***

Bəzən bizi dinləyənlər deyirlər, – sizin dedikləriniz yaxşıdır, ancaq aktual deyil. Yəni sırası deyil, gündəmdə olmayan məsələdir.

Bilmək gərək, aktuallıq – gerçək addım atmaqdır. Bizim dediklərimiz yönündə addım atarsan, sırası olar, atmazsan gündəmdə olmaz. Nəyə çalışırsansa aktual odur. Cəfəng məsələlərə çalışanda gündəliyi cəfəng əməllər tutar, gərəkən işlərin sırası görünməz.

***

Deyirlər, Çində müsəlmanları qırırlar, Kərkükdə müsəlmanları qırırlar, Güneydə müsəlmanları qırırlar. Əslində qırılan müsəlmanlar türklərdir. Türklərin qırılmasını müsəlmanların qırılması kimi adlandırmaqla siyasi dünyanın türklərə qarşı vəhşi davranışlarını gizləmiş olurlar. Guya dünyada müsəlman-xristian qarşıdurması var. Yalandır! Çin türkləri qırır, məgər Çin xristiandır?! 21-ci yüzil Türkün yüzili olmasın deyə, hər yerdə qırıb çatırlar. Yüzil Türk yüzili olsa, dünyanı yönətməyə başlayacaq. İstəmirlər!

***

Mütləq – insan ağlının, düşüncəsinin obrazı olmadığı üçün ona şəkil vermək olumsuzdur. Bu açıdan Məhəmmədin Allahı Mütləq deyil. Ona hər addımda adam şəkli verilir – danışır, eşidir, görür, eləyir kimi xassələrlə.

***

Asif Ata millətini tərbiyə edən dəyərlər yaradır. Dəyərlərin tərbiyə eləmədiyi toplum millət olmur.

***

Hər kəsin etiraz eləməyə haqqı var. Ancaq etirazının doğruluğunu dərk eləmirsə, israr etməyə haqqı yoxdur.

***

Din insanı (özündən qıraqda) Tanrı ilə üz-üzə gətirir. Başqa sözlə, Tanrı-insan münasibətinin qurulmasını yönləndirir.

İnam insanı özü ilə üz-üzə gətirir, başqa sözlə, insanın özünə (doğru) münasibətinin qurulmasını yönləndirir.

Özüylə üz-üzə olmayan insanın hər şeyə münasibətində doğruluq ola bilər, özünə münasibətində isə daha çox yalanlar olur.

***

Dühalar bir biliyi üzə çıxarmaq üçün aylarla zəhmətə qatlaşar. Başqaları bu bilgini bir anda (kitab oxumaqla) əldə edər.

***

Ağaların ömrü devrimə qədərdir, Ağalığın ömrü ruhani dirçəlişə (intibaha) qədər. Devrim ağaların yerini dəyişir, Dirçəliş ağalığı ortadan qaldırır.

***

Bir var heyrət, bir də var maraq. Heyrət – dərindəkini görməkdən, ona meyil etməkdən yaranır. Maraq – ən çox üzdəkiləri görməkdən, üzdəkilərə meyil eləməkdən oluşur. Bu gün dünyada yeni texnologiyaların gəlişməsi ilə insanın heyrətlənmə olanaqları ortadan qalxır, maraq isə ən pis düzeylərdə ödənilir. İnformasiya bolluğu insanın düşünə bilmək bacarığını kor qoyur. Ən çox seksual maraqlar ödənilir, gənclik belə eybəcərliklərlə doydurulur. İnsanlıq sıradan çıxarılır, heyvanlığın önəmi artırılır...

***

Özü öldü, dərdi isə hələ də bizi təqib edir...

***

İnsanda ruh Mənadan gəlir. İnsan onu yaratmır, kamilləşdirir.

***

Ruhaniyat yoxsulluğu aradan qaldırmasa özünün (ruhaniyyatın) yaşaması yoxsulların umuduna qalır.

Quruluşlar ruhaniyyata qarşı olduğu üçün ruhaniyyat Quruluşu dəyişməlidir.

***

Liberalizm – humanizmin oyuna çevrilməsidir.

***

İbn Bəcca bitkidə ruh görür. Onu qidalandıran, böyüdən qüvvəyə ruh deyir. Halbuki bu qüvvə Doğanın qüvvəsidir. Doğanı bitkinin ruhu saymaq yanlışdır.

***

Məhəmməd təkallahlılıq baxışı yaradanda onun dini, ilk görünüşdən, bəşəri bilindi. Ancaq Allaha ərəb xarakteri, keyfiyyəti verdiyində dini daha çox milli yön aldı. Mütləq olanı bir millətin keyfiyyəti ilə sınırladı. Əslində Mütləqi itirdi.

***

İnamın əsas özəlliyi bəşəri məna daşımasıdır. İnam millətdə öz yerini deyil, millət inamda öz yerini tapmalıdır. İslam başqa millətlərin bəşəri keyfiyyətlərini özündə deyil, öz yerini başqa toplumlarda, o sıradan türklərdə oluşdurdu.

Türklər öz yerini islamda bəlirləyə bilmədi. Ona görə də doğal gəlişmələrdən dala qaldılar.

***

Allaha ərəb xarakteri verildiyində təkallahlıq ideyası gücünü itirdi. Ona görə dolaşığa salınan yaşamda başıpozuqluq artdı.

***

İnsana inanmayan təlimlər ən yaxşı sözləri Allaha aid deyiblər. Ona görə İnsanlığın gerçəkləşməsi bütün dönəmlərdə epizodik xarakter daşıyıb.

***

Asif Atanı dana bilmirlər, bilməyəcəklər. Bu çağa kimi ən çox "niyə özünü peyğəmbər sayır, peyğəmbər – elçi deməkdir, peyğəmbərlik Məhəmmədə başa çatıb..." kimi iradlar olub. "Asif Atanın ideyaları yalandır, yanlışdır" deyən isə olmayıb, olmayacaq!

***

Heç bir elm insanların bir-birinə necə münasibət bəsləməsini, yanlışlardan necə çəkinməsini öyrətmir. Bunları ruhaniyyat öyrədir.

***

Aşiqlik qatı necə bəlirlənir?!

Dindar Allaha aşiq olduğunu deyir. Bizə görə bu deyilişdə yalan var. Çünkü dinin bildirdiyinə görə Allah hər şeyi fani yaradıb. İnsanın ömrü belə, fanidir. Bəs faniliyin yaradıcısına aşiq olmağın anlamı nədi?!

Eşq – dünyanı əzəli saymaqdır. İnsanlığı əzəli, əbədi, sonsuz saymaqdır. Əgər dünya, İnsanlıq əzəli, əbədi deyilsə Allahın əzəliliyi,

əbədiliyi də anlamını itirir. Bir an düşünsək ki, dünya, insan yoxdur, onda Allaha eşq də yoxdur. Dünyanın, İnsanlığın fani sayılması – Allaha münasibətin də fani sayılmasıdır. Bu, yoxluğun varlığa münasibəti kimi bir şeydir. Olmayanın, olmayacağın nəyisə (deyək ki, Allahı) var sayması, əbədi sayması heç bir anlam daşımır.

"Dünyanı Allah yaradıb" deməklə Allahın varlığı təsdiq olunmur. Çünkü "fani dünya" yaradanın əbədiliyi dərk olunmaz. Haçansa dünya, İnsanlıq olmayacaqsa onda Allah dünyaya, insana gərək deyil. Hələ ona aşiq olmaq heç gərək deyil.

***

İnsanlar həyata yaradıcı yanaşa bilməyəndə özlərini uydururlar. Bu uydurmalardan həyatı əyən yalanlar doğulur. Normal şərtlər sıradan çıxır, pis vərdişlər əmələ gəlir. Bu vərdişlərə dirəniş göstərilməyəndə həyatın ölçüsünə (ya da normasına) çevrilirlər. Sonradan sağlam düşüncələrin dəyişiklik eləmək istəməsi çətinliklərlə üz-üzə qalır. Artıq hər kəsin norma kimi yaşatdığı pis vərdişlər, yanlış olaraq, ölçü sayıldığı üçün onu aradan qaldırmağa çalışanları dəli sayırlar. Bunun doğru olmadığını deyənlərin (dəli sayılanların) mənəvi gücləri yetərli olmayanda onlar da hamılaşır, gedişə boyun əyirlər.

Özünün mənəvi gücünü yaradanlar isə hamını ötürlər. Böyüklük buradan əmələ gəlir. Dahilik də, aydınlıq da bu məsələlərdə doğrulur. Xalqa gərəkliyin qiyməti bu məsələdə təsdiq olunur.

***

Biz doğumla ölüm arasında yaratdıqlarımızı, ya da heç nə yaratmadığımızı öyrənməyə çalışsaq, həyatın bizim üçün nə demək olduğunu anlaya bilərik. Bu qısa arada, doğumla ölüm arasında varlığımızı nəyə bağlayırıq, nəyə təhvil veririk – əbədiyyətəmi, qorxunc, məchul boşluqlaramı?! İnsan nə düşünür, necə yaşayır – bu, onun qulluq elədiyi ideallara, ya da idealsızlıqlara görə bəlirlənir (formalaşır da deyə bilərik). Bir sözlə, böyüklərin dediyi kimi, insanın ömrü düşündüklərinə, yaşatdıqlarına bəzəyir.

***

İnsan doğumla ölüm arasında öz varlığını nəyə uyğunlaşdırmalıdırsa, böyük insanlar bunu bəlirləyirlər. Yaxşılığın ölçüsünü – onu dərk eləyənlər verə bilərlər. Bir çoxları bu həqiqəti danmağa çalışırlar. Həqiqəti dərk eləyəni küçümsəyib: "sən kimsən ki, topluma necə yaşamağın yolunu öyrədirsən" deyirlər. Bəziləri də "hər şey indiyə kimi deyilib, heç bir yeniliyə gərək yoxdur" deyib baxışları tərəqqidən yayındırırlar. Böyük insanlar isə tərəqqinin daim yenilənməsinin gərəkliyini dərk edirlər. Yenilənməyən biliklər, dəyərlər konservləşdirilmiş yeməklər kimidir. Əlacsızlıqdan qullanırlar. Yeniliyə yol açanlar həmişə əlacsızlığı ortadan qaldırırlar.

***

Çağdaş dövlət quruluşu (kapitalizm) insanların düşündükləri yaxşı şeylərin heç də yaxşı şeylər olmadığını sübutlamağa çalışır. Özünün həyata keçirdiyi pis şeylərin isə yaxşı şeylər olduğunu yeridir. Bu zaman o, zorakılığa əl atır, insanları acınacaqlı duruma soxur. Ancaq bu davranışlarını onların uğurlu gələcəklərinin olması üçün elədiyini aşılayır.

Dövlət yeridir ki, zor olmasa birgəyaşayışın nizamını qorumaq mümkün deyil. Deməli, insan heyvan kimi yaşamağa məhkumdur, onun öz insani kimliyinə qovuşması olumsuzdur. Bu gediş əslində ruhaniyyata qarşıdır. Başqa sözlə desək, dövlət ruhaniyyatı xalqın içinə buraxmır, zordan başqa yaşam həqiqətinin, nizamının olmadığını şüurlara yeridir...

***

Sufilər Tanrıya münasibəti dəyişmək istədilər, – bu istək axıra kimi özünü doğrultmadı. Çünkü dinin Allah obrazını (anlamını yox) bütünlüklə qırağa qoya bilmədilər.

***

Bir var reallığa hesablanan çağırışlar, bir də var ideala hesablanan çağırışlar. Birincidə insana yaşamaq üçün manevrlər öyrədilir,

ikincidə insan imtinalara, dirənişlərə çağrılır. Bütün siyasi partiyalar birinciyə özgündür, Asif Ata ikincini doğru bilir...

***

Yeni dünyabaxışda yeni olan nədir?! – Dünyanı əzəli, əbədi saymaq. İnsanı Mütləqilik ölçüsündə özgür görmək!

***

Şəxsiyyətlə bağlı sözü, necə gəldi, səpələmək olmaz. Ondan öyrənilәsi örnəkləri doğru bəlirləmək gərək. Öygüdə sözü yola vermək var. Məsələn, deyirlər, filankəs böyük insandır. Ancaq onun böyüklüyü nədədirsə, açılmır, aydınlıq gətirilmir. Şəxsiyyətin yaxınları deklorativ xarakterli sözlərə gərək duyurlar. Şəxsiyyət haqqında danışanlar da danışıqlarını buna hesablayırlar, – filankəs dahidir, böyükdür deməklə yalançı təsəlli verirlər.

Böyük şəxsiyyət öz çağında, demək olar, dəyərləndirilmir. Çünkü böyük şəxsiyyət toplumun yaşamında oturuşmuş, doğru kimi qəbul olunan, əslində əyri olan hər şeyə dirəniş göstərir. Heç kim şəxsiyyətin dirəndiklərinə dirənmək, öz "rahatlığını" pozmaq istəmir. Ona görə ya şəxsiyyəti danırlar, ya da ən yaxşı halda, onunla bağlı susurlar. Ya da şəxsiyyət haqqında danışanda ona başqa görkəm verib təhrif edirlər. Təhrif eləmək o vaxt olur ki, şəxsiyyəti danmaq, ya da onunla bağlı susmaq mümkünsüz olur. Bu hal ən çox qədim çağların şəxsiyyətləri ilə bağlı olur. Çağın şəxsiyyəti ilə bağlı iritutumlu danışıqlar gedirsə, onda danışanlar şəxsiyyəti dərk eləmirlər. Dərk olunanın hər halı olduğu kimi deyilməlidir. Ya da şəxsiyyətin səviyyəsi, onun haqqında deyilənlər qədərdirsə, onda o, zamanı aşan şəxsiyyət sayıla bilməz.

Yaxınlarda Akif Səmədin altmış illiyini keçirdilər. Məni də çağırdılar, qatıldım. Tribunaya çıxıb onunla bağlı danışanlar çox asan danışırdılar. Həm deyirdilər, Akif böyük insandır, həm də onların araq dostudur. Bunu deyənlər, bəlkə də bilmədən, Akifi kiçildirdilər. Ya da "Akif böyükdürsə, onlar da böyükdür" görüntüsü yaradırdılar. Axı Akif onlarla oturub, əylənib. Hər kəs Akiflə araq içdiyini dilə gətirirsə,

bu bir mesaj kimi də düşünülə bilər, – yəni Akifi öyüb çox da yüksəyə qaldırmayın, o, bizim birimizdir...

***

Hakimiyyətə gəlmək istəyən də, hakimiyyətdə qalmaq istəyən də görünən gerçəkliklərə başqa ad qoyur, başqa izahlar gətirirlər. Onların siyasət dedikləri də budur. Yəni yalançılıq, vicdansızlıq, ədalətsizlik, böhtançılıq, – yönətim (idarəçilik) ölçüləri sayılır. Siyasətdə qalib olmaq üçün ən pis keyfiyyətlərlə (keyfiyyətsizliklərlə) yaraqlanmağı doğru sayırlar. Siyasətdə gerçək, doğruçu yaşam yoxdur. Hər şey yalan, hər şey əyri, saxta. Dünyada elə normativlər qurublar ki, əxlaqlı adam hakimiyyətə gələ bilməz. Gəlsə də, ədalətli yönətim qura bilməz.

***

Tolstoyu lovğa, dikbaş, Tanrıya qarşı üsyankar adlandırırdılar. Kimlər idi onlar?! – Toplumun ən aşağı qatında duran mövhumatçılar, gerilikçi din xadimləri. Bu gün bizim toplumda da eyni hallar yaşanmaqdadır. Ağıllı, düşünər ideya insanları daim hədələnirlər, həqiqət işığını yandıranların əlini kəsməyə çalışırlar. Dövlətin başına bu şüurda, bu düşüncədə olan insanlar gəlirlər. İnsanlığı tanımayanların dövlətin başına gəlməsi – həyatı bütünlüklə qorxu altında saxlamaqdır. Toplum dövlətin başına gələnlərdən qorxur, mənəviyyat insanlarını eşitmir...

...Tolstoy bütün həqiqətləri öz ağlı ilə incələyir, ancaq bütün həqiqətlərin gerçəkləşəcəyini – xristian dininin tələblərinə düzgün əməl eləməkdə görür. Bununla belə, xristianlığı qaçılmaz bir yol saymır.

İllər öncə bir yazı yazmışdım: əgər Asif Ata Atatürkün dönəmində yaşamış olsaydı, Atatürk onun dünyabaxışını Türkiyədə (dövlət düzeyində) qəbul edərdi. Tolstoy haqqında da bu düşüncədəyəm. Əgər Tolstoy çağımızda yaşasaydı, Asif Atanın Mütləqə İnamını qəbul edərdi.

***

Həqiqət bir insanın, ya da bir qrupun mövqeyi ola bilməz. ("Bu da bir baxışdır" deyənlərə cavab).

Həqiqət – insanın yaratdığı bir məsələ deyil, öyrəndiyi, yetdiyidir.

***

Nadanlıq – öz səfil həyatını it kimi qoruyub həqiqəti çevrəsinə (həndəvərinə) buraxmamaqdır.

***

Ölüm – təkcə gözlərini biryolluq qapamaq deyil, (sağlığında) içindəki həyatı gərginləşdirib onu necə gəldi, yaşamaqdır.

***

Başqalarının hesabına varlanıb rahat yaşamağı xoşbəxtlik sayanlar – həyatı tanımadan ölümə gedənlərdir. Başqasının hesabına yaşanan xoşbəxtlik – günahkar “xoşbəxtlik”dir. Onu yalnız bədbəxtlər nuş edə bilir!

***

Adamlıq – eyni zamanda həm vicdanlı, həm də vicdansız olmaqdır. Onun bir gözü insana baxar, bir gözü heyvana.

***

Əraf – cənnətlə cəhənnəmin ortasına deyirlər. Adam həyatı boyu bu ortada dayanıb təpiyin sağdanmı, soldanmı gəlməsini gözləyir. Adam İnsanlaşmağa meyil edərsə ərafı içindən rədd edər. Ancaq din kamilliyi bu ortadan sağa dönməkdə görür. Yəni cənnətə düşməkdə, – yəni əxlaqsız, tüfeyli bir yaşam sürməkdə (bəlli kef, əyləncə vədləri).

***

Bernard Şon "Ürəkləri parçalayan ev" əsərində İngiltərənin yaşam tərzini bir evə yerləşdirə bilib.

***

Müsəlman özü ilə bağlı yalnız bir şeyi düşünür: Allahın qanunları dəyişiləcək, mənim yaramazlıqlarım unudulacaq. Ya da Allah, onu sevdiyimə inanıb məni bağışlayacaq, mənim xatirimə öz qanunlarını dəyişdirəcək (rəhmət eləyəcək)...

***

Müsəlmanlar elə hesab edirlər ki, cənnət onlar üçün düşünülüb. Allah da onların xeyirini götür-qoy edir. Bu şüur Qurandan gəlir. Allah Məhəmmədin həyatını, qadınları ilə ilişkilərini yoluna qoyursa, onun ümmətinin də həyatı üçün nələrisə hesablayır. (Quranda Məhəmmədin həyatı ilə bağlı bəlli ayələr vardır).

***

Adamlar, çoxluq olaraq, ciddi məsələlər haqqında düşünmürlər, ona görə də heç nəyə məna verə bilmirlər. Hər şeyə məişət düşüncəsiylə yanaşmaq gerilikdir. Bu cür adamların qonusu ancaq dedi-qodu, qeybət olur.

***

Yalan – insanın öz yanlışlarına bəhanə axtarmasından, bəraət verməsindən yaranır. İnsan yanlışlarını boynuna ala bilmədiyi üçün yalanlara yol açır. Özünü bir az aldatma başqalarını daha çox aldatmalara aparıb çıxarır.

Boynunaalma (etiraf) – toplumun dedi-qodusundan qorxmayanda doğrulur. Toplumun arınması (saflaşması), sağlamlaşması – bireyin (fərdin) özünə yanaşmasının (münasibətinin) doğruluğundan başlayır.

***

Bu gün insanlar yalnız mövcud olmağa çalışırlar. Ona görə insanlar arasında bioloji mübarizə gedir. Elə ona görə də hamı yenikdir (məğlubdur). Yenik insanlar içlərində çağdaşlıq "yeniliyi" daşıyırlar, ancaq heç kim keçmişindən içinə heç nə götürmür. Beləcə sabahla

keçmişin bağlılığı qırılıb aradan gedir. Keçmişsiz gələcək özülsüz bina kimidir.

***

Bizim tarixçilər tarixi faktları elə qorxa-qorxa deyirlər, bilmirsən bu tarixlə öyünəsən, yoxsa iyrənəsən. Məsələn, bizim mədəniyyətimizi işğal edən İslamın üstünə kölgə düşməsin deyə, tariximizi öyünc yeri kimi demirlər, bac verirlər. Bu, milli təpərsizlikdir. Onlardan soruşmaq gərək, – tariximiz örnək, öyünc yeri olmayacaqsa – özümüzün bu günümüzü qurmağa yaramayacaqsa, onu sadalamağın nə anlamı var?!

Antropoloq Kərəm Məmmədov dönüb, dönüb vurğu edir ki: "Novruz bayramını atəşpərəstliyə bağlamaq gülünclükdür. Harda görünüb ki, insan odu qutsal saysın, sonra da üstündən atlanıb ağırlığım, uğurluğum odda yansın desin". Başa düşmək gərəkdir, od çirk, ağırlıq götürmür, hər şeyi yandırıb kül edir. Onda gərək müsəlman deməsin ki: Allah, mənim azarımı, dərdimi məndən al. Yəni belə deyəndə doğrudanmı dərdini, azarını qutsal saydığı Allaha yükləmiş olur?!

Xızırdan gələn Buta ideyası niyə var?! Qoşa alov dili – sevənlərin ürəyinə işıq salmaq anlamı daşıyır. Çərşənbələrdə, Novruz bayramında qalanan tonqallar – bizim Oda, odun işıq anlamına tapınmağımızdan qaynaqlanmırmı?! Tonqalın üstündən ona görə atlanmırıq ki, odu təhqir edək. Od çirki yandırdığı üçün, ağırlığı yox elədiyi üçün qutsaldır. Oda tapınmağın başqa anlamı yoxdur. İnsan içindəki pislikləri götürmək, silmək üçün inandığı, güvəndiyi, qutsal saydığı bir qüdrətə üz tutar, aşağıladığı bir heçliyə yox.

İnsanı ağuşuna alıb çürüdən torpağı niyə öpürlər, niyə qutsal sayırlar?! Ya bizim odla bağlılığımız yoxdursa, niyə odun üstünə su töküb söndürməyi babalarımız günah sayıblar?! Niyə Oda, Ocağa and içirik?! Bütün bu sorular ciddi düşüncə, araşdırma tələb edir.

***

Göyel dinlərin təlimlərinə görə Allah insanın taleyini öncədən bəlirləmiş, qismətini yazmışdır. Ancaq hər kəs hər kəsi suçlayır ki,

nədən oğurluq edir, pis işlər görür. Əslində hər kəs hər kəsi qınayır ki, nədən Allahın yazdığı qisməti pozmursan?! Əgər bir adam oğurluğa uyubsa, demək qisməti belə yazılmış. Bəs niyə hər kəs oğrunun üstünə gedib suçlayır?! Deməli, əslində qismət yazanı, – Allahı suçlayır.

***

Biri var millətin xoşbəxtliyini istəyəsən, biri də var millətin xoşbəxtliyinə çalışasan. Millətin xoşbəxtliyinə çalışanda adamın öz xoşbəxtliyi zədə götürə bilər. Buna yalnız tarixdən üstün olanlar gedə bilirlər. Sıradan olanlar millətin yaxşı gününü istəyirlər, ancaq yaxşı günə yetməsi üçün əzaba qatlaşmırlar...

Millətin yaxşı gününə çalışmayıb sadəcə yaxşı gününü istəməklə Asif Atanın Ocaqçısıyam demək – özünü doğrultmaz.

***

Əgər mən Allaha inananda da, inanmayanda da zədələnəcəmsə, deməli, yanlış məndə deyil, Allahdadır.

Allaha inananda qüdrətli olmalıydım, olmuram. Allaha inanmayanda gücsüz olmalıydım, güclü oluram. Demək, həqiqət yerinə oturmayıb; demək, Allah doğru keyfiyyətlərlə qarşımıza gəlməyib.

***

Xristianlıqda etiraf (günahını boynuna alma) bir oyun etkisi bağışlayır. Kimsə kilsədəkilərin qarşısında günahını boynuna alır, onlar da onun günahını bağışlayırlar. Ancaq günah içdən silinmir, biri gedir, biri gəlir. Günahın içdən silinməsi üçün səbəb vermək gərəkdir. Günahkar kilsə ilə, kilsədəkilərlə üz-üzə qoyulur, özü ilə üz-üzə gətirilmir. Günahkar özündən qıraqdakı "böyük" qarşısında kiçik düşürülür. Başqasının "mərhəmət qəlibinə" salınır.

Günahın öldürülməsinin bir yolu var – Böyüklüyü içdə tanımaq, günahı içdəki böyüklüyün qarşısında sındırmaq.

Adam kilsədə günahını boynuna alanda, bağışlananda başqasının (bağışlayanın) böyüklüyü təsdiq olunur.

Ocaqda insan suçunu boynuna alanda öz içindəki böyüklüyü təsdiq edir (özüylədöyüş prosesi başladığına görə). Yəni Ocaqda – günah bağışlanmır, döyülür.

Məncə, Tolstoyun etirafları xristian tələblərinə uyğun deyildi, Ocağın dediklərinə doğma idi.

***

Ölümün yolunu gedənlərə həyatın yolunu göstərmək gərəkdir. Bunun üçün həyatı Mənaca tanımaq, qurmaq gərəkir.

***

Romantika – ən çox sevgi ilə bağlı yaranır. Sevən, vurulan gənclərin xəyalları kövrək, bakirə olduğundan gözləri hara baxırsa, oradan sehirlənirlər. Doğada hər şey – çay, ağac, bulud, tala, çiçəklər... mənalanır, insanilәşir. Onlarla sevginin dili ilə danışırlar. Şairlər, yazıçılar əsərlərində bu halları canlandırmağa, duyğu yaratmağa çalışırlar. Gənc oxucular romantik duyğularının canlı təsvirini belə əsərlərdə oxuduqca həyatın anlamına daha yaxın olurlar. Yaşlı oxucular isə gənclik xatirələrinin oyanması ilə həyatı yenidən anlamağa çalışırlar.

***

İnsan hər şeyi hər zaman diqqətdə saxlaya bilməz. Deyək ki, o nəfəs aldığını, bununla yaşadığını unudur. Heç bununla özəl olaraq ilgilənmir də. Dünyanın Mənalı olduğunu belə, hər an düşünə bilməz. Yəni o, can rahatlığına, sevinməyə, bir an da olsa qayğısız olmağa gərəklik duyur. Belə olanda başqasını görmür, düşünmür, nəzərə almır. Yanlışlar da belə hallarda doğulur. Bəlkə bir-birinə güzəştli olmaq, nələrisə gözə almaq elə bunun üçün gərəkdir, bəlkə mərhəmətli olmaq – bunları dərk eləmək anlamı daşıyır (kamilləşmə yoluna başlamaq şərti ilə)...

***

ABD dünyaya ağalıq etmək gücünü itirməyə başladığı üçün bəşəriyyəti qorxunc xəstəliklər törədən viruslarla hədələməyə girişib.

ABD-nin kürəsəlləşmə ideyasına qarşı başqa güclərin dirəniş göstərmələri baş verdikcə, ən iyrənc vasitələrlə susmağa zorlanırlar. ABD açıq savaşlar apara bilmir, çünkü iqtisadi baxımdan çökə bilər, öz ağalığını qoruyub saxlaya bilməz. Dünya üzərində ağalığını itirsə, borclarını (dış dövlətlərə borcları milyardlarladır) ödəmək zorunda buraxılar. Bu isə ABD-nin bir dövlət kimi varlığını sonlandıra bilər. Bu gün dünyada gedən oyunlar bunu deməyə əsas verir. Bununla belə, inamla demək olar, ABD-nin çöküşü başlayıb, bu davam edəcək.

***

İnamın olmadığı yerdə dinlə ateizm bir-biriylə dartışır. Hər ikisi yaşamaq uğrunda bir-birini sıradan çıxarmağa çalışır.

İnamın varlığı – onların hər ikisinin yoxluğu deməkdir. Əsillik qeyri-əsilliyi yox edə bilir, ancaq qeyri-əsillik əsilliyi yox edə bilmir. Ən pis halda gizləyə bilər.

Xeyir dartışmalarda tərəf olmur, dartışmaların ləğvi üzərində yaşama gəlir.

***

Biri var, planetin özündə etkilər, biri də var, qıraqdan etkilər. Qıraqdan etki olmasa planet çökməz. Söz yox, planetin özündə gedən proseslər də qıraq etkilər hazırlayır, ancaq gec. Can-bədən də belədir. Özündə proses doğal qocalmaya aparır, qıraqdan etkilər xəstələndirib ölümü sürətləndirməyə.

Gözə alınmalı bir məsələ də var, – şüuru yerində olmayan insan özünə xəsarət yetirə bilir, – intihar-filan. Planetə qəsd edənlər də həmin şüurun insanlarıdır. Planetə özündən – içindən zərbələr vururlar.

Bununla belə, sivilizasiyanın məhvi 3-5 illik proses deyil, yüzillər, minillər çəkir...

***

Çox vaxt böyük toplumlarda adamlar tənha görünürlər. Çünkü onların qonuları bir-birini çəkmir. Başqa sözlə, heç kim o birisinə gərək olan sözü deyə bilmir. Bioloji qonular yorucu olur.

***

"Yaşamağın sonucu ölümdürsə, dəyərli düşüncələr, dəyərli işlər nəyə gərəkdir" deyə düşünənlər az deyil. Əslində ölüm mövcud olduğu üçün insan həqiqi yaşamaq haqqında düşünməlidir. İnsan üçün dəyərli düşüncələrin, dəyərli əməllərin özü elə yaşamaqdır. Yaşamağın başqa çalarları olsa da, başqa anlamı yoxdur.

***

Bir insanı, dumanlı şəkildə olsa da, xəyalına gətirib canlandıra bilirsənsə, demək ki, o, yaşayır.

***

Nə tənzimatçılar, nə də "yeni osmanlılar" millət adını tutmurdular. Hətta "gənc türklər" adını "yeni osmanlılar"a avropalılar qoymuşdular. Onlar özlərini "gənc türklər" adlandırmırdılar ki, bütünlükdə Osmanlı toplumlarının diqqətini çəksinlər. Avropa isə onlara, Osmanlının zərərinə, "gənc türklər" deyirdilər.

***

Tarixdə ən dağınıq (bərbad) dil Osmanlı dili olmuşdur. Ona görə ideoloji türkçülərin devizlərindən biri "dildə türkçülük" idi.

***

Keçmişin yanlışlarını mühakimə etməsən, gələcəklə bağlı konseptual baxış, düşüncə formalaşdırmaq mümkün deyil.

***

Gürcülər yeni tarix quraşdırırlar. Deyirlər azərbaycanlıları Şah Abbas 18-ci yüzildə indi yaşadıqları bölgələrə yerləşdiribdir. Əgər belə olsaydı, məntiqlə bizim yerləşdiyimiz bölgələrdə yer adları –

bütün toponimlər gürcü dilində olmalı idi. Belə çıxır ki, biz orda olmaya-olmaya toponimlərimiz, bizdən min illər öncə, mövcud olubmuş. Bu ermənisayaq məntiqsizliklərini ört-basdır eləmək üçün kəndlərimizin, bölgələrimizin adını dəyişib gürcücə qoydular. Yəqin ki, bu əməllərini davam edəcəklər. Öncə Başkeçiddən, Bolusdan başladılar. Hələlik Borçalının (Marneulinin) kəndlərinə toxunmadılar. Daha aktiv olduqları üçün, eyni halda Azərbaycanın gömrük keçid məntəqəsi ilə birbaşa sınırı olduğuna görə addəyişmə əməliyyatını bu bölgəmizdə ertələdilər. Ancaq görünən odur ki, bu əməllərini davam etdirəcəklər. İndiki davranışları da bunu deməyə əsas verir.

***

Gürcüstanda Borçalıların durumuna sosial sorunlar açısından yanaşmaq olduqca yanlışdır. Sosial sorunlar yox deyil, ancaq bu sorunların qabardılması milli sorunların pərdəsi rolunu oynayır. Sosial sorunların qabardılıb ön plana çıxarılması başqatmadır. Genel olaraq, epizodik mübarizə, lokal davranışlar aldadıcı olur. Toponimlərimizin dəyişdirilməsi, tariximizin saxtalaşdırılması, etnik varlığımıza qarşı böhtanlar sərgiləyib aşağılayıcı çabalar göstərilməsi dövlət siyasətinin tərkib hissəsi kimi görünür. Sovetlər dönəmində də, onun dağıdılmasından sonra da bu münasibətlər fərqli biçimlərdə özünü göstərmişdir.

***

Məhəmməd ruhani mübarizə aparmırdı, hərbi-siyasi mübarizə aparırdı. Mübarizəsinin sonucu bəlli – Xilafət yaratdı. Bu, imperiya idi. Məhəmmədin dini imperiyanın ideolojisinə çevrildi. Deyə bilərlər, o dövrkü tarixi ortam bunu tələb edirdi. Biz bu sözə qarşı çıxmırıq. Ancaq deyirik, dövrün tələblərini gerçəkləşdirmək siyasət idi, ruhaniyyat deyildi. Siyasətdə qutsallıq olmur, çünkü siyasətdə çıxarlara görə davranışlar, oyunlar olur. Çıxarlar, gərəkəndə qanlı savaşlar, qırğınlar tələb edir. Yəni zor işləyir. Zor olan yerdə həqiqət bilinmir, dərk olunmur. Sözdə İnsanlıq deyilir, əməldə qorxu böyüyür. Bu gün Batı güclərinin məzmununu dəyişmələrindən, terror şəbəkələri yaratmalarından gileylənən dindarlar bilməlidirlər,

onlara səbəbi din özü verir. Nə üçün xristianlardan deyil, müsəlmanlardan terror şəbəkələri yarada bilirlər?! Çünkü xristianlıqda deyilir: "bir üzünə vuranda o birini çevir". Bu deyilişin nə dərəcədə gərəkli, gərəksiz olduğu ayrı bir qonudur. Ancaq görünən odur ki, burada radikal çağırışlara səbəb yoxdur. İslamda isə yetərincədir. Cihada çağırış, dini qorumaq adı altında savaşlar aparmağın gərəkliyi İslamın tarixində, başlıcası, mahiyyətində var. Ona görə cahil müsəlmanlardan terror şəbəkələri yaratmaq asanlıqla başa gələ bilir.

***

Azərbaycan tarixçiləri tarixi olmayan bir Quruluşun, mücərrəd bir xalqın – "Sovet xalqı"nın tarixini yazıblar, Azərbaycanın tarixini yazmayıblar. Ya da tariximiz başı-ayağı bilinməyən bir şəklə salınıb. Məsələn, Midiyanın tarixini oxuyanda Azərbaycanla bağlılığı bilinmir. Arranın, Albanların tarixi də beləcə. Bunlar bir-biri ilə bağlı olaraq bütöv bir xalqın keçmişi kimi dərk olunmur. Şəxsiyyətlərimizin kimliyi, mübarizələrinin xarakteri də dərk olunmur...

***

Əgər biz xoşbəxtliyə yetmişiksə, bu, bizim heç vaxt kədərlənməyəcəyimiz anlamına gəlməz. Bizə görə xoşbəxtlik ötəri olaylardan asılı deyil, ömürdə qalanmış əbədi, sönməz həqiqət ocağından qaynaqlanan bir məsələdir. Əgər hər addımda baş verən qırağaçıxmalar (kədərlər, qayğılar) xoşbəxtliyin üstündən xətt çəkə bilərsə, onda onu heç xoşbəxtlik adlandırmaq doğru deyil. Bizə görə xoşbəxtlik – özünü dərk etməkdir. Özünü dərk edən insan yaşamına bədbəxtlik çağırmaz, – onun yaşamına qıraqdan zorla bədbəxtlik gətirilsə belə...

***

Nəsimi özünə qədərki rəvayətlərə, dastanlara, miflərə – onlardakı obrazlara poeziyasında yeni məna verir. Məsələn, xristian ehkamçıları İsanın (nəfəsi ilə) ölü diriltməsini yayırdılar (təbliğ edirdilər). Nəsimi belə yanaşmaları hərfi anlamda qəbul edənlərə örnək olaraq, sevgilinin nəfəsini sarsılmış aşiqi hala gətirən anlamlarla obrazlaşdırıb sunur...

Nəsimini oxuduqca aşiqlik dünyasına girirsən. Bu dünyada hər şey əbədidir, fanilik yoxdur. Hər şey Məna tələbiylə oluşur.

Quranı oxuduqca qaranlıq qorxu dünyasızlığına girirsən. Burada hər şey yalan üzərində oluşur. Heç bir əbədi sevinc görünmür. Əbədilik adına isə hər şey saxtadır (cənnət sevinci)...

***

Pisliyi, fəlakəti təsvir eləmək yaxşılığı, xoşbəxtliyi təsvir eləmək-dən daha asandır. Çünkü çoxluğun təsəvvürü, həyat tərzi pisliyə, fəlakətə daha yaxındır. Pisliyi təsvir eləmək üçün adi gözün, adi ağlın imkanları bəs edir. Ancaq fəzilətləri adi göz görə, adi ağıl deyə bilmir. Pisliklər adi sözə sığır, fəzilətlər sığmır. Fəzilətləri ali sözlə tanıtmaq olur. Bunun üçün yüksək sözü ömürə çağırmaq gərəkdir.

Bununla belə, bəzən fəzilətlərə doğma yaşayanlar da, onu sözlə ifadə eləməyə çətinlik çəkirlər. Demək fəzilətə doğma olmaq azdır, onu yaşamaq, yaşadığını da doğrulamaq gərəkdir.

***

Namaz qılmağı Allahın qarşısında qürurunu sındırmaq kimi yozurlar. Özü də üzü Ərəbistana doğru dayanıb əyilirlər. Bu, Allahın Ərəbistanda olduğu, ya da Ərəbistanın Allahın qarşısı olduğu anlamına gəlir. Türk insanı Allahını Ərəbistanda axtarır. Ərəbistan kimi qarışıq-dolaşıq, pozuntulara uğramış bir ünvanı qutsal saymaqla öz varlığını, vətənini unudur...

***

Sovetlər dağılandan sonra, onun basqısı altında olan türk toplumları Batı demokratiyasına üz tutdular. Bunun qarşısında Ərdoğanın Türkiyəni islamlaşdırması bir ara özünə qayıdış etkisi bağışladı.

Ərdoğan üsulu dəyişməklə Türkiyənin qəhrəmanı olmağa çalışdı. Əslində Ərdoğan özünəyadlaşmanın üsulunu dəyişmişdi. Sənin varlığını dananı qəhrəman saymaq cəhalətin axırıncı aşamasıdır.

***

Bəzən adamlar vicdanlı olmaqla qəhrəman olmağı qarışdırırlar. Qəhrəmanlıq – başqası üçün özündən keçməkdir, vicdanlı olmaq – başqalarının haqqını tanımaq. Qəhrəman başqası üçün fədakarlıq edəndə onun haqlı, haqsız olduğunu araşdırmır, özünün insani ləyaqətini ortaya qoyur.

***

Yaxşıların yanında olmaq adi normadır, pislərin də qayğısına qalmaq fədakarlıqdır. Əsil insan yaxşını sevir, pisə qarşı da mərhəmətli olmalıdır ki, onun pislikdən qurtarmasına yardımçı olsun. (Xristianlığın mahiyyətində bu var, doğru sayıram).

***

Təbriz – Azərbaycanlaşmanın ideoloji yeri (məkanı), dayaq nöqtəsi kimi dərk olunmalıdır. Təbriz həm Hürufiliyin, həm Hürrəmilliyin, Tanrçılığın yaşadıldığı tarixi yer olduğu üçün yenidən güvənc qaynağı ola bilər. Millətləşmə üçün ideoloji şüur mərkəzi gərəkdir. Bu gün Bakı belə bir mərkəz rolu oynaya bilmir. Çünkü bütün (Quzey) Azərbaycan doğru mərkəz deyil. Eyni halda, Bakı türkdən çox fars ruhludur. Ancaq Təbriz, fars rejiminin əsarətində olsa da, daha çox türk ruhludur. Ona görə Təbriz ideoloji birləşdirmə mərkəzi ola bilər.

Biz Bakını sonrakı aşamalarda ruhsal yön (qiblə) kimi görürük. Ocağın mərkəzi olduğuna görə...

***

İnsan idrakı informasiyaları aldıqdan sonra onu olduğu kimi saxlamır, dəyişdirir, təhlil edir, mənasına varmağa çalışır. İdrak dinamik olduğuna görə gəlişmənin hərəkətverici qüvvəsidir. Yetər ki, aldığı bilgilər mənəvi potensiyadan qaynaqlansın.

***

Midiyanın devrilməsindən sonra fars işğalı uzun yüzillər etkisini saxlamışdır. Azərbaycanın mədəniyyət dilinin yaranması dövlət səviyyəsində əngəllənmişdir. Ədəbiyyatda, poeziyada fars dilinin

etkisi uzun sürdüyünə görə, türklər dövlətin başına keçəndən sonra belə, fars dilinin etkisi tam ortadan qalxmamışdır.

***

Asif Atanın "özüylədöyüş"ünü sufilərin saflaşma əməlindən fərqləndirən hədəfidir, üsuludur. Sufilərdə qida-həzz məsələsi, Allah üçün düşünülmüş addımlar əsas götürülür. Atada qida-həzz qonu deyil, bəsit duyğuların əməlsiz qoyulması gərəkir. Bu da münasibətlərdə üzə çıxır, deyilir.

***

Hakimiyyətin dilənçisi xalqın aydını sayılır. Hakimiyyətdən ödül, rütbə, ad dilənənlərə sayğı bəslənildikcə xalq kiçilir.

***

Xürrəmilik – Doğasevərliklə İnsansevərliyin birləşməsi idi. Azadlıq olmayan yerdə həyat zindandır. İnsan dünyaya Azadlıq üçün gəlir. O, içindən azad yaşayanda fərəhli olur. Ona görə döyüşəndə fərəhli olur, qorxa-qorxa döyüşmür, çünkü Azadlığını qoruyur. Azadlığı uğrunda öləndə də fərəhini itirmir. Çünkü Azadlığı dərk etdiyi üçün döyüşüb ölür.

Babək içində Şirvin gəzdirirdi, ona görə əyilmirdi. Şirvin onun vüqarını yenilməkdən qoruyurdu. Şirvinlik – düz olmaq, düz yaşamaq, – düzgünlük simgəsi idi. Babəkdə (vəhdəti-vücud) Varlığın Birliyi fəlsəfəsinin anlamı açılırdı. Doğa insana əyilməyən vüqar verib. Doğanın verdiyi ilə içindəki Şirvin birləşirdi – qüdrəti birə beş artırdı. Ona görə lailahəilləllah deyə bağıranları döyüşdə sarsıdırdı, dəhşətə gətirirdi. Allahı içində görənlər Allahı başının üstündə görənlərdən qat-qat qüdrətli idilər.

***

İnsan üçün Mütləq (Allah anlamı) – imkanda olan həqiqətdir, ədalətdir, xeyirdir. İnsan Mütləqə doğmalaşır, yəni həqiqətə, ədalətə, xeyirə doğmalaşır. Onunla yaşayır, onu yaşadır, – var olur.

***

Dastanlarımız – böyük gələnəklərimizin folklor şəklinə düşməsidir.

***

Mənəviyyata – elmi əsası yoxdur demək naşılıqdır.

Ruhaniyyat – körpəni sevə-sevə böyütməkdir. İnsana vicdanla, ədalətlə yanaşmaqdır. Doğanın dəyərini bilməkdir. Dəyərləri qoruyub yaşatmaqdır.

***

Asif Atanı bilgi kimi bilmək azdır, onun ideyalarının anlamına yetmək, ömrə gətirmək gərəkdir.

***

Sovetlərdə bir qayda vardı: çoxuşaqlı analara medal verirdilər. Kapitalizmdə də "uşaqpulu" deyilən bir ödülləndirmə var. Harda yoxdursa, bunun olmasını umurlar. Əslində bu cür əməllər eybəcərlikdir – Analığı satın almaqdır, ailəni asılı duruma salmaqdır. İnsanlığı alçaltmaqla hakimiyyəti hər şeyin yiyəsi, ağası saymaqdır. İnsanlığın boynuna minnət qoymaqdır.

Doğanın maddi nemətlərini mənimsəyib talayanlar ölkənin insanlarına dilənçi payı verirlər. Hər kəs əməyi, zəhməti ilə özünü, ailəsini dolandırmağa qadir olduğu halda, gözü hakimiyyətdəkilərin əlinə baxmalı, onlardan dolanışıq diləməli, dilənməli deyil. Ölkənin insanları öncə haqq etdiyi maddi sərvətlərə həsrət qoyulur, sonra talançılara minnətdar olmağa zorlanılırlar. Bunun adına da humanizm deyirlər.

***

Quruluş insana ruhani varlıq kimi baxmır. Ən yaxşı halda sosial varlıq kimi baxır. Ona görə də insanı anlamaq istəyən yoxdur. İnsan yalqız qalıb.

***

İran ruhaniyatı bərabərdir zor:
Əsarətdən ruhaniyyat düzəldir.
Ağalıqdan mənəviyyat düzəldir.

İnsanı öldürür ki, "ruhaniyyatı" diriltsin. Dünyada ən eybəcər siyasət İranın siyasətidir. Çünkü siyasətini ruhaniyyat libasında sürdürür.

***

Şüurun materiyaya münasibəti, yəni, "materiyanı Allahın yaratması", ya da "materiyanın özündə mövcud olması" kimi baxışlar insana münasibəti azdırır. Dünya heç vaxt, onu əsilliyə çatdıracaq düşüncə ilə üzləşməyib. Asif Ata düşüncə tarixində çox böyük inqilabdır.

***

Millətçilik – uğurlu, ərdəmli bir yükdür – millət sevgisinin təsdiqidir. İmperializm millətçiliyi gözdən salmaq üçün onu "qatı millətçilik", "radikal millətçilik" epitetləri ilə adlandırır. Millətçiliyin qatısı, durusu yoxdur. Varsa, mən qatı millətçiyəm, çünkü bəşərsevərəm. Yalnız bəşərsevər həqiqi millətçi ola bilər. Çünkü Bəşər – millətlərin özünəxaslıqlarının Birliyi deməkdir.

***

Bir var uyum (harmoniya), bir var qanunauyğunluq. Uyum – Dünyanın nizamıdır – yaranış, doğuluş (yəni qarşısıalınmaz sürəc). Qanunauyğunluq – Doğanın gerçəklikdəki, yaşamdakı nizamıdır. Uyum dəyişilmir, qanunauyğunluq dəyişilir, hətta pozulur. Təsadüflər – qanunauyğunluqların pozulmasıdır. Məsələn, insanın anadan doğulması – genel anlamda pozulmazdır, yəni doğuluş mütləqdir. Biri də var hansısa insanın anadan doğularkən ölməsi, kor, lal doğulması, yaşlanmamış ölməsi... Təsadüflərin olması alın yazısı ideyasının rədd olunması deməkdir. Alın yazısına inanılsaydı, gərək onda heç vaxt qanunauyğunluq pozulmayaydı. Yəni Məna sonsuzdur, Mənanın olaylarda özünü göstərməsi, ifadə olunması da

sonsuzdur. Yəni varlıq qəlibə sığmır, başqa sözlə, insanın varlığı "Alın yazısı"na sığmır.

***

Toplumsal, texnoloji gəlişmələri ən böyük uğur sayırlar. Ancaq quldurluq, oğurluq, canillik, narkomaniya dünyanı bürüyüb. Ən böyük mafiya Avropanın ağzının içindədir.

Kişilər genini dəyişdirir, homoseksualizm göz çıxarır. Dünyanı qatıb-qarışdırırlar, ölkələri sömürürlər, yağmalayırlar. Özlərinə terror şəbəkələri düzəldib silahlandırırlar. Doğunu İslama bərabər saxlayırlar. İslamdan terrorçu fanatiklər düzəldirlər. Dünyaya demokratiya daşıyırlar. Daşıdıqları demokratiyanın içində əxlaqsızlıqlar, özbaşınalıqlar, ailəsizliklər axır ölkələrə. Sonra da deyirlər, demokratiya uzun yoldur, tezliklə alınmaz. Bəzən də deyirlər, demokratiyanı vermək istədiyimiz ölkələr geridəqalmış ölkələrdir, onlarda demokratiya özünü doğrultmur. Əslində bəşəriyyətə qarşı fitnəkarlıqla uğraşırlar.

***

Bəşərin yaşaması üçün ruhani ölçü uğrunda döyüşürük.

***

Səndən qıraqdakı dedi-qodunu düşüncəyə yaxın buraxma. Beyin adiləşsə ürək sarsılar.

Yol yoxuş, mənzil uzaq,– hər gedişdə hürüşlər artacaq!

***

Qalibiyyətə başladığımız savaş sonucunda işğal olunduq (Rusiya işğalı). Bu şüurla, bu gedişlə, bu iqtidarla milli dövlət qurmağımız olumsuzdur.

***

9 Yağış Ayı, Azərbaycanın bağlaşma bəlgəsinə qol atması – işğalçılıq tariximizin yeni dönəmi!

Atasının xalqa qazdığı quyuları oğlu bir az da dərinləşdirdi.

***

Son 30 ildə Rusiya Azərbaycanda bu qədər güclü olmamışdı. Türkiyə regiona gəldi, bu uğur Rusiyanın hərbi baxımdan Azərbaycana gəlişi qarşısında çox balacadır.

***

### *Kədərin içsözü*

Qarabağda baş verənlərlə bağlı düşüncələr içində iş yerimə doğru gedirdim. On dəqiqəlik yolum var idi. Axşam idi. Telefonu çıxarıb eloğlum Doxdur İsaya zəng elədim. Səsi yaxşı gəlmədi. Deyəsən azarlamısan deyə soruşdum (elə bildim soyuq dəyib). Hə dedi. "Bir gün gələn bir gün gedər, siz sağ olun" deməsindən sonra durumunun ciddi olduğunu anladım. Çox kədərləndim... Bayaqdan Qarabağ ağrılarıma qulaq asırdım içimdə...

***

İşığa düyün vurmaq istəyi – məkrdir, yer üzünü bürüyər, ancaq işığı ortadan qaldıra bilməz. İşıqla gizlənqaç oynayan nə işığı tanıyar, nə özünü. İşıq oyun bilməz, oyun qaranlıqda alınar. İşıqda hər şey aydın, gerçək, doğruçu – bir sözlə, olduğu kimidir. İşıq insanı oyuna yox, olmalıya yönəldər.

***

Qəlbin çox titrəyir, həyəcan bürüyür. Duyğularını tanıya bilmirsən – doğrudurmu, saxtadırmı deyə çaşqınlıqlar selinə düşürsən. Çünkü o anda duyğularına toplumun gözüylə baxırsan. Bir an öncəyə kimi öz gözünlə baxırdın, hər şey yüksək idi, – odlu, alovlu, atəşin, şövqlü – qutsal. Bir an toplumun gözüylə dönüb baxdın, zədələdin alovlu duyğularını. İndi o zədələrin ağrısını yaşayırsan.

Özünə öz gözünlə bax, sevginə həqiqətin gözüylə bax. O səni işıqlı gələcəyə götürəcək.

***

Ruhani ünsiyyət – zəngin, ruhani simgələrlə işlənmiş Məbədə girmək kimi bir məsələdir.

***

İllər öncə Sabir Yanardağ tez-tez belə bir ifadə işlədirdi: "Asifin (Atanın) tez ölməyə haqqı yox idi". Bu söz sayğı ilə deyilsə də, ölümü yaradan səbəblər başqa yerdə axtarılırdı. Böyük əzab yolu sanki gözardı edilirdi.

...Dünyanın dediyini demədi, özündən razı adlandırıldı. Bütün dahilər heç bir normaya, qəlibə uyğun gəlmədikləri üçün qınanılıb. Əslində isə dahilərin öz normativləri olub.

***

Məcnunluq – Mütləqdən gələn ilahi nemətdir. Bu neməti bulan, Leylidən Məcnunluq görməyəndə belə, Məcnunluğundan dönməz. Çünkü Leylilikdə Məcnunluğu yaşadan başlanğıc var. (Ata deyir: Məcnun Leylidə Mütləqə vurulmuşdu).

***

Könülə həyat verən sevgidir. Onun qaynağı isə könüldəki həyatdan daha böyükdür. Bu qaynaq Sevgini könüldə doğar, Sevgi könülü yaşadar.

***

Müridlik – könül ucalığını görəndə başlayır. Ucalığı tanıyan Ucalıqda yaşayar. Ucalıq – bütün hikmətlərin bilik məkanıdır.

***

Həyata küsənən özü olmaqdan qorxar. Ona görə üzündə daim maska gəzdirər. Bu maskanın boyaları çox olar. Hər boya bir heyvan xassəsini nişan verər.

***

Osmanlının öncəki hökmdarları islamı himayə edirdilər, ona görə gücləri sıradan çıxmırdı. Sonrakılar islamla himayə olundular, – ərəbçiliyin ən pis qaydalarını saraylara daşıdılar, heç oldular. O boyda səltənətdən heç nə qalmadı.

***

Səməd Vurğunu böyüdənlər Azərbaycanı kiçildirlər. Nəsimini kiçildənlər Azərbaycanı kiçildirlər. Azərbaycanın böyüməsi üçün hər kəsi yerində tutmaq, göstərmək gərəkdir.

***

Çağdaş politoloqlar siyasi olayları elə araşdırırlar, Azərbaycanın zəlil iqtidarı daha da güclənir. İqtidar gücləndikcə Azərbaycan gücsüzləşir. Rusiya Azərbaycanı Azərbaycan iqtidarı adlanan kəndirlə boğur.

Azərbaycanın indiki iqtidarı – onun (Azərbaycanın) daim boğula bilmək potensiyasıdır.

***

Çağdaş Türkçülər Türklükdən bağırdıqca yekə görünürlər. Türklük isə yoxa çıxır.

***

Varidatdan, şöhrətdən, ödüldən, həşirdən dünya yaradırlar. Ölən kimi dünyaları uçur. Uçan, uçurulan dünya yaradırlar. Ömrü buna ayırırlar, – ömürdən heç nə qalmır.

***

Azərbaycanı ya artist tanıdır, ya idmançı. Bəs görəsən artistin, idmançının tanıtdığı Azərbaycan nə deməkdir?! Məharətli artisti, qoçaq idmançısı olan Azərbaycan hansı dəyərlərin yaradıcısıdır?! Dəyərləri hanı, – bunları kim tanıtmalıdır?!

***

Vətəndən qaçıb vətəni sevməkdən danışırlar. İndi vətən ancaq qürbətdə sevilirmiş. Vətəni sevmək – onun ağır gününə ortaq olmaq deməkdir axı.

***

Eqoizm – həyalı olmaqdan utanmaq!

***

Safruhda (Elman Ağaoğlu) şübhə mütləqləşirdi. Yəni şərləşirdi. Şübhə mütləqləşəndə şərə çevrilir. Şübhənin mütləqləşməsi heç bir yaxşı şey görməməkdir. Onun inamı qorxaq inamdır, yəni qorxa-qorxa inanır. Əslində inanmır. İnamsızlıqdan əziyyət çəkir. Əziyyət onu kiçildir. Böyük olmaq istədi (ağlına, düşüncəsinə görə ola da bilərdi), ancaq inamsızlıq şəri ilə dolan böyük ola bilməz. Özündən şəri qovacaq qədər böyük ola bilmədi. Özündə şəri qoruyacaq qədər kiçik qaldı. Şübhəsində doğruluq olanda belə, müdrikləşmədi, şərləşdi. Doğrunu bilə-bilə şərləşdi, doğrulacaq qədər özündə güc tapa bilmədi. Yazıqlığından yalqızlıq törədi (onun yalqızlığı böyüklüyündən deyil, şübhəçi şərçiliyindən yarandı). Özünü böyüdə bilmədiyi üçün heç kimi böyüdə bilmədi. Heç kimlə axıra qədər doğmalaşa bilmədi, çünkü heç kimə inanmadı. Özünə belə, axıra qədər inanmadı. Yoluna, Yolbaşına belə, axıra qədər inanmadı.

İnamsızlıq Yadlıq yaratdı.

***

İnqilab yatıb-yatıb birdən ayılmaqdır. Ayılanda elə ayılır ki, hər şeyi vurub dağıdır. Elə dağıdır, yenisini quranda daha betər yuxuya verir.

***

Bədən – Doğanın öldürəcəyi mövcudluqdur. Doğa bədəni öldürənə qədər yaşamaq gərəkdir. İnsan ölümünü özündə gəzdirdiyi üçün varlığını yarada bilmir. Yəni ölümlünü (bədənini) əbədi yaşatmağı düşüncəsinə yük edir (cənnətdə əbədi qalmaq istəyi). Əslində isə Mənanı düşüncəsinə yükləsəydi, ölümsüzlüyə qovuşardı.

***

Dövlət sevilmir, çünkü (dövlət) onu sevən insanı yetirmir.

***

Sosializm inqilabı fəhləni xilaskara çevirdi, – fəhlə özü xilas olmadı. İnqilab – xilaskar deyil, xilaskarı özünə xərcləyəndir.

***

Tənqid eləyəndə belə yalmanır.

***

Həyat – ev, dölartırma, işləmək, dişləmək. Ömür bunun üçün yetərlidir.

Amal – İlahi duyğuların aşkarlanması, ömrün həqiqət yoluna düşməsi, özünütapmanın ilahi (ruhsal) sevincini yaşamaq.

Ömür bunun üçün çox azdır. Ona görə ömürə qarşı israfçılıq eləmək olmaz.

***

Bu gün dünyada eybəcərlik qüvvətlidir. Ona görə hamı eybəcərləşməyə can atır. Maddi-texniki gəlişməni Allaha çevirib ona boyun əyənlər dinin göydəki Allahına istehza edirlər.

İnsanlıq aradan getdiyi üçün yerdəki Allah göydəki Allaha üstün gəldi. Allah insanların qüdrətində olsaydı, yenilməzdi.

***

İnqilab – süni ehtiraslar, süni qoçaqlıqlar, süni azadlıqlar, süni birlik – süni dəyişiklik. İnqilabda təbii heç nə yoxdur, təbii olanları süniləşdirmək var.

***

Dövləti siyasətin sirkinə döndəriblər. Burada insanlara yaltaqlıq, satqınlıq, xəyanət, qorxaqlıq rolu verilir, öyrədilir, oynadılır.

Sirklərdə ayıya Adamlıq – adam kimi davranmaq öyrədirlər. Sirkləşdirilmiş dövlətdə isə adama heyvanlıq – heyvan kimi davranmaq öyrədirlər.

Toplum hər şeyin yerini dəyişir, qıraqdan isə gəlişən kimi görünür.

***

Bilimi gəlişdirirlər ki, adamı maddiyyatçılıq tələsinə salsınlar. Adam maddiyyatçılıq tələsindən qurtarsaydı, bilimi öz yerinə, öz işi ilə uğraşmağa yönləndirərdi. Adam İnsanlaşmadığı üçün heç nə öz anlamına uyğun yerdə deyil.

***

Xalqa başçı seçirlər, o da hamını ayağa salır. Bəs ayağa çevrilən xalqa başçılıq nə deməkdir?! – Onun adı başçı deyil, ayaqçı olmalıydı. Başçı başlara öndər seçilənə deyilər.

***

Çağdaş aydın yaşaya bilmir, eşələnir, qurdalanır. Yaşamaq üçün insani baxışı, yaradıcılığı olmalıydı. Maddiyyat üçün, ödül üçün eşələnir, eşələndirilir. Balaca sevinclərdən məst olur, gözü qıpıq qalır.

***

Toplumun səviyyəsinə doğmalaşmaq dustaq evinə düşmək kimidir. Yalan üstə yaşayan topluma doğmalaşmazlar, onu dəyişərlər.

***

Şəxsiyyət ömrünü azadlığa çevirməlidir ki, xalqa azadlığı öyrədə bilsin. Ən böyük öyrətmənlik elə budur.

***

İnsanlarda milli ruh yoxdur. Bəs evimdən bayıra çıxanda nədən bilim millətin içindəyəm; necə deyim, vətənimdə qürbətdə deyiləm?!

***

Üzün yaraşığı – onun gözəlliyi deyil. Gözəlliyi içdəki ucalıq yaradar. İçi olmayanın üzü bəzədilmiş, soyuq məzar daşına bənzəyər.

***

Özün özündən xilas olmasan, başqalarını xilas edə bilməzsən.

***

Bədənin dərdini həkimdən, ruhun dərdini peyğəmbərdən soruşarlar.

***

Hər şeydə ara (fasilə) verməyi anlamaq olar, bir düşüncədə, bir də sevgidə ara verilməz.

***

Özünü görmək istəyirsənsə, həyat güzgüsünün qabağında durma, Amal güzgüsünə bax.

***

Ölüm bireyləri öldürür, xalqı öldürə bilmir. Birey yaşamaq – var olmaq istəyirsə, ömrünü xalqın qurulmasına, var olmasına yönəltməlidir. Xalq – Bireyin ruhsal başlanğıcı, ölməz, əbədi gələcəyidir. Gələcəyini dərk eləmək üçün yaratdığın xalqı dərk eləmək gərəkdir.

***

İnsanı Qismətdən asılı saymaq – həyatı ölümə bərabər tutmaqdır. Həyat Amala yüksələndə ölümü öldürür. Amala yüksəlmək Qisməti heç saymaqdır.

***

Bədən öləndə ruh azadlığa çıxır. Ancaq ruh bədənsiz ifadə oluna bilmir. Bu, biçimin fani olmadığının sübutudur.

***

Putinin Qarabağa status səsləndirməsi – əməli gedişdir, Azərbaycan iqtidarının hüququ ilə bağlı dedikləri isə başqatmadır.

Rusiya – toqquşmalar, çəkişmələr, savaşlar üzərində qurulmuş dövlətdir. Ona görə siyasi araşdırmaçılar Rusiyanın hər bir addımına qaçılmaz bir məsələ kimi baxırlar. Rusiyanın haqsızlığını haqlı sayırlar.

***

SSRİ-ni bərpa çabaları özünü doğrultmayacaq, ancaq xalqlara daim ziyan verəcək.

***

Demokratiya – lalların, karların, korların azadlığı ideolojisidir. Demokratiyanın tanıdığı azadlıqla lal danışıb xeyirin yalan olduğunu sübut edir. Kar danışıb xeyirin mövcudluğunu eşitmədiyini sübut edir. Kor danışıb xeyiri heç vaxt görmədiyini sübut etməyə çalışır. Demokratiya – şəri yaşadanların azadlıq ortamıdır.

***

Çağdaş dövlət quruluşları şərləşdirmədiyi toplumu qorumurlar. Kim xeyirdən danışırsa içəri salıb anlatmağa başlayırlar: Yaşamaq istəyirsənsə şərləş. Şəri qoruyanları qoruyurlar ki, xeyir üstün gəlmək haqqında düşünməsin.

***

Maddi maraq genişləndikcə mənəvi boşluq dərinləşir.

***

Uğurlu ömürü arzulama, onu yarat! Bunun üçün əzabdan qorxma, çətinlikdən qaçma.

***

Səmimiyyətsizlik yalan bəsləyir, oyun hazırlayır. Yaşanmalı olan insani ləyaqət rol kimi plana düşür.

***

Hər şeydən fəlsəfə düzəldirlər, fəlsəfənin ağzı əyilir...

***

Dünyanı qorxu altında tuturlar ki, bireylərin ləyaqətləri ilə möhkəmlənməsin.

***

Maddiyyatçılıq yürüşündə insanın həyatı cəhənnəmə döndü. Maddiyyatı Allahlaşdıranlar cəhənnəmi ölçü elədilər.

***

Qanunlarla insanı inandırmağa çalışırlar, – nə qədər kapitalizmin qanunlarına boyun əysələr, bir o qədər varlanacaqlar.

Varlanmağı ağalara qul olmaqda görürlər, – köləliyə yüyürməyə sevinmək öyrədirlər.

***

Həyatı hipnoza salıblar, ona görə hamı yuxuludur. Yuxuluları ayıltmaq istəyən, həyatı ötməli olacaq. Həyatdan üstün Amal var.

***

Siyasət – həyatla qumar oynamaqdır. Bu oyunda ədalət, həqiqət, ləyaqət uduzur.

***

İçsəl (daxili) siyasət – insana hırıldayan anekdot.

İçsəl siyasətdə xalqa verilən vədlər, şüarlar anekdot effekti doğurur. İstər acı-acı gül, istər şirin-şirin, taleyin ironiyanın hədəfidir.

***

Heyvani sərbəstliyi azadlıq kimi düşünürlər. Ürəkdə hərcayilik bəsləyib boşluq yaratmaq adında azadlıq olmur.

***

**Ziyankarlıq:** Yurdumuzda mənəviyyat işığı yandıranlarımızı kiçiltməyə çalışırlar ki, gələcəyimiz bugünümüzə bənzəsin.

***

Şəxsiyyət olmaq üçün Azərbaycanlaşmaq gərəkdir. Azərbaycanlaşmaq isə Ocaqlaşmaq deməkdir. Azərbaycanda işıqlı nə varsa, Mənası Ocaqdadır.

***

**İnsanilik tələbi**: İçində işıq yaratmalısan, İçindəki işığın gərəkliyini anlamalısan, İçindəki işığı verməlisən.

***

**Doğmalıq**: İçini işıqlandır, səni tanıya bilim, duyğularını oxuya bilim, halını dəyərləndirə bilim.

***

**Siyasi gücsüzlük:** Azərbaycanın dövlət başçısı Qarabağ faciələrindən elə danışır, Putinə sayğı yaranır. Zoru doğruçu, ədalətli göstərmək – əsarəti azadlıqdan şirin göstərməkdir.

***

**Yön:** Ömrün tələbini elə başla ki, başlanğıcdaca ölüm başlamasın.

***

Azərbaycan Yazıçılar Birliyi qurumu xalqla hakimiyyət arasında körpüdür. Bu körpüdən xalqın üzərinə zor yeriyir. Bu qurumdan vəsiqə almaq üçün şöhrət tələsinə yüyürürlər, xalqa dönüklük edirlər.

Hakimiyyət xalqın başını qatan yazıçılara, şairlərə şöhrət ordeni verir, "prezident təqaüdü" ayırır. Aydın adı daşıyanlar hakimiyyətin qaranlığını savunurlar.

***

**Panteizm - Mütləqə İnam**

Təbiət insan yarada bilmir, Adam yaradır. Mütləq – Adamı İnsana böyüdür. Ona görə Panteizm Mütləqə İnamdan aşağıdır, azdır. Adam yaradan təbiəti ilahiləşdirmək – idealı azaltmaqdır.

Təbiət – dağı, daşı, ağacı, çəməni, bulağı... yaratdığı qədər ilahidir. Ancaq bunların hamısı bir yerdə İnsana çatmır.

***

Azərbaycan toplumu elə duruma salınıb ki, ələbaxanların əlinə baxır.

Siyasal müxalifətçilik – əlabaxanların qoçaqlığı.

**Siyasal müxalifətin verdiyi umud:** Əlimizdən tutun ki, sizi azad əlaltı eləyək.

İndi siyasal azadlığın adı – əlaltılıqdır. Siyasal muxalifət olmaq – hakimiyyətə gəlmək üçün əlaltılığa növbəyə durmaq(dır).

***

**Boyunduruq ölkələri:** Siyasal ağaları artdıqca ağılları azalır. Çünkü boyunduruqda ağıl işlətməyə gərək qalmır.

***

**Boyunduruqdakı ölkələrin dış siyasəti:** – Asılılığını, əlaltılığını tənzimləmək çabaları.

***

**Siyasal oyunçuluq:** Nəsiminin dərisini soyanların varisləri Nəsimiyə yubiley keçirirlər.

***

**Üzləri qaralar:** Nəsiminin böyüklüyünü dana bilməyən molla-başlar onun qəzəllərində Quran ayələrinin "izini" axtarırlar. Dünyaya sığmayanı Yalana sığışdırmaq istəyirlər.

***

**Dövrün yaşamaq manevri**:

Dövr özünü humanist göstərmək üçün özündən öncəki dövrdə yaşamış şəxsiyyətə heykəl qoyur. Ancaq heç bir dövr özündə yaşayan şəxsiyyətə heykəl qoymur. Çünkü özündəki şəxsiyyəti xalqa sevdirsə içindən sarsılar.

Özündə yaşayan şəxsiyyəti xalqdan gizləyir ki, özündən öncəki dövrün təkrarı olduğu bilinməsin.

***

Din Adamdan günahkar düzəltdi ki, İnsan olmasın. İnsan dinin bütün yalanlarını üzə çıxarar, ona boyun əyməzdi. Din günahda yaşayır, ona görə Adamdakı günahı qoruyur. Dini günahsızlıqla üz-üzə qoysan, Adam içindəki İnsanı tanımağa başlayar...

***

Cəmiyyətdə hamı yalqızdır. Heç kim heç kimin dərdini bilmir. Heç kim heç kimin ləyaqətini öyrənmir. Yalqızların biryerdəliyindən xalq yaranmır, Yalqızlar kütləsi yaranır.

***

**Bədənə bərabər yaşayanlar: –** Bədən öləndə ömrü, varlığı başa çatanlar.

***

Bədən ölümlü olduğu üçün ölümsüzlüyü ona yükləyəndə qırılır.

***

Bəzən şəri də döyüb gözə kül üfürürlər.

***

Ömründə (özündə) yarım adam saxlasan qeybətə, nifrətə, paxıllığa ehtiyacın olacaq. Ehtiyac səni səksəkə içində yaşadacaq: – Sevgi bəsləmək istəyəcəksən, paxıllıq qoymayacaq;

Sədaqətli yaşamaq istəyəcəksən, nifrət qoymayacaq;

Müdrik yaşamaq istəyəcəksən, qeybət əngəl olacaq.

***

İndiki iqtidarın Azərbaycan sorunu yoxdur, hakimiyyət sorunu var. Güney Azərbaycan onun dərdi deyil, ona artıq yükdür. "Artıq Yükü" üzərindən atır ki, hakimiyyət ipini əlində tuta bilsin.

***

Çağdaş millətçilikdə humanizm, başqalarına qayğı yoxdur. Milli lovğalıq, milli eqoizm, milli qarşıdurma həşirləri var. Çağdaş millətçilik – milləti qorumur, ona düşmən hazırlayır.

***

Çirkinliklə tutuşdurulan gözəllik nisbidir, yarımgözəllikdir. Əsillik idealla tutuşdurmalarda ortaya çıxar.

***

Çağdaş Aydın (ziyalı) toplumdan fərqlənmir. O, ödüllənməklə, titulla, şöhrətlə, yala yalmanmaqla toplumdan ayrılır. Aydın toplumdan ləyaqəti, cəsarəti ilə fərqlənsəydi, toplum işıqlanardı.

***

**Çağdaş mübarizə adamı:** Yerişini millətçi kimi yeriyir, düşüncəsiylə simasızlığa boyun əyir.

***

**Yeni bağımsız dövlət qurmaq gedişi:**

Bir ağanın başqa ağanı sıxışdırmaq, özünü genişləndirmək oyunu.

Yeni bağımsız dövlət ağalığa yarayır, əslində bəşəriyyətin dincliyini pozur.

Zorla qurulan bağımsız dövlət – Ağalığın boyunduruğunda bağımsız olur.

***

Qarabağ savaşında Azərbaycan iqtidarı Putinin planları üzrə davrandı, ancaq xalqa arxalandığı, Türkiyəyə güvəndiyi görüntüsü yaratdı.

***

Bəşəriyyətin taleyini texnologiyaya tapşırırlar, o da mənəviyyatı öldürür. Mənəviyyatsızlıqdan dəhşətli Allahsızlıq törədi.

***

**Çağdaş dönəmin ailə fəlakəti:**

Analar – analığı öldürən (şəhvət ehtirasında qadını nəşə aracına çevirən) oğullar doğurlar.

***

Avropa siyasal dəb yaratdı – rəngli inqilab adında.

Rəngli inqilab – hamını Avropanın əlaltısına oxşatmaq planıdır – antiinsani gedişdir.

İnsanda ağıl işləməyəndə yaşamı yamsılamaq olur. Ağlı olmayanın gözü orda-burda qalır, başqalarından öyrənməyə çalışır. Əyri yaşayanlardan əyri yaşamaq öyrənir. Ağıl (böyük anlamda idrak) olanda göz axtarmaqdan yığışır, insan yaşamaq yönü kəşf edir.

***

Rusiya Ermənistanla Azərbaycana silah satır, pul qazanır. Sonra onları bir-biri ilə döyüşdürür, yenidən silah satır. Bu heç kimi təəccübləndirmir, hamı buna olmalı bir şey kimi baxır. Hamı siyasətin eybəcərliyini doğal sayır.

***

Din insanın üzərində Allah hakimiyyəti (Teokratiya) yaratdı – Allah da öldü, insan da. Sonra Allah hakimiyyətinə inanmadılar, xalq

hakimiyyəti (demokratiya) uydurdular – xalqı öldürdülər. İnsanın böyüməməsi üçün neçə cür hakimiyyət növü yaratdılar, tərəqqi xəyallarda əriyib yox oldu.

***

Axundov insanı din geriliyindən, ətalətindən çıxaran çar Rusiyasına qulluq elədi. Əslində xalqının əsarətə düşməsinə yardımçı oldu. "Bundansa o yaxşıdır" düşüncəsi sonda ən böyük fəlakətlərə yol açır. Ona görə Asif Ata nisbi azadlığı rədd edir.

Nisbilik ölçüsündən uçurum dərinliyi törəyir.

***

Quruluşlar, onların ideolojiləri – insanı aldatmağın çeşidləridir – yalançı ideala çağırıb yaşam nizamsızlığının üstünə pərdə çəkməkdir.

***

**İmperiya əsarəti:**

İmperiya əsarəti – şirin əsarətdir – aldadan, görünməyən.

Bağımsızlığı əsarətin içində qurmaq.

Döyə-döyə, söyə-söyə azadlıq vermək.

Alçaldılmış azadlıq yolu, şirnikləndirməklə manqurtlaşdırma.

Nəyi var əlindən alıb, sonra özünə dilənçi payı ayırmaq.

***

Toplumsal pozuntuları aradan qaldırmaq üçün hər şeyi dəyişirlər, insandan başqa. Kapitalizm qanunları ilə yaşayan dövlətlərin dəyişikliklərinin adı islahatdır. İslahat – İnsanlaşmanı əvəz edən toplumsal əlacsızlıqdır.

İnsan dəyişməsə həyat necə düzələcək?!

İslahat – formal güzəştlərdir, ədalətin bərpası deyil. Ədalət – İnsani qanunlarla gerçəkləşər. İnsani qanunları İnsaniləşən işlədər. İnsanlaşmayan toplumda hər şey kağız üzərində dəyişir. Toplumsal pozuntular toplumu bürüyür. Toplumu pozuntulardan qorumaq üçün onu uçururlar.

***

İnsanı elə kökə salırlar ki, o yalnız maddi ehtiyaclarını ödəmək üçün yaşayır. Mənəvi ehtiyac yaşanmadıqca, ödənmədikcə aradan gedir. Maddi ehtiyacların ödənməsində ədalət rol oynamır, çünkü ədalət – mənəvi ehtiyacdır. Mənəvi ehtiyac aradan getdiyi üçün maddi ehtiyac – zor, yalan, yaltaqlıq, asılılıq, köləlik üzərində ödənilir. Ölçüsüzlükdən nizamsızlıq yaranır. Həyat nizamsız münasibətlər əsasında bayağılaşır – hər şey insanın gözündən düşür. İntiharlar belə bir ortamda törəyir.

Yəni bioloji tələblərin hakim olmasında insan yalanlarla yaşayır, həqiqət var olmur.

***

Reallığı hər şey saymaq – gəlişmənin yolunu bağlamaqdır. Reallıqda çox şey dağıdıcıdır. Reallıqla barışanda zəif zəifləyir, güclü daha da güclənir. Yoxsul daha da yoxsullaşır, varlı daha da varlanır. Reallığı rədd eləmədən həqiqəti təsdiq eləmək olmur.

...Deyək ki, ana bala üçün özündən keçir,– bu da bir reallıqdır, görünəndir. Ancaq bu, reallıq tələbi deyil, reallıqdan artıq olanın gerçəkləşməsidir – reallıqlara sığmayan, uyğun olmayan...

***

Hər kəsin öz həqiqəti var deyirlər. Onda hər kəsin də öz ədaləti var. Birinə görə həqiqətsizlik başqasına görə həqiqətdirsə, birinə görə ədalətsizlik başqasına görə ədalətdir. Bu deyiliş – kapitalizm demokratiyasının priyomudur. Deməli, çoxdüşüncəlilik (ərəbcə çoxrəylilik – plüralizm) varsa, hər şey yerində qalmalıdır, heç nəyi dəyişmək olmaz. Birinə görə yalan o birinə görə həqiqətdir. Yəni belə çıxır, heç kimin dediyini ölçü saymaq olmaz. Əslində isə Həqiqət də birdir, Ədalət də. Onun daşıyıcıları fərqlidir.

***

Varlığı qorumaq yerinə Yoxluğu varlıq kimi sırımaq İnsanlığa qarşı yağılıqdır. Dövlət çox vaxt bu işi görür. Ona görə dövlət İnsanlaşma sürəcinə yardımçı ola bilmir.

***

Çağdaş nizam antiədalətdir, çünkü hər şey alqı-satqıdır (ticarətdir, biznesdir). Alqı-satqıda (alverdə) faydaçılıq var, ədalət yoxdur. Aldatmalar var, – kim kimi nə qədər aldatsa, bir o qədər çox qazanır.

***

Faydanı dolanmaq üçün seçəndə fayda İnsaniliyə yarayır. Faydanı məqsədə çevirəndə (yaşamın məqsədi olanda) İnsaniliyi yaralayır. Faydaçılıq İnsaniliyi əvəz elədiyi üçün toplum pozulur. Pozulan, yəni faydanı İnsanilikdən üstün tutan toplum dara düşəndə ədalət umur. Ancaq kimdən, necə?! Hamı ədalətdən keçib faydanı seçir, həm də hamı ədalət istəyir.

Ocaq – toplumu İnsanlaşmağa, – ədalətli yaşamağa çağırır. Deyirlər, tək mən İnsanlaşmaqla nə alınacaq ki?! Onda soruşulur, – bəs niyə ədalət istəyirsiniz, onu sizə kim verəcək, ya da niyə verməlidir ki?! Ədaləti faydaya çevirib (əvəz edib) ədalət ummaq necə özünü doğruldar?!...

***

Qanuna boyun əyməyə çağırırlar, – Qanun qarşısında borcunu dərk elə demirlər. Borcu boyun əyməklə əvəz edirlər, – qanunsuzluq yaranır. Qanuna boyun əymək məcburiyyətdir, – görsəniş yaratmaqdır. Bu görsənişi hər an pozmaq olar. Borcunu dərk eləmək isə qanunla yaşamaqdır. Yaşamaq – sorumluluqdur. Sorumluluq – nə qanunun yazılmasında, nə də yaşadılmasında pozuntulara yol verməz.

***

Nisbi ilə barışmaq – yaşamamaqdır. Ocaqçı ölü varlığı ləyaqətinə sığışdırmaz.

***

Savaşda hamı əl-ələ verib dış yağıdan qoruna bilir. Ancaq doğruçu Birlik yarada bilmir, çünkü içindəki şərlə döyüşmür. İçindəki şəri döyməyən kəs xalqına xeyir verə bilməz.

Şəhid – xalqının canını qoruyur, bu, xalqa xeyir vermək anlamına gəlmir. Birinin ölümü başqasına xeyir verməz. Xeyir – mənəvi quruculuqdur, – Dəyər yaratmaqdır. Dəyər araçılığı ilə xalqı Sabaha qovuşdurmaqdır.

***

Hünər göstərib ölmək qəhrəmanlığın bir cəhətidir.

***

İnsanların əlləri çatmadığı şeylərə daha çox tamahları artır. Mülkiyyətsiz qoyulan insanlarda maddiyyatsevərlik duyğusu daim aktiv olur.

***

Pulçuluq (tamahla yaşamaq) yırtıcılıq yaradır. Adamlar üzdə mərifətli görünməyə çalışsalar da, içdə qorxulu əhvallar gəzdirirlər.

***

Şəxsi bağımsızlığın yaranmasında mülkiyyət rol oynayır. Ona görə insanı mülkiyyətsiz qoyurlar, bağımsız olmasın. Asılı olana ağalıq eləmək asandır.

Mülkiyətsizlik asılılıq yaradır, ancaq mülkiyyətsizliyi ortadan qaldırmaqla bağımsızlıq bütövləşməz – gərək içində İnsanlığı qoruyasan…

***

Rusların vətəni yoxdur, ona görə imperiya qurub qoruyurlar. İmperiya qurmasalar ölərlər. Ölməmək üçün başqa xalqların vətənini işğal edib dağıdırlar. Bu, Rusiyanın daha pis ölümü deməkdir. Xalqlar bu dağıdıcılığı Rusiyaya bağışlamayacaqlar. Əslində bu gün Rusiyanı Vətəni olanlar qoruyurlar – öz vətənləri hesabına. Hər kəs öz vətəninə yiyə duranda Rusiya bitəcək.

İmperiyanın yaşamı – xalqların Vətənləşməyə başlamasına qədərdir. Rusiya imperiyasının adını dəyişib "Xalqların Birliyi" qoydular (yəni çarizmin adını dəyişdilər). İmperiyanı yıxan göründülər, ancaq onu daha qəddar gücə çevirdilər. Bu güc dağılıb ayrı-ayrı subyektlərə

çevrildi. İndi Rusiya ayrı-ayrı subyektlərdən (14 Respublikadan) SSRİ-nin qisasını alır.

***

Könüldə saxtakarlıq olarsa o könülə mürşid sirdaş olmaz. Mürşiddə saxtalıq olarsa arı könülə buraxılmaz. İkinin Bir olması hər cür saxtalığın, oyunun, anlamsız gizliliyin ortadan qalxması deməkdir.

***

İnsan sərçə saflığı ilə yaşayarsa aldanıb tora düşər. O, yetkin idrakiliyə yetməlidir ki, hiylə qaranlığında azmasın. Hiylə qaranlığında azan saflıq naşı saflıqdır.

***

Cənnət peşində olanlar namazı Allahın hüzurunda qılmırlar, Allahın boynuna minnət qoyurlar. Əslində namazın cənnət istəyindən başqa anlamı da yoxdur.

***

Toplumsal ortamda hər addımda min kələk var. Həqiqətə eşqi olmayanlar hər kələkdə min yol ölüb kiçilir.

***

İnsan həqiqəti düşünməyə başlayanda ruh bədən üzərində yüksəlir. Düşünməyəndə ruh bədən tələblərinin həşirini dinləməli olur.

***

Ömür bədən tələblərinə boyun əyəndə ruh qaranlıqlara qərq olur.

***

Azad insan heç kimə hakim olmur, nə də heç kimə məhkum olmur. Toplumsal ortamda insan ya hakimdir, ya məhkum. Hər iki

hal ölümə bənzəyir. Birinə hakim olmaq ehtirası birinə məhkum olmaq işgəncəsinə bərabərdir.

***

Arif insan yatanda da arifdir, duranda da. Onun qəlbinin duyumu ayıq, oyaq olar.

***

Din insanın xəyal dünyasına soxulur. Bu xəyal dünyasının bənnası kimi davranır. Bütün əsillikləri uçurub saxta, bəzək vurulmuş, uydurulmuş bir dünya quraşdırır. Onun bu "yeni fani" dünyasında insanın heyrət, sevgi, aşiqlik, ehtiras duyğuları heçə çevrilir. İnsanın içi məzar daşı kimi soyuq, cansız, qaranlıq bir boşluğa bənzəyir. Azadlıq kimi böyük mənəvi nemət – könlün bilmədiyi əlçatmaz bir yoxluğa uzaqlaşdırılır. Soyuq, cansız, quru bir ömürdə gələcəkli, yaşarı bir şey tapmaq olmusuzdur.

***

Cəhalət, avamlıq – ölümün ekiz tayıdır. Cəhalət ürəyi bürüdükcə ölümü dirildir. Ölümün hökmü altında yaşayan ürəkdə qanadlı duyğular pərvazlana bilməz.

***

Din ömürdən boşluq uçurumu yaradır. Ömrü boyu içindəki uçurumlara boylanan insan həqiqətsiz mövcud olar. Həqiqətin gözəlliyini görmədən, bilmədən, tanımadan mövcudluğunu sürdürənin həyatı cəhənnəmə bənzəyər. Yaşamaq adlı ülviyyətdən xəbərsiz, köçüb qara torpağa qarışar.

***

Canı dustaq olan darıxar, həyat azadlığı istəyər. Ruhu zindanda olarsa, heç eyninə gəlməz. Ruhunu zindana gömüb canını azad istəmək – heyvan azadlığına vurulmaq kimi bir şeydir.

Quş qəfəs istəməz – bu onun doğal haqqıdır.

Ruh da qəfəs istəməz – bu da onun ruhani haqqıdır.

Doğal haqq o qədər azalıb ruhani haqq görünməz olub.

***

İnsanın təbii başlanğıcı ilə ilahi (daha doğrusu, ruhani) başlanğıcı Birlikdədir (vəhdətdədir). Onun təbii başlanğıcı bu Birliyi qırmağa doğru dartınır. Bu Birlik qırılanda insan heyvana oxşayır. İnsanın özünə oxşaması üçün ruhani başlanğıc olduğunu dərk eləməli, bu Birliyi qorumalıdır.

İnsanlaşmanın tələbi budur.

***

Böyüklük heyrət yaradır, – heyrətlə böyüdür. Həm də öz yaratdığı heyrətdən özü böyüyür.

***

Aşiqin gülünc olması – ilahi qismətdir, özü qazanır.

***

Mən səndən öz dünyama aşiq yaratdım. Yaratdım ki, dünyam sənin xoşbəxtliyində əbədi var olsun.

***

Mən sənə ürəyimdən həqiqət meyi içirdim. Əbədi xoşbəxtlik ünvanına yönəltdim. Oradan qayıtmaq yox olmaqdır.

***

Həyatda sənə xeyir verə biləcək güc yoxdur. Çünkü həyatda xeyiri tanıya biləcək ürək yoxdur. Mən ürəyimi sənə xeyir vermək üçün, sənin sevginə ismarladım.

***

Ürəyin o qədər arıdır, ona dodaqlarımı söykəsəm, içimdən süzülən sevgi nəğmələrini oxuyar.

***

Cəhalət yuxusunda mürgüləyən adam İblisi Günəşə bənzədər. Ürəyini onun üzünə açar, ürəyi qaranlıqlarla daha da dolar. İblis qaranlıq ürəyə işgəncə verər, – hər cür naqislikləri ona sevdirməklə. Naqisliklə bəslənilən ürəkdən həyata daim eybəcərliklər axar.

***

Dərd istəyən bizə gəlsin. Biz Dərdin Yolunu tanıdırıq. Dərdi tanıyanlar dərmanı bularlar. Kef istəyən Dərddən qaçar, dərdi bilməz. Dərdi bilməyən Dərdə yenilər – xoşbəxtlik tapmaz, bədbəxtliklə yaşar.

***

Həyatdan çox şey uman – umduqlarını əldə etmək üçün həyata hiylə qurar.  Ancaq həyat onu şirnikləndirmələrlə daha böyük hiylələrlə üz-üzə qoyar. Hiylə quran hiylələr bataqlığına düşər.

***

Könülə həyat verən sevgidir. Onun qaynağı isə könüldəki həyatdan daha böyükdür.

***

Nağıllar dünyasında yaşamaq fərəh verir. Hər şey əfsunlanmış möcüzəyə oxşayır. Gerçək aləmdən uzaq – sirli xəyallar aləmi. O aləmdə dedi-qodu heyvərəliyi, şübhə balacalığı, tələ eybəcərliyi, paxıllıq şəri, könül sındırmaq heyvaniliyi yaşamır.

***

**Çağdaş gəlişmə şərtləri:**

Dünəndən açılmaq adı altında qədimliyi danmaq. Dünənki eybəcərliklər bu gün də yaşayır, ancaq qədim dəyərlərimizdən heç nə yaşamır, yaşadılmır. Dünənin eybəcərliklərini qoruyurlar, qədimliyə köhnəlik adı qoyurlar. Bunun adına "dəyərlərin yenidən qiymətləndirilməsi" deyirlər.

***

İnsanı dəyişmək haqqında düşünmürlər, görəvliləri dəyişmək əməlləri gerçəkləşdirirlər. Adına islahat deyirlər. Bu islahatda hakimiyyəti qəhrəman göstərən əməliyyatlar keçirirlər. Hakimiyyətin islahatı dəvənin belini düzəltmək kimi bir şeydir. Əyrilərin yerini dəyişməklə islahat aparmaq – əyriliyi ortadan qaldırmaz. Ən böyük islahat hakimiyyətin özünü islah eləməkdir.

***

Millətləşmə sözünü bağıranlar – millətləşmənin anlamını anlamırlar. Onlara görə millətləşmə – hamının bu sözü bağırmasından keçir. Əslində isə Millətləşmə – hər cür yadlığın şüurdan qovulmasıdır.

***

Azərbaycan hakimiyyətində olanlara türk dilini (onlara görə "Azərbaycan dili"ni) öyrətməyə başlayıblar. Xalqı aldatmaq üçün xalqın dilində danışmaq öyrənirlər. Xalqdan olmayanların xalqın başında durması irticanın humanizm sayılmasına bərabərdir.

***

Ədalət istəyənlər İnsanlığa uzaqdan baxırlar. Həqiqət istəyənlər Dünyaya uzaqdan baxırlar. Uzaqda durub ədalətə, həqiqətə yaxın olmaq istəyi geriliyin görsənişidir. Hər şey uzaqdan-uzağa istənilir. Mübarizə də uzaqdan-uzağa aparılır – içəri enmir, böyümür, əsilləşmir.

***

Fiziki həyat gərgin olduqca mənəvi boşluq yaradır. Bu boşluğu doldurmaq kimlərinsə təsəllisi ilə olmaz, ömrə məzmun vermək gərəkdir.

***

İdrak Duyğu araçılığı ilə hərəkətə keçir. Duyğu idrakın bələdçisidir də demək olar. İdrak da duyğunun həm böyüdənidir, həm qoruyucusu.

***

İnsan hər şeyə şübhə ilə yanaşa bilər. Ancaq şübhələrinin nə dərəcədə sağlam, doğru, məntiqli, güclü olduğunu bilmək üçün özünə inamı bütövləşməlidir. Özünə inamı bütövləşməyənin şübhəsi, nifrəti, mübarizə əzmi, ədalətli tələbləri doğrula bilməz. Hər şey özündən başlayır. Özünə yiyə olmayan heç nəyin – nə maddi, fiziki, nə duyğusal, ruhsal olanların yiyəsi deyil. Yiyəlik – ömrə hakim olmaqdır.

***

Sənayeni elə gəlişdirmək gərəkdir, Tanrıya (əslində Mütləqə) ehtiyacı kölgədə buraxmasın. Ya da Mütləqə elə bağlanmaq ki, fiziki mövcudluğun özülünü fantaziyalar laxlatmasın.

***

Azərbaycan elə dağılıb (dağıdılıb) ki, onu bəlalardan qurtara biləcək heç nə qalmayıb. Küçələri, evləri bataqlıq, siyasal varlığı meyit. İndi onun bircə qurtuluş aracı qalıb – Asif Atanın qutsal Bitiqi.

***

Məntiqi – ölçü saymaq yanlışdır. Hər Quruluşun, hər rejimin öz məntiqi olur. Bir Quruluşun məntiqi o biri quruluş üçün yaramır.

Məntiq ən çox şübhəyə yarayır.

Kapitalizmin məntiqi sosializm üçün, ya da tərsinə, şübhələrlə doludur.

Məntiq – elmin insturmentidir. İnsturment mütləq ola bilməz. Son dövrlərin gəlişməsi göstərdi ki, hətta riyazi məntiq belə, dəyişə bilir.

Məntiq – prinsiplərin işləmə doğruluğudur. Məntiq – prinsiplər üçün doğrudur. Prinsiplər yanlışdırsa, məntiqin doğru olması heç nəyi dəyişmir…

***

Həyat çox bəsitdir. İnsanların ömründə özünəxaslıq fərəhi olmadığına görə əzbərlənmiş, dəbləşmiş pozalar göstərirlər. Ədalı gülüşlər, ədalı yerişlər eyniyyət yaradır. Heç kim içdən azad deyil, ona görə davranışlar dəbləşir.

***

Kimsə sənin dediyini anlamırsa, eşitmirsə, həqiqəti deməkdən usanmaq olmaz.

***

İnsanın içsəl dünyası qanundur, qanunlar toplusudur. Bunu öyrənmirlər, qıraqda qanun yazırlar.

***

Yüksək (ali) həyat mücərrəd ideya deyil, insanın mahiyyətində olanların yaşamına, əməllərinə gəlməsidir.

***

Yalan xəstəliyi – dindarın "xoşbəxtliyi" biçimində sağlam görünür.

***

Din Mütləqdən Allah yaratdı.
Asif Ata Mütləqə İnam yaratdı.

***

Nitşe İsanı çarmıxa çəkənləri söymür, İsanı söyür. Bu da onun düşüncəsinin ölçüsüdür.

***

Xristianlıqdakı xaç – İsanın acınacaqlı ölümünün simvoludur. Xristianlar ölümü müqəddəs simvola çevirib ona səcdə qılırlar. İsanı – onun özünə səcdə ilə deyil, ölümə səcdə ilə müqəddəsləşdirdilər. Ancaq bu müqəddəsləşdirməkdən işıqlı həyat yaranmadı.

Ölümdən həyat yaratmaq anlamsızlığı insanı günah üzərinə qaldıra bilmədi. Çarmıx adlanan günah necə səcdəyə layiq ola bilərdi?! İsaçılığı – İsanın ideyası, sözü yaşatmalı idi, çarmıx adlanan ölümü yaşatdı.

Şiə müsəlmanlarda da Kərbəla müqəddəs sayılır. Hüseynin öldürüldüyü yer, qanının axıdıldığı torpaq müqəddəsləşdirildi.

Bizə görə müqəddəslərin öldürüldü yer deyil, üz qoyduqları torpaq simvol sayıla bilər.

Babəki Samirədə şaqqaladılar. Bizim üçün Samirə müqəddəs deyil, İnsanlığa qarşı cinayət törəmiş, xəyanət edilmiş yerdir.

Nəsiminin dərisinin soyulduğu Hələb bizə doğma deyil, Hələbdə Nəsiminin üz qoyduğu torpaq bizə doğmadır.

***

Xristianlıqda "Tanrı hamını cəzalandıracaq" çağırışı – İsanın ölümünə qarşı qisas ummaq idi.

Məhəmmədin dini də gizli, açıq kin ifadə edirdi, – qisas umacaqlığında. Bu umacaqlıq "Allahdan qorx" çağırışında yaşadı.

***

Lənətlənmiş xalq deyimi – ideoloji xarakter daşıyır, siyasiləşibdir. Kim lənətləyib, necə lənətləyib?! Axı Allah onların varlığına çalışıb, Tövratın yazdığına görə. Musanın Allahı elə Məhəmmədin Allahı idi. O da, dediyimiz kimi, lənətlənmiş sayılan İsrail oğullarının varlığına çalışıb.

Allahın bir kitabı (Tövrat) İsrail oğullarını var edir, o biri kitabı (Quran) onları lənətlənmiş sayır.

***

Türklərdə halallıqla döyüşkənlik ən yüksək keyfiyyət olub. Ona görə də siyasəti bacarmayıblar.

***

Pis – yaxşının qiymətini bildirmək üçün deyil, yaxşının yoxluğuna görə var.

***

Göyel dinlər deyir, İblisi Allah yaradıb. Özü də ölmür, ölümsüz yaranıb. O da insanların qəlbinə girib pisliklər törədir. Deməli, şər ortadan qalxmayacaq.

Şəri – ölümsüz saymaq yox, xeyirin yoxluğu saymaq gərəkdir. Asif Atanın fəlsəfəsi bunu öyrədir.

***

İblis oddan yaranıb, Adəm palçıqdan (yəni torpaqdan). Odla torpaq maddi-fiziki yaranışın iki önəmli atributudur. Dində Panteizm qalıqları da var, ancaq İblis məsələsiylə Panteizmi çirkinləşdirir.

***

Adəmlə Həvva İblisi eşidib buğda "ağacı"ndan yeməsəydilər, ayıb yerləri görünməyəcəkdi. Yəni doğub-törəməyəcəkdilər, bəşər də olmayacaqdı. Belə çıxır ki, varlığımıza görə İblisə minnətdar olmalıyıq.

***

Dinin günaha qarşı mübarizəsinin adı Allaha qul olmaqdır. Asif Atada mübarizə özüylədöyüş – öz üzərində yüksəlmək anlamı daşıyır.

***

Nitşenin güclü insanı (hakimiyyət əzmi) yəhudilərin istəklərinin ifadəsi kimi yananıb. Bu elə yəhudi xarakteridir. Tanrısını qisascıl, eqoist yaradan xalqın filosofu da belə olar – insanı növlərə bölər.

***

Nitşenin antixristianlığı – İsanın mərhəmətçiliyinə qarşı yəhudi xarakteri kimi çıxış edir. İeqova yəhudiləri güclü etmək üçün vardı. İsanın Allahı isə, ya da özü – insanları yaxınlaşdırmaq ideyası daşıyırdı.

***

Xristianlıqda ruhların bərabərliyi ideyası var. Ruh – insan öləndən sonra yaşayırsa, demək bərabərlik də öləndən sonra yaranır, ya da yaranacaq.

***

Yalanı vurmaq üçün haralardansa onun yalan olduğunu doğrulayan fakt, sübut axtarmağa gərək yoxdur. Yalanı faktsız da tanımaq mümkündür.

***

Ən kobud axmaqlıq – səni aldadana pərəstiş edəsən.

***

Müsəlman göyə idraksızlıq quyusundan baxır. Ona görə də dünyanın gözəlliklərini görmür. Ona bunu anlatmaq istəsən, deyər ki, göyün görünənini təhrif edirsən.

***

Müsəlman Allahın qarşısında itaət öhdəliyi götürür. İtaətinə, mütiliyinə qarşılıq Allahdan kef istəyir – cənnət kefi.

***

Cənnətdə zəhmət, isti, soyuq yoxdur. Yəni tüfeyli yaşamaq var. Müsəlman cənnətə – əslində tüfeyli yaşamağa can atır. Allah bu tüfeylilərdən nə quraşdırmaq istəyir görəsən?! Zəhmət görməyən, düşünməyən bir yaratığın mövcudluğu nəyi ifadə edir axı?!

***

Doğruçu insana demək ki, Allah sənə hidayət etsin – bu, əslində "Allah səni doğru yoldan sapdırsın" deməkdir.

***

Azərbaycan siyasətində mübarizə aparanların görünüşü: Vüqar kimi görünən xudbinlik;
Cəsarət kimi görünən bağırtı;
Döyüşkənlik kimi görünən vurnuxmalar...

***

**Varislik qeyrəti:**
Varidata varislik edən çox olur, Amala varislik edən az.
Varidatın varisliyi – özüüçünlük;
Amalın varisliyi – xalqüçünlük.
Amalın varisi xalq olanda, xalq bəşər olur.

***

Xalqların xarakteri ilə Allahı bəlirləmək doğru deyil ( Musada, Məhəmmədə olduğu kimi). Ancaq xarakterlərdəki insani keyfiyyətləri Allaha (əslində Mütləqə) özgün saymaq olar.

***

Tanrını möcüzəli göstərmək üçün heyvanbaşlı, insan bədənli təsvir edirdilər. Yetər ki, insandan fərqli görünsün. Kentavrlar da insan başlı, heyvan bədənli idilər.

***

İudaizm – yəhudi qəbilələrinin hardasa panteizmi idi. Tanrı – od, bulud (Doğa nişanələri) kimi görünürdü. Heç bir monoteist din – politeizmdən, panteizmdən, dualizmdən yan keçə bilməyib. Çünkü Tanrı anlamını düzgün aydınlaşdıra bilməyiblər. Başqa "izm"lərin köməyi ilə Tanrını istədikləri şəklə salmağa çalışıblar.

***

Toplumda şər ölmür. İdrakda, mənəviyyatda inamla şübhə, kədərlə ümid birgə yaşayır. Dualizm – toplumsal yaşamın gediş nizamından yaranıb. Ancaq bireydə şər başa çata bilir. Bunun adı kamilləşmə əməlidir. Din bu əmələ qarşı oldu – qüsursuz insan yoxdur deyə-deyə. Əslində bu yanaşma toplumsal yaşamın gedişindən qaynaqlanır, yəni Dualizmin dediyini deyir. Bəs Dualizm Bireyin kamilləşməsinə qarşıdırmı?! – Hörmüzdün döyüşünü əsas götürsək, yox. Tanrı insanın kamilləşməsi uğrunda Əhrimənlə döyüşür. Bununla belə, kamilləşmənin baş tutması üçün Hörmüzd insanın yerinə yox, insanla birgə döyüşməliydi.

***

Həyatı dərk eləməyənlərin döyüşü həyat uğrunda gedir. Həyatı dərk etmək – onun yüksək anlamına yetməkdir. Mövcudolmanın şərtlərində dayanmamaqdır. Mütləqi tanımadan həyatda əbədi mübarizə gedir. İnsanın özünüyaratmaq gələnəyi oturuşarsa, əbədi mübarizənin şərtləri dəyişər. Mövcudolma uğrunda döyüş – həqiqətə yetmə uğrunda döyüşlə əvəz olunar.

Mübarizə əbədidir, ancaq sonuc yüksək ideallarınn həyatda təsdiqi ilə oluşmur.

Asif Ata mübarizənin yönünü, şərtini dəyişir.

***

Adamlar deyirlər: "Bilsəm ki, mən mənəviyyatla uğraşsam (özümlə döyüşsəm) hər şey yaxşı olacaq, uğraşardım. Axı tək mən uğraşmaqla iş düzəlmir". Yəni ona görə istəmirəm ki, başqaları da bunu istəmir. "Palaza bürün, elnən sürün".

***

Aşiqlik: İnsan ona görə aşiq olur ki, Mütləqi görür.

***

Hər Quruluşun, çağın koronavirusunu yaradırlar, adını nizam qoyurlar.

Bütün dünyada İnsanlığa qarşı oyunlar gedir. Bu oyunlar Allah anlamına qarşıdır. Din bu gedişlə döyüşmür. Pozuntuları seyr edib "insan Allahın yolundan çıxıb" deyirlər. Dinin başında duranlar dünyanı dağıdanların, Allahı "öldürənlərin" buyruğunda dururlar. Ona görə din başçıları kapitalistdirlər.

***

Kapitalizm demokratiyası – İnsanlığı, Vətəni, milləti tanımayanların, vecsizlərin söz azadlığıdır. Ancaq milli söz dünyanın heç yerində azad deyil. Bu anlamda doğru olmayan söz azaddır. Üzdə kapitalizmi söysən də olar, ancaq kapitalizmi devirmək, dəyişmək üçün gücün olarsa, heç bir sözün azad olmayacaq.

***

Bizim çağırışlarımız ağılsızlıq kimi qarşılana bilər, bizim mümkünsüz şeylərdən danışmağımız düşünülər. Ağıllı o kəslər sayılar ki, tərtib olunan, təşkil olunan, yol verilən mübarizəni aparsınlar. İcazəsiz mübarizə aparırsansa, deməli, ağılsızsan.

Ancaq ideyanın gücü İnsanın gücünə çevrilsə, Quruluş da dəyişər, sivilizasiya da.

***

Asif Atanın ideyaları Ocaqçıların dilində deyil, gücündə yeriyərsə, bütün toplumun antiinsani inadını qırmaq olar.

***

Bu gün bizim, Azərbaycan olaraq, yönümüzü – ideoloji, mədəni açıdan da, ruhani açıdan da başqaları bəlirləyir…

***

O şey ki ruhumuzun bütövləşməsinə əngəl olur, onu yaşamımızdan silməyimiz gərəkdir. Nə yazıqlar ki, bəlaları tarixdən silməyə, əslində gizləməyə çalışanlar var.

***

Din deyir: Xeyir də, şər də Allahdandır. Bu, müsəlmanı arxayınlaşdırır. Əgər şər də Allahdandırsa, onunla barışmaq gərəkir. Allahdan gələni necə ortadan qaldırmaq olar, ya da niyə ortadan qaldırmaq gərəkdir?!

İnam deyir: Şər – Xeyirin yoxluğudur, o insanda başa çatır. Bunun üçün ömürdə şərlə döyüşmək gərək, onu yenməyə inanmaq gərək. İnamın dindən üstünlüyü – insanda şəri tanıdıb başa çatdırmaqdır. Dində insan özgəyə ibadətlə uğraşır – özündə, ömründə olmayana. İnamda insan özüylə uğraşır.

İnsan özünü yaratdığı dərəcədə Allah anlamı (yəni Mütləq) ona doğmalaşır. İnsanın balacalığında Allah anlamı ona yaddır. Allahı öz anlamına bərabər eləyən insani əməllərdir.

***

Dində Allah hər addımda insanı sınağa çəkir. Bununla insan var olmur, kiçilir.

Bu sınağı insan özü apararsa, ömür sınaq yollarında bərkiyər.

***

Qutsal səs: – öyən, sevən, görən, bilən, oxşayan, səbr edən, böyüdən!

***

**Dünyaya inam:**

Xeyirli Dünya – Doğada, insanda üzə çıxan ülvi çalarlar. Doğanın insanda duyğu, hal yaratması. Məna ilə gerçəkliyin doğmalığı.

Doğanın halı – insanın halı – bir-birinə qarışan – insanın dərk elədiyi, qiymətləndirdiyi.

Dünyanın insanda yaratdığı hallar insan ömrünün aşamalarında:

1) **Körpəlikdə**: ananın dünya bilinməsi. Ana qayğısında dünyadan duyğulara çevrilən sehr.

Səhər – ilk günəş şüası ilə yaranan ana sevinci, körpənin – duyğuları oyadan fərəhi; gecə ənginliyi – cavabsız suallar doğuran duyğuların çoxalması...

2) **Gənclikdə:** Doğaya vurulan duyğuların İnsanilәşmәsi, üzü insanlara doğru dönmək, onlara bağlanmaq istəyi; yerlə-göyün bağlılığında duyğuların nəğmələşməsi; ürəkdə həsrətin oyanışı, coşqun halların anbaan əvəzlənməsi, yenilənməsi, vurulmaq, inanmaq, uğraşmaq, yola çıxmaq, arılanmaq, durulmaq meyli (bir çox hallarda ata-ana gəncin bu durumunun üstünə yeriyir. Yönəltmək yerinə yasaqlar, hədələr, qorxutmalar).

3) **Yetkinlikdə**: sorumluluq, anlamaq, cəfa çəkmək, ata olmaq, ana olmaq – tükənməyən sevinc anları. Uğurların yaranması, özünə inam, xalqa inam, gələcəyə inam (bu aşamada da yerində olmayan dövlət vurub tökür. Rəsmi quruluşlar, aldadan çalışmalar başlayır heyif ki).

4) **Qocalıqda**: Mütləqlə bir olmaq – örnək olmaq, Yol göstərmək – müdrik qayğılar...

***

İnsan nə vaxt özünü güclü sayır?! – Özünü tanıyanda. Ancaq gərək özünü tanıma özünə inama yad olmasın. İnsanın içində yüksək sevgi olanda, o, özündə nə qədər güclü duyğunun olduğuna inanır. Bu onun gücüdür. Özünə inanmayan başqasına da inanmır. İnanmırsa, deməli, heç kimi, heç nəyi ilahi bir şeyi sevgi ilə sevməyib. İdealı tanımayıb, sevməyib. İlahi sevgidə ürək o qədər güclü olur, insan özünü əbədiyyətdə sanır. İçində qorxu gəzdirən insan heç vaxt ilahi sevgiyə yetə bilməz.

Sevgi – azadlıq deməkdir, qorxu – müticəsinə asılılıq.

İnsan nə vaxt qorxur?! – ömrü, əməli, sözü, münasibəti, biliyi, vicdanı düz olmayanda. Ona görə əyrilik dünyanı əyir.

Adamlar nisbi düzlüyə inanırlar. Ancaq bu nisbi düzlüyün nə olduğunu heç kim bilmir. Bilsəydi, nisbi düzlüyün əslində əyrilik olduğuna etiraz edərdi. Tüfəngin lüləsində balaca bir əyrilik olsa, o, hədəfi vura bilməz. Nəinki vura bilməz, heç ata bilməz.

İnsan qəlbinin də öz hədəfləri var. O hədəflərə yetmək üçün qəlb düz olmalıdır – tam, bütöv.

Din insanın qəlbinin düzələcəyinə inanmır, ona görə qəlbi düzəltməklə uğraşmır, qorxudur.

Asif Atanın baxışı isə belədir: İnsanın qəlbi düz olmasa, o qəlbə insan sevgisi yerləşməz.

Ürəklərdəki yarımədalətdən toplumsal yaşama bütöv ədalət necə çıxa bilər?! Yarımgünəş planeti necə qoruya bilər?! Günəş yarım olsaydı, həyat sönərdi.

***

Allaha gözlüyumulu inam insana, həyatın gedişinə qarşı ümidsizlikdən doğur. İnsan öz yaşamında son ümidini itirməmək üçün ona sunulan Allahın varlığını – nəliyini, necəliyini sorğulamır, düşünmür. İdakdan qorxur. İdrak Allahın düzgün olmayan təyinatla sunulduğunu açıb göstərər. Bununla da, idrak Allah anlamını yalanlardan qurtarıb insanın varlığı ilə birlikdə olduğundan ümid yaradar – doğruçu, əsil ümid.

***

İnsan ibadətin nə demək olduğunu dərk eləmir. Ancaq onun gərək olduğunu bilir. Gərəkin gərəkliliyi – gərəkin gərək olduğunu bilməkdən daha dərindir. Gərəklik həqiqəti dərk olunsa, insan kamilləşər. Gərəkliyi dərk eləsə, abidləşər.

***

Tolstoyun "Sergi Ata"sı uzaq dağlara çəkilir, ancaq şübhələrini də özüylə götürüb aparır...

***

Sergi Ata şəhvəti içindən qova bilməmişdi, ona görə yanından qovdu. Barmağını balta ilə kəsməklə içindəki şəhvaniliyə yenik düşdüyünü sübut elədi.

***

İnsanın içsəl dünyasının özü qanundur. Bunu dərk eləyən insanın inzibati qanunlara ehtiyacı olmur.

***

Yüksək (ali) həyat – insanın ruhani yaşamının göyçəkləşməsidir. İnsan öz yaşamını bölmür aliyə, adiyə. Elə yaşayır ki, adilikdən çıxır, sonra davamlı yüksək hallarla yaşayır. Məişətlə uğraşanda belə, onun yaşamı adiləşmir.

Mütləqin tələbi budur.

***

Din əxlaqı – Allaha itaət, qorxunu həyatın ölçüsü saymaq, dünyanı danmaq (fanilik ideyası).

Mütləqə İnam əxlaqı – İnsana inam, İnsanlığa qulluq, Dünyayla vəhdət.

***

Pisə münasibət ayrı, pisliyə münasibət ayrı.

Bir var İnam, Sevgi ortamı, bir də var, inamsızlıq ortamı.

***

Dində Göylər insanı heç eləyir, İnamda özünə qovuşdurur.

***

Xalqın içində olmalı, onların içində yığılıb qalmış ağrıları, acıları dindirməli, dinləməli – İnsanlığın Qurtuluş olduğunu öyrətməli.

***

İnsan öz insani kimliyini Məna ilə birləşdirir. Ya da Mənanı kimliyinə gətirir. Məna insanın yüksək ruhani xarakterində ifadə olunur, öyrədir, xatırlanır. Bütün bunlar "Mən" adlanan bir ruhani xilqətin mövcudluğunda, bədənində baş verir. "Mən"i tanıyan məndə Mənanın obrazlaşmış surətini görür, o cür deyir, o cür xatırlayır. Mən ömürlərə elə köçürəm. Bilənlərə, eşidənlərə, öyrənənlərə həmin obrazla örnək oluram.

***

Ümid olmasa, rahatlıq yoxdur. Rahatlıq ümidlə yaşayan bir keyfiyyətdir. Ümid yaşayanda rahatlıq, nikbinlik doğur.

Canın ağrıları sevgini aradan qaldırmır. Sadəcə aktiv ifadə olunmasına əngəl olur.

***

Bir var təsəvvürdə şübhə – üz-üzə gələndə aydınlanır. Bir də var sirrə çevrilən şübhə – bunu aydınlatmaq asan olmur.

***

Sözlə oyun oynayıb qalib görünmək olar, ancaq qalib olmaq olmaz.

***

Milliliklə oynayıb şöhrət yığanlar, ehtiyatlı olun! Millətini sevən arı-duru insanları aldatmağa, çaşdırmağa qalxmayın öz oyunlarınızla. Onsuz da "Gələcək" – hər şeyi ucdantutma həzm eləmir, öncə hər şeyi süzgəcdən keçirir.

***

Sürətlə silahlanma – iqtisadiyyatın kapitalistlərin əlində toplanması üçündür.

***

Xalqı yad mədəniyyətdən, yadların gəlişindən, pozuculuqlarından qorumaq yerinə, xalqı əzməklə özünü qoruyur dövlət başında duranlar.

***

Asif Atanı Məhəmmədə rəqib kimi sunmuruq. Peyğəmbərlik – rəqabət oyununun olayı deyil. Rəqabət siyasətdə olur. İnsanlığın Qurtuluşu yönündə ideyalaşan, Hərəkatlaşan bir olay (Ocaq) rəqibləşə bilməz.

***

İnsanlaşmanı – tərbiyə faktı ilə qarışdırmaq doğru deyil. İnsanlaşmanı öyüd vermək yolu ilə oluşdurmaq olmur, İnamla gerçəkləşdirmək olur.

***

Ey könlü cənnət nəşəsi ilə xumarlanan dinçi soydaşım! – Asif Atadan qorxma. O, səni, bütövlükdə İnsanlığı qurtarmağa gəlib. Ürəyini onun üzünə aç. Öyrənməyi, inanmağı bacar. O sənə dəyər verir, sən də onu görməyə çalış.

***

Ata, ana səlahiyyətinin fərqi insani fərq deyil, ailəni qorumaq, bəsləmək sorumluluğudur (atanın səlahiyyəti (haqqı yox) anadan çoxdur).

***

Kamilləşmə Yolu – Dünyanı yenidən tanımaq gərəkliyi doğurur. Yaşamağa oxşamayan yaşamağı rədd edir.

***

Münasibət yalanı: Təhqirə bənzəyən pərəstiş, – pərəstişə bənzəyən təhqir!

***

İnsanı alçaldıb dövlətlə gəlişmə yoluna düşmək əfsanədir. İnsan özgür deyilsə, dövlətin bağımsızlığından, gücündən danışmaq yalandır.

Ərdoğan Türkiyə insanını cəhalətə sürüyür, aldadır, alçaldır, ancaq ərdoğançılar deyirlər, –Türkiyə gəlişib bölgəsəl gücə çevrilir. Bunu demək alçaqlıqdır.

Çağdaşlığa addım götürən bir toplumu 7-ci yüzilə qaytarmaq eybəcərlikdir.

İmperializmin eybəcərliyi bütün çılpaqlığı ilə üzə çıxdığı bir zamanda Ərdoğan yeni imperiya quracağını vəd edir. Miskin bir boşboğazlıq, mənəviyyat düşmənçiliyi.

Xalqlar avtoritar rejimdən qurtarmaq istədiyi bir vaxtda, o, mən diktatura quracam deyir. Miskin bir kütlə də onun yalanlarını alqışlamaqla qoçuluğu qurtuluşun avanqardı kimi təbliğ edirlər.

Dinin yalan yaydığı, gərəksiz olduğu üzə çıxan bir zamanda yalanı dövlətin başına çıxarmaq eybəcərlikdir.

***

Ədəbiyyatda tayfaçılıq, dostbazlıq, yerliçilik sindromları sənətin durumunu çox aşağı salıb. Pul qarşılığında dərin sənət örnəkləri yarana bilməz.

Ədəbiyyatşünas dolanmaq istəyir, böyük ədəbiyyat yaratmaq istəmir. Başqa sözlə, heç kim sanki vətən, millət istəmir.

Ədəbiyyatda millətçilik ruhu olmalıdır, onda o, bəşəriyyətə daha uca söz deyər.

Ədəbiyyatda iki ideoloji xətt – vətənin, millətin ağır çağlarında ayaqda olmalıdır: bir, intibah xətti, bir də inqilab xətti.

İnsançılıq həqiqətini dərk etmədən böyük ədəbiyyat yaranmaz.

Ədəbiyyat – həm tarixi həqiqətləri vəsf eləməlidir, həm də bu gündən gələcəyə örnək olan ideyaları, idealları. Ədəbiyyatın sağlam vəsf keyfiyyəti oxucuda gerçəklikdən üstün dünyagörüş formalaşdırmalıdır.

Eyni halda, ədəbiyyatın axtarışları təkcə çağdaş sınırlarımız içindəki yaşam prinsiplərini deyil, indiki sınırlarımızdan qıraqda yaşayan soydaşlarımızın durumunu da qapsamalıdır…

***

Yoxsulluq içində yaşadığın üçün Allahın (əslində Mütləqin) ölümünə inanmaq istəyirsən. Bilmirsən ki, Allahı içindən çıxaranda Allah ölmür, için ölür – Allahsız (Mütləqsiz) qaldığı üçün. İnsanın içini diri saxlayan Allah anlamıdır. Ölü yaşamaq istəmirsənsə, Allahsız (əslində Mütləqsiz) olma.

İçini öldürüb zamanın günahını Allahın üstünə atırsan. Allahın üstü günah götürməz. Allah anlamı üstdən, altdan, sağdan, soldan üstündür.

***

Xəyalındakı Allahı Mütləqilikdən ayırmısan. Mütləqiliyini itirən Allah insanları birləşdirmir, ayırır. Həm din ilə ayırır, həm də özünü insanların üstündə tutmaqla (fövqəl olmaqla). Din üçün Adamın İnsanlaşması – Allaha itaət göstərməsidir. Əslində itaət – simasızlaşdırmadır, İnsanlaşdırma deyil.

***

Aşiqlik – ölümsüzlükdür. Ölümsüzün kimliyi, təbiəti dəyişməz. Dəyişkənlik ölümlüyə xasdır.

***

Kimlərinsə həyatı qaralamağa gücləri çatırsa, biz – Vətən sevgimizdən, İnsan sevgimizdən əl çəkməli deyilik axı!

***

Din deyir, – Allah istəsə filan şey olar. Əslində Allah istəmir, – insan ya uğurlu işlər görər, ya da pis işlər. Allah (əslində Mütləq) İnsanda yaşadıqca insan uğurlu işlər görər. İnsan Allahdan uzaqlaşdığı dərəcədə də pis əməllər törədər. Yəni nə eləyər insan eləyər, Allahın elədiyi deyə bir şey yoxdur.

***

Din – Allahın işinə qarışmamağı xəbərdarlıq edir.

İnam Allahın (əslində Mütləqin) sirlərini açmağı tələb edir. Yəni Mənanı öyrən, dərk elə, ifadə et. Sirləri aç, öyrət, de. Bireysəl münasibətlərdə kiminsə sözünü kiməsə demirsənsə, bu, sirr saxlamaq anlamına gəlmir, qeybəti özünə sığışdırmamaq anlamına gəlir.

***

"Şər – Xeyirin yoxluğudur" düşüncəsində nəyin Mənadan başlayıb başlamaması məsələsi var. Dində Xeyir də, Şər də Allahdan gəlir. İnamda Xeyir – Mənadan gəlir, Şər – Xeyirin gerçəklikdə (əməldə) qırıldığı məqamdan (zamandan) başlayır. Yəni Xeyir – əzəlidir, əbədidir, Şər – zaman içrədir, əbədi deyil...

Şirin parçalaması, öldürməsi fəlakətdir, ancaq bu fəlakət birbaşa Mənadan gəlmir, təbiətdən gəlir. Təbiət – Məna deyil, yəni Allah deyil.

Panteizmdə Təbiət – Allahdır, Mütləqçilikdə Təbiət – Mənanın görsənişidir (təzahürüdür), özü deyil.

Adam cinayət törədir – bu, Mənadan gəlmir, xislətdən gəlir. Mənanın kamil olmayan görsənişi var, ancaq şər görsənişi yoxdur. Təbiətdə fəlakət var, ancaq şər yoxdur. Şər – bilə-bilə müqəddəsliyə kölgə salmaq, ortadan qaldırmaq davranışından doğur. Məna kamil görsənişə gəlmir (təzahür etmir), (Mütləqə İnam baxışına görə) özündən aşağı görünür. Sonradan ruh araçılığıyla Mənaya canatma var. Bu da İnsanda baş verir.

Gerçəklik əməldə kamilləşir. Belə də deyə bilərik: ruh – Məna tələbinə cavab verən kamillik yetirir. Məsələn, İnsanlığa bərabər əməllər, daha doğrusu, insani münasibətlərin kamilliyi, özü də davamlı olaraq, – bir yol (dəfə) yaxşı, bir yol pis yox. Kamil insan Adamlıq eybəcərliyinə qəzəblənəndə belə, kamillik aradan qalxmır.

Bir var eybəcərliyə qəzəblənmək, bir də var, eybəcərliyi qonu eləmək. Qonu edəndə eybəcərliyə enmək baş verir.

***

Sufilərin Allahlı yaşaması ilə Asif Atanın Mütləqli yaşaması fərqlidir. Sufilər Allaha doğmalaşır, ancaq Allah olmur. Asif Atanın baxışına görə İnsan Mütləqləşə bilir. Yəni Allah sevgisiylə yaşamaq ayrı, Mütləqə bərabər yaşamaq ayrı...

***

Bir sıra fəlsəfələr hər şeyi nisbi sayır. Hər şey nisbidirsə, bəs yenilənmə nədir? – Dəyişməyən Məna daim yeni yoxolanlar – nisbilər doğurur.

Etiqad, dostluq əbədi olmalıdır. Dost ölür, dostluq əməlləri qalır. Örnək qalır – Şəmslə Ruminin dostluğunun dünyada qoyduğu əməllər kimi.

Dialektika Mənaya çatmır, gerçəkliyə özgündür. Gerçəklik fəlsəfəsi yalandır. Dəyişkənliyin, ölümlünün fəlsəfəsi olmur.

Sənətdə ahəngin dəyişməsi var, yəni gəlişmə, assosiayalar, – yəni sənətin dialektikası. Bu, içsəl məzmuna qarşı olanda sənət heç olur. Olmayanda üzdəki dəyişikliklər məzmunu zənginləşdirir.

***

Bütövlük – ziddiyyət: Dünya ziddiyyətlidir. Ziddiyyət insanda başa çatır.

Məna Bütövdür, görsəniş (təzahür) ziddiyyətli. Məna görsənişdə özündən ayrılır, əksilir deyir Asif Ata. İnsanın məqsədi Mənadan ayrılanı Mənaya bərabər eləmək yox, Mənalandırmaqdır (əməli ilə).

Təbiəti insan eləmək olmur, ancaq İnsaniləşdirmək olur. Yəni təbiətə İnsani münasibət bəsləmək.

İdrak üzdəki ilə uğraşırsa, onun həqiqətinə bel bağlamaq olmaz. Alimin idrakı əsillikdən aşağıdır. Həqiqəti görən idrak – Ruhani İdrakdır. Gerçəkliyi öyrənən idrak Ruhani idrakdan aşağıdır. Elm, alim gerçəkliyi öyrənir.

Bağımsızlıq (Müstəqillik): "Olaylar bir-birinə keçir"..., "Mahiyyət bağımsızdır". Gerçəklikdə həqiqətlə yalan birgə yaşayır. İdrakın məqsədi Mütləq həqiqəti dərk etməkdir – Məna səviyyəsində həqiqəti.

Xarakterdə cəsarətlə qorxaqlıq qoşa yaşayır. Qorxaq cəsarətli bilinir.

“Əksiliklərin Birliyi” – əslində asılılıq fəlsəfəsi.

“Zaman nisbi vaxtdır” – Nisbi vaxta sığışan kamillik, cəsarət, hünər insanı qane etmir! Bu, Ölçüdür!

"Həyat Mütləqə çatmır, idrak çatır. İdrakilik Mütləqilikdir!". Deməli, İdrak (Mütləqə çatmağı bacaran) həyatı inkişafa aparır!..

***

Sevənlər pıçıldayır, başqaları eşitməsin deyə. Niyə, məgər sevgi ayıblı işdirmi?! – Sözsüz, yox! Sevgidə ən arı, bakirə duyğular oyanır. Bu duyğuların etkisi möhtəşəm olsa da, çox kövrək olurlar, yad nəfəsdən inciyirlər. Bu duyğular – sevən, bir canda yaşamağa can atan iki könülün müqəddəs bağları kimi mövcud olub yaşayırlar. Bu duyğular bir könüldən o biri könülə bu pıçıltılarla axıb dolur. Sevməyənlər bu pıçıltıların müqəddəsliyini dərk eləmirlər. Bu pıçıltıların ifadə elədiyi gözəlliyin bakirəliyinə xələl gətirirlər. Bu pıçıltıları dilədişə salırlar, adiləşdirməyə çalışır, günaha bənzətmək istəyirlər. Sevən könülləri tikan kimi qanadırlar. Ona görə sevənlər sevginin sirrini gizlin tuturlar, ürəyin ən dərin qatlarında qoruyub bəsləyirlər. Yalnız bir-birinə pıçıldayırlar. Bu pıçıltılar – ürəyin ən dərin qatlarında bəslənilən sevgi nəğmələridir. Bu nəğmələri yalnız əbədiyyət işığı ilə aydınlanan, sevən ürəklər dinləyə, anlaya bilir...

***

Türkoloq Bartold yazırdı: "... Xanədanın təşəkkül etdiyi yerdə Azərbaycan əhalisi hələ o zaman türkcə danışırdı..." Bartold bunu Səfəvi dövlətinə yönəlik yazırdı. Şah İsmayılın kitabının yenidən çap olunmuş variantına "ön söz" yazan Əzizağa Məmmədov isə Bartoldun "yanlışı"nı düzəldərək "azərbaycanca" yazır. Yazıqlar olsun qorxaqlığa, qorxaqlara...

***

H.Əliyev mədəniyyət adamlarına "ad" verib, şöhrətləndirib özünü öydürürdü, mədəniyyəti isə öldürürdü. Biz indiki soyun (nəslin) arasında (saraya sığınanlar içində) ciddi yaradıcılığı olanlara rast gəlmirik.

Kino, sənət, teatr sıradan çıxdı, çıxarıldı. Sənət adamları içərisində istedadı olanlar dolanmaq üçün alverə qurşandılar.

***

H.Əliyev istedada əmr edir, ona üstdən aşağı baxır, istedadlıda özünə qarşı minnət yaradırdı. Kimlər boyun əyməyi özünə sığışdırmırdı, onları hədələyirdi.

***

Şah İsmayıl Hürufilərin qurmaq istədikləri Azərbaycanı birləşdirdi. Ancaq ona Hüruflik ruhu verə bilmədi.

***

Biz, Mütləqə İnam Ocağı klassik sənət örnəklərində İnsanlığın izlərini axtarıb gerçək həyatla tutuşdururuq. Həyatın öz anlamından aşağı olduğunu anlatmağa çalışırıq.

***

Ş.İsmayıl nə qədər bölgələr fəth etmiş, ancaq qısa ömründə bədii yaradıcılıq da ortaya qoymuşdur. Görünən odur ki, Ş.İsmayıl, başqa şahlar kimi eyş-işrətə qurşanmamış, siyasi quruculuqla, bədii yaradıcılıqla uğraşmışdır. Onun məhsuldar bədii yaradıcılığının olması – yaradıcı insanlarla oturub-durmasına, irfan adamlarından bəhrələnməsinə görə idi.

***

Göyel dinlərin dediyinə görə, bəşəriyyətin ilk əcdadı sayılan Adəm cənnətdə buğda yediyinə görə günah işlədib, Allah da onu cənnətdən qovub. İndi Adəmin törəmələri ibadətlə uğraşmalı, Allahın yolu ilə getməlidir. Bu əməldə özünü doğruldan insanları yenidən cənnətə qaytarmaq vəd olunur. Axı Adəmin törəmələri – bəşər övladı hər gün buğda (çörək) yeyir. Yəni hər gün "günah" işlədir. Bəs hər gün günah işlədəni necə cənnətə götürəcəklər?!

***

İdeoloji türkçülər Türk dilinin sıradan çıxmasından rahatsız olurdular, ancaq Batı mədəniyyətinə söykənirdilər...

Adlarının, soyadlarının nədən ərəbləşdiyinin anlamını unudurdular sanki. İslamın gəlişiylə hər şeyin dəyişildiyini dilə gətirmirdilər, islamlaşmanı ideoloji baza kimi görürdülər...

Onların qabaqcıl düşüncələri Avropa ilə bağlantıdan qaynaqlanırdı. Çünkü islam geriliyinə qarşı başqa tutalqa yox idi. Ona görə Avropanın mədəniyyəti qurtuluş kimi görünürdü.

Asif Ata çıxış Yolu yaratdı – Eşq olsun!

***

“Osmanlı xalqı” (yəni müsəlman) – “Sovet xalqı” qədər fəlakətli, eybəcər bir deyilişdir.

Osmanlı dili – yəni farslaşmış, ərəbləşmiş hibrid bir eybəcərlik. Soylar öz dilini anlamamaq faciəsi yaşayıb indiyə kimi. İndi də elə türk sözlərimiz var, işlədəndə çağdaş türklər o sözləri anlamırlar.

***

H.Əliyev dönəmində heç bir türkçü təqib olunmadı. Tərsinə, H.Əliyev onlara mandat verdi, ödül verdi. Onlar da H.Əliyevin Türkçülüyə qarşı çıxmasına (adı, dili azərbaycanlaşdırmasına) dirənmədilər. Necə deyərlər, əl əli yuyar, əl də üzü...

***

Türkiyədə yenidən Türkçülüyə ciddi başlamağın gərəyi artır. Türkiyə Osmanlıya qayıtsa, ya da ona bənzər din xarabasına çevrilsə, Türklüyün sürəkli çöküşü başlayacaq.

***

Düşünürəm ki, ərəb cəfəngiyyatlarını danışıb dinləmək yerinə haqq dastanlarımız, folklor örnəklərimiz oxunub öyrənilməlidir. Məscid yoruculuğundan gəncliyi uzaqlaşdırmaq gərəkdir. İrançı mollalardan heç kim milli ruh öyrənə bilməz.

***

Bir nəfər müsəlman deməyib ki, Məhəmmədin, ya Əlinin ruhu məndə yaşayır. Çünkü özünü onlarla tutuşdurmaq kafirlik sayılır.

***

Osmanlıdan sonra da dil tam arınmadı. Çünkü bir yandan İslam-ərəb mədəniyyətinin etkisi şüurlarda qaldı, bir yandan Batı anlayışları bilim (elm) yolu ilə dilimizə yeriyib möhkəmləndi.

***

Bu gün Türkçülüyə daha böyük gərəklik yaranıb. Azərbaycanda, sovetlər dağılandan sonra da, ruslaşma ortadan qalxmadı. Türkiyə yenidən, total şəkildə, İslama qayıtdı. Milli şüur ruhani işğaldan qurtarmayınca, Türklük bütöv oturuşa bilməyəcək.

***

Türkiyəni federallaşdırmağa, bu yolnan parçalamağa çalışacaqlar. Türklük şüuru möhkəmlənməlidir.

***

İdeoloji Türkçülər milli zərərlərdən daha çox siyasi zərərləri hesabladılar. Ona görə millilikdə yolverilməz güzəştlərə getdilər. Ən böyük zərər "üç tərzi siyasət"ləri oldu.

***

Ş.İsmayılın yaratdıqlarına qarşı da söz deyiblər. "Köhnə, çürük İran mədəniyyəti" deyəndə, məncə, Ş.İsmayılın şiəlik məsələsini göz önündə tuturdular. Bu düşüncə Türkçülüyü deyil, əslində İslamı qoruyur.

***

Filosof ruh yaratmır, düşüncə yaradır.

Peyğəmbər ruh yaradır, – ruhani düşüncə yaradır...

Məhəmməd ruh yaradıb onu qorxudub. Belə də deyə bilərik, – qorxaq ruh yaradıb. Qorxaqlıqdan Azadlıq düzəltmək istəyib. Əslində peyğəmbər insanın ruhunu yaradıb ona Atalıq eləməlidir. İnsan – ruhani qorxmazlığa yetəndə var olur.

***

Buğda yemək – bilik qaynağıdır. Deməli, Adəmlə Həvva biliyə yetdikləri üçün cənnətdən qovulublar. Demək, İblis insanı biliyə yönəldib, bununla da günah işlədib. Demək, Bilik –"günah" qaynağıdır. Demək, günah işləməmək üçün bilməmək gərəkdir. Demək, günahsız olmaq üçün biliksiz – nadan, avam olmaq gərəkdir.

Din insana öyrədir ki, qanma, bilmə, anlama, ancaq Allahı sev. Demək Allahın qanmazların sevgisinə ehtiyacı var. Deməli Allaha münasibətin adı qanmazlıqdır. Deməli, insan biləndə Allahdan uzaqlaşır, bilməyəndə Allaha "yaxınlaşır".

Əgər Allah – insanın özümlüyü kimi tanıdılsaydı, insan bildikcə, dərk elədikcə özümlüyünə yaxınlaşardı, ondan vaz keçməzdi. Allah – transsendental, insanüstü, insandan uzaq – göylərdə tanıtdırıldı. İnsan isə biliyə yetdikcə buna inanmadı. Ona görə ona yanlış tanıdılan, ondan uzaq olan Allahdan uzaqlaşdı. Ancaq həqiqi Allah anlamını da tanımadı, – bununla da öz içindən uzaqlaşdı. Bilimdən gələn Biliyin dalınca getdi. Mənadan gələn Biliyin anlamına yetmədi. Yəni insanın içindən gələn biliyə yox, çölündən gələn biliyə üz tutdu.

Gerçəkliklə Məna insanda bir-birindən ayrılır – Allahla insanın ayrıldığı kimi.

Bilimin verdiyi biliklə için həqiqətini birləşdirən İnam gərək idi – bunu Asif Ata yaratdı.

***

Bir var yeni düşüncə, yeni Baxış, yeni ideya yaratmaq. Bir də var olan düşüncəni, Baxışı, ideyanı (yəni mövcud olanları) araşdırmaq. Birinci filosofluqdur, ikinci fəlsəfəçilik.

***

Söz insana bilik də verir, yönətir də, aldadır da. Söz – mənəviyyatdan ayrılanda insana yad olur.

***

Yoxsulluqla Yoxluq arasında bir addım yol var. Yoxsulluq mənəviyyata yansıyanda insan Yoxluğa yuvarlanır.

***

Dinin cənnət ideyası əslində Allaha qarşıdır. Çünkü cənnət – "əbədi həyat" deməkdir. Həyat cismani mövcudluqdur. Dinə görə yalnız Allah əbədidir, qalan hər şey fanidir. Əbədi cismanilik – Allahın danılmasıdır...

Cənnət – Allah qatına yüksəlmək deyil, Allahın mərhəmətinə sığınmaq deməkdir.

Əbədilik isə pay, hədiyyə deyil. Əbədilik verilmir – əbədiliyə yetilir. Məhkəmə yolu ilə (Hinkir-Minkir sorğuları) insanı əbədiliyə seçmək oyundur. Əbədiliyə gedən yolda əzab var, oyun yoxdur.

***

Heç kim körpəyə gülmək öyrətmir, iməkləmək, ağlamaq, ayağa durub yerimək işlərini gördürmür. Yəni insana Məna, olanaq sonradan pay verilmir. Din yanlış olaraq, bunu "alın yazısı" kimi dəyərləndirir. "Alın yazısı" – insanı asılı duruma salır. Əslində insanda öncədən, yəni doğuluşdan olan Məna, olanaq (imkan) onun Azadlığıdır. Mənanın, olanağın aşkarlanması insandan asılıdır. İnsan olanaqlarını üzə çıxartmayanda din deyir: onun ağlı, qulağı, gözü möhürlənmişdir. Bir sözlə, din insanı insandan qırağa bağlamağa çalışır, öz içinə yox. Din qıraq qüvvə ilə insanı yönətməyə (idarə etməyə) çalışır. Yönətilən (özündən asılı olmayan) mənəviyyat – ölü mənəviyyatdır. Ölülük – Azadlığa tərsdir. Dinin məntiqi Azadlığa qarşıdır.

***

Güney Azərbaycansız Azərbaycan gücsüz Azərbaycandır. O, daim özünə yalançı arxa axtaracaq – İsrailmi, Rusiyamı, Batımı, Avropamı deyə soruların əlində yesir olacaq. Bu gün Türkiyə belə, ərəbmi, İsrailmi, Batımı, Rusiyamı deyə vurnuxmaqdadır.

***

Yalanlardan həqiqət uydurmaq – siyasi bacarıq sayılır...

***

Bu gün Rusiya anlayır ki, bundan sonra davamlı şəkildə erməni zəhlətökənliyinin arxasında dursa, öz varlığını itirə bilər. Ona görə Türklük məsələsində Batı ilə birgə hərəkət edir. Bunları üzdə göstərməməyə çalışır.

***

Rusiya Türkiyə ilə Ermənistanı (öz nəzarətində) barışdırmağı düşünür. Bu münasibətlər Azərbaycana nə vəd edir?! Türklüyə münasibətdə Rusiyanın neytrallaşmasına yer yoxdur. Onun içi bütöv türkdür. Rusiya hansısa "yüzillik Bağlaşma" ortalığa gətirib özünü qorumağa çalışar. Bu bağlaşmadan Türkiyə ilə Azərbaycanın qulağı dinc olacaqmı – demək çətindir. Ancaq Güney Azərbaycan məsələsi (Azərbaycanın bütövləşməsi) yüzil də qapana bilər.

***

Dövlət uluslararası sivil qaydalara da əməl etməyi bacarmalıdır. Ancaq Ermənistan yarandığı yüzildə heç bir sivil qaydalara əməl etməyib, daim terrorla uğraşıb. Dünyanın gözü qarşısında Ermənistan terror dövləti kimi yaşayır. Onu yaradan güclər də terroru asan yerinə yetirmək üçün "terror dövləti" yaratdılar. Başqa sözlə, terrorun dövlətini yaratdılar. Ona görə Ermənistan dövləti ləğv olunmalıdır. Ancaq bunu dünya güclərindən gözləmək olmaz. Bu əməli Türk gerçəkləşdirməlidir. İnsanlığa qənim kəsilən, Türklüyün torpağında qurulan terror dövlətinə Türkün gücü son verməlidir.

***

Azərbaycan rəsmiləri deyirlər: Rusiya üzərinə düşən öhdəliyi yerinə yetirməli, ermənilərə basqı göstərməlidir. Onların anlamadığı bir məsələ var: Rusiya üzərinə öhdəlik götürmür, öhdəlik ödədir. Bunu da erməniyə qarşı yox, Azərbaycana qarşı eləyir. Rusiya Ermənistanı niyə yaratmışdı ki, Azərbaycanın xeyrinə ona basqılar göstərsin?!

***

ABD-dən ədalət umanlar heç vaxt məsələləri doğru qiymətləndirə bilmədilər. ABD imperiyadır. İmperiyanın atdığı addımlar "sivil siyasət" anlamına heç vaxt uyğun gəlməz.

***

İslam dininə özgün olan abidələri, məscidləri ermənilərin dağıtmasına sevinmirəm. Türk ona yad olan mədəniyyəti özü öz həyatından çıxarmalıdır. Düşmənin bunları eləməsi toplumumuzu daha da dinə bağlayır. İş – toplumun düşüncəsində, içində getməlidir, bunu toplum özü həyata keçirməlidir. Yəni erməni dini tikililəri məhv eləməklə Mütləqə İnamın dəyirmanına su tökmür, suyunu bulandırır.

Bəlkə də dini alçaltmaqla bu toplumu ona daha çox bağlamağa çalışırlar ki, millətimizin şüurunda cəhalət ortadan qalxmasın.

***

Dərd dərin olanda üsyanı da dərin olur.

***

Göyə əl açanın dili gödək olar;
Göyə ucalanın könlü göytək olar.

***

Uzun dərd ruhani ömrü uzun eylər,
Yoğun dərd ömrü solğun.

***

Dərdlə qocalan çox oldu,
Dərdlə ucalan az.

***

Deyirlər ürək nasos funksiyası yerinə yetirir. Ürəkdə ayrı şey yoxdur, ancaq qanı götürür, vurur. Bu düşüncənin adamlarına görə

Duyğu da, düşüncə də beyinin məsələləridir. Onda sual yaranır: nə üçün kədərlənəndə, dərdlənəndə beyin deyil, ürək ağrıyır?!

Ey ürəyi anlamayan əqliyyətçilər, sizin gözünüz nasosu görür, ancaq beyinlə bağlı olan ağlınız ağrını görmür. Ulular ürəyə boşuna ruhanilik anlamı verib obrazlaşdırmırlar.

***

Rusiya daim yalan danışır, yalan tarix yazır. Onun torpağı olmadığına görə tarixi də yoxdur. O, yalanlarla yaşayır, həqiqətlərlə yox. Yalan yenildiyində Rusiya olmayacaq.

***

Sabah erməni ilə döyüşəndə güllə rusa dəyəcək. Bunu hazırlayırlar ki, Azərbaycan əbədi səksəkədə olsun.

***

Türkiyəli, ya Azərbaycanlı bir araşdırmaçı (Türkiyə türkcəsində qonuşurdu, adına Əkbər xoca deyirdilər) deyir, Quran "oxu" deməkdir. Sonra açıqlama verir: rəbbin ismini oxu, ondakı sirri oxu... Sonra davam edir ki, dünya yoxluqdan yaranıb. Ona demək gərək, o zaman anlat görək, oxuyub nəyə yetmək olur?! Yoxluqda nə tapmaq olar ki?! Yoxluqdan sirr gəlməz, sirr varlıqdan gələr. Dünya yaranana qədər Allah yoxluqdamı idi?! Yoxluqda olmaq nə deməkdir?! Sirri oyuna çevirməklə varlığı dərk eləmək olmaz.

***

Məhəmməd Əbu-Bəkrin alveri ilə xilafət qurmuş, hökmdar olmuşdur. Ancaq vərəsəlik quralını ortadan qaldırmamışdır. Ona görə iki varisi üz-üzə qalmışdır: – Yatırımına söykəndiyi Əbu-Bəkr, bir də soy varisi Əli Əbu Talib oğlu. Bu da Məhəmmədin yandaşlarının bölünməsinə gətirib çıxarmışdır.

Min ildir, nə Quran, nə də Allah bu bölünmüşlüyü ortadan qaldıra bilmir.

***

Məhəmməd də, ondan sonrakılar da "Allah" ideyasını işləyib başa çatdıra bilmirlər. Ona görə Allaha adam xarakteri verib uydururlar. Harda ki ilişirlər, yol tapıb izah verə bilmirlər, – orda adama özgün olan gerçək xislətləri Allaha aid edirlər.

***

Məhəmməd şəxsi istəklərinin Allahdan gəldiyini iddia edir. Daha doğrusu, o, Allahın onun şəxsinə yönəlik buyruqlarını yerinə yetirdiyini dilə gətirir. Guya Allaha çox gərəkmiş Məhəmmədi hansı qadının görüşünə göndərmək.

Bioloji istəklər mənəvi tələblərdən ayrıdırmı?! – Olmamalıdır. Birləşdirmək gərəkdir. Ancaq bioloji istəkləri mənəvi tələblər nizamlamalıdır. Z.Freydin dediyi kimi, biolojilik mənəviliyi nizamlamalı deyil. Oluşdurmalı heç deyil, – oluşdurması düzgün yanaşma deyil. Yəni mənəviliyi biolojilik oluşdurmur.

Z.Freydə görə mənəvilik – biolojiliyin sıxışdırılmasından əmələ gəlir.

Z.Freyd ardıcıl materialist kimi çıxış edir – sosiallıq, biolojilik maddilik əsasdır, hər şeydir.

***

Biz İnsanlığın bayrağını təkcə türklərin deyil, özünün insan olduğunu anlamaq istəyən bütün bəşər övladının başı üzərinə qaldırmasını istəyirik...

***

Qadının gözübağlı yaşaması – bioloji varlıq olmasından uzağa getmir. Özünün insan olmasını anlaması üçün onun gözünü ruhsal yasalar (ruhani qanunlar) açmalıdır. Bundan qıraqda gözü açılanda həyat onun üçün adiləşir, həyatı dəyişməyə gücü çatmır, həyatın bayağılıqlarına bulaşmaqda yeni aşamaya keçir.

***

Uğurlu söz deyiləndə adamların duyğuları oyanır. Elə davranırlar, elə bil, indi dağı dağ üstə qoyacaqlar. Ancaq bu sözün etkisindən ayrılan kimi ömründə daha güclü olan duyğular – cəsarətsizlik, qorxaqlıq b.k. işə düşür, adamların xeyirə boylanan kövrək duyğuları geri çəkilir. Ona görə bir dəfə söz eşitməklə ömürdə böyük dəyişikliyə yetmək olmur. Ömrü ardıcıl böyütmək, ardıcıl işlətmək gərəkdir. Bu açıdan (əski anlayışla desək) mürşid-mürid münasibəti çox önəmlidir. Bu münasibət böyüdüb Yola yönəldir.

***

Allah – hər kəs üçün hər kəsin onu necə düşündüyü kimidir. Ancaq bunların heç biri Allah (yəni Mütləq) deyildir. Bunların hamısından daha uca, daha yetkin, daha dərin bir Anlamdır.

Bəziləri Allahı gerçəkliyə uyğun təsvir edər. Çünkü onların anladığı – gözlərinin gördüyü qədərdir.

Bəziləri Allahı öz çıxarlarına uyğun obrazlaşdırar. Çünkü anlağı öz çıxarlarından uzağa getməz.

Bəziləri Allahı xəyal edilə bilməyəcək qədər gizli, qapalı, məchul təsəvvür edər, – çünkü onlar xəyal ilə gerçəkliyi birləşdirə biləcək inamın yiyəsi deyillər.

***

Bəşər övladı içdən dəyişəndə Yerin, Göyün anlamı da dəyişəcək. Yer-göy xurafatlaşdırılmaqdan qurtulacaq.

***

Hürufilikdə ilkin (doğal) 7 xətt – həqiqətin imkanda olması anlamı daşımalıydı. Sonrakı 7 xətt isə həqiqətə yetmək üçün inkişaf xətti kimi dəyərləndirilməliydi…

***

Sevənlər həmişə görüşəndə bir-birinə quşlardan, güllərdən, buludlardan, ulduzlardan danışarlar, – Yer möhnətindən danışmazlar. Sevgi dünyalarına dolaşıq sözlər, bulaşıq əməllər gətirməzlər.

Ürəkdə sevginin azadlığını qoruyarlar. Arı duyğularını qorumaq üçün qonunu doğadan seçərlər. Doğada hər şey doğaldır. Doğal olanlar arı olurlar. Sevgi əhvalları arındırır, dupduru eləyir. Arı olmayan qonular arı duyğulara qona bilmirlər. Duyğuların qanadları arı olmayan ağırlıq altında göylərə yüksələ bilməz. Sevdalı ürəklərin arı duyğuları heç bir çağda göylərdən yerə meyil eləməz. Romantika dediyimiz əslində budur.

***

İsanın Allahının adı sevgidir, Məhəmmədin Allahının adı qorxu. Ona görə İsa Məhəmməddən qüdrətlidir.

Asif Atanın Allahının adı isə İnamdır. Ona görə Asif Ata İsadan böyükdür, Məhəmməddən qüdrətli.

Ən böyük sevgi belə parlaqlığını, gözəlliyini İnamın işığında qoruyub yaşaya bilər.

Min qorxunun kölgəsi bir İnamın işığının qabağını kəsə bilməz. Mənim ürəyim sevgili davransa da, İnamlı yaşayır – İnamla yaşayır.

***

Danışmaq – ya zərər haqqında, ya da yarar (mənfəət) haqqında olur. Ancaq zərərdən də, yarardan da daha dərində yaşarılıq anlamı var. Onun adı ölümsüzlükdir. Danışanda qonun budursa, ruhani xilqət olduğunu təsdiq edirsən.

***

İnsanı ixtisaslaşdırmaq onu azaltmaqdır. İnsanı İnsanlaşdırmaq gərəkdir.

***

Ataya gərəklik (ehtiyac) heç vaxt ortadan qalxmayacaq…

***

Tanrısal varislik – indiki dinlərin əski baxışlar üzərində formalaşması.

***

Animistik düşüncə – etnoqrafik faktlarla uyuşa bilmir. İslamda animistik düşüncələr davam etdiyi üçün ümmət anlayışı ortaya çıxdı.

***

Dini ən çox toplumsal düşüncənin predmeti kimi şərh etməyə çalışırlar.

***

Yaranışa naturalizm açısından yanaşmada materialist "əzəli"lik var. Bu, ateizmin oluşma səbəblərindən biridir...

***

İnamın oturuşmasından sonra, Kremasiya (ölünü yandırma), ola bilər yenidən bəşəriyyətin gündəminə gəlsin.

Yandırmada ruhun təmizlənməsinə inam olub. Bu inam kamil deyil. Ancaq çağdaşların duyğularını pis etkiləsə də, ölü bədənin yandırılması basdırılmasından daha qabaqcıl görsənişdir.

***

Araşdırılmalarla, izləmələrlə, faktlarla gerçəkliyin öyrənilməsi mümkün olduğu halda, Məna ilə bağlı çoxsaylı mülahizələr ortaya çıxır.

***

Biliyi hər kəsə vermək olmur. İnformasiya bolluğu həqiqi Biliyi kölgədə buraxır.

***

Bir var, biliklənib çıxarları (mənfəəti) tanımaq, bir də var, biliklənib Mənəviyyatı tanımaq...

***

Ən çox öyrənilən məsələlər: ontologiya, fiziologiya, kosmologiya, teologiya. Hər şey nəzəriyyə. Mənəviyyat nəzəriyyədən üstündür axı.

***

Rəssamlığın gücü – nəyi təsvir etməsindədir. Rəssam əsərdə bədənimi (fizionomiyanımı) verir, xarakterimi?! Natura rəssamlığı istedada bərabərdir, hər bir cizgidən xarakterin oxunması isə istedadın Ruhani idraka bərabər olmasına görədir.

***

Oksigenlə hidrogen birləşəndə su əmələ gəlir. Hidrogen, kükürd, oksigen birləşəndə toxunulması öldürücü olan turşu əmələ gəlir. Deməli, bu elementlər birləşəndə heç biri öz xarakterini olduğu kimi saxlamır. Həm hardasa öz xassələri qalır (imkanda), həm də yeni xassə ortaya çıxır...

Qadınla kişinin yaxınlaşmasından uşaq əmələ gəlir. Yəni ikidən bir əmələ gəlir. Bütün fəlsəfələrin uğraşdığı – sadədən mürəkkəbin əmələ gəlməsi... Elm də sübut edir, hidrogenlə oksigen birləşib su əmələ gətirir. Axı su əzəlidir. Bəlkə sudan oksigenlə hidrogen əmələ gəlir. Yəni bəlkə sadədən mürəkkəbin yaranması bütün hallarda doğru deyil. Yəni həmişəmi 2 1-lərdən yaranır. Axı uşaq birdir, o, ikidən yarandı. Lap elə evi götürək, ev birdir, ancaq çoxluqdan yaranır. Stol birdir, ancaq çoxlu detallardan yaranır. Məna isə birdir, təzahürləri çoxdur. Deməli, çoxlar "Bir"dən yaranır. Hər şey "Bir" olan Mənadan yaranır.

Bir olan Məna əslində mürəkkəbdir. Dünyalıq "Bir"dir, ancaq onda saysız çalarlar var. Məsələn, Dünyalıqda İnsanlıq var, dağlıq var, çaylıq var, dənizlik var, günəşlik, ağaclıq.... var. Demək, mürəkkəb Dünyalıqdan sadə olan dağ yaranır, çay yaranır, ağac yaranır... Deməli, belə ümumiləşdirə bilərik: yaradılan nə varsa, bunlar haqqında demək olar: sadələrdən mürəkkəb yaradılır. Yaranan nə varsa, bunlar haqqında da demək olar: mürəkkəbdən sadələr yaranır. Əlimizlə yaratdığımız maddi nəsnələri çoxluqdan (sadələrdən) yaradırıq, bizdən asılı olmayan yaranışlar isə mürəkkəbdən sadəyə doğrudur.

***

Zahidlik (sufizm) – formanı heç (fani) saymaqla axirətə hazırlaşmaq.

Formasız məzmun olmur. Forma məzmunu ifadə etməlidir.

***

Səninlə birgə yaşayanlardan – həyəcandan, sarsıntıdan, əzabdan qorxma. Onlar sənə yaşam verir, onlar səni mətin, iradəli edir. Onlar sənin yolunu bəlirləyir, onlar sənə dünyanı anladır. Onların varlığı, yardımı ilə özünü dərk edirsən.

***

Məna – Dünyanın yenilənmək olanağıdır.

***

Millətçilik – özgələşməyə tərs olmaqdır.
Millətçiliyi pisləyirlər ki, özgələşməni qorusunlar.

***

Bizim toplumumuz xəlqi ruhunu – varlığını itirib. Hərə bir yönə qulluq edir. Burada fəlakətli bir bəlirsizlik var. Xalqın yönü, düşüncəsi, dəyəri, ölçüsü olar. O yoxdur!

***

Elm – nisbi idrakdır. Yəni nisbiləri öyrənir.

***

Dinlərin dediklərinə görə insan öləndən sonra ruh canlı, fiziki varlıq kimi yaşayır. Əslində isə ruh – canlı varlıq kimi yaşamır, mənanın ifadəsi kimi yaşayır – canlı varlıqlarda.

***

İnsanı aldadan müqəddəslik – müqəddəsliyin nisbi səviyyəsidir, – müqəddəssizlikdir.

İnsanı böyüdən müqəddəslik – Müqəddəsliyin mütləq səviyyəsidir.

***

İnsan bacarığını, biliyini, qabiliyyətini paylaşa bilər. Yəni gör-götür. Ancaq ruh – "gör-götür"lə sınırlana bilməz, yaradıcılıq gərəkdir…

***

**Eqoizm – Amoralizm**

Bireysəl istəklərini ödəmək uğrunda çaba göstərmək, qarşısına sosial toplumsal maneələr çıxanda mübarizə aparmaq. Sırf özü üçün olduğuna görə bu davranışlardan başqalarının haqqı ayaqlana bilir – budur Amoralizm. Yəni əxlaqi qanunların şüurlu şəkildə pozulması baş verir, obrazlı desək, müsbət əxlaqdan imtina olunur.

Məncə, kapitalizm – bireysəl eqoizmin Amoralizmə keçidi ilə yaranmışdır.

***

Asif Atanın anlayışlarına gələnəksəl açıdan yanaşmaq kortəbii yanaşmaqdır. Bu, yolverilməzdir.

Onun anlayışlarının çoxunda yeni məna çalarları var.

***

Şəxsiyyətin azadlığını, fəallığını "izm"lərlə, psixologiya ilə həll eləmək olumsuzdur. Bu məsələdə ruhani qanunların doğru, yerində işlədilməsi gərəkdir.

***

Estetikanı yalnız təbii gözəlliklə, ya da alınma gözəlliklə izah eləmək azdır. Ruhani gözəllik estetikanın cövhəridir.

***

Mənim əqidəm etiqaddan üstündür. Çünkü yolumu bilirəm. Etiqad – biliyə əsaslanmayan inamdır. Mənim İnamım biliyə, idraka dayanır.

***

Ehtimal nəzəriyyəsi – kütləvi olayların xassəsini öyrənir. Bu nəzəriyyə İnamın işinə yaramır. Çünkü İnam ötəri olaylara deyil, Mənaya bağlıdır.

***

İnsanın yenidən doğulmasında, məncə, təsadüflərin "alın yazısı" kimi verilməsi durur. Burada nə fərdi, nə də ümumi xassələr düzgün qiymətləndirilmir.

***

Ehtimal – həqiqətlə yalan arasındakı baxış sayıla bilər. Nə həqiqət, nə də yalan olan bir baxış ölçü sayıla bilməz. Ölçü bütövlükdən yaranar.

***

Animizm deyir, hər yerdə ruhlar var. Şamanizm də ruhlarla ilişkilər qurur. Bunlar elə bir şeydir…

***

Təsəvvür eləmək – ağılı təmin eləmək üçündür. Mütləqi təsəvvür eləmək – onu ağıla sığışdırmaq çabasıdır. Mütləq təsəvvürə, ağıla, düşüncəyə sığmaz, – təsəvvür, ağıl (idrak), düşüncə araçılığı ilə dərk olunar.

***

Azərbaycanda Ali Atestasiya – alimin olanaqlarını məhdudlaşdıran, qəlibə salan qurumdur…

***

Təbiət fəlsəfəsi (natur fəlsəfə) toplumsal fəlsəfəyə, sonra teologiya fəlsəfəsinə, iqtisadiyyat fəlsəfəsinə çevrildi. Ancaq fəlsəfənin işi sosiologiyanı, teologiyanı, iqtisadiyyatı tətqiq, təftiş eləmək deyil. Bunlardan çox dərindədir.

***

Ürəyin ürəyə bağlanmaq, qovuşmaq ehtiyacı var. Bu ehtiyacı yaradan, ödəyən tələb var. Bu tələbin gerçəkləşmə, yaşama nizamı var.

Ürəyin ürəyə bağlanmaq ehtiyacını yaradan – insani mahiyyətin gerçəkləşməsidir, varlığın özündə özündən böyük bir həqiqətin olmasını anlama çağıdır.

Qovuşma ehtiyacı – bir-birinə qarşı mənəvi bağları tanıma, özünü başqasında görmə, başqası araçılığı ilə özümlüyünə üztutma istəyindən yaranır.

Bizim üçün bu ehtiyacları ödəyən Ocaqdır. Ocağın qarşıya qoyduğu (həqiqətin gözəlliklərini) dərk etmək yoludur.

Bu tələbləri gerçəkləşdirmək, yaşamaq nizamı – özüylədöyüşə, özünüyaratma ləyaqətinə bağlıdır.

***

Bu çağacan başlıca axtarış predmetləri: yuxu, bayılma, qarabasma, xəstəliklər, ölüm olub, – ruh olmayıb, ya da nisbi ruh olub.

***

Ruhani cəmiyyət – insanın sinfilikdən, təbəqələşməkdən qurtulması.

***

Asif Ataya qovuşma – Atanı çox sevmək demək deyil, onun ideallarını ömrünə çevirib harayını çəkməkdir.

Asif Ata ilə dərd ortağı olmaqdır.

***

İnsanın gərəkliyini bilәndən sonra özünüdərk başlayır.

Özünü dərk eləməyən adam dövlətin başına belə keçər, ancaq yol yarada bilməz, yol gedə bilməz!

***

Siyasət – toplumu daha çox yalanlarla, vədlərlə təşkil eləməkdir.

Azadlıq – içsəl haldır, o, dövlətə qarşı yönəlmir. Azadlıq – həm də

dərk olunmuş haldır. Toplum dış güclərlə birləşib hakimiyyətə etiraz edirsə, burada dış güclərin niyyəti humanist deyilsə (ki, çox vaxt deyil), hansısa işğalçılıq istəkləri yürüdürsə, etiraz ədalətli ola bilməz. Axıracan ədalətli olmayan etiraz ədaləti bərpa eləyə bilməz.

***

Bədii ədəbiyyat həyatın ayrı-ayrı çalarlarını yenidən canlandırır, təcəssüm etdirir. Bununla da, insana öz təbii həyatını yaşayıb varlığa münasibətin üstündən sükutla keçməsinə diqqət çəkərək, həyatını ona (insana) anlatmağa çalışır. Hər bir rahatsız, emosional, qayğılı-qayğısız anları yenidən hiss etmək, özünün bireysəl, toplumsal mövqeyini, durumunu anlamaq işində ona yardımçı olur.

***

İnsan təbii yaşantıların dəyişilməsinin nədənini dərk eləmək üçün bu yaşantıların, gedişlərin arxasındakı dəyişməzliyi dərk etməyə hazırlanır. Bu işdə sənətin, incəsənətin, bədii ədəbiyyatın rolu özünəxasdır.

***

Qədim baxışlar qarışıqdır, bəlirsizdir.

Məhəmməd bəlirsizlikləri özünə aydınlaşdıra bilmədiyi üçün Allahını hər bir xassədə göstərməyə çalışdı.

***

İnsanı eqoizmin ortasına (mərkəzinə) çəkmədən öyrənmək gərəkdir.

***

Dövlət – bir qrupun çıxarına hesablanmış iradə ortaya qoyanda – despotizm yaranır.

***

Azad insanın qanuna boyun əyib-əyməməsi söz qonusu ola bilməz. Çünkü qonunun doğruluğu Azad insanın içində olur.

***

İdealizmdəлш "Obyektiv Aləm" Mənadan aşağıdır!

***

Subyekt-obyekt münasibəti gerçəkliyin bilinməsidir. Burada mahiyyət üzə çıxmır (aşkarlanmır).

***

Beyində düşüncəni Məna yaradır. Beyin onu əks etdirir.

***

İdeologiya siyasi, hüquqi, əxlaqi, estetik, dini, fəlsəfi ideyalar sistemidir. İdeologiya milli olmalıdır ki, uğurlu sayılsın. Yalanlarla doğruları birləşdirən ideologiya uğurlu sayıla bilməz.

İdeal isə Bütövlükdür...

***

Dini ideologiya – dinin yaratdığı yaşam sistemi. Yəni toplumun birgəyaşayışını yönətmək üçün bəlirlədiyi siyasi, əxlaqi, hüquqi yol;

Toplumsal (ictimai) ideologiya – toplumun yaratdığı yaşam gələnəkləri.

***

Din dünyanın sirlərini açmadı, onu tilsimə saldı – Fanilik, heçlik, boşluq tilsiminə.

***

İslamda volyuntarizm:

Fəzilətli ona görə fəzilətlidir ki, Allah belə istəmişdir.

Asif Atada isə fəzilət cövhərdə var.

***

Dində insanlar Allahı istəklərinə uyğun təsvir edirlər.

Biz Mütləqi arzularımıza uyğun dəyişdirə bilmərik.

***

"Alın yazısı" ilə "Tanrı iradəsi" arasında bir bağlılıq var. Yəni "Alın yazısı" da volyuntarizm məntiqi daşıyır…

***

Biz (insan) Mütləqin öz tələbində oluşumuna qarışmırıq. Özümüzdə isə əxlaqi keyfiyyətləri gəlişdirməklə Mütləqin tələblərini ödəmiş oluruq.

***

"Tanrının iradəsi" deyimi yanlışdır. Əgər iradə varsa, demək, arzular, istəklər də var.

Bu isə canlı insana xas məsələlərdir.

***

Dövlətin başçısı "fani Tanrı" sayılırdı. Çünkü ölkədə hər şey onun iradəsi ilə olurdu.

"Tanrı iradəsi"  – Yerdə hökmdar iradəsi kimi təcəssüm edirdi.

***

Aydın (ziyalı) – toplumun dediyini deyənə deyilmir, ədaləti bütöv deyənə deyilir.

Bu zaman aydın dövlətin dediyini də deyə bilər, dövlət ədaləti deyirsə.

***

Dünyanı dərk – materiyanı dərk deyil, Mənanı dərkdir. Materiyanı bilmək isə elmin işidir.

***

Bir var Məna, bir də var Mütləq Məna. "Əhmədin ağlı yoxdur" – bu sözün mənası nədir?! – Ya Əhməd dəlidir (bu, sözün həqiqi mənası), ya da Əhmədin hansısa məsələlərlə bağlı davranışlarında gözə çarpacaq yanlışlar var (sözün məcazi mənası).

Buradan görünən odur, bu cümlənin mənası nisbidir.

Bir də var, Dünyanın Dünyalıq Mənası. Bu, Mütləq Mənadır, nisbi deyil.

***

Dünyalıq – bölünmür, paylanmır, – İnsanda İnsanlıq kimi yaşayır, həyatda Həyatlıq kimi. Həyatda Həyatlıq, İnsanda İnsanlıq –bu, Mənanın bölünməsi anlamına gəlmir. Həyat, İnsan – Dünyanın bir parçasıdır.

Dünyalıq – dünyada, dünyanın ayrı-ayrı çalarlarında bütöv aşkara çıxmır, ancaq “əbədi Sabahda bütöv aşkara çıxır”.

***

“Tanrı yoxdur, ya da var”. Elə-belə həvəslə deyiləcək bir məsələ deyil. "Yoxdur"u əsaslandırmaq olmur, "vardır"ı əsaslandırmaq olur. Ona görə iki mülahizədən birini seçmək yox, əsaslandırıla biləni seçmək doğrudur.

"Yoxdur", çünkü hər şey gördüklərimizdən fərqli deyil. Bu zaman qarşıya çoxlu suallar çıxır. Məsələn, insan niyə doğulur, niyə ölür? Bu proses nə deməkdir? "Yoxdur"la bu sualı cavablandıra bilmirik. "Vardır"la əsaslandıra bilirik.

Bir var konkret olan – yəni elmin öyrəndiyi. Bir də var, mücərrəd olan – fəlsəfənin öyrəndiyi. Hər bir konkret olanın arxasında, ya da özündə mücərrəd olan var. Tanrı da mücərrəddir, ədalət də mücərrəddir. Şərəf də mücərrəddir. Heç kim sırf bioloji yaşamır. Ən qatı maddiyyatsevər adam belə, toplumda bir nüfuz yiyəsi, abır yiyəsi kimi görünmək istəyir. Demək, onu abırın mütləq səviyyəsinə yönəltmək gərəkir. Nisbi abırla heyvandan tam ayrılmaq olmur. Hər kəs olduğu səviyyə ilə barışanda əyrilik artır. Kimsə, kimlərsə barışmayanda toplumun səviyyəsindən fərqli bir ölçü ortaya çıxır. Hamı o ölçünü çək-çevir eləməyə başlayır. Hamı o fərqliliyi ayrılıqda özü ilə tutuşduranda, ya onun kimi böyümək istəyir, ya da bacarmır, əzilir. Ona görə qarşısına çıxan fərqli görsənişi, fərqli səviyyəni danmağa başlayır. Tanrı anlamını da belə, gerçəklikdə görünəndən artıq olanı görə bilmədikləri üçün danırlar…

***

**Peyğəmbərliyin gərəkliyi** (belə də deyə bilərik: mürşid-mürid məsələsinin önəmi): – Adama bir yol maarifləndirici söz deyirsən, duyğuları oyanır, içində aktiv tərpənişlər görsənir. Ancaq qısa vaxtda bu duyğular geri çəkilir. Çünkü oyanan duyğular kövrək olur, ömürdə aktiv olan cəsarətsizlik, qorxaqlıq, zəiflik yenidən canlanıb işə keçir, kövrək duyğuları üstələyir. Ona görə bir adama bir yol söz deyən kimi, onun hər şeyi anlayacağını, deyilən sözün etkisi ilə davranacağını gözləmək doğru deyil. Gərək davamlı deyəsən, bağbanlıq edəsən, bəsləyəsən, böyüdəsən. Mürşüdlük eləmək budur.

Böyük anlamda isə peyğəmbərlik eləmək gərəkir – davamlı haray çəkmək, iş aparmaq.

Elmlə, ideologiyalarla toplumun yönünü mənəviyyata doğru dəyişmək alınmır, Ruhaniyyat quruculuğu gərəkdir.

İnsan ömrü bağ kimidir, bir şey səpdinsə bəsləməlisən. Sözü bir dəfə deyib keçmək – toxumu hara gəldi səpib getmək kimidir.

Kimdə cəsarət, toxtaqlıq (səbr)-filan varsa, uğurlu söz onun ömründə daha tez aktivləşə bilər. Yoxdursa, içdən dəyişilmək vaxt tələb edir.

***

Ədalət – Allah anlamına uyğun anlayışdır. Bunun doğrulması üçün Allah Anlamına – Mütləqə qovuşmaq gərəkdir.

***

Bir var, ömrün çalarlarının təkrarlanması, biri də var, ömrün yenilənməsi...

***

Kişi ilə qadın bir-birini ya təsdiq edir, ya da danır (inkar edir). Dinin kişini qadından üstün tutması yaşamda sorunlar ortaya çıxarır. Deyək ki, kişi qadınını sevir, onun bireysəl azadlığına sayğı duyur, bunu qoruyur, birgə yaşamda onun ləyaqətini uca tutur. Bununla qarşılıqlı münasibət formalaşır, ailə ölçüsü, nizamı yaranır. Dünyaya gətirdikləri uşaqların sağlam, tərbiyəli böyüməsini təmin edirlər.

Ya da tərsinə, kişi qadının rolunu azaldır, onun azadlığını qısıtlayır, özündən asılı durumda saxlayır. Aşağı tutur, ikinci dərəcəli sayır, ona qarşı qadağalar yeridir. Burada qarşılıqlı münasibət zədə götürür. Qadın kişiyə qarşı gizli, ya da aşkar acıq, nifrət bəsləyir, ləyaqətini aşağı tutur. Sevgi aradan gedir, getdikcə saygı belə, ortadan qalxır...

***

Xatirələri bədən yaratmır, ruh yaradır.

***

Nəsimi xalqda yaşayır, – məna xalqla ötürülür.

***

İsanı ölümsüz saydılar, çünkü Allah ona özündən ruh – xristos vermişdi. Xristos ölə bilməzdi. Yoxsa xristianlığın anlamı qalmazdı.

***

Xristianlığa görə yaradıcı Tanrını danıb əsl Tanrını – xristosu qəbul edəndə adam xilas ola bilər...

***

Ruhsal Səfər fərəhi – İnsanlıq harayından doğan!

***

Dünyada hər kəs bir-birinin üstünə gedir – savaşa, talamağa, öldürməyə.

Biz səfər edirik – anlatmağa, qorumağa, yaşatmağa.

Talançıları, qatilləri bacarıqlı, ağıllı sayırlar, bizi bacarıqsız, dəli.

Öldürəni öyürlər, ödülləndirirlər, sevirlər. Bizi təqib edirlər, söyürlər, önəmsəmirlər.

Kimdir işin arxasında duran? Biz özümüzü kimlərlə tutuşdurmalıyıq?!

Onlar udmaq (qalib olmaq) üçün yarışırlar, özlərini udanlarla tutuşdururlar. Biz özümüzü ölməzlərlə tutuşdururuq.

Biz becəririk, onlar talayır.
Bu gün dünyanın uyumu heyvanidir, bizim uyumumuz İnsani.

***

**Mübarizə yalanı**:
İlandan ədalət ummaq, tülküdən sədaqət ummaq, canavardan mərhəmət ummaq...
Çağdaş mübarizənin – demokratik mübarizənin görsənişi budur.

***

Bu günün sevgisində orta səviyyəli bir şairin daha çox yeri var, nəinki Asif Atanın.
Bugünkülər yarpaq kimi titrəyən duyğulara daha çox ürək açırlar, nəinki qurtuluş yaradan idrak əzəmətinə.
Bugünkülər olmurlar, öyürlər. Öyürlər ki, öyülsünlər. Öyməyi, sevməyi borc verirlər. Böyük kimi göstərdiklərini özlərinə borclu edirlər. "Borclu borclunun sağlığını istəyər".
Umacaqsız sevmirlər, umacaqsız öymürlər. Hətta umacaqsız əl çalmırlar.
Asif Ata bizə deyirdi: Bugünkülərdən olmayın, Sabahkılardan olun – "Dünya hərcayidir, sən hərcayi olma! Dünya dağılsa da, sən hərcayi olma..."

***

İnsan olduğunun fərqinə varmaq üçün sənə ən böyük əngəlin həyat olduğunu dərk eləmək gərəkdir. Həyatla mübarizə aparmaq həyatı ortadan qaldırmır, yaşamağın nizamının heç də ali həyat tələblərində olmadığını sübut edir. Bunu sübut edən ölməzliyin yerini bulur.

***

Həqiqi ideya – ona yanaşmaq istəyənləri başlanğıcda çaşdırmırsa, sarsıtmırsa, özülü yoxdur deməkdir.

***

Zaman – əbədiyyətin xırda intervallarıdır. Bu intervallarda çoxsaylı olaylar doğulub ölür. İnsan özünü bu intervallarda axtaranda əbədiyyət yollarından sapmış olur.

***

Adamlar Tanrıya sözə baxan, onların istəklərinə yol açan Adam kimi baxırlar. Ona görə onlara Tanrının başqa özəlliklərinin olduğunu sübut eləmək olmur. Tanrı haqqında düşüncə dəyişməsə, ruhaniyyat yaşamın nizamına qatıla bilməyəcək.

***

Əgər kişisən, kişi ol; qadınsan, qadın ol; atasan, ata ol; anasan, ana ol; dostsan, dost ol – əsilləş, özümləş, bu adlarla oyun oynama, özünü aldatma. Onda ürəyin azad olar, könlün gülər, üzün gülər, sevincin aşıb-daşar, öz gözündə ucalarsan. Bunun qarşılığı, umacağı (əvəzi, təmənnası) yoxdur. İnsandakı Mütləqin gerçəkləşmə tələbi budur. Yəni əsilləşdikcə Mütləqə qovuşursan – bundan böyük cənnət yoxdur. Özümləşməyin üçün sənə qarşılıq vəd olunmaz, ayrıca kef, əyləncə üçün özümləşmək olmur, yalnız özündən ayrılan əyləncə istəyər (mənalı yaşamı əyləncəyə dəyişər).

Mütləqdən (Tanrı anlamından) ayrılmaqdan böyük cəhənnəm olmaz…

***

Komediyadan dərs götürmədilər, komikləşdilər.

***

Ədəbiyyatşünaslıq İnsanlığın sorunlarını çözə bilmədi, obrazların dalınca gəzişdi. Yəni teatrlarda, tamaşalarda həyat dərsi öyrənmədilər, həyat aktyorluğu, artistliyi öyrəndilər. Çünkü sənət ölçüsüzdür, öyrədə bilmir. Çünkü həyat ölçüsüzdür, yüksələ bilmir.

Yüksəltməyi bacaran sənət yaranmalıdır.

***

İndi çox adam kitab oxumur, hamı qulaqcıqla səs dinləyir. Yazı yazanlar da yazını qulaqcığa hesablayır, beyinə, ürəyə hesablamır. Hamı informasiya toplayır, düşünmək istəmir. Hamı küyə gedir, hamı hamını küyə yönəldir.

Küyə alışanlara həqiqəti necə sevdirmək olar?! Həqiqət küyün içində olmur. Həqiqət – İnsanlığın ucalığında, Vətənin qutsallığında yaşayır.

Yeni zəmanə yaradırlar küyçülər. Küt, naşı gedişlər oluşdurur zəmanə...

Zəmanə ilə barışmayan azlara alqış!

***

Hürufilər deyir, insan Allahdır. Asif Ata deyir, insan Mütləqdir, yəni Mütləqləşə bilər. Tələbi də belədir: Mütləqləşmək – var olmaq! Asif Ata Hürufilərin dediyini demir. Hürufilər Allah deyəndə özlərinin təyinlərini gözə alırdılar. Yəni onların Allahı Təbiətin özü idi. İnsanı təbiətə tay bilirdilər.

Asif Atada Mütləq – Təbiətdən üstündür. Təbiət Mütləqin özü deyil, təzahürüdür. Hürufilər insanı Mütləqin təzahürünə tay bilirdilər.

Mütləq – Dünyanın Mənasıdır, Dünyalıqdır. Asif Ataya görə insanı Mütləq saymaq – Dünyalığın insanda İnsanilik məzmunu ilə bütöv aşkara çıxmasıdır.

Əgər insan kamilləşərsə, yəni özündəki Mütləqə qovuşarsa, bu qovuşma çoxlu sayda insanlarda baş tutarsa, bu durum çoxmənalılıq (çoxallahlılıq) anlamına gəlməz. Bir olanın bir çoxlarında bütöv aşkara çıxması, bütöv ifadə olunması anlamına gələr. Bir olan (Mütləq) paylanmır, parçalanmır, bütöv ifadə olunur.

***

Ayrı-ayrı biçimdə dövlət quruluşlarının yaranması (dini dövlət, diktatura, monarxiya, demokratiya..) insanın azad ola bilməməsinin sorunları ilə bağlıdır. Bütün bu adlar – içində də, dışında da əsarətdə olan, azad olmayan insanın ortaya çıxartdıqlarıdır.

***

Sovetlər "fəhlə hakimiyyəti" yalanı ilə dövlət biçimini dəyişdilər. "Fəhlə hakimiyyəti" fəhləni istismardan qurtarmadı.

İndikilər demokratiya (xalq hakimiyyəti) yalanı ilə dövlət biçimini dəyişdilər. Ancaq "xalq hakimiyyəti" xalqı əsarətdən qurtarmadı. Bir yalan o biri yalanın yerinə keçməklə yalanın ömrü uzanır. Çünkü İnsanlaşma yerinə hakimiyyətləşmə ölçüsünə tapınırlar.

***

İnsana gərək olmayan nə varsa mövcud olur, var olmur.

***

Əməkçinin öz mülkiyyətini əlində saxlamaq olanağı yoxdur, kapitalistin var. Deyirlər, bacarırsan, sən də mülkiyyət al, yəni kapitalist ol.

Yəni kapitalizmlə yox, kapitalist olmaq uğrunda mübarizə apar.

***

Özlərinə inanmayanlar dış güclərin baş sığallamaları ilə xalqının qəhrəmanına çevrilmək istəyirlər.

***

İnsanı qorumurlar, onu Allahın qorumasını arzulayırlar. İnsan içindən uçub dağılır, onu Allah necə qoruya bilər?! Allah insanın içini qorumur axı. İnsanın içini qorumaq üçün Allah insanın içində olmalıdır, çölündə yox.

***

Hər şeyi Allahın yolunda eləyirəm deyən adam, Allahın yolu deyəndə cənnəti düşünür.

Allahın yolu ilə get, yəni cənnət adlı tamahıyın dalınca get.

***

Adam öz qüsurlarını döymür, başqalarının onun qüsurlarını bağışlamasını istəyir. Bağışlanan qüsur ortadan qalxmır, imkanda gizlənir.

***

Sənət – həyat olaylarının estetik xassələrini – gözəlliyini, ülviliyini, faciəviliyini, eybəcərliyini, komikliyini kəşf etməlidir.

Sənətin inkişafı – estetik münasibət dairəsinin genişlənməsi, insanın həyat haqqında estetik biliyinin daim zənginləşməsi, kamilləşməsi ilə sonuclanmalıdır...

***

Riyakarın Allahı olmaz.

İçində Allah sevgisi olan üzdə bir cür, içdə ayrı cür yaşaya bilməz.

***

Söz birini acıqlandırırsa, onu yaxşı anlamda çaşdırmırsa, demək, ona deyilən söz həqiqi söz deyil. Söz – sevgi deməkdir, səbr deməkdir, inad deməkdir. (Yəni sözü sevgi ilə, səbrlə demək gərəkdir).

Öncə birinin içində sevgiyə yol açan bir şey tapmaq gərəkdir. O yol ilə onun ürəyinə girmək, ürəyini böyütmək olar.

Əgər adamın içində sevgiyə uyar bir şey yoxdursa, ona vaxt itirməyə, baş qoşmağa gərək yoxdur.

***

Allaha qovuşmaq yolunda bələdçi, mürşid, ustad olar, tərcüman yox. Bu məsələdə din özünü həmişə tərcüman kimi aparıb.

***

Dövlət pisliyi öldürmür, pisi nəzarətdə saxlayır. Gərəkəndə onu çəkindirir. Pisliyi insan öldürür. Çünkü insanın içinə özündən başqa heç kim düzəliş verə bilməz.

Mürşid – insanın (müridin) içində sevgini böyüdər, pisliyi zəiflədər, ancaq tam başa çatdıra bilməz. Bunu müridin özü istəməli, başa çatdırmalıdır.

Qıraqdan hər şey yardımçıdır, əsas insanın özüdür.

***

Birgəyaşayışın nizamı – vicdan, ədalət məsələsidir, demokratiya məsələsi deyil. "Demokratiya" sözü nə qədər yaxşı səslənsə də, vicdanı, ədaləti əvəz etməməlidir, ancaq edir. Ona görə də birgə-yaşayışda uğur yarada bilmir.

Demokratiya insan yaratmır, Quruluşun gedişini qoruyur. İndiki Quruluş – kapitalizmdir...

- Topluma inamsızlıq mahiyyətə, xalqa İnamsızlıq səviyyəsinə qalxmamalıdır.

***

- (Ocaqda) Mütləqə üztutmalar (ricalar) borc kimi söylənməli deyil, Mütləqi varlığında görüb güc almalı, içini arındırmaq üçün olmalıdır.

Müsəlman Allaha ibadət edər, ancaq içi durulmaz, qurulmaz. İbadət görəvə çevriləndə (vəzifə kimi yerinə yetiriləndə) saxtalaşır.

***

- Millət nədir, milli dəyər nədir sorularına özlüyündə doğru cavab bulmayanlar bir araya gələ bilməzlər. Bunsuz mübarizə yoxdur!

***

- Din basqısı altında olanlar milli kimliyi itirə bilirlər.

Din özüylə mədəniyyət gətirir. Ancaq bu mədəniyyət ruhu özgələşdirən yaşam tərzidir. Yad mədəniyyətin içində özünüqoruma sistemi olmadan yaşayıb var olmaq olumsuzdur.

***

- Nəqşibəndilik də, Bektaşilik də Yasəvilikdən başlayıb.

Bahəddin Buxaralının Nəqşibəndliyi, Türkiyədə Hacı Bektaşinin Bektaşiliyi Ulusal özünüqoruma sistemi ola bilməzdi. Çünkü özülü uzaqda qoyulmuşdu.

***

- Bu gün nə Türkiyədə, nə Türküstanda Əhməd Yəsəvilik, Bektaşilik, Nəqşibəndilik yaşam ölçüsü deyil. Yaşam ölçüsü Sünnilik, Şiəlik, Sələfillikdir – yəni ərəbçilikdir.

Türklüyün əski inanclarındakı üstünlükləri İslama inteqrasiya etdirib Türklüyü qoruya bilməyiblər. Bütün zəhmətlər sanki boşuna gedib. İslamdan Türk üçün mənəvi ölçü yaratmaq özünü doğrultmayıb.

Türkün öz İnamı olmalıdır!

***

- Əhməd Yəsəvilər, Yunus Əmrələr necə olub İslam dinində yüksək əxlaqi keyfiyyətlər görüblər?! – Məhəmmədin, eləcə də çevrəsindəkilərin arvadbazlıqları yetər ki, bu dində əxlaqın zədə götürməsini anlayasan. Peyğəmbər olasan həyatını fahişəxanaya çevirəsən, həm də sufilər məqamında yüksək tutulasan.

Məhəmmədin həyatını örnək götürüb yüksək əxlaqi keyfiyyətlərlə yaşamaq adamda kuşku oyadır. Bu insanların baxışlarına anlam verməyə çalışıram. Axı Əhməd Yəsəvi sevilən şəxsiyyət olub.

Deməli, ya o çağlarda Məhəmmədin həyatı ilə bağlı tarixi bilgilər geniş yayılmamışdı (ancaq Quranda bəlli surələr Məhəmmədin həyatından danışır axı). Ya da Quranla, Məhəmmədin həyatı ilə bağlı bəlli həqiqətləri dilə gətirməyə cəsarət eləmirdilər (belədə isə doğruçu kimi sevilmək olumsuz olur. Axı kütlə anlamaya bilər, ancaq tutarlı bilim adamları da olub).

Məncə, Quran, elə Məhəmmədin özü "Vəhdəti-Vücud" fəlsəfəsinin daşıyıcılarına borcludur, onlar Quranı bu açıdan izah etməyə çalışırdılar. Hərçəndi dinin başında duranlar bu insanları (Vəhdəti-Vücudçuları) təqib edirdilər...

***

- Mütləqi dərk eləmədən aşiq olmaq olmur. Aşiq olmayan Yolu gedə bilməz.

***

"Allaha ümid bəslə, həm də qorx" bu məntiqi anlamaq idrakdışı bir məsələdir.

***

- 60-70 yaşında kişilərə belə öyrətmən, mürşüd, yolbaşı gərəkdir. Yolunu görməyənə bələdçi olmazsa, uçuruma düşər.

***

Birinə öyrətmənim, mürşidim deyilirsə, onun yanında davranmaq ölçü tələb edir. Yəni Öyrətmən – öyrənci anlamına uyğun gəlməlidir. Bunu unudan ruhaniyyat dünyasına girə bilməz.

***

- İnsanlar yönətimdə olan (idarəetmədəki) əxlaqsız, qarınqulu adamlardan ədalət umurlar. Görünür ədalətin anlamını bilmirlər.

***

- Ölüm anında peşiman olmanı gərəksiz sayırlar. Mən də sayıram. Çünkü peşiman olub tövbə edən ölür, onun peşimanlığı, tövbəsi bir işə yaramır. Ocaq dilində özüylədöyüş o zaman uğurludur ki, ortada dəyişilən, dəyişilib sürdürülən ömür olmalıdır. Bir ana bərabər tövbə olmur.

Xətrinə dəydiyin adamdan (ölərkən) üzr istəmək olar. Bu da bir anın vicdan doğrultusudur. Ancaq olmamasından olması yaxşıdır.

***

Təriqət – dini bütöv qəbul etməməkdən yaranır. Ancaq təriqətlərin doğru bildikləri də, sonradan özlərinə deyil, dinə özgün sayılır.

***

- Kamil insan heç bir axmağa baş qoşmaz. Onunla ünsiyyətdən qorxmaz da. Bu o demək deyil, kim gəldi, kamil insanı aldada bilər. Yəni saflıq – nadanlıq demək deyil. Nadan saflıq olmur.

***

- Mənə görə Dao fəlsəfəsindəki "boşluq" ideyası tapmacadır. Biz faydanı, xeyiri boşluqdan deyil, doluluqdan götürürük. Dao-da boşluqdan məna düzəldilir...

***

- Mütləqin (Tanrı anlamının) heç bir arzusu, istəyi yoxdur. Məhəmmədin Allahının sonsuz arzuları, tələbləri var. Ona görə də Adama oxşayır. Yunan Allahları dönməz şəhvətsevər idilər. Musanın Allahı kəskin şöhrətsevər idi, maddiyyatsevər idi (qurbanlar).

***

Dayaz bulaqdan su içmək olmur. O, öz doğallığında qaldığı sürəcə yararsız olur. Əlini salıb qarışdırmalısan, dərinləşdirməlisən, durulmasını gözləməlisən. Yalnız bundan sonra ovuclayıb yanğını söndürə bilərsən. İnsanın iç dünyası da belədir, – onu dərinləşdirməsən yararsız, hətta ziyankar olursan...

***

İnsanın xisləti ikilidir, çelişkilidir. Doğal gedişlərlə nizamlı davranışlar olumsuzdur. Doğal gedişlə adam öz anlamına qovuşmur, yəni Mənanı (Mütləqi) dərk eləmir. Yəni adamda heyvan aktiv olur. Özünü heyvandan qorumalı olursan. Heyvanlaşmaya direniş hazırlayırsan. Bu direnişi insanın içinə çevirəndə nizam yaranır, insandan qıraqda yaradanda nizamsızlıq güclənir. Bu açıdan dinlər nizam yaratmadılar, nizamsızlığa zor göstərdilər. Zor – yeni nizamsızlıqlar doğurdu.

***

Mən kiməm? – "Sən"əm, "o"yam, "o biri"yəm... İnsan bunu dərk edəndə pislik imkanları ortadan qalxar. Özünü başqasında görmək, görə bilmək qədər müdriklik yoxdur. Kimsə deyər: "mən necə cahil Məmmədhəsən ola bilərəm ki?". Deyirəm, Məmmədhəsən cəhalətə bərabər deyil, göründüyü deyil. O, içində sənin mahiyyətini daşıyır. Ona kömək et, özü olsun, sənə bənzəsin. Ruhani mübarizənin bel sütunu budur. Deyirsən, məni eşitmir. Deyirəm, ona onun yetməli olduğunu demirsən, özünü ona sırıyırsan. Səni özünə yük eləmək istəmir. Ona yük olma – özüyün bəlağətli, boğazdan yuxarı yorucu sözlərinlə onun ürəyindən yükü götürməyə çalış…

***

Özünə gücü çatmayanın özgəyə yol göstərməsi cahillikdir. Öz içində it hürən başqasından nəğmə oxumaq tələb edir.

İnsanlığın yağısı sənin içindədir, ondan azad olmasan, başqasına azadlığı anlada bilməzsən. Başqası sənin içindəki heyvanı gördükcə dönüb öz içinə baxmayacaq. Dinlər insanı bu sorundan qurtara bilmədilər, ona görə insanın yaşamına qıraqda nəzarət yaratdılar...

***

İnsan düşünən varlıqdır. O, düşüncələrlə özünün kökünü axtarır. Doğal yaşamında, doğulduğu kimi davam eləyəndə öz kökü üstə olmur. Yəni İnsani mahiyyətinə yetmiş durumda olmur. Özünü, kökünü bəlirləyəndən sonra ora-bura vurnuxmursan artıq.

***

Lao Tszı da, bugünkü bir sıra Batı düşünərləri də Mənanı boşluğa bərabər götürürlər. Ya da ona elə ad qoyurlar.

Yaranışa boşluğun doğurduğu kimi baxırlar...

***

Mənanı boşluq kimi götürür, çünkü göz onu görmür. Gözün baxdığı yer boşdur, ancaq orada Məna var. Üzdə görünmədiyi üçün

adına Yoxluq deyir. Əslində Yoxluq deyil, Mənadır. Yoxluqdan yaranır, yəni gözün gördüyündən deyil, görmədiyindən yaranır.

Bizim düşüncəmizə görə, adını düz qoymur, anlayışı yanlış seçir.

***

"Başlanğıcda Dao vardır. Bütün nəsnələr ondan yaranır, bütün nəsnələr ona qayıdır".

-Lao Tszı-da "başlanğıc" var, Atada yoxdur.

***

"Bilənlər danışmır.

Danışanlar bilmir". (Daosizm. səh.50).

Yəni Daodan – Mənadan çox danışmaq olmur. Daonu – Mənanı bilməyənlər çox danışır. Gözün gördüyündən danışır. Gözün gördükləri ölümlüdür. Ölümlüdən uzun-uzadı danışmaq yorucudur.

***

"Dao – kainatın mərkəzi, yaxşı insanın xəzinəsi, pis insanın sığınacağıdır". (Daosizm. səh.53).

Daonu Tanrı saysaq, burada məkanlaşmış olur. Atada Mütləq kainatın özü deyil, mərkəzi deyil, Mənasıdır.

***

Hər bildiyimin arxasında bir bilmədiyim gizlənir. Ona görə konkret nəyi bildiyimi axıra qədər deyə bilmirəm. (Bəlkə də hələlik). Baş vurduğum hər hansı bir nəsnəni bildiyimi düşünəndə onlarca soru çıxır qarşıma. "Özümə soru gündəliyim" belə yaranıb – yüzlərlə soru verirəm özümə.

***

"Ağac yoğunundan sınar" deyiblər. Belə götürəndə yoğun dözümlü kimi gəlir ağıla. Ancaq yumşaq olan elastiki olur, külək hər yana əyir, sındıra bilmir. Yoğun dirəndikcə gücünü itirir, davamlı basqıya boyun əyib sınır.

***

Doğru söz – onu söyləyənin zərərinə işləyir. Doğru sözü hansı çağda kim işlədirsə işlətsin, bu belədir. Çünkü heç kəsin çağı doğruya açıq deyil. Doğru söz əyri çağın bəslədiklərini ifşa eləyir. Əyriliyə yoldaş olanlar Doğrunu deyənlərə yağı kəsilirlər.

Dahi – əyri çağda Doğrunu qoruyub yaşadana deyirlər.

Çağın bəslədikləri var, bir də çağı bəsləyənlər var.

Çağın əyrisi ilə bəslənənlər var, bir də çağı Doğrularla bəsləyənlər var.

Birincilər başını qoruyur, ikincilər başını ortaya qoyur.

***

Barışmaq – ulu keyfiyyətdir. Barışmaq – bağışlamaqdır, yəni insanı suça bərabər saymamaqdır, insanın içində İnsanlığı oyatmaq, onu İnsanlığa tapşırmaqdır.

Bağışlamaq – ürəyi əzabdan qurtarmaqdır. Ürək acıqdan, nifrətdən yorulanda gücünü itirir, cılızlaşır. Bağışlamaq – acıqdan, nifrətdən qurtarmaqdır (xilas olmaqdır).

Ancaq barışanda belə acıq qalırsa, demək ürəyin gücü bərpa olunmayıb. Demək, bağışlamaq başa çatmayıb. Demək, ruh özünü doğrultmayıb. Demək, mənəviyyatda çolaqlıq (şikəstlik) hələ də qalır.

Kamilin acığı olmaz, acısı olsa da. Acının öhdəsindən acıqla gəlinməz…

***

Sənə qarşı ədalətsiz olsalar belə, ədalətli ol. Sənə qarşı səmimiyyətsiz olsalar belə, səmimi ol. Sənə qarşı haqsızlıq eləsələr belə, haqsız olma.

***

Kor adam çəmənliyi dəyərləndirə bilməz. Ruh olmasa, göz çəmənliyi sevə bilməz (çəmənlik könülü oxşaya bilməz. Gözün oxşanması elə könülün oxşanmasıdır). Gözlə könülün birliyi – Məna ilə gerçəklik birliyi kimidir.

***

İsti bir səhrada suyu hər şeydən baha satmaq olar. Meşədə heç kimin önəm vermədiyi əyri-üyrü bir ağacı qızmar gün olan bir yerdə əkərsən, hər kəsin ona böyük ehtiyacı olar. Doğada artıq heç nə yoxdur, hər şeyi gərəyinə görə qullansan.

***

Bəzən insan gözü ilə gündəlik gördüyü bir şeyi elə sanır ki, bilir, anlayır. Ancaq ona həmin şeylə bağlı, gözlənilmədən, sual versən çaşıb qalar.

İnsan gözünün gördüyü hər şeyi bildiyini sanır, əslində heç nə bilmir. Gözün baxmağa, görməyə vərdiş elədiyi bir şeyi, ya da şeyləri idrakın ortamına (odasına) göndərsən, o şeylərdə nə qədər gizlinlərin (sirlərin) olduğunu üzə çıxararsan (kəşf edərsən).

***

Musiqini, deyək ki, tütək səsini Boşluq yaratmır, Doluluq yaradır. Tütəyin səsini Boşluqdan üfürmürsən, Doluluqdan üfürürsən. Doluluğa üfürmürsən, Boşluğa üfürürsən. Boşluqda bilinən, eşidilən səs Doluluqdan gəlir. (Daosizmlə yüngül polemika).

***

İnsan özünü öyrənə bilməyəndə danışdığı hər sözü dünyanın qurtuluşu kimi görür. Ona görə Doğruluq həyatdan köçüb.

Özünü dərk eləməyən adam Dünyaya yük olduğunu necə anlaya bilər?!

Özünü dərk eləyən insan dünyanı – özünün ona yük olmasından qurtarar...

***

Həyat – geriyə dönüşü olmayan bir gedişdir. Ona görə bütün əməllərimiz həyatı urvatlandırmaq olmalıdır.

Həyatın hər aşamasında fəzilətlər buraxsaq, sonsuzluqla aramızda körpü yaranar. Fəzilətlər həyatı Mənaya yüksəldir. Fəzilətlərimiz bizi Mənada yaşadır.

***

Sözə sığan Mütləq Mütləq deyil.
Mübahisəyə sığan Mütləq Mütləq deyil.
Gerçəkliyə bərabər olan Mütləq Mütləq deyil.

***

Ədalət – bütün hallarda gözəldir.
Xeyirxahlıq bütün hallarda özünü doğrultmur.
Səngərin ədaləti – yağını susdurmaqdır.
Səngərin xeyirxahlığı – yağılığı yaşatmaqdır.

***

"İşıq necə aydınladır" sualına cavab vermək olar. Ancaq "işıq niyə var" sualına cavab vermək olumsuzdur.

***

Əgər 50 illik ömrü bir neçə cümlədə izah edib qurtarırsansa, demək, yaşamamısan.

Məna sözə sığmır, Mənalı yaşamaq da sözə sığmır. Söz ömürdən soraq verməlidir, ömrü izah edib qurtarmalı deyil.

***

Ömür bioloji asılılıqda keçəndə bir heyvanın yuxusu kimi olur. Heyvan heç vaxt yuxudan ayılmayacaq. Ömür heyvandan ayrılmasa, heyvanın yuxusu kimi başa çatacaq.

***

"Həyat sınırlıdır, ancaq biliyin sınırı yoxdur. Sınırlı olanın sınırsız olanı təqib etməsi mənasız işdir. Bunu bilərək biliyi təqib etmək daha böyük mənasızlıqdır". (səh. 93. Daosizm.)

Ata isə deyir: Həyat çox qısadır, onu uzunömürlü əməllərə həsr eləmək gərəkdir.

Ata Doğru deyir...

***

Ən yetkin (mükəmməl) bildiyin bir öyrətini (təlimi), ideyanı ömrünə çevirmədən danışsan, heç kimi çağırıb inandıra bilməyəcəksən. Çünkü dilin doğru söyləsə də, üzün inamsızlıq ifadə edəcək.

***

Yerə toxunmadan yerimək olmadığı kimi, göyə toxunmadan da yaşamaq olmur.

***

Yaşamırsan, ancaq eşitdiyin sözlərlə dünyanı dəyişmək istəyirsən.

Həm pullu olmaq istəyirsən, həm də əqidəli.

Həm yolçu olmaq istəyirsən, həm də rahat yaşamaq.

Həm vüqarlı olmaq istəyirsən, həm də hamının biri.

Həm qəhrəman olmaq istəyirsən, həm də özünü qoruyursan. Əslində isə olmaq istəmirsən, görünmək istəyirsən.

***

Oyunlara nə qədər paltarlar biçdilər, örtməyə çalışdılar. Ancaq oyunlar dünyanın özü qədər böyüdüyündən heç bir geyim ona uyğun gəlmir. Heç bir paltarla sınırsız oyunları bəzəmək, gizləmək artıq özünü doğrultmur.

***

Şişirdilmiş öygülər olan yerdə sevgi ola bilməz. Adamlar səmimi deyillərsə, bir-birinə münasibətdə həmişə nələrisə nələrləsə əvəz edirlər. Məsələn, doğruçu sevgini şişirdilmiş öygü ilə, nifrəti saxta təbəssümlə, sədaqəti ikiüzlülüklə, etibarı ümidsizliklə...

***

Bilirsən ki, dəyərli deyil, dəyərli adlandırırsan.
Bilirsən ki, sevdalı deyil, vəfalı adlandırırsan.
Bilirsən ki, ikiüzlüdür, qeyrətli adlandırırsan.
Bilirsən ki, yaltaqdır, qürurlu adlandırırsan.

Adlandırırsan ki, adlanasan. "Olmaq" istəmirsən, görünmək istəyirsən:

Cılızların gözündə şöhrətli görünmək istəyirsən.

Vüqarsızların gözündə məğrur görünmək istəyirsən.

Hünər meydanında olduğunu sanırsan.

Böyüklüyü nişan kimi taxırsan, rütbə kimi qucaqlayırsan.

Cılızlığa yarayırsan ki, cılızların gözündə yararlı görünəsən.

Sözləri hara gəldi səpməklə ucalıq yetişib bitməz.

Könlü alçaq olanlar ucalıq bəsləyə bilməz.

Söz öncə ucalığı ifadə eləməlidir. Ona görə sözü ucalığın ünvanına söyləmək gərəkdir.

Sözü borc kimi vermək olmaz.

Sözlə oyun oynamaq olmaz…

***

İnsan içində pis, üzdə yaxşı görünə bilir.
İnsan içində pis, çölündə də pis ola, görünə bilir.
İnsan içində yaxşı, çölündə pis ola bilmir.
İnsan içində yaxşıdırsa, çölündə də yaxşı olur.

***

Əgər itə diri heyvan yedirsən o sənə itlik eləməz, vəhşilik edər. İtə hər gün ət yedirtsən də itlikdən çıxar, vəhşi olar. Ona görə itə yal verirsən. Yal ilə itdəki vəhşini islah edirsən.

Adamın pula hərisliyi itə hər gün ət yedirtmək kimi bir şeydir. Hər gün pul sayan adamın duyğusu olmaz. Beləsinin insan sevgisinin olmasına güvənmək olumsuzdur.

***

Başqalarını inandırmağa çalışmaq – özünü tanımamaqdır. Özünü inandıranın başqasının inanmaması adlı sorunu yoxdur. Çünkü özünü inandırmış adam doğruları İnamla deyər. Bu zaman inanmaq istəyənlərin sayı çoxalar.

***

Sənin dediklərini danan (inkar edən) adamı inandırmaq üçün çoxsaylı cümlələr deyib istəyinə yetə bilməzsən. Doğrunu, ona inanıb deməyin yetərlidir.

Anlamaq istəməyənə nəyi anlatmaq olar ki?!

İnanmaq istəməyini necə dəyişmək olar?!

***

insan bütün dəyərlərin itmədiyi, qorunduğu ortamda yaşayanda həyat daha gözəl ola bilər. Bütün dəyərlərin qorunduğu ortamda yaşayan insan cahil, qatil olmaz.

***

Bu gün İnsanlığın ölçüsünü ən çox pozan dövlətdir. Hüzuru pozulan, təqib olunan insanın şüuru, əxlaqı pozuntuya uğrayır. İçində cəsarət deyil, qorxu böyüyür; Doğruluq deyil, əyrilik böyüyür.

Dövlət insan yaratmır, yaradana da imkan vermir, ortam yaratmır. Dövlət cəmiyyəti yönətir, cəmdəyi qoruyur.

Dövlət hər şeylə yüklənir, ona görə qırılır. Dövlətin görəvi düzgün bəlirlənməyib.

***

"(Dao) göy və yerdən əvvəl mövcud idi, əzəli, əbədidir".

Daosizmdə də Allah kainatdan əvvəl götürülür...

"Göy və yerdən əvvəl doğulub". (Daosizm. səh. 129).

– Onda necə əzəlidir, əgər əvvəl doğulubsa?!

***

Keçmişin böyüklərini sadalamaqla çağı gözardı eləmək olmaz. Keçmişi çağa qarşı qoymaq olmaz. Keçmişlə çağın arasında uyum yaratmaq gərəkdir. Bu uyumla aydın gələcək yaratmaq olar.

Keçmişlə çağın arasında uyum – dəyərləri öyrənmək, qorumaq, yeniləmək anlamına gəlməlidir.

***

"Öldürən (Dao) ölmür, doğan doğulmur". (Daosizm. səh. 131).

- Burası islamın Allahına bənzədi.

***

..."Əgər mənim sol əlim xoruz olacaqsa, mən ondan səhəri elan etmək üçün istifadə edərəm. Əgər mənim sağ əlim yay olacaqsa, mən onunla qızartmağa quş vuraram. Əgər mənim dalım təkər, ruhum at olacaqsa, mən onları sürərəm... Zira, biz zamanı gəldiyi üçün doğulduq, zamanı gəldiyi üçün də öləcəyik..." (Daosizm. səh.132).

Burası reinkarnasiyanın təsviridir.

***

Köləlikdən azad olmaq – düşüncənin dəyişməsi, davranışın düşüncədən doğulmasına bağlıdır.

Köhnə düşüncələri qoruyub azadlığa çıxmaq olmaz.

***

... "Yaradıcı möhtəşəmdir! Görəsən, səndən indi nə düzəldəcək? Hara yollayacaq səni? Səni siçovulun ciyərinə, yoxsa həşəratın ayağına çevirəcəkdir?" (Daosizm. səh.133).

- Bəzən bir axmaq adam haqqında deyirlər: "eşşəyin lap dal ayağıdır". Söz yox, bu, qəzəbin doğurduğu deyimdir. Ancaq alt şüurda reinkarnasiya deyilişinin olmasından qaynaqlana bilər. Mən reinkarnasiyanın bu şəkildə deyilişini, başqa sözlə, bu anlamın özünü doğru saymıram. Çünkü kamil (reinkarnasiyanın məntiqi ilə) insan öləndən sonra belə, heyvan bədənində doğula bilər. O zaman kamilliyin anlamı da itir.

***

... "Yen Xui cavab verdi: "Mən bədənimlə bağlı olmuram və biliksizləşirəm". (Daosizm. səh.138).

- Ekart Tolle, Co Dispenza buradan başlayırlar. "Köhnə vərdişlərdən qurtulmaq"...

***

"...Görünür bu taledir".

- Yoxsulluğunun səbəbini anlaya bilmədiyi üçün bu sonuca varır. Burada da "alın yazısı" varmış.

***

Sovetlər dağıldı, milli duyğular oyandı, tarixi bilgilər yeniləndi, ancaq bunların heç biri hələ ki milli bilincə (şüura) dönüşmədi.

***

İnsanı tanımağa cəhd yoxdur.

"Filankəs balalarının hamısını oxutdu, evləndirdi, yaxşı toy elədi, zəngin cehiz verdi, maşın aldı..." Yəni zəhmətkeş adamdır. Görəsən qarışqadan dahamı zəhmətkeşdir?!

İnsanı məişətlə məhdudlaşdırmaq – onu tanımamaqdır.

***

Ünlü olmaq istəyi – yəni şöhrətsevər olmaq insanı azadlıqdan uzaqlaşdıran çox böyük əngəldir.

Azadlıq – kefi nə istəyir eləmək, hara istəyir getmək deyil.

***

Qorxu, tamah, qəzəb, kin, həyata bağlı arzular, maddi qayğılar – azadlığı ortadan qaldıran məsələlərdir.

Bəs mübarizə azadlığa əngəl olurmu?! – Demək, bir var öz içindəkilərdən qurtulmaq, biri də var, başqalarının içindəkilərdən qurtulmaq. – Yəni bireysəl azadlıq, toplumsal azadlıq. Mübarizə bunu şərtləndirməlidir. Yerdə qalan bütün mübarizələr varlığa qarşıdır. Ölümlü yaşamaqdır.

***

Heç bir normal adam bağırıb deməz, baxın, siz də bilin, mən balamı, ya da nəvəmi sevirəm. Ancaq biri bir şeir yazan kimi özünü oda-közə vurur ki, hamıya eşitdirsin, bildirsin mən şeir yazıram. Toplumda hər kəs özünə bağlı məsələlərdə zorla gözəllik yaratmağa

çalışır. Bəzən bunun üçün özündən üstün görünənləri yamanlayır, qaralayır. Ucalığa da daş atır. Ucalığa daş atır ki, görünsün. Ucala bilmir, ucalığın vasitəsiylə görsənməyə çalışır.

***

Adamlar öz düşündüklərindən sual vermirlər, onlara deyilən, öyrədilən məsələlərdən sual verirlər. Məsələn, cindən qorxurlar, sual verirlər. Bu “cin” anlayışını din insanların şüuruna soxmasaydı nə qorxardı, nə sual verərdi. Biri gəlib ortaya sarsaq bir söz atıb gedir, min il insanların beynini qurd kimi gəmirir. İnsanlar həyatın anlamını düşünməli olduqları halda, kimlərinsə ortaya atdığı cəfəngiyyatı çək-çevir etməli olurlar.

Dünyanı anlamağa deyil, anlamaq meylindən uzaqlaşdırmağa yönəlik zəhmətlər qutsal sayıla bilməz.

***

Bir var keçmişi təkrarlamaq, bir də var keçmişin dəyərlərini gəlişdirmək, gələcəklə bağlantı yaratmaq. Keçmişi təkrarlamaqla dəyərlər köhnəlir, hətta gözdən düşür. Ona görə yeni vərdişlər ortaya çıxır, pis şəkildə. Bu halda həyat pis vərdişlərlə yenilənir. Bu isə köhnəlikdən daha betər olur. Ona görə keçmişin dəyərlərinə qarşı yenilik yox, keçmişin dəyərləri üzərində yeniliklər gərəkdir.

Yenilik – şüuraltı saya (adi) vərdişlərdən yox, şüurun tələblərindən törəməlidir.

***

İnsanlar çox vaxt özləri öz azadlıqlarına əngəl olurlar. Hər gün elə yaşayırlar, elə davranırlar, bu yaşam, bu davranış onları azadlıqdan uzaqlaşdırır.

Səhərdən axşama pul düşünən məmur ən böyük kölə olduğunu anlamır;

Küçədə, bayırda hər an insanların addımlarını güdən polis ən böyük kölə olduğunu anlamır;

Öz öyrəncisinin hər davranışına göz qoyan öyrətmən, öz arvadının hər addımını izləyən ər, səhərdən axşama məmurun pulunu sa-

yan yoxsul ən böyük kölə olduğunu anlamır. Hər kəs köləliyi öz düşüncəsində, ömründə qoruyur.

***

İnsan içindəki pisliklərdən arınarsa, azadlığını təsdiq edər. Ancaq bağımsız (müstəqil) olmaq fərqlidir. Atadan, anadan, övladdan, dostdan, öyrətməndən asılı oluruq. Bu asılılıq bizim azadlığımıza qarşı deyil. Ancaq görəvlidən, şöhrətlidən, ağadan asılıyıqsa (yəni bağımsız deyiliksə) onda daxili azadlığımız zədə götürür. Asılılığı insani münasibətlər tənzimləmirsə, azadlıq zədələnir.

Azadlığı İnsani münasibətlərlə alındıra bilməyəndə ya mübarizə gərəkir, ya da imtina.

İşimiz müdirdən, məmurdan asılı olur, bu qaçılmazdır. Ancaq mənliyimiz azad deyilsə, bu asılılıq köləliyə çevrilir.

Bağımsızlıq – dirənişdir, azadlıq – umacaqsızlıqdır.

***

Yaxşı ilə pis, xeyirlə şər ziddiyyət yaratmır. Pis olmayanda yaxşı, şər olmayanda xeyir var olur.

***

Təhsil kapitalizmi təbliğ edir, insanları kapitalizmə hazırlayır. Təhsil – kapitalizm quruluşunun qida mexanizmidir. Qidalanır, yaşayır, böyüyür. Gənclik o qədər gərəksiz biliklərlə yüklənir ki, gələcəyə arxa duran, dayaq olan qalmır. Ona görə gələcək qurulmur. Bugün dünənə oxşayır, sabah bugünə.

Texnoloji kitablar oxuyurlar, texnologiyalara bənzəyirlər, quru, cansız sürü toplanır həyata.

Romantik düşüncələr, bədii duyğular aradan gedir. Azad ürəklər, coşqun ömürlər azalır. Nəğmə oxuyan çaylar yerinə bulanlıq sellər çağlayır. Günəş şəfəqlərinə bürünən çəmənlər yerinə boz-bulanıq bataqlıqlar əmələ gəlir. İnsan Doğanı da öz gününə salır. İnsan duyğuları ilə Doğa arasında romantik bağlar qırılıb tökülür...

***

Adamlar Ərdoğana bənzəmək istəyirlər, Atatürkə yox. Çünkü Ərdoğana bənzəyiş yalanlara bürünən asanlıqdır. Atatürkə bənzəyiş isə əzablara bürünən çətinlikdir...

***

Fərqli şeylər istəyənlər, fərqli şeylər düşünənlər qovğa edərlər. Hər kəs danışdığı adamın da onun kimi düşünməsini tələb edir. Qovğa ondan yaranır. Ancaq düşündüyünün həqiqət olduğunu bilən qovğa eləməz, sözünü deyib keçər.

Təhqir etmək, artıq-əksik demək isə fərqli düşünmək deyil.

***

Özünə İnam – özü haqqında düşüncə bəlirləməkdir (müəyyənləşdirməkdir).

***

Hər kəs ata-babalarımızın yoluna, onların yaratdıqları gələnəklərə sayğı gərəkdir deyir. Ancaq heç kəs gedişdən razı deyil. Yəni heç kəs ata-babaların yaratdıqları dünyanı alqışlamır. Bəs biz nə edirik, – ata-babaların yaratdıqları, bəyənmədiyimiz dünyanı dəyişməyə çalışırıq, yoxsa təkrar yaşamaq istəyirik?!...

Bizdən kim ata-babaların yaratdıqları dünya ilə barışmırıqsa, öz çabalarımızla gələcəyə gedirik. Yəni gələcəyin, sabahın barışmayan insanları ilə birləşib yeni dünya yaratmağa üz tuturuq. Nəsimilər öz çağlarındakılarla bir ola bilmədilər, indi bizimlə bir olmaq durumundadırlar. Beləcə barışmazlıqlar əbədi sabahlarda dəyişikliklərə çağırır.

26-09-45.

***

Adamlar heç vaxt normal yaşamırlar. Özlərini gizləməklə, onun-bunun gözü ilə özünə baxıb qorxu, səksəkə içində gizlənmək faciədir. Belə olan halda necə xoşbəxt yaşamaq olar?!

Heç kim beynini, düşüncəsini, ürəyini azad eləmir, eləmək istəmir. Sevincini belə, kədərini belə, azad eləmir, eləyə bilmir.

Adamlar həqiqəti sevirlər, ancaq sevgisini azad buraxmırlar. Ona görə də həqiqətə ulaşa bilmirlər. Sevgisi ilə həqiqət arasında əngəllər yaradır, hasarlar hörürlər. Sevgisi bu hasarı aşıb həqiqətə qovuşa bilmir.

"Görəsən mənim haqqımda nə düşünürlər" – niyə beyin bununla uğraşmalıdır axı. Həqiqətdən uzaq olanların düşüncələri necə doğru ola bilər, nədən səni etkiləməlidir ki?!

Adamlar evinin içini, çölünü hər kəsdən o qədər gizləməklə uğraşır ki, ömrü, həyatı məchul qaranlıqlar içində keçir. Ömründən mənalı bir sirr tapa bilmirsən. İnsanın mənası sirli, sehrli olduğu halda ömrü boş, anlamsız olur. Çünkü öz mənasından, varlığın işığından qaçır, məchul qaranlıqlar boşluğuna düşür.

***

Narazılıq – zarımaq olmamalıdır, fərəhli bir quruculuq olmalıdır...

Ya gedişlə barışmaq var, ya da gedişə qarşı zarımaq var. Biri ölüdür, o biri etkisiz, quru.

***

Narazılığımız nəyin üzərindədir?! – İş yerim yoxdur, qazancım azdır, maşınım yox, evim yoxsul i.a.

İnsan özündən ayrılıb, münasibətlər əyilib, ədalət yoxdur, gözəlliklərə qıyırlar i.a.

Narazılıqlarımız birinci halda bizi məxluqa döndərə bilər, ikinci halda İnsana yüksəldə bilər.

***

Yalnız söz eşitməklə bəslənilmək istəyən adam həqiqətə yetə bilməz.

İdraka azadlıq vermək gərək – düşünə biləsən;
ürəyə azadlıq vermək gərək – duya biləsən;
İradəyə azadlıq vermək gərək – qura biləsən.
İdraka azadlıq vermək – onu bəsit düşüncələrlə yükləməməkdir;

Ürəyə azadlıq vermək – naqis duyğulara boyun əyməməkdir;

İradəyə azadlıq vermək – arzuları, diləkləri pis əməllərdən qorumaqdır.

***

Ac olanı sözlə doyurmaq olmaz.

Mənəviyyatı yoxsul olanı maddi nemətlərlə zənginləşdirmək olmaz.

Hər şeyin öz yeri var.

Önəmli olanı isə mənəviyyatı qurmaqdır. Mənəviyyatı bütöv olanlar ədalətə qarşı getməz, heç kimin haqqını ayaqlamazlar.

***

Mənəvilik əsasında yaşamaq istəməyənin bəhanəsi: – Başım maddi yoxsulluğa qarışdığı üçün mənəviyyat haqqında düşünməyə vaxtım qalmır...

***

Azadlıq olmasa, beyin küt qalır.

***

Bütün həqiqətləri vicdanın gözünün içinə baxıb üzə çıxarmalı, İnsanlığın nədə zədələndiyini gizlətməməli, onun sağalmasına, doğruçu olmaqla yardımçı olmalı.

***

İnsan elə bir varlıqdır ki  yaşamında gərəkən heç nəyi ötürmək olmaz. Hər bir duyğunu, – sevgini, qüruru, vüqarı, coşqunluğu, ehtirası, sakitliyi, susqunluğu vaxtında kökləmək, yaşamaq gərəkdir. Gənclikdə qocalığı, qocalıqda cavanlığı yaşamaq olumsuzdur.

Gənclik coşqusu qocalıq müdrikliyinə aparan yol olmalıdır.

***

Yetənəklə, bacarıqla tanınan, tanınmağa can atan adam ulusal dəyər daşıyıcısı, dəyər qurucusu ola bilməz. Beləsi İnsanlığın öyrətməni heç olmaz.

İnsanlığın öyrətməni olmaq üçün öz içinin bağbanı olmaq gərəkdir.

***

Toplumun öygüsündən (tərifindən) asılı olan ünlülər həqiqətə yetə bilməzlər. Çünkü həqiqətə yetmək – bir çox hallarda özünü topluma qarşı qoymaqdan keçir.

Toplumun öygüsünü seçən həqiqətdən keçir.

***

Həqiqəti söz deməklə dərk eləmək olumsuzdur, onu düşünərək, yaşayaraq dərk eləmək olur.

İnsanlar düşünmədən, yaşamadan həqiqəti dərk eləmək istəyirlər. Bu yanaşma işləmədən pul qazanana, zəhmətsiz gəlir götürənə bənzəyir. Heç nə eləməyim, ancaq varlanım, zənginləşim, biliklənim, həqiqətləşim.

Ən dərin öyrətmən belə, həqiqəti dərk elətdirə bilməz, – açıqlaya bilər, yardımçı olar. Qıraqdan heç kim heç kimin içinə həqiqət qoya bilməz.

Uşağın əlindən tutub aparmaq bir yerə qədərdir. O, böyüdükcə öz ayaqları üzərində durmalı, öz istədiyi, anladığı səmtə getməlidir.

***

İnsanın hər istədiyi, istəyi anladığı deyil. O, çox vaxt anlamadığını istəyir.

***

Biz çox vaxt içəridən gələn tələbə yox deyirik, dışarıdan gələn tələbə isə boyun əyirik. İçəridən gələn tələbdə mənəvi təsdiq olanağı var. Dışarıdan gələn tələbdə isə məcburiyyət, ya da zorakılıq var.

***

Dünyanın hər yerində adamların yaşamı, davranışı, aşağı-yuxarı, bir-birinə bənzəyir. Fərqlər zahiri toplumsal mədəniyyətdə özünü göstərir. Kamil insanlar isə bənzəmirlər, doğma olurlar. Doğmalığı yaradan zənginlikdəki sonsuzluqdur.

Baxışlar, düşüncələr, davranışlar sonluluqda qırılmır, sonsuzluğa uzanır...

***

Olan doğrular – əyri, ya düz yaşadıqlarımızdır.
Olmalı doğrular – yaşaya bilmədiklərimizdir.

***

Dünyanı qorxa-qorxa öyrənmək, dərk eləmək olumsuzdur. İnsanı qorxunun içinə soxurlar ki, dünyanı tanımasın. Dünyadan uzaqlaşan özünü görə bilməz. Çünkü özü Dünyanın bir parçasıdır.

***

Adamlar mənəviyyat haqqında bilik əldə edib özlərini mənəviyyatlı sayırlar.

Zəki olmaqla mənəviyyatlı olmaq eyni anlam daşımır. Yaxşının nə olduğunu bilib yaxşı olmamaq yer üzündə ədalətin yox olmasına gətirib çıxarıb.

Hamı yaxşılıq haqqında danışır, ancaq hamı yaxşı düşünüb yaxşı davranmır.

Hamı bilmək istəyir, ancaq yaşamaq istəmir.

***

İnsan nə vaxt acıqlanır?! – Ünsiyyətdə olduğumuz insanlardan kimsə öz danışığı, davranışı ilə bizim acıqlanmağımıza nədən olur. Demək, içimizdə hansısa həssas bir yerə, bir şeyə toxunur. Bəs bu həssas yer haradır, həssas şey nədir?! – Bunu necə ayırd edə bilirik?! Deyək ki, içimizdə hansısa bir düşüncəmizə tərs davranır, hansısa duyğumuza toxunurlar. Biz də buna görə acıqlanırıq. Acıqlanmaq – incidilməkdən yaranır. Kamil insan acıqlanmaya da bilər. Necə?! –

Onun kiminsə əzə biləcəyi, sözünün yetə biləcəyi düşüncəsi, duyğusu olmur. Onun içi hər şeydən yüksəkdə durur. Onun aşağıda balaca, yarımçıq düşüncəsi, duyğusu olmur ki, hər kəsin əli ora çata bilsin, başqa sözlə, pis davranışı o düzeyə qalxa bilsin.

Göyə daş atılmaz, günəşə daş çatmaz.

Kimsə göyə daş atırsa, deməli, o axmaqdır. Axmağa baş qoşmazlar.

***

Acığa içdə nədən (səbəb) olanda yaranır. Kamil insanın içində acığa nədən olmur.

Ancaq məqsədi olan, hədəfi olan, mübarizəsi olan insanda qəzəb yarana bilər. Deyək ki, biri mənim qarşıma tikilib Amalımı təhqir edir. Amalım o təhqirdən çox yüksəkdə durur. Ancaq başqalarının qarşısında bu təhqir baş verirsə, məni qəzəbləndirər. Çünkü mənim başqalarını Amala çağırmaq kimi hədəfim var. Demək, başqalarının üz döndərməsini təşkil eləmək üçün qəsdən təhqir edənə acıqlanaram. Ancaq bu acıqlanma belə, doğru deyil. Çünkü mənim öz Amalıma inamım bütöv olmalı, heç bir təhqirdən sarsılmamalıyam. Olaramsa, deməli, mənim kamilliyim hədəfdən asılıdır. Hədəf məndən asılı olmalı, mən hədəfdən yox. Bunlar iç durumla bağlıdır. Dış durumla bağlı isə istənilən adam qəzəblənə bilər. Məsələn, gözümüzün qabağında biri uşağımızı döyür, qızımıza sataşır i.a. Bu hallara münasibətdə isə qəzəb qaçılmazdır.

***

Bir var həqiqəti, ədaləti ayaqlayan birilərinə yönəlik qəzəb, bir də var, səndən güclü birinin səni incitməsindən dolayı yaranan qəzəb. İkinci halda sən qəzəbini öz yaxınlarına boşaldırsan. Belə olan halda qəzəb iş görmür, oyuna çevrilir. Belədə adam normal duyğularını da aşkarlamaqdan məhrum olur. Əhvalda oyun varsa, münasibətə, davranışa oyun girirsə əsil, güclü duyğular yaranmır, üzə çıxmır. Bundan qaçmaq üçün acıqla, qəzəb duyğusu ilə fantaziyalar qurmamaq, başqasının haqsızlığına, ədalətsizliyinə, güclülüyünə qarşı priyomlar

düşünməmək gərəkdir. Sağlam etirazlar gərəkdir. (Yəni fantaziyalarsız, "əlində imkan olsaydı"ya hesablanmış priyomlarsız).

***

Ürəkdə sevgi yaratmadan sevirəm demək məsuliyyətsizlikdir – "Sevgi" sözünü işlətmək vərdişidir.

Bir uşaq yanıqlı ağlayanda sarsılıram, Duyğu nəvəm gözümün qabağına gəlir. Duyğunu sevməyimin təsdiqidir bu. Öz nəvəmi sevmək başqa körpələri də sevmək anlamı daşıyır.

Bir də görürsən biri deyir, "mən filan məsələyə də sayğı duyuram; filankəsin düşüncəsinə də sayğı ilə yanaşıram".

İstənilən adamın dilində bu deyiliş səmimi deyil, əzbərlənmiş, vərdiş olunmuş bir deyilişdir. Çünkü hər kəsin şüuruna yeridilir ki, fərqli düşüncəyə sayğı ilə, dözümlə yanaşmaq gərəkdir. Ancaq çoxları fərqinə varmır ki, bu deyiliş, istənilən halda, özünü doğrultmur. Məsələn, biri (ateist) deyir, "mən hər kəsin inancına hörmətlə yanaşıram". Yalan deyir. Sən qəbul eləmədiyin, doğru saymadığın, gərəksiz saydığın bir şeyə necə sayğı bəsləyə bilərsən. Demək, onun içi əzbərlənmiş, vərdiş olunmuş deyilişdən uzağa getmir.

***

Sevgini pay kimi vermək, ya da kiməsə öyrətmək olmur. Sevmək – bilik əldə eləmək kimi yaranan bir sürəc deyil. İnsan mənəvi travmalar alıbsa, başqaları onu incidirsə, onun başqalarına sevgi ilə yanaşması olumsuzdur. Bu bireysəl anlamda belədir. Genel anlamda insanların sevgisini, inamını zədələyən Quruluşdur. Məsələn, kapitalizm quruluşu inkişaf elədikcə insanlararası münasibətlər uçuruma gedir. Çünkü eyni növlər arasında istismarçılıq, ədalətsizlik yerə-göyə sığmayan həddə çatır. Rəqabət yaranır, özünü qorumaq, ayaqda qalıb yaşamını sürdürmək kimi düşüncələr, davranışlar əsas ölçüyə çevrilir. Belə halda insanlararası münasibətdə inam, etibar, sevgi gücünü itirir.

Nifrət daha tez yaranır. Hamının, çoxluğun qəbul eləmədiyi bir yaşam ortamı olanda ona qarşı nifrət tez baş qaldırır. Genel olaraq, dağıdıcılıq tez alınır, quruculuq gec. Ölüm tez olur, yaşam inkişafı

gec. Bir quş yuva qurur. Günlərlə dimdiyində ot, palçıq daşıyıb yapışdırır. Yüz dəfələrlə uçuşlar edir. Ancaq bir evdar qadın eyvanda qurulmuş qaranquş yuvasını bir saniyədə döşəmə silən ağacla yerlə bir edir.

***

Qaranquş insan nəfəsinə yaxın yerlərdə yuva qurur. Məncə, insana güvəncdən qaynaqlanır, əmniyyətdə görür balalarını. Qıraqda yuva qurarsa başqa yırtıcı quşlar, ilan-çalan, başqa nəsnələr balalarına hücum edə bilər. Belə bir instinkti var. Ancaq insanlar çox vaxt bu güvənci doğrultmur. Tərsinə, bir anda yuvanı darmadağın edir. Çünkü insanların şüuru doğadan çox uzaqlaşıb. Doğaya qarşı mərhəmətsizlikdən qaynaqlanan münasibətlər sərgiləyir.

***

İnsan torpaq alır, ancaq qeydinə qalmır. Ona görə də torpağını yabanı otlar, alaqlar basır. İnsanın beyni, mənliyi də boş torpaq kimidir, qeydinə qalmazsan tüfeyli düşüncələr beyninə, mənliyinə hakim olar. Sevginin yaranması da belə məsələlərə görə baş vermir.

***

Çoxları sevincli anlarla xoşbəxtliyi qarışdırırlar. Xoşbəxtlik – həqiqəti tanımaq, onu ömürdə yaşatmaqdır. Adam sevinəndə xoşbəxt, kədərlənəndə bədbəxt olmur. Sevincli anlar xoşbəxtliyi qurmaq olmadığı kimi, kədərli anlar da xoşbəxtliyi uçurmaq deyil. Xoşbəxtlik o anlama gəlmir ki, adam heç vaxt kədərlənməyəcək. Ya da əldə olunan bir uğur xoşbəxtliyi əbədi edəcək bir görsəniş deyil.

***

**Xoşbəxtlik**: Heç bir səbəb olmadan sevinmək, gülmək, şənlənmək, fərəhlə dolmaq, göylərə baxmaq, günəşə boylanmaq, Doğanı bir anda qucmaq eşqi – bir sözlə, hər şeyin Mənasını görməkdir. Mütləqlə təmasdır.

Xoşbəxtlik haldır, – ifadəyə gəlir, işıqlı duyğular selinə bürüyür adamı, sonra özünə çəkilir.

Dalğalar kimidir, – sahilə yan alır, sonra dərinliyə çəkilir. Dalğalar dənizdən ayrılmadığı kimi, xoşbəxtlik də ömürdən ayrılmır, bütün coşqunluğuyla üzdə işıqlanır, gözlərdə parıldayır, vücudda ehtiraslanır. Sonra dərinə çəkilir. Ancaq ömürdən ayrılmır, ömrün özündə yaşayır, ömrün halı kimi yaşayır...

***

Arzular çoxluğu insanın xoşbəxtliyinə qarşı yönələ bilir. Ancaq bu, mütləq istəksizlik anlamına gəlməməlidir.

***

Bir var zorən gördüyün iş, bir də var görmək istədiyin iş. İnsanın içində belə bir qarşıdurma var. Həyat onu bu qarşıdurma həddində saxlayır. Xəstəliklər ən çox belə işlərdən törəyir. İnsan sevmədiyi işləri görmək zorunda qalanda mənən travma alır. Bu da fiziki sağlığa yansıya bilir. İnsan işinə yaradıcı yanaşmalıdı, candərdi yanaşmalı deyil.

***

“Kainat – müəyyən prinsiplərlə və ya qanunlarla fəaliyyət göstərən mexanizmdir və bu qanunlar insanın anlaması üçün əlçatandır”. (*Stepen Hawking.* səh.43).

-"Tanrını təbiət qanunlarının təcəssümü kimi mənalandırmaq da olar" (səh.43).

Bu, Türk Tanrıçılığının anlamı ilə barışmaqdır.

“Kainatın, spontan (kortəbii, öz-özünə), heç nədən elmi qanunlara uyğun olaraq yarandığını hesab edirəm". (səh.44).

- Çox ilgincdir. “Heç nədən, elmi qanunlara uyğun olaraq" nə deməkdir. Burada da başlanğıc – sıfır nöqtəsi var. İndi bilinən nə varsa heç nə idisə, elmi qanunlar harada idi, necə yarandı?! Burada da elmi qanunlar allahlaşdırılır – öncə heç nə yox idi, ancaq elmi qanunlar var idi. Sonra bu elmi qanunların köməyi ilə heç nədən (öz-özünə) cismi varlıqlar yarandı... Bu elm deyil, cənab Hawking.

-"Materiya, enerji, məkan – kainatin yaranması üçün gərək olan məhsullar".

-"Məkan və enerji (materiya da elə enerjidir) indi Böyük partlayış adlandırdığımız anda spontan olaraq meydana çıxmışdır". (səh.46).

-"Kainat nəticə etibarilə sıfıra gedib çıxırsa, onu yaratmaq üçün Tanrıya ehtiyac yoxdur. Kainat – ideal havayı lançdır". (səh.47).

-"...Burada elementar zərrəciklər, misal üçün proton, özünü kvant mexanikası adlandırdığımız nəzəriyyənin müəyyən etdiyi təbiət qanunlarına uyğun olaraq aparır və onlar, həqiqətən də, təsadüfən meydana çıxa, müvəqqəti birləşə, sonra isə yenidən başqa bir yerdə meydana çıxmaq üçün yox ola bilər". (səh.48).

İnsan bütün arzularını gerçəklik kimi görmək, ya da qəbul etmək istəyir. Ancaq bütün arzular gerçəkliyə uyğun olmur. Ona görə də xəyal olaraq qalır. Avam dindar bizə deyir, Allah sizi cəzalandıracaq. Bu, sadəcə onun istəyidir. Bu istək gerçəkliyə uyğun olmadığı üçün düşünülməsinə gərək qalmır. Ancaq avam bunu düşünməyə, gerçəkləşəcəyinə inanmağa çalışır. Bu isə onun içini dar saxlamaqla bədbəxtlikdən başqa heç nə vəd eləmir. Azadlıq – xülyalardan qurtarmaq deməkdir. Dindar xülyalardan açılmayınca, heç vaxt azadlığı anlamayacaqdır.

***

Bugünkü dini ayinlər, rituallar əslində Allahla razılığa gəlmək üçün edilir. Qurban kəsirlər, oruc tuturlar, namaz qılırlar – Allahla “bağlaşma qollayırlar“ (müqavilə imzalayırlar).

Hər şeyi oyuna çevirməklə şüuru kor saxlamaq dünyanı dərk etməkdən uzaqlaşmaqdır.

***

Adamlar elə bilirlər bütün çəkişmələr maddiyyata, maddi üstünlüyə can atmağa görədir. Ancaq şöhrətsevərliyin, başqasından üstün görünmək meylinin, başqasına ağalıq etmək istəyinin nə qədər sərt, amansız olduğunun fərqinə varmırlar. Sosializm ideologiyası da elə bu məsələdə yanıldı. Sosialistlər elə düşündülər, maddi bərabərlik yaratsalar ədalət bərqərar olacaq, hamı bir-biri ilə dinc, hüzur içində

yaşayacaqdır. Nəfs, tamah təkcə maddi, cismi olana bağlanmır, qeyri-cismi olana da bağlanır.

***

Süni intellekt yaratmaqla canlı intellektlərin boş vaxtının çox olmasını təmin eləmək olar. Ancaq bu "çox vaxt" nəyə işlənəcəkdir?! Vecsiz insan sürüsü yetişdirməyəmi?!

***

Hər bir cəsarətli texnoloji ideyalar mənəvi-ruhani ideyaların qarşısını kəsməklə bədii yaradıcılığı sıradan çıxarmağa doğru gedir. Bədii yaradıcılığın ortadan qaldırılması, məncə, ailəsizliyə gətirib çıxara bilər. Çünkü bədii yaradıcılığın arxasında sevgi, heyrət, doğmalıq kimi duyğular dayanır. Bu duyğular insana münasibətin özül qaynaqlarıdır. Quru, faydalı münasibətlər ailə janrını qoruya bilməz.

***

Hawking deyir: "Bizim gələcəyimiz getdikcə daha böyük sürətlə artan qüdrətli texnologiyalarla, onlardan istifadə etməkdə göstərəcəyimiz müdriklik arasında gedəcək yarışmadan ibarətdir. Biz çalışacağıq ki, bu yarışmada müdriklik qalib gəlsin". (Səh.186).

Müdrikliyi – ağılın hər şeyi ram eləmək qabiliyyəti kimi düşünür, Mənəvi qüdrətin inkişafı kimi deyil...

***

Canlı intellekti işsizliklə, xəstəliklə öldürürlər, süni intellektlər yaradırlar...

***

Doğada özü-özünü məhvetmə şüurlu varlıq üçün keçərli olmamalıdır. Bəşəriyyət mənəviyyatdan qaçmaqla özü-özünü məhvetmə yoluna yuvarlanıb. Buradan çıxmaq üçün uğurlu çalışmalar gələkdir.

***

Səfərə çıxan çox yük götürməz, götürərsə, mənzil başına çata bilməz.

Ruhaniyyat yolçuluğu da beləcə, – ürəyi xıltla, acıqla, qara düşüncələrlə yüklü saxlayıb ruhani incəlikləri anlamaq, kəşf etmək mümkün deyil.

***

İnsana münasibət – münasibət bəsləyənin kimliyini bəlirləyir. Məsələn, uzun illər görüşmədiyin biri haqqında illər öncəki kimi düşünürsənsə, bu, sənin geridüşüncəli olduğunu göstərir. İnsanla ünsiyyətdə olmadan, davranışlarını izləmədən onun haqqında baxış sərgiləmək, yumşaq deyilsə, ədalətsizlikdir.

***

İnsanlar dövlətin basqısı altında bir şeylər yaradırsa, ona sağlam mədəniyyət demək olmaz. Mədəniyyət – azad, qorxusuz, sevərək, ağgünlü düşünərək ortaya çıxarılan yaradıcılıqdır. Başqa sözlə, sağlam mədəniyyət – mənəviyyatın yaradıcılığa yansımasıdır. Yer əkmək, məhsul becərmək, süfrə açmaq, maşın-mexanizm istehsal eləmək, paltar geyinmək, rəqs eləmək, nəğmə oxumaq, şeir yazmaq, səhəri sevinclə qarşılamaq, körpəni sevgiylə xoşbəxt böyütmək, öləni urvatlı ağırlamaq, gəncliyə mərifətlə toy eləmək... bunların hamısında mənəviyyatın qatqısı olmalıdır. Buna ellikcə əməl edəndə xalqın doğruçu mədəniyyəti kimi baxırsan.

***

İnsanlar həqiqəti arayanda, Tanrı anlamını yenidən kəşf edəndə yeni mədəniyyətlər yaradırlar. – Düşüncə gəlişir, əməl zənginləşir, axtarışlar dərinləşir...

Bizim mədəni gəlişməyimizə İslam həmişə əngəl olub.

***

Uşaq arı olur. Çünkü dünyada nə varsa ilk gördükləridir, heyrət içində olur. Heyrət o qədər güclüdür, onun içinə pis şeylər hakim ola bilmir.

Sonra gənclik dönəmi başlayır. Heyrət böyüyüb sevgi yaradır. Ancaq ağıl böyüdükcə çevrəsindəki yamanlıqları tanıyır. Yamanlıqlar yaxşılıqları unutdura bilir. Beləliklə, sevgi getdikcə azalır. Deməli, toplumdakı əyriliklər, ata-ananın övladı qəlibə salması övladda sevgini azaldır. Getdikcə sevilməli şeylərə də biganəlik böyüyür. Bunlardan qorunmaq üçün insana ruhani xilqət olduğunu tanıtmaq gərəkdir ki, ruhunu böyütsün.

***

İnsan həyatın nə demək olduğunu bilməyəndə hər şeyi dağıdır. İstəyirsiniz heç nə dağılmasın, qan-qada artmasın, o zaman insanın həyatı dərk etməsinə yardımçı olun. Tərbiyə ilə, öyüd verməklə dünyanı qorumaq olumsuzdur. Dünyaya gələn insan xoşbəxt olmalıdır ki, dünyanı qorusun. İnsanı bədbəxt eləyib dünyanı dağıtmağa zorlamaq olmaz. (Bədbəxt insan dünyanı qorumaz, dağıdar).

İnsan dünyadan ayrıldığına görə bədbəxtdir. İnsanı maddi ehtiyac içinə soxub dünyanı onun əlindən alırlar. Dünyasızlaşan insan dünyanı sevməz, dağıdar. (Ehtiyac içinə soxanla soxulan eyni durumda sayılır).

***

İnsan toplumda o qədər basqıya uğrayır, sıxıntıya düşür ki, hər addımda özünü qorumaq zorunda qalır. Bu zaman o, ancaq əzici baxışlardan, qınaqlardan gizlənmək haqqında düşünür. Səmimiyyət, ədalət, doğruluq haqqında düşünmür.

Toplumda insan özünün yanlışlarını etiraf etmək, səmimi olmaq gücünü itirir. Mübahisələr də belə əhvallardan yaranır. Hər kəs özünün doğru düşündüyünü sübut etməyə çalışır. Beləliklə, insanların münasibətində, davranışlarında özünü haqlı çıxarmaq uğrunda mübarizə gedir. Sonucda haqsızlıq böyüyür, genişlənir.

İnsan özünü toplumun arasında olarkən, evindəki kimi rahat hiss etmir. Çünkü doğmalıq yoxdur, yadlıq münasibətləri zədələyib.

***

İnsana, özəllikcə gənclərə azadlıq verməkdən qorxurlar, – deyək ki, ata-anası, öyrətməni. Düşünürlər ki, özbaşına buraxsan pis yola düşər, həyasızlıq edər, başqalarına qarşı pislik edər, pis davranar. Halbuki gəncləri azadlığa, xoşbəxtliyə öyrətmək gərəkdir. Xoşbəxt adam heç vaxt heç kimə pislik eləmək haqqında düşünməz. Niyə düşünsün ki, niyə xoşbəxtliyini əldən versin ki?! Xoşbəxt olmaq, azadlığa yetmək – hər cür pisliklərdən çıxmaqdır. Bütün bu halları insan yaratmalıdır, dövlət qorumalıdır. Dövlətin bunu qoruması üçün onun başına da azad, xoşbəxt adamlar gəlməlidir.

***

İnsanlara eşit gözlə baxmaq nə deməkdir? – Hər kəs nəyi haqq edirsə, onu qəbul etmək!

Biri sənə yaltaqlanır, ya da üzünə xoş sözlər söyləyirsə, ona üstünlük verməmək gərəkdir. Sənə soyuq münasibət sərgiləyən, ya da sadəcə sakit davranan, sənə özəl diqqət ayırmayan birini sənə (üzgörə) isti münasibət sərgiləyəndən aşağı tutma!

***

Nizam-intizammı sorumluluq yaradır, hər hansı dış tələb, dış basqımı?!

Birincidə özgürlük yaranır, ikincidə fəlakət.

***

İnam, sevgi insana güc verir. Bu güc başqalarını nəzarətə götürmür.

Başqa anlamda güclü olmaq heyvana bərabər olmaqdır.

***

Şöhrət istəmək nə deməkdir?! – Özünün yaradıcılığına, düşüncəsinə, davranışına güvənməmək, dəyər verməmək. Ona görə özünü şöhrətlə dəyərləndirməyə çalışır.

Asif Ata deyir, xeyirin xeyirdən böyük ödülü yoxdur.

Xeyiri düşünənin şöhrətə qaçmağa gərəyi olmaz.

***

Əməli, işi sevməyib bacarığı, qabiliyyəti sevən umacaqsız olmaz. İnsan bacarığı sevəndə xudbinlik böyüyür. Sonuc işdən qabağa keçirsə, Xeyiri təsdiq eləmək olmur. Məsələn, xeyirxah adam elədiyi yaxşılıqdan sevinc duyur. Yox əgər sevinc duymur, əməlinə qarşılıq umursa, dəyərləndirilmək gözləyirsə, demək xeyirxah deyildir.

***

Özünü tanımaq üçün düşüncələrini təhlil etmək, içində baş qaldıran halları, keçirdiyin hissləri, sıxıntıları, qəzəbi, kini izləməkdən çəkinməmək gərəkdir. Tənhalığa çəkilmək, dənizlə, doğa ilə üz-üzə qalıb içini izləməklə özündə nələr baş verdiyini dərk eləmək olar. İnsanlar öz içlərini görməmək üçün başqa işlər görürlər, başlarını qatırlar. Özünü görmək, izləmək çətin olduğu üçün buna getmirlər, gizlənirlər. Gərək başqasını necə izləyirsənsə, necə təhlil edirsənsə, eləcə özünü izləyib təhlil edəsən.

***

Bir insan bütün varlığını, taleyini, ümidini bir mürşüdə, öyrətmənə bağlayıb yaşamını sürdürməməlidir. Onun başqa ürəkləşməli, bölüşməli obyektlərinin olması da gərəkdir. Bunlardan biri özü, biri Doğa olmalıdır. Özündən, Doğadan öyrənməli duyğularını daim böyütməlidir.

Biz, Ocaqçılar olaraq, bütün umudumuzu Asif Ataya bağlamışdıq. O öləndən sonra sarsıldıq, dağıldıq. Nə yaxşı ki, mən özümə güvənimlə, Ataya inamımla, Doğaya sevgimlə, izləmələrimlə özümə öyrətmənlik eləyə bildim. O çağlarda yazmışdım, – hər kəs içində bir Asif Ata obrazı yaratmalı, onunla özünə Atalıq eləməyi bacarmalıdır.

Bu gün də amaldaşlarımın umudlarını mənə bağlamasını doğru saymıram, hətta zərərli sayıram. Hər kəs öz ömründə bağımsız, özgür olmalıdır. Özünə daha çox inanmalı, güvənməlidir.

***

İnsanın bir öz istədiyinə əməl etmək çabaları var, bir də başqalarının istəklərinə əməl etmək çabaları. Bəzən öz könlündən keçən doğruları deyil, atanın, ananın, dostun, qardaşın istədiklərinə əməl edirsən. Bununla da könlünü doğruluqdan ayırmış olursan.

Bir də içində baş qaldıran doğruları gerçəkləşdirmək istəyəndə toplumun yaşatdığı gələnəklər, vərdişlər qarşına tikilir. Onu aşa bilməyəndə içinə yad olan işləri gerçəkləşdirməli olursan. Sonucda için yenilir, özgələşir. İçində daim özüm-özgə qarşıdurması yaranır. Bu qarşıdurmadan qurtarmaq üçün içini özgələrin istəklərinə, baxışlarına, tələblərinə tabe eləmə, doğrulara tabe elə. (Başqalarına qarşı duyarlı, qayğıkeş olmaq isə özümləşməyə qarşı deyil). O zaman həm özünə gərək olacaqsan, həm də başqalarına.

Özüm-özgə qarşıdurmasına içindəki pisliklər də özgündür. “Öz”ün ruhani varlığındır, “özgə” cismani, bioloji (heyvani) varlığın.

İçində qarşıdurma yaradan: paxıllıqla – saflığın, hərisliklə – fədakarlığın, qısqanclıqla – özümlüyün, şöhretsevərliklə – ölümsüzlüyün, şəhvətsevərliklə – məhəbbətin üz-üzə durmasıdır. Bundan açılmaq üçün Asif Ata “özüylədöyüş” ideyasını önərir.

***

İnsan, bədəninin ölümündən öncə şüurunu, ruhunu öldürür. Gözlərimizin qarşısında anlamsız bir varlıq olaraq mövcudluğunu sürdürür. İnsana anlam verən ruhdur, şüurdur, o da ölüdür, – buna ağlamırıq, gözlərimizin qabağında canlı ölü gəzir. Ancaq bədən öləndə həşir salırıq. Bununla biz ölümlü üçün, ölməli olan üçün ağlayırıq. Ölümsüz olmalı olanın ölümünə isə göynəmirik. Bax bu, dünyanı anlamamaqdan, özünü dərk eləməməkdən yaranan bir görsənişdir. Bədənin ölümünə o vaxt ağlamaq olar ki, bədəndə var olan ruhun işi başa çatsın (bu bədəndə başa çatsın). Biz sadəcə gözümüzün öyrəşdiyi, mövcudluğuna vərdiş elədiyimiz bir bədən üçün ağlayırıq. Bizim kədərimiz ən qısa zamanda unutmaqdan uzağa getmir.

Deyirlər, ölüm çox adiləşib. İnsanın ölümü ilə hər hansı quşun ölümü arasında fərq aradan qalxıb. Bu ona görədir ki, insan ruhsuz,

mənliksiz, mənəvi kimliksiz yaşayır. Başqaları üçün heç nə ifadə etmir. Heç kimin sevgisinə, sevincinə girmir. Heç kimin varlığına doğmalaşıb yaşamaq səbəbi tapmır. Ona görə də öləndən qısa ara sonra unudulur. Sanki belə bir adam yox imiş. Qısa çağda ailəsi üçün yoxluq, boşluq yaratsa da, el üçün, başqa insanlar üçün özəl bir boşluq yaratmır.

Heyvan belədir, – öləndə başqa heyvanlar üçün iz buraxmır. Ona görə insan heyvan taleyi yaşamamalıdır. Sevilmək, anılmaq, ölümündən sonra xatırlanmaq, örnək ömür yaşadığını sübut edən səbəb verməlidir...

***

Hər şey haqqında düşünürük, bəzi şeylər haqqında düşünəndə zövqümüz sevinir.

Ancaq özümüz haqqında düşünməkdən qorxuruq. Özümüzdə şər görmək, pislikləri kəşf etmək sarsıdır bizi. Şəri, pisliyi görmək sarsıntısından qaçırıq, ancaq bir ömür pisliklərin basqısı altında əzilməkdən, bədbəxt yaşamaqdan usanmırıq. Ruhsuz, cansız, mənəvi kimliksiz yaşamağa dözürük, şəxsiyyət kimi yaşamağın çətinliyinə isə dözmürük. Üzsüz, izsiz, gözsüz silinib getmək qayğılandırmır bizi. Ancaq dünyada ədalət axtarırıq, xoşbəxtlik istəyirik. Tapa bilməyəndə dünyanı yamanlayırıq. Ədalət dünyada deyil, bizim ruhsuz canımızda gizlənib. Ruhun bütövləşməsi ilə ədalət yerini bulur. İnsan öz ruhani varlıq olduğunu təsdiq etməyincə, ədalətin görünməsi zor olur.

Ədalət – ruhun tələbidir!

***

Köhnə gələnəkləri (adətləri) yaşatmaq özünü zorlamaqdır, təkrarçılıqdır, köhnəliyi yamsılamaqdır (təqlid etməkdir).

Davamlı inkişaf getməlidir. Gələnəklər bir rəngdə, bir biçimdə qalanda anlamını azaldır, yorucu olur. Bu gün həyatda anlamlı gələnəklər, davranışlar yox kimidir. Ona görə heç kimə zövq vermir, yorur. Deyingənlik, qeybət yorucu davranışlara dözümsüzlükdən yaranır. Ancaq giley-qeybət yiyəsi özü də başqaları üçün yorucu dav-

ranışlar sərgiləyir, giley-qeybət üçün səbəblər verir. Deməli, gileyin-qeybətin ortadan qalxması üçün insan başqasından anlamlı (mənalı) davranış gözləmək yerinə özü öz ömrünü mənalandırmalı, yorucu davranışlardan ayrılmalıdır.

***

Yaxşı olmağa çalışmaq özünü doğrultmur. Gərək pis olduğunu görüb anlayasan. Adam hər şeyi arzulayır, ancaq arzularını gerçəkləşdirmək üçün gərəkən addımları atmır. Gərəkən addım – içindəki pisi görüb tanımaqdır. İçindəki pisi görməyib ona toxunmaq istəmirsənsə, yaxşılığa qovuşa bilməzsən. Ata da deyir, öncə tanımaq gərəkdir.

Pisliyin etkisindən qurtarmaq üçün yaxşı olmağı yamsılamaq uğur gətirmir. Yamsılamaq görüntü yaratmaqdır – özünü aldatmaqdır, – Olmaq deyil. Olduğun kimi görünməmək qorxusudur. Yaxşı davranmağı əzbərləməklə içindəki pislikdən qurtulmaq olmur. Yaxşı olmağı yamsılamaq alışqanlığı (vərdişi) yaratmaq balaca tərbiyədir. Balaca tərbiyə pisliyin qarşısında istənilən vaxt susa bilir.

Toplumdakı pislik heç yerdə cəsarətlə üz-üzə gəlmir. Çünkü pislik – cəsarət daşımalı olanların içində gizlənir. İçəridəki pislik cəsarəti qorxudur. Qorxaq tərbiyənin isə heç bir iqtidarı olmur. Balaca tərbiyə daşıyıcısı xeyirə qovuşa bilməz. Yaxşı deyilsən, pissən, sadəcə yaxşı görünməyə çalışırsan – bu reallıqdır, yəni olandır. Yaxşı olmaq isə imkandır, Olmalı olandır. Olanı tanımalısan ki, ondan qurtulub Olmalıya qovuşasan – imkanı gerçəkləşdirəsən.

***

Ağıllı olmayan ağıllı görünə bilir. Göz baxıb görəni aldada bilir. Ancaq ağıllı görünənlə ciddi ünsiyyətdə olsan onun ağılsız olduğunu, sadəcə uzaqdan ağıllı göründüyünü anlaya bilərsən.

***

“Adi həyat”, “ali həyat” Atanın çox işlətdiyi anlayışlardandır. Adi həyat – yalnız özünü, özünə yaratdığı qəlibdə ömrünü düşünməkdir.

Ali həyat – insan olduğunu dərk etməkdir. Ədaləti, həqiqətləri, gözəllikləri tanıyıb yaşamaqdır.

***

Ölümdən qorxan, onu hər addımda özünə dərd eləyən adam həyatı dərk edə bilməz. Ölüm qorxusunun içində gözəlliklərə yer yoxdur.

Gözəlliklər ölmür, – ölümün içində yaşamır. Gözəlliklər, yaxşılıqlar ölüm qorxusunu ötəndə başlayır.

***

Varlığı xatırlamazlar, araşdırıb öyrənərlər. Öləni xatırlamaq olur, varlığı yox.

***

Dolanışığa gərək olan nə varsa təkrarçılıqdır. Bu, yaşamaq deyil, icraçılıqdır. İnsan hər gün ömründə o qədər şeyləri təkrar edir ki, düşünməyə, yaşamağa vaxtı qalmır.

***

Səcdəli münasibət eqonu islah eləmək üçündür.

Ancaq Tanrıya ibadətlə insanı tanımaq, dərk eləmək olmur.

***

İnsan bir şeyə tam odaklanmaq, diqqət yetirmək üçün çox vaxt zorlanır. Çevrədə başqa şeylər, – davranışlar, hərəkətliliklər olur. Diqqəti onlardan qoruyub əsas hədəfə vermək üçün nə qədər enerji xərclənir. Bu enerjini aparanın adına abır, həya, sorumluluq deyirik. Sorumluluqdan enerjisini gizləyən adama isə vecsiz, gönüqalın adam deyirik.

***

İnsanın zehni, düşüncəsi o qədər adi şeylərlə dolu olur ki, ən yaxında baş verənləri belə hiss eləmir. İnsanın beynini həyat doldurur – özünə gərəkən, insana gərəkməyən bir çox şeylərlə. Belə olan-

da beyində tüfeyli mühit yaranır. Tüfeyli mühitdə hissiyyat gücünü itirir. Gərəksiz düşüncələrlə beyini yükləmək – ruhu söndürməkdir. Ruhsuz yaşamaq ölüm deməkdir.

***

Adamın yeməyə heç nəyi olmayanda oğurluq edir.

Uşağın oynamağa heç nəyi olmayanda palçıqda eşələnir.

Dindarın mənəviyyat gücü olmayanda cəhalət yayır.

Şər, qarşısında xeyir görməyəndə ziyan verir.

Hüquq adamda oğrunu görür, oğurluğun nədənini çözmür.

Ana uşaqda pintini görür, pintiliyin nədənini çözmür.

Elm dindarda cahili görür, cəhalətin nədənini çözmür.

Dövlət adamda şəri görür, xeyirin yoxluğunun nədənini çözmür.

Yaşamda heç nə çözülmür (həllini tapmır), izlənilir, ən yaxşı halda pislənilir. Çünkü hər şeyi yola qoymağa İnsanlıq ölçüsü gərəkdir. Bu ölçünün ortamında ədalət nizam yarada bilər.

***

Fiziki əməklə uğraşmayan adama tənbəl adam deyirlər. Əslində isə həqiqəti düşünməyən adam tənbəl adamdır.

***

Hovuzun dalğalanması ilə dənizin dalğalanması eyni anlam daşımadığı kimi, insan ömrünü də qıraqdan dəyişmək cəhdi ilə özünün dəyişmək cəhdi eyni anlam daşımır.

Hovuzu dalğalandırmaq üçün qıraqdan daim enerji gərəkdir. Dənizin dalğalanması isə doğaldır. Etki təkcə qıraqdan deyil, özündə içsəl hərəkətlilik vardır.

***

İslahatla quruculuq eyni anlam daşımır. İslahat köhnəliyin üzərində bir növ yamaqvurma sürəcidir. Quruculuq isə yenilikdir. Dövlətdə hakimiyyət dəyişikliyi sosial islahatlarla yetərlənir. Quruluş, ideologiya dəyişikliyi isə dövlətin xarakterini dəyişir, yönətimə gələnin lokal işlərdə özünü göstərməsini deyil.

***

Özünü tanımayan şəxsiyyət ola bilməz.
…Heybəsində narı olmayan xəstəyə nar vəd edə bilməz.

***

Deyirlər, kim nəyə inanır-inansın, hər kəsin inancına sayğı duymaq gərəkdir. Heç kim bu sözün sorumluluğunu dərk eləmədən belə söyləyir. Deyək ki, biriləri qaya parçasının oyuğuna inanır. Buna sayğı duymaq nə deməkdir? Axı bu inam inananı hara götürür, birgəyaşayışa nə vəd edir?!

İnsanı cahilləşdirən inanca sayğı duymaq – cahilliyə sayğı duymaqdır. Cahil – oğru olur, cani olur, ədalətsiz olur... demək, oğruluğa, caniliyə, haqsızlığa sayğı duymaq önərilir...

Anlatmadan, öyrətmədən bir adamı hansısa inancda tutmaq ona yamanlıq etməkdir.

***

Sual nədən doğur – şübhə etməkdənmi, bilmək istəyindənmi?! Sual – axtarış, bəlirləmək, doğrulamaq deməkdir. Sual – eyni halda şübhə deməkdir, şübhə ilə doğrulamaq olur.

***

İnsanlar kitab oxuyub nələri öyrənə bilir?! – Deyək ki, texnologiyaları, keçmişin tarixini, yeraltı, yerüstü sərvətləri, kainatın yaranışını, göy cisimlərinin xassələrini, onların qarşılıqlı etkilərini, ağacı calayıb bəsləməyi, əmək qanunlarını i.a. Bəs bütün bu bilgiləri əldə edən insan özünü tanıyırmı, dərk eləyirmi, buna cəhd edirmi?! - Bütün dünyanı öyrənərsən, ancaq özünü öyrənməzsən, demək, cahilsən.

Özünü öyrənib dərk edərsən, dünyadakıları bilməzsən, cahil deyilsən.

Özünü dərk edən hər şeyi bilir...

***

Hər bir sualın cavabı özündə olur. Sadəcə idrak suala azad yanaşmalıdır, yüklü, dağınıq, gərgin haldan azad olmalıdır.

***

Çağdaş ortamda şeir yazmaq, roman yazmaq – istedadın, bilginin (informasiyanın) ortaya qoyduğu yaradıcılıqdır, mənəviyyatın, ruhun yaradıcılığı deyil.

***

Heç kəs özünü tanımır, öyrənmir, kəşf eləmir, ancaq hamı yaradıcı görünməyə çalışır.

Ən böyük yaradıcılıq özünü yaratmaqdır.

Söz yığınını qəlibə salıb şeirə bənzətmək – şairlik deyil.

Başqalarından söz toplayıb status yazmaqla, başqalarına ağıllı görsənmək yazıqlıqdır. Özünü yaratmaqla deyil, özünü aldatmaqla uğraşmaqdır.

***

Aşığa pul verib özünün anlamsız, gərəksiz söz yığınını oxutmaq – söz ortamında dəllallıq eləməkdir. Aşığın mənəviyyatına kölgə salmaq, xalq ruhunun ən uğurlu dəyərlərindən olan sazı aşağılamaqdır. Bu cür adamlara bac verənlərin aşığam deməyə haqqı çatmır. Şöhrət dalınca ağız suyu axıda-axırda gedən bu cür adamların sümük dalınca ləhləyən itdən heç bir fərqi yoxdur. Onların aşıq-ozan dünyasında yeri yoxdur. 3-5 adama saz çalmaq öyrətməklə, sonra da gedib domino, nərd çayxanalarında əyləncələrə qurşanmaqla ustad adına yüksəlmək özünü doğrultmaz.

Dədə Qorqudun sinəsində haraylanan sazı ustadlarımız Ələsgər, Alı, Tufarqanlı, Qurbani, Dadaloğlu, sonrakı dönəmlərdə Şəmşir, Əmrah, Hüseyn Saraclı, Kamandar, Əkbər, Avdı... uğurla, ərdəmliklə çağımıza ötürmüşlər. Bu ruhu yaşadıb sabaha sunmaq qeyrət tələb eləyir.

***

Biz niyə pis işlər görürük, ya da görmürük?! – Pisliyi tanımadığımız üçünmü pis işlər görürük?! Pis işlər görmürüksə, bu pislikdən ayrıldığımız üçündürmü?! Pisliyi tanımadığımız üçün pis iş görürüksə, bunu yoluna qoymaq elə də çətin deyil. Əgər pislik xarakterimizə çevrilibsə, burada məkr var, bununla bacarmaq çox zordur. Belə adamlar yaxşı görsənmək manevrləri ilə çoxluğu aldada bilir. İkinci, pis iş görmürüksə, bu, pislikdən ayrıldığımıza görədirsə, burada intibah var. Əgər kimlərinsə sevgisini itirməmək, güvənini sarsıtmamaq üçün pis iş görmürüksə, burada özünü aldatma var. Kimsə deyə bilər, nə yolla olur-olsun, təki yaxşı olsun. Məsələ burasındadır ki, özünü aldatmaqla yaxşı olmaq – içdən azadlığa çıxmaq deyil. Burada özünüdərk yoxdur, xoşbəxt yaşamaq olumsuzdur. Başqasının xatirinə yaxşı olmaq – tərbiyədir. Azadlıq üçün, xoşbəxtlik üçün özünüdərk yoluyla yaxşı olmaq kamillikdir. Birincində pislik imkanı qalır, ikincidə qalmır. Kamillikdə pislik imkan kimi belə, olmur.

***

Ailələr uşaqlarını hansısa ideolojiliklər üçün, hansısa dinlər, ideyalar üçün yetişdirirlər. Əslində uşağı özlərinin mexanizminə çevirirlər. Uşaq böyüyüb başqa bir yol tutanda isə onu bədəsillikdə suçlayıb qovurlar, ayrı-seçkilik edirlər. Bu, ailəçiliyin baş tutmama nədənlərindən biridir. Arvadı, uşağı, əri öz baxışına tabe eləməyə çalışmaq yöndəmsizlikdir.

***

Nəyi düşünmək gərəkdiyini söyləyən öyrətilər (təlimlər) insanın özgürlüyünü zorlayırlar. Necə düşünmək, necə eləmək yollarını öyrədən öyrətilər özgürlüyə yardımçı olurlar. Mən bunun adına "insanı onun özü ilə üz-üzə qoymaq gərəkdir" deyirəm. Öyrəti adamları insanları öz öyrətiləri ilə üz-üzə qoyurlar, başqa sözlə, insana özgürcə düşünmək olanağı saxlamırlar.

***

- Kitab oxumaq böyük mədəniyyətdir. Ancaq hər kitab oxuyan düşüncə adamı deyildir. Kitabdan oxuduqlarını, ya da eşitdiklərini deyən adama düşüncə adamı deyilməz.

***

Orta oxul öyrətməninin standart bilgiləri olur. İxtisas bilgilərini öyrənib başqalarına öyrətmək – öyrətmənlik deyil, bələdçilikdir.

***

Çox gəzən, çox oxuyan çox şey bilər, ancaq bütün bunlar bilik deyil, bilgidir (informasiyadır).

Çox düşünən bilikli olar.

***

Ürəyində sevgi olmayan xoşbəxt ola bilməz. Sevgi – övlada, ataya, anaya yönəlik münasibətlə sınırlanmamalıdır (məhdudlaşmamalıdır).

Sevgi – dünyanı dərk etmək, sevmək qədər dərin olmalıdır.

İnanmırsansa, sevmirsənsə, duymursansa, həyat sənin üçün heç bir anlam daşımaz.

***

Hər kəsin çevrəsində doğum, ölüm, xəstəlik, pul, güc, yalan, səmimiyyətsizlik, ədalətsizlik, haqsızlıq var. Bütün bunları gündəlik düşünən adam xoşbəxt ola bilməz. Xoşbəxtik – bunları ötə bilməkdədir.

İnsanın gələcəyə gedən yolunun üstündə hər yandan üzünə qapılar açılır. Bu qapılar saydığımız pisliklərin qapılarıdır. İnsanı bu qapılar içəri çağırır, içəridə bu balacalıqların hər biri insandan onlara tay olmaq tələb edirlər sanki.

Mübarizə nədir? – İnsanı çevrələyən ölüm, doğum, xəstəlik, pul, güc, yalan, riyakarlıq, haqsızlıq i.a kimi qapılardan içəri girib dayanmamaq, qalıb ilgilənməmək, sönməmək. Nağıllardakı kimi, qəsrin, imarətin cah-cəlallı otaqlarına girib dayanmamaq! Dayanarsan –

gələcəyi itirərsən. Gələcək – nəfsin yanında dayanmaqda deyil, 40-cı otaqdan sonradır.

***

Adam qaranlığın olduğu yerdə özünü belə görmür. Qorxu – anlaşılmazlıqdan yaranır, anlaşılmazlıq – qaranlıqda var olur. İşıqda qorxu olmaz, çünkü anlaşılmazlıq olmaz.

***

Özünü unutmaq, şöhrəti düşünməmək, özünə baxış çəkib eqosunu böyütməmək, yaxşı bir şey görəndə tez ələ keçirib mənim olsun deyə düşünməmək – Bütövləşməyə yol açar...

***

İnsanlar içini qapayıb ixtisaslar dalınca qaçırlar. Ona görə dünyada heç nəyin qədrini bilmirlər, – yəni mənəviyyatın, gözəlliyin, sənətin, duyğunun, təbəssümün...

***

Şüuru, biliyi, zehni, düşüncəni nəyə yönəltmək, nəyə xərcləmək gərəkdiyini insan dərk edəndə xoşbəxt olur.

***

İnsanlığı texnologiyalar təkcə əvəz etmir, işğal edir...

***

Qorxaq (qorxan) insan yaradıcı ola bilməz. Yaradıcılıq – mütləq sorğulamaq, mütləq anlamaq tələbində ortaya çıxır.

***

Atanın ideyalarını eşitməklə ruhaniyyatçı olmaq olumsuzdur.

***

İnsanlara mənəvi dəyişikliklərin gərəkliyindən danışarsan, deyərlər, bunu həyata keçirmək çox çətindir. Ancaq deyərsən filan

dağın o üzündə qazanc var, yüyürər. Dağı aşmağın çətinliyini ağlına belə gətirməz.

Bir nəfsin, tamahın dalınca düşünmədən çətinliyə qaçırlar, bir də sevginin, heyrətin, vurğunluğun. İnsanı var edən çətinliyi aşmasıdır. Ancaq çətinliyi aşarkən nəyin təsdiq olunması önəmlidir – nəfs, tamam doğrultusunda heyvanlığınmı, sevgi, heyrət doğrultusunda İnsanlığınmı?!

***

Təbiilik: –Gül özü kimi görünür, başqa cür görünməyə dartınmır. Heyvan özü kimi görünür, o da başqa cür görünməyə dartınmır. Çünkü bunlarda təbiətdən artıq bir şey yoxdur. Ona görə başqa şey olmağa meyil etmirlər, təbii görünürlər.

İnsanda təbiətdən başqa da nəsnə var – ruh var, mənəviyyat var. Mənəviyyatlı olması, ruhlu yaşaması onun üçün təbiilikdir. Mənəviyyatlı yaşamaması, mənəviyyatlı görsənməyə dartınması isə sünilikdir.

***

Əsil Bilik – unudulmayan bilikdir. Bizə hey unudulan biliklər öyrətdilər. O biliklər bizim insan kimi formalaşmağımızda rol oynamadı.

Biz daim kitablardan öyrənirik. Kitablar bizə bir yerə qədər bələdçilik edə bilər, ancaq azadlığın qapısını bizim üçün aça bilməz.

***

Tanrı anlamını bilmək, həqiqəti dərk etmək üçün azad olmaq gərəkdir. Din insana belə bir azadlıq tanımır. Tanrını insandan gizləyir. İnsanın qüdrətli olmasına yardımçı olmur.

İnsan dini ötəndə azadlığa yetə bilər.

***

Keçmişdən açılmayan düşüncə insanı cəhalətdə (gerilikdə) saxlayır.

Keçmişdə işlətdiyin yanlışların, suçların qorxusu ilə gələcəyə getmək ölümə doğru getməkdir. Bu baxımdan, keçmişdən açılmaq – yanlış, suç qorxusundan açılmaqdır. İnsanın özgür (azad), bağımsız (müstəqil) olması – keçmişdən açıla bilməkdədir. İçindəki keçmişin xofunu gələcəyin işığı, ümidi ilə gömməsən, heç vaxt azad ola bilməzsən. Hər gün yaranan sorun dünəndə qalmalıdır. Dünənin əyriləri bizimlə gedirsə, gələcəyin düz qapılarından keçə bilmərik. Dünəndə qalmaq ölməkdir. Ölüm yanlışlarda bizi təhdid edir. Biz yanlışlarla birlikdə olanda ölüm bizim bir addımlığımızda olur. Yanlışlardan uzaqlaşdıqca ölümsüzlüyə yaxınlaşmış oluruq.

***

Böyüklük əzabla yaranır. Ona görə dahilər əzabı, kədəri sevir, kefi, əyləncəni yox.

Dahilik əzabdan doğulduğu üçün kefə, əyləncəyə vurulan nəinki dahi ola bilməz, dahiliyi anlamaz.

***

Yüksək görəvli adamlardan dost olmaz. Onlar çətin anlarda görəvini qoruyar, dostundan keçər!

***

Həyatdan (bioloji yaşamaqdan) ayrılmaq üçün sevməlisən, inanmalısan, duymalısan, görməlisən!

***

Allahı göylərdə axtarır insan. Allah gözəl əməllərdə, sevgidə, xeyirxahlıqda, başqasına qarşı ədalətli davranmada, doğruçuluqda yaşayır. İnsan bu deyilənlərə əməl edərsə, Allahı hardasa axtarmağa gərək qalmaz.

***

İdrakı çox bilgilərlə yükləmək dərk prosesinə əngəl olur.

***

Adamlar ürəklərini də, beyinlərini də həqiqəti düşünməkdən qoruyurlar. Həqiqətlə yaşamağı gözə ala bilmədikləri üçün özləri öz başlarını qatırlar. Əyləncələr bolluğu axtarırlar.

Boşluqdan bolluq törəyir – adamların gücsüzlüyündə.

***

Dünyada heç kəsin heç kəsə axıra kimi inamı, güvəni, sevgisi, etibarı yoxdur. Bundan heç kəs rahatsız olmur. Hamı təkdir, tənhadır. Təklikdən də qorxurlar, ona görə süni birlik yaradırlar. Cəmiyyət elə süni birlikdir. Bütün bunların başında insanın özünə inamsızlığı, güvənsizliyi, etibarsızlığı gəlir. İnsan özü ilə bir olmadığına görə heç kimlə bir ola bilmir.

Özü ilə bir olan başqasını inandıra bilər, güvən, sevgi yaranar.

***

İnsan şüurlu həyata başlayana qədər də, bundan sonra da öz başını qatmaqla uğraşır. Ölümünə qədər öz başını qatır, özünü çeşidli əməllərlə, davranışlarla aldadır. Ölüm anında isə qorxuya düşür. Çünkü yaşadığı sürəcə həqiqəti axtarmaqdan, özünə doğruları deməkdən qorxub. Əslində ölənə kimi ölümlə birgə yaşayıb. Ölümlə yanaşı durana Azadlıq yaxın gəlməz. Ölümdə azadlıq yaşamır, ölümlə birgə azadlıq olmur.

Ölümə qədər ölümün adları, çeşidləri olur. Ölümün canlı adları: qorxudur, şöhrətsevərlikdir, mənsəbsevərlikdir, paxıllıqdır, ağalıqdır, nəşəsevərlikdir, rütbəsevərlikdir... Bu xislətlərin hamısı azadlığın qənimidir.

***

Adam məna ilə dolmaq istəmir, ancaq mənalı danışmaq, mənalı bilinmək üçün söz axtarır, söz əzbərləyir. Hər addımda özünü aldatmaqdan usanmır...

Hər kəs öyüd verir, özünü ağıllı göstərir. Fərqinə varmır ki, ağızdan ağıza dolaşan sözləri təkrar-təkrar başqasına deməklə başqası öyüdlənməz. Öyüdlənsəydi gərək onu deyənin özü də öyüdlənmiş olaydı. Hər kəs uğurlu sözləri bir-birindən sadəcə eşidib ötürür.

Hər kəs belə bir sözü əzbərləyib: Üzdən gözəl qızı sevməyə nə var, gərək üzdən çirkin olan qızı sevə biləsən. Ancaq bunu deyənlərin heç biri üzdən çirkin qızı sevmirlər. Çünkü heç kim daxili gözəlliyi tanımır, üzdəki gözəlliyi görür. Bu isə insan sevgisi deyil, cinsiyyət sevgisidir.

***

Tanımadığın adam ilk tanışlıqda doğrulardan danışanda inanırsan. Ancaq onu əməli olaraq davranışlarına görə izlədikdə ömründə doğruların olmadığını görürsən. Ona görə insanın başqasına yönəlik sevinci ilə sarsıntısı arasında çox az məsafə olur.

İnsan inanmaq istəyir, sevmək istəyir. Ancaq inamına, sevgisinə layiq insan tapmayanda sarsılır, ümidsizləşir. Ona görə öncə insanı öz içində yaratmaq gərəkdir. İnsan doğrulardan danışa-danışa özünü başqalarına ağıllı göstərməyə çalışsa da, bu çalışmanın ömrü az olur. İnsan özü ilə bağlı başqasını, ya da başqalarını daha aldada bilmirsə, ondan, ya da onlardan uzaqlaşmağa çalışır. İnsanların başqaları ilə birliyi onları aldada bildikləri çağacan sürür. Sonra bu birlik pozulub gedir.

Nisbi, yalançı birliklərin üzərində heç nə yaratmaq olmur – nə xalq yaranar, nə dövlət, nə gələnək, nə ölçü.

***

Adamlar özlərini qorumaq üçün, ya da yanlışlarını görməmək üçün hər bir sözə, anlayışa nisbilik damğası vururlar. Bu, mənəmlik ehtiyacından yaranır.

Adamlar başqalarından öyrənirlər, bəhrələnirlər. Ancaq bunu göstərmirlər, gizləməyə çalışırlar. Görünə biləcək dərəcədə eqoizmə sarılırlar.

***

Heç kim tənqidə açıq deyil. Çünkü heç kim başqasını özündən ağıllı, duyarlı saymır.

***

Ənəlhəqq nə deməkdir?! – Yəni bəndə yoxdur, insan azadlığın, bütövlüyün zirvəsinə qalxmalıdır.

***

İnsan şüurunun yetkinləşməsi üçün ərəbin Allah obrazını insanın başının üzərindən düşürmək gərəkdir.

***

Türk Birliyini nə ilə, kim ilə yaratmaq istəyirlər?! – İslamla Türk Birliyi yaranmaz, parçalanar.

Nə İslamla, nə Batıçılıqla Türklük bir arada ola bilmir, bilməz.

***

Vətən – qutsallaşan torpaqdır. Yəni Vətəni Vətən eləyən onun üzərində yaşayanların yaratdığı dəyərlərdir.

***

Batıçılığı yaşadan kapitalizmdir. Kapitalizm ölməsə, Batının dünya üzərində ağalığı yaşayacaqdır.

***

Zaman – təzahürlərin görünüb yoxolma intervalıdır. Hər bir yeni olayla köhnə olay arasında interval, yeni olayların, təzahürlərin qavranılması ardıcıllığıdır.

Böyük-balaca cisimlər hərəkət edir. Zaman bir cismin, ya da cisimlərin bir nöqtədən başqa nöqtəyə yerini dəyişmə intervalı olur.

***

Asif Ata radikal davranmır. Radikal davranışda çox vaxt insan öz durumunu anlamır.

Asif Ata Mütləqlilik tələbi ilə davranır. Nə istədiyini bilir, dərk edir. Ona görə də Mütləqiliyin enməsinə (nisbiləşməsinə) güzəşt eləmir.

***

Hər bir insan həqiqəti dərk etdiyi andan yaşamağa başlayır. Əgər mənə sual verilsə neçə il yaşamısan, – deyərəm 10 il. 59 illik ömrümün gənclik dönəmi kal olub – bu 25 il deməkdir. Sonra vurnuxmalar dönəmim başlayıb, – bu da 10 il deməkdir. Sonrakı dönəmim axtarışlar dönəmimdir, – bu da aşağı-yuxarı 15 ildir. Daha sonrakı dönəmim isə həm axtarışlarım, həm də yaşantılarım dönəmidir.

***

İnsanın başının önünə üz deyilir, farsca surət. Bir yazının yeni vərəqə köçürülməsinə üzünü (surətini) çıxarmaq deyirlər. Deməli, üzü çıxarılan əsildir. Yəni bir var üz, bir var üzün əsli. İnsanda da üz varsa, deməli, əsli də var. Üzün əsli Mənadır, İnsanlıqdır.

Hürufilər deyir, Həqqin özü İnsanın surətində təcalla etmişdir. Yəni insanın üzü (surəti) dediyimiz Mənanın görsənişidir.

Müsəlmanlar qadın üzünü gizləyirlər, örtürlər, yəni əslində Həqqi - Mənanı gizləyirlər, qoymurlar Məna görünsün, Mənanı görsünlər. Üzün gözəlliyi Mənanın nişanəsidir. Bu gözəlliyi gizləmək küfrdür.

Nəsimi deyir: Üzün məndən nihan etmək dilərsən, etməgil! Bu həqiqəti anlamayanlar Həqqi, Mənanı bilməzlər, – cahil yaşayarlar, cahil ölərlər. Mənanın nişanələri insanın üzündə görsənişə gəlirsə, ona yüksək münasibət bəsləmək gərəkdir.

İslamda insan bölünür, qadının üzünü örtməklə kişidən ayırırlar, əksildirlər, fərq yaradırlar. İnsanlığı dərk etmək üçün onu bölməzlər, birlikdə (vəhdətdə) götürərlər. Min ildir, qadın-kişi bərabərliyi yaratmaq, fərqi aradan qaldırmaq istəyirlər. Alınmır, çünkü İnsanlığı dərk eləmirlər. İnsanı cinslərə bölməklə İnsanlığı dərk eləmək olumsuzdur. Qadının zəif, kişinin güclü olması – İnsanlığın fərqi deyil, gerçəkliyin fərqidir. Gerçəklik ölümlüdür. İnsanlar arasında ölümlü olanla fərq yaratmaq kobud yanlışlıqdır. Xarakterlər, davranışlar,

əmək qabiliyyəti – fiziki xassələr olmaqla cismi mövcudluğun ortaya çıxardığı nəsnələrdir. Ataya, anaya, erkəyə, dişiyə bölünmələr üzdəki (zahiri) fərqlərdir. Kişinin əsgər getməsi, qadının evdar olması İnsani fərqlərin görsənişi deyil. Bunlar bir bütövün iki cəhətidir, iki yanıdır. Bir insanın əlləri arasında, dişləri, üzləri arasında fərq qoymaq heç kimin ağlına gəlmir. Onlar insanı bütöv cismi varlıq kimi göstərən cəhətlərdir. Böyrəklə qaraciyər eyni funksiyanı yerinə yetirmirlər, eyni biçimdə, ölçüdə deyillər. Ancaq nə böyrəksiz qaraciyər var, nə də qaraciyərsiz böyrək. Qadın-kişi də eləcə, hərəsi öz funksiyasını yerinə yetirir. Birini o birindən əksik tutmaq, birini o birinə borclu saymaq absurddur. Onların sadəcə bir bütövün – İnsanlığın görsənişləri olduqlarını özləri dərk eləməli bir-birinə gərək olduqlarını, biri olmadan o birinin də olmadığını anlamalıdırlar. İkinin Mənada Bir olması həqiqətini bilməlidirlər.

***

İstənilən bir məsələ haqqında başqası ilə söhbət edərkən onun qonu ilə bağlı biliyinin olub-olmamasını yoxlayıram. Əgər məntiqi bir düşüncə sərgiləyə bilmirsə, deməli, qonu ilə bağlı heç nə oxumayıb. Heç nə oxumayanı, aydın bir baxışı olmayanı dinləmək istəmirəm. Çünkü oxuyub öyrənmədən danışan adam boşboğazlıqdan uzağa gedə bilməyəcək...

***

Bir var qavrama, bir də var təsəvvür. Əşyanı təsəvvür eləmək hələ onu qavramaq deyil. Təsəvvür yanlış da ola bilər, uydurula da...

***

Dünya nədir, necədir, ölümdən sonra həyat varmı – bu sorular ucdantutma hamını ilgiləndirmir. Bəs bu soruların çevrəsində bu qədər axtarışlar, çabalar gərəkdirmi?! – Ucdantutma olmasa da, insanların düşüncələrini rahatsız edən sorulardır.

İkincisi, düşünürəm ki, birgəyaşayışın mənəvi ölçülərini bu sorulara cavablar oluşdura bilir.

***

Bir var intellektual maraqlar, bir də var həyatı dərk etmək istəyi: Bir soyun kimliyini araşdırıb öyrənmək, yazmaq, sonrakı soylara çatdırmaq – intellektual maraqdan qaynaqlanmır, gələcəyə ötürdüyün taleni dərk etməyə dayanır.

***

Bir var, pessimizm, bir var optimizm.
Bir də var uydurma.
Uydurma nə odur, nə də bu.

***

Xeyirxah əməllər – azadlığa aparan yoldur. Daim xeyirxahlıq edən adam içindəki aqressiyalardan azad olur!

***

Mahiyyətcə heç bir yeni Bilik olmur. Sadəcə bizdə biliklər üzə çıxıb təkmilləşərək yenilənir.

Biliklər bizə ya genlə gəlir, ya da birbaşa daşıdığımız Mənadan gəlir. (Doğadan gələn biliklər genlə gələn biliklərdir).

***

Natiqlik – söz ehtiyatının çox olması ilə deyil, doğruları doğru kimi, yanlışları yanlış kimi tanıda bilməklə yaranan keyfiyyətdir. Səlis danışıb insanı çaşdırana natiq deyilməz. Başqa sözlə, yalanı urvata mindirənə natiq demək doğru olmaz.

Söz yox, natiq – yanılmadan nitq söyləyənə deyirlər – nitq icad edən (düşüncə söyləyən). Ancaq natiqlik mənəvi tərkibinin olmasına görə uğurludur.

***

Fəlsəfi anlayışlarla (kateqoriyalarla) danışmağı bacarmaq filosofluq deyil. Filosofun sözü işıq kimidir, – aydınlaşdırır (aydınlığa çıxarır), yönəldir. Boşuna deyil, fəlsəfə sözü hərfi anlamda "müdrikliyi sevirəm" deməkdir.

Dolaşıqlıq yaratmaq, fəlsəfə ilə manipulyasiya eləmək müdriklik sayıla bilməz.

Fəlsəfədə müdriklik – ağıldan üstün ağıla yetməkdir. Faydalı manevr eləmək qabiliyyətinə (bu anlamda ağıllı olmağa) müdriklik deməyək. Başqa sözlə, fərasətli ağılla ləyaqətli ağılı ayıraq.

***

**Biliklər**

Nizami – ali həyat haqqında bilik;
Füzuli – eşq haqqında bilik (eşqlənən, eşqi izhar eləyən bilik);
Asif Ata – Məna haqqında Bilik.

***

Qocalıq – gəncliyin mənalanmış dönəmidir. Gəncliyin yanlışlarından arınmış, müdrikləşmiş, örnəkləşmiş, məktəbə çevrilmiş uca, qutsal məqamdır. Biz qocalığın dəyərini Dədə Qorqudda tanıyırıq.

Qocalıq köhnəlmək deyil, – köklənməkdir – örnək ömürə, düşüncəyə, öyrədən mənəviyyata köklənməkdir. Sazda gözəl havalar köklənəndə çalınır...

Qocalığın dəyərini itirmək – həyatı hərcayiliyə buraxmaqdır.

***

“Mütləq yoxluq yoxdur”.

Bu deyilişi aydınlatmaq üçün misalları gözdən keçirək. Məsələn, içməli suya şirin su deyirlər. Ancaq bunu dəniz suyunun dadı ilə tutuşdurub bu cür deyirlər. Halbuki içməli suyun dadında özəl şirinlik yoxdur. Deyək ki, ovucun içində tük yoxdur. Belə misallarda yoxluq özəl yoxluq sayıla bilər (xüsusi hallarda), ancaq genel olaraq yoxluq anlayışı yoxdur. Yəni konkret predmetlərdə nəyinsə mütləq yoxluğundan danışmaq olar. Genel olaraq dünyada isə nəyinsə yoxluğundan danışmaq özünü doğrultmur. Əgər deyilsə ki, dünyada 50 metr hündürlüyündə adam yoxdur, – bu deyiliş "mütləq yoxluq" anlayışına girmir. Birincisi, 50 metr hündürlükdə adam "nəsə" deyil, genel olaraq isə "adam" anlayışı "nəsə"dir. İstənilən bir anlayışa

fantastik keyfiyyət artırmaqla, daha doğrusu, uydurmaqla "mütləq yoxluq" anlayışı əldə olunmur.

***

Anlayışları seçəndə düşüncələrlə uyum yaratmalıdır. Yəni fəlsəfi dildə istənilən anlayışla istənilən düşüncəni ifadə eləmək olmur. Məsələn deyək ki, biri deyir: ... arıdır, nəfəsi genişləndirir, əsəbləri dincəldir, ruhu sevindirir. Bunu oxuyan, ya da eşidən adam elə düşünər ki, bu dağ havasıdır. Yəni bu tam olmayan cümlənin qarşısına "Dağ havası" söz birləşməsini artırmaq gərəkdir. Ancaq bunu yazan bildirir ki, bu torpaqdır.

Bir başqası da deyir, sal qaya arıdır, nəfəsi genişləndirir, əsəbləri dincəldir, ruhu sevindirir. Qıraqdan dinləyən, ya da oxuyan isə düşünər ki, bunların ikisi də eyni şeyi deyir, sadəcə anlayışlar fərqlidir. Biri "torpaq" deyir, o biri "sal qaya". Axı torpaqla sal qaya bir-birindən yer-göy qədər fərqlidir...

Məncə, fəlsəfədə anlayışlarla çaşdırmalar çoxdur. Elə din dünyagörüşlərində də. Məsələn, biri ruha candır deyir, biri nəfəs. Bir başqası ruhu absurd sayır. Burada anlayışın adı birdir, məzmunu fərqli...

***

Bilik sənə ona görə gəlir ki, (sənə) yaşamaq öyrətsin.

Yaşamayanda bilik səndə qalmır, yaddaşından da çıxır. Biliyi toplasan sənin deyil, yaşasan sənindir.

***

Həzz, əzab, biganəlik insanda iki yöndə özünü göstərir: bir fiziki-bioloji anlamda, bir də mənəvi anlamda. Fiziki həzz, əzab, biganəlik beş duyğu ilə bilinir – dadbilmə, iybilmə, eşitmə, görmə, toxunma (hissetmə).

Mənəvi əzab, həzz, biganəlik – ruhun qabiliyyəti ilə ortaya çıxır. Ruhda fədakarlıq, vicdan, xeyirxahlıq, ləyaqət kimi keyfiyyətlər var. Başqasına qarşı haqsız davrananda ruh əzab çəkir (bu əzabı vicdan

yaradır). Başqasına qarşı xeyirxahlıq, fədakarlıq edəndə ruh həzz alır. Hər şeyə biganə qalanda isə ruh heç nə hiss etdirmir.

Birinci ilə ikinci hal ruhun aktiv olmasından, üçüncü hal isə ruhun passiv olmasından yaranır.

***

Göz görürsə ruhundur, görmürsə ölən (ölümlü olan) bədənin. Göz ruha fakt verir, mənalandırır, bağlaşdırır (əlaqələndirir). Ruh aktiv olarsa, bu dediyimiz doğrular, passiv olarsa, göz görsə də, ruhun olmur, bədənə gərək olur.

Ayaq nə üçün ( kim üçün də demək olar) yeriyir – ruh üçünmü, bədən üçünmü?! Yəni varlıq üçünmü, ölüm (ölümlü) üçünmü?! Dil nə üçün (ya da kim üçün) danışır?!

Lamisə duyğuları bədənə bağlıdır. Ancaq ruh aktiv olarsa, onun üçün var olurlar.

***

Tanrıya inanırsan, ancaq o hardadır, nədir, necədir – bunu ifadə edə bilmirsən. Bu sorulara cavab vermək istəyəndə təsəvvüründə yaratdığın obraz haqqında danışırsan. Haqqında danışdığın isə Tanrının özü deyil, onun şəklidir.

Rəssama desələr həyatın şəklini çək, yəqin ev şəkli çəkər, çevrəsində ağaclar, yaşıllıqlar, nəsə iş görən, söhbət edən adamlar, həyətdə quyruğunu oynadan it, havada uçuşan quşlar, bacadan çıxan tüstü... Ancaq bunların heç biri həyatın özü deyil, əlamətləridir. Bəs həyatın özü nədir?! – Adam pis şeylər görür: deyək ki, dalaşan adamlar, qohumunu, qonşusunu pisləyənlər, dedi-qodu yaradıb qan-qaraçılıq salanlar, başqalarının haqqını yeyənlər, yalanlarla baş qatanlar.... Bütün bunları izlədikcə adamın yaşamaq haqqında təsəvvürləri alt-üst olur. Ancaq körpəsini əzizləyib gülümsəyən ana, övladını böyütmək üçün hər bir zəhmətə qatlaşan ata, dostunun dar gününə ortaq olan vəfalı insan, quşların nəğmələrini dinləyə-dinləyə çiçəklərin gözəlliklərini seyr edən yaşlı adamlar, – bütün bunları görəndə isə adamın könlü açılır, üzü gülür, sevinir, gözəlliklərin əbədiliyinə ümidləri artır. Mütləq olanın (yəni Tanrı

anlamının) daim gözəlliklər doğuracağına ürəkdən inanır. İnamı anlaşılan, canlı, duyulan, dərk olunan olduqca yaşadığını başa düşür.

Yaxşı olmaq, ədalətli, mərhəmətli, vicdanlı davranmaq – yaşamaqdır, həyatın anlamıdır – Ali həyatdır. Kor-korana Tanrıya inanmaq, ancaq əməllərini, davranışlarını bu inamından irəli gələn tələblərdən uzaq tutmaq yaşamaq deyil, həyatı aldadıb yola verməkdir...

İnsan həyatın qurucusudur. O, daim həyatı böyütməli, gəlişdirməli, arındırıb doğrulamalıdır. Yəni Ali həyatı bəsləməlidir.

Yaşamaq – yaddaşlarda (deyək ki, altşüurda) toplanmış, canın, cismin əzbərlədiklərini, vərdiş elədiklərini yerinə yetirməklə olmur, şüurun yetməli olduqlarına güvənərək ömrü daim yeniləməkdir. Yəni şüursuz davranışlardan ayrılmağı bacarmaqdır. İnsan şüurlu (şüurla) yaşamağa başlayanda özündəki Mütləqlə hər an bir olur. Onu bir an da unutmur...

***

Millətçilikdə dinin olması mütləqdirmi? – Dinin yox, ancaq İnamın olması mütləqdir. Bir var din, bir var İnam. Din əsatirlər, mifoloji prinsiplər üzərində qurulan, nizamı ən çox xurafata bağlayan baxışdır. İnam – insanı həqiqətə yönəldən, dünyanın mahiyyətiylə görüşdürən, dünyanın mahiyyətini dərk etdirən, insanın kimliyini özünə tanıdan, dərk etdirən baxış sistemidir. İnamsız mümkün deyil. İnsan Tanrısal sistemin mahiyyətinə girməsə, dərk eləməsə, millət kimi formalaşa bilmir. Nə qədər istəyirsən deynən, türk böyük millətdir, qoçaqdır, məğrurdur, – bunlar anlamsız inaddan başqa bir şey deyil. Şüar quruculuq üçün zəmin deyil. Quruculuq üçün özül prinsiplər olmalıdır, bu prinsiplərdə yalan olmamalıdır.

Bəzən azərbaycanlılar Avropaya deyir ki, sənin tumançaq mədəniyyətini qəbul eləmirəm. Avropa deyir, qəbul eləmirsən eləmə, ancaq sənin içinə yeridirəm onu.

Axı necə qəbul eləmirsən, nəylə dirənirsən? Dirənməyə bir şeyin yoxdur. Asif Ata isə dirənişdir: ərəbçiliyin, farsçılığın, rusçuluğun, qlobalizmin gəlişinə dirənişdir. İstəyirsən Azərbaycanda 1 milyon adam desin ki, biz Asif Atanı qəbul eləmirik. Bu, çıxış yolu deyil.

Onsuz da Asif Ata gəlir, qarşısıalınmazdır. Bu elə bir seldir ki, şüuru oyadıb gəlir. Düşüncə verə-verə, həqiqəti öyrədə-öyrədə gəlir.

Asta gəlir, ancaq gəlir. Böyüklərin, nəhənglərin yerişi də asta olur. Bu türk millətinin içində yaranan, mahiyyətindən gələn böyük, dərin bir məsələdir. Bunun qarşısını almaq mümkün deyil. Toplumumuza onu önərirəm ki, buna anlamsız dirsək göstərməkdənsə, öyrənin, araşdırın. Zamanında qəbul edin. Mən bunu bir soydaş səmimiyyəti, sevgisi ilə deyirəm. Asif Atanın işi çox ciddi zəmin üzərindədir, ox yaydan çıxıb...

***

İnsan mövcudluğunu (cismani varlığını) "özü" sayır. Cismi varlıq ölümlüdür. Öləni, ölümlünü "Mən" sayır. Əslində isə "Mən" – görünənin (cismi varlığın) içindədir.

İnsan özünü nə sayırsa, nəyi "özü" sayırsa, daim onunla ünsiyyətdə olur, onunla söhbət edir. Mövcudluğunu – cismani varlığını "özü" saydığı üçün onun etkisində olur, əslində öləri ilə təmasda olur – ev-eşik, yemək-içmək, kef-əyləncə…

Ruhunu "özü" ("Mən"i) saydıqda isə onunla söhbət edir.

Ocaq bizə "Öz"ümüzü öyrədir, tanıdır, yəni ruhumuzu. Həyat isə bizi aldadır – görünüşümüzü – cismi varlığımızı "öz" sayır, saydırır.

İnsan özünü cismani mövcudluğa bərabər saydığı üçün Allahla (əslində Mütləqlə) özü arasında birliyi görmür, dərk eləmir. Əslində Allah insanın içsəl (daxili) "Mən"idir — özümlüyü, mahiyyətidir.

İnsana "öz", "özüm" məsələsini dərk etdirən ölçü gərəkdir. Din insana yaşadığı sürədə Allahla bağlı olduğunu demir, ayrı olduğunu deyir. Yalnız öləndən sonra Allahın dərgahında ola bilər. Bu isə yenə insanın Allahla bir olması anlamına gəlmir.

***

Türkçülükdə siyasətin rolu dəyişkəndir, aldadıcıdır.
Ruhaniyyatın türkçülükdə rolu əsasdır, həlledicidir.

***

Borçalılar özlərini öz vətənlərində hiss eləyən kimi gürcülər də, onların himayədarları da aranı qatıb-qarışdırırlar. Deportasiya gündəliyə gətirilir.

***

Öncə bizdə Rusiyanın Azərbaycan türkü üzərində ağalığının azalmasına sevindilər (sovetlər dağılanda). Ancaq bu sevincin bağımsızlığa doğmalığı olmadı. Çünkü Batının əsarəti başladı, indi də tükənmək bilmir. (Batının əsarəti ilə Rusiyanın üzərimizdə əsarəti paralelləşdi).

***

Məhəmməd həm irfan yolu yaratmaq istədi, həm də hökmdar oldu. Hökmdarlığı ilə irfanı birləşdirmək istədi, alınmadı. Təzadlı qaydalar yaratdı (ayələr söylədi).

İrfan yolu – insanın Bir olana inam bəsləməsi, əyrilikdən, gerilikdən çıxması, qurtuluş yoluna üz tutması anlamı daşıyır. Hökmdarlıq isə fərqli düşüncələri, fərqli qiblələri olan insanları bir arada tuta bilmək üçün çeşidli yollar aramaq, çeşidli vədlər vermək, gah aldatmaq, gah qorxutmaq, nəzarətdə saxlamaq kimi əməllər ortaya çıxarır. Başqa sözlə, daxili siyasət oyunları gərək olur. Oyunla irfanı birləşdirmək irfanı da oyuna salır.

Allahın adından gah bu, gah da başqa cür danışmaq, qərarlar vermək həyatı sabit ölçü ilə nizamlaya bilməz. Ona görə də Quran təzadlı qərarlarla, ziddiyyətli məntiqlərlə doludur.

Hətta Məhəmməd öz şəxsi həyatını da oyunlarla nizamlamağa çalışıb. Qadınlarına münasibətini, qadınlarının münasibətini yoluna qoymaq üçün manevredici ayələri buna örnəkdir.

Hökmdarlıqla peyğəmbərlik bir araya sığmaz. Hökmdarlıqla peyğəmbərliyin birliyi odla suyun birliyi qədər absurddur. Odla su bir-birinə tərs xassələrin daşıyıcıları olduğu kimi, hökmdarlıqla peyğəmbərlik də bir-birinə tərs anlamlı funksiyalardır.

Peyğəmbərlik – Allahlığın, İnsanlığın izharıdır, hökmdarlıq, başlıca olaraq, sərtliyin, ağalığın, mənəmliyin, zorun, savaşın daşıyıcısıdır.

Bu açıdan peyğəmbərliklə hökmdarlığı birləşdirmək – Allahlıqla İblisliyi barışdırmaq cəhdidir – alınmayan, doğrulmayan, doğrulması olumsuz olan.

Şah İsmayıl da sufiliklə hökmdarlığı birləşdirmək istədi, alınmadı. Bunu şeirlərindəki fəryadları da sübut edir.

***

Həyat yeknəsəkdir, birrəngdir, bayağıdır, eyniyyət yaradandır. Əgər insan öz dünyasını kəşf etməsə, yaratmasa, həyatla ölüm arasındakı fərqi dərk etməyəcək. Yəni əslində həyatı elə ölümə bərabər olacaq.

Ölümlə həyat arasındakı fərq insanın öz mənəvi dünyasını yaratması ilə əmələ gəlir.

Yeknəsək, monoton proseslərin etkisindən qurtarmaq, onların arxasındakı mənanı görmək, dünyanın sonsuzluğundan doğan sirlərin içinə girmək – budur yaşamaq.

Təkcə əməyə, qidaya bağlı yaşamaq – heyvani ömürdür, həşəratdan fərqlənməməkdir. Şüurlu əmək çəkməklə instinktli əmək çəkmək arasında olduqca bəsit bir fərq var. İnsanı heyvandan ayıran irfan Yoludur.

İnsanın doğal varlıq olaraq, necə var, elə qalması – dünyanın fani olması anlamı yaradır. Dünyanın faniliyi – birrəngdə olması deməkdir. Ancaq dünya çoxrənglidir. Dünyanın çoxrəngliliyini görmək – Mənadan gələn, sonsuzluqdan gerçəkləşən zənginliyi anlamaqdır, fanilikdən çıxmaqdır.

İnsan sonsuzluğun sirlərini kəşf edəndə ölümü ötür. Həyatda ölümdən üstün olana yetir.

İnsan bioloji mövcudluq şərtləri ilə yaşadıqca fanilik ideyasını doğruldur. İrfan yoluna düşəndə faniliyin cəfəngiyyat olduğunu sübut edir.

***

İranda sosial, milli sorunların mahiyyətini dəyişmək üçün çabalar göstərdilər.

Sadə kütləni İslam əxlaqını qorumaq görüntüsünə inandırmağa çalışdılar...

***

Mədəni, mənəvi, iqtisadi böhran artanda dini, ideoloji axımlar (hərəkatlar) yaranır.

***

Bireysəl mənəvi təkamül – mənəviliyi başqaları ilə paylaşma gərəyi yaradır.

Yəhudilər irfani gəlişmələrini heç kimlə paylaşmadılar. Onların irfaniliyi Bəşəriliyə yüksələ bilmədi.

***

Nə qədər ki çevrəmizdə erməni var, bizim balalarımız daim səngərlərdə yatacaqlar.

***

İnsanlar danışanda əyriliyi bəyənməzlər. Ancaq əyriliklə şöhrətlənmişlərə saygı duyarlar.

***

İnsanların içində pisliklər başlı-başına qalır. Onları yox etmək istəyən yoxdur. Ancaq kimi dindirirsən, pisliklərin həyatı əydiyindən dad edir.

***

Dustaqlıq – insanın içindəki cinayəti öldürmür, onu qısa arada cəmiyyətdən ayırır (təcrid edir). Cinayəti insanın özü öldürməlidir.

***

Toplum çox vaxt biliklə bicliyi qarışıq salır. Bic adamları bilikli sayır. Fəndgirlik bacarıq (qabiliyyət) sayıla bilər, ancaq bilik sayıla bilməz.

***

Dövlətin başına bicləri gətirirlər, vicdanlıları yox. Toplum bicliyi bacarana sayğı bəsləyir, səs verir. Demokratiyanın yaratdığı gediş budur.

***

Dövlət başçıları uluslararası (beynəlxalq) məsələlərlə o qədər başlarını qatırlar, yerli yönətim məsələlərində zəif düşürlər.

***

Bir var bilgi (informasiya) yaddaşı, bir də var, anlam (Məna) yaddaşı. Məndə birinci zəifdir, ikinci güclü...

***

Allah özü böyük əyriliklər edir, ancaq balaca əyriliklərə görə insanı cəzalandırır...

Allahla bağlı bəşər övladının yaratdığı ən böyük şüur budur.

***

İnsanlığın ölçüsünü öyrənib tanımalı. Bu ölçünün adı Mütləqilikdir.

Məndən soruşsalar bizə nə önərirsiniz, biz nə etməliyik?! – Deyərəm, ölçünü öyrənin, tanıyın. Ondan sonra nə etməli olduğunuzu biləcəksiniz.

***

Yəhudilər iki min il oturuşmaq, dövlətləşmək üçün çalışdılar.

Bizdə iki il qışqıran, yazan adam millətdən küsür ki, məni böyüyü kimi qəbul eləmədi.

***

Mətbuat mübarizəsi – məmurların işlədikləri xətaları, suçları saymaqla milli yön yaratmaq istəyirlər.

***

Toplumsal ortamda çalışanların hamısı deyir: hakimiyyəti dəyişək.

Ocaq deyir: İnsanı dəyişək.

Məmuru dəyişmək gerçək görünür, insanı dəyişmək xülya. Ancaq qurtuluş – hakimiyyətdəkini dəyişməkdə deyil, insanı dəyişməkdədir.

Ocaqçı min il söz deməyə, böyük dəyişiklik gözləməyə (yetirməyə) içdən hazır olmalıdır. Yoxsa İnamın yeriyəcəyinə inanmaz.

***

İdeya, düşüncə hansı anlayışlarla ortaya çıxırsa, onu qəbul edən xalqların dillərinə bu anlayışlar yeriyir. Çünkü başqa anlayışlarla yanaşılarsa, ideyaya, düşüncəyə üz tutanlar onu dəyişə (təhrif edə) bilir.

***

Amerika kəşf ediləndən sonra inkişaf elədikcə dünya bazara, bəşəriyyət isə əmtəəyə çevrildi.

***

Marksizm toplumun təbəqələşməsində üzdəki (zahiri) mövqeyini əsas götürür. Yəni kim uduzub məzlum duruma düşürsə, onun mövqeyini savunur. Məzlumun potensial zalım olduğunu gözə almır.

İnsan dəyişməlidir...

***

Müsəlman Allahdan qorxması ilə fəxr edir. Bununla da özünün mömin olduğunu nümayiş etdirir. Yəni müsəlmanlıqda möminlik bərabərdir qorxaqlığa.

***

Bizim, millət olaraq, içimizdə Bütöv Azərbaycan sorunu həllini tapmadan daim yatırılır. Ona görə əsəblərimiz tarıma çəkilir, nifrət duyğusundan qurtula bilmirik.

***

İnsanın içində elə qüdrətli duyğular var, aşkarlandığı bir anda hər bir çətinlikdən, məşum bir iztirabdan, ayrılıqdan, yox olmaq təlaşından daha ehtiraslı ifadə olunur, daha qüvvətli şəkildə özünü göstərir. Doğranan, dərisi soyulan, güllə yağışını canına qəbul edən insanlarda biz bu qüdrətli duyğuları tanıya bilirik.

***

Həyatı tükdən asılı olan adam Allaha dua edər. Çünkü onun həyatdan böyük həqiqəti yoxdur. Hətta Allah belə, onun üçün həyatdan aşağıda durur.

Allah üçün həyatın üstünə getməz, ancaq həyat üçün Allahdan diləkləri olar.

***

Küçələrimizdəki qızlar reklamlardakı, internetdəki qızlara oxşayırlar. Hamı küçələşir, internetləşir, heç kim millətləşmir. Bu sürəci başlamaq çox böyük çətinliklər çıxarır qarşıya. Davamlı, dayanıqlı, sabit insanlara sonsuz gərək yaranır.

***

Ərəb qılıncının kəsdiyi başlardan sıçrayan qan damlaları tarixin elə ən uzaq nöqtələrinə düşüb ki, gözlərdəki milli işığı, beyinlərdəki milli düşüncəni ləkələyə bilmişdir. Bundan dala qayıtmaq üçün yenəmi kötək gərəkdir?!

***

Sevən hər kəs elə bilir ki, sevginin bütün gözəlliklərini yalnız o dərk edir…

***

İnsan öz həyatını öz ağlı, mühakimələri ilə qurub yönətə bilmirsə, mütləq başqalarının qurub yönətməsinə boyun əyir.

Bizim kənd qızlarını ata-anaları evləndirir. Çünkü o qızlar ata-analarının ağıllarına öz ağıllarından çox inanırlar. Ancaq məhəbbətin

qurmadığı ailədə səadətin olacağını həmişə gözləmək mümkün deyil.

***

İnsan öz dilində danışdığı bir sözün məzmununu dərk eləmirsə, demək, o sözə görə sorumluluq daşımır, ya da bunu hiss eləmir.

Əgər hər bir hərəkətin, ya da sözün məzmunu bütün hallarda dərk olunsaydı, insanların ünsiyyətlərində çox az söz söylənərdi.

***

Vətənin ortağı yoxdur. Bunu, vətəndə yaşayan millətin dəyər-yaratma başarısı bəlirləyir...

***

Həbsdə olan biri ilə bayırda öz həyat qayğıları ilə yaşayan birinin özgürlüyə, mutluluğa baxışları ayrı olsa da, əsil mutluluq haqqında düşüncəni heç biri təsdiq eləmir. Mutluluq – hər kəsin durduğu yerdən, baxdıqları nöqtədən daha yüksəkdədir.

***

Həyatda yaşananlarla yaşamaq haqqında deyilənlər arasında hardasa bağlılıqlar olur. Ancaq bunlar bir-birindən çox uzaq olurlar. Çünkü yaşananın sirr kimi doluluğu, çox hallarda, sözlə ifadənin bəsitliyinə uyğun gəlmir. Yaşanan sirdir, deyilən isə sirrin sadə, hətta adi biçimdə açılması. Ona görə yaşamın gözəlliklərini təsvir etmək hər adamın işi deyil. Sənətdə bu, böyük sənətkarlıq, yetənəklik tələb edir.

Dahi o kəsdir ki, öz dediklərini həyata, onun məzmununa maksimum dərəcədə yaxınlaşdıra bilir...

***

Sevinc hara qədər ülvidir, kədər hara qədər arıdır?! – Sevincin əsilliyi – onu duyub yaşayanın ruh(i) durumundan asılıdır. Sevinc kimi mənəvi sağlamlıq gətirən duyğu – qarışıq, ziddiyyətli əhvallar sərgiləyən ürəyin bəsləyə biləcəyi duyğu deyil. Adi ürəyin sevinci də

adi olur, ötəri olur. Eyni düşüncələri kədərin arılığına yönəlik də söyləmək mümkündür. Bayağı ömürdə adi kədər görsənə bilər, ancaq davamlı yaşaya bilməz. Yəni bayağı ömürdə kədərin dərinləşmək, əsilləşmək imkanı olmur. Başqa sözlə, kədər böyümür. Böyük kədər balaca ömrə sığmır. Kədər böyüməsə əsilləşmir. Əsilləşməsə, duyğuları təmizləmir...

***

Hər şey adamın içində kuşku (şübhə) ilə tərəddüd doğurmağa meyillidir. İdraki yetkinliyə çatmayan adam biliksizliyin doğurduğu kuşku ilə tərəddüd içində hər cür yanlışlar etməyə yaxın olur. Deməli, adam həyatın tələblərindən yüksəyə qalxmasa, özünü heç vaxt özgür, mutlu duya bilməz.

***

İnsanın içində baş qaldıran qarşısıalınmaz duyğular təmin olunmayanda mənəvi, fiziki fəsadlara yol açır. Ancaq bu duyğuların ədalətli, ya ədalətsiz olması dərk olunmayanda daha böyük fəsadlara stimul verir.

Başqa sözlə, ədalətsiz duyğuların təmin olunması gərəkli sonuc verə bilməz.

***

İnsanları səbəbsiz sevmək, ya da onlara səbəbsiz nifrət etmək – fərdin ləyaqət ölçüsü ilə bağlıdır. Bu münasibət insanları kamil, ya da cahil olmaları ilə fərqləndirən, üzdə açıq görünən əlamətlərdir. Bu əlamətlər insanların ən güclü dağıdıcılıq, ya da ən güclü quruculuq duyğularını tanıtdırır.

***

Ev gözəl şeydir. Ancaq o, qadını elə kökə salır ki, dış aləmin (təbiətin, bəşəriyyətin) etkisi onun həyatında heçə enir. Ona görə daim qonusu adi məsələlər olur. Qeybət də, dedi-qodu da buradan yaranır. İndiki toplumu məişət "zəhmətkeşliyi" bütünlüklə bu duruma salıb.

Kişidə, ya qadında romantik xəyallar yox, müqəddəs duyğular yox, insanda sirr, sehr görmək yox, göylərdəki əsrarı anlamaq yox...

***

Deyirlər, insanlar bərabərdir. Ancaq bunu kim(lər) deyir, bu bərabərlik nə deməkdir?! Bərabərlik anlayışının məzmununu neçə adam dərk edir?! Bəs niyə bərabərlikdən danışan kütlə bir-birini ayaqlaya, öldürə, talaya bilir?! – Bu gün bəşəriyyəti həqiqi anlayışların məzmunu ilə deyil, söz oyunları ilə yönətirlər…

***

Tarix – siyasətin yaratdığı mühiti araşdırır, siyasətin uyğunlaşdırdığı münasibətləri təqdir edir. Əslində isə yalan üzərində mühakimələr yürüdülür. Ayrı-ayrı fərdlərin qəlbində hansı uğurlar, ya da hansı fəlakətlər yaranır; insan özgürlük haqqını necə itirir, ya da bunu necə qazanmalıdır?! Bu kimi sorulara tarix heç vaxt müsbət cavab verməyib.

Tarix – xalqların istəyiylə şəxsiyyətlərin fəaliyyəti arasındakı tərsliyi, ya da uyğunluğu açıb göstərmək iqtidarında da deyil. Olayları saymaqla, onları bir-birinə bağlamaqla həqiqəti fəth eləmək mümkün deyil.

***

Hər bir fərd atdığı doğru, ya da yanlış addımlarına təfəkküründə, paralel olaraq, bəraət hazırlayır. Ancaq bu bəraət o vaxt üzə çıxır ki, fərd atdığı addıma görə mühakimə olunur. Mühakimə edən doğrunu da yanlış qiymətləndirirsə, bəraət qarşı tərəfin üstünlüyü kimi özünü göstərir. Ya da mühakimə yanlışı göstərmək yönündə ifadə olunursa, bəraət güzəşt ummaqla, ya da peşmançılıqla ortaya çıxır.

Bəraət, onu axtaranın ədalətli olmasından asılı olaraq, güclü bilinsə də, daha çox axtaranın təfəkkür gücünə bağlıdır.

***

Qətl törədən adam sorumluluğu ona bu əmri verənin üzərinə atmaqla bəraətlənməyə çalışır. Ancaq qətl törədən bunu öz iradəsi

ilə etməsə belə qatildir. Bunu dərk edən öz qətlini seçməli, başqasının əmri ilə başqasının həyatına son verməli deyil. İçindəki Allahın (Mütləqin) varlığına qarşı addım atan kəsin yaşamağının nə önəmi ola bilər?! İnsan ona görə yaşayır ki, Allahın (Mütləqin) varlığından doğan bütün gözəllikləri gerçəkləşdirib özünün yüksək (ali) yaranış (xilqət) olduğunu təsdiq eləsin. Ancaq bundan əl çəkib yalnız fiziki mövcudluğunu sürdürmək həvəsinə düşməsi ilə şərə çevrilən bir fakt kimi təsdiq olunur. İnsan bu həqiqəti dərk edərsə, həyatda öldürmək meyli aradan gedə bilər. Bəşəriyyətin əsilləşməsi bundan sonra başlayır. Asif Atanın "İnsanlaşın – İnsanlaşdırın!" harayının canı budur.

***

Savaş – döyüşən insanı elə kökə salır ki, bəzən onun içində həyata sevgi, insana inam üçün bircə qarış belə, yer qalmır.

***

Bir insanın başqaları üzərindəki etkisini doğru izah eləmək mümkün olsa, bəşəriyyət tərəqqi yoluna düşə bilər.

***

Xalqların axtarışlarını – tarix yazdıran üç-beş hökmdarın həyatını tədqiq eləməklə izah etmək, nə də bunu dərk etmək mümkün deyil.

***

Xalqla onun şəxsiyyətləri arasında bağlılıq yaranarsa, bu bağlılıq dərk olunarsa, şəxsiyyəti dərk eləməklə xalqın varlığını qiymətləndirmək mümkündür.

***

Şəxsiyyətin iradəsi xalqın iradəsinin cəmi deyil. Biz Asif Atanı öyəndə xalqı kiçiltmirik, nə də Asif Atanın böyüklüyü üçün xalqdan vaz keçmirik, tərsinə, xalqın gələcəyi üçün varlığımızı əzabla yükləyirik.

***

Əmr verən əmr olunandan nə istəyir – bu məsələ hakimiyyətin ağalığamı, yoxsa atalığamı əsaslandığını dəqiqləşdirir.

***

Dində günah – insanın azadlığından doğur.

Din – azadlığı özbaşınalıq kimi qiymətləndirir. Yəni sanki “alın yazısı”ndan qırağa çıxmaq kimi...

***

İnsanla heyvan əzələ-əsəb fəaliyyətinə görə fərqlənmir, insanın şüurlu, heyvanın şüursuz davranışlarına görə fərqlənir. Ancaq şüur – kamil insan fərqi deyil, adam fərqidir. Kamil insan fərqi ruhdur.

***

Adam – əzabın gur çağında Allahı söyür. Çünkü əzabı onun verdiyini düşünür. Allaha yanlış baxışın bundan ötəsi yoxdur…

***

Müsəlman ağzı genişlikdə olanda başqasına ağıl öyrədir. Ancaq həyata ümid saxlamayan bir əzabla üz-üzə qalsa, dindarların çox işlətdiyi: “Allah öz sevimli bəndəsinə əzab verib sınayır” deyilişini uydurma sayıb nifrət edər.

Eləcə də ateist, özünü güclü hiss edəndə Allaha lağ edər. Ancaq ən ağır məqamda Allahdan imdad diləyər.

Bütün bunlar onu göstərir ki, insan hələ nə ağrını dərk edib, nə Allah anlamını, nə həyatı.

***

Tarixi xalqları sıradan çıxarır, yeni qurama xalqlar, dövlətlər yaradırlar. Başqa sözlə, tarixi dövlətlərlə yeni dövlətlər arasında savaşlar törədirlər. ABD bununla özünün tarixi dövlətlər üzərindəki xəyanətini təntənəyə çevirir.

ABD özü dünənki dövlət olduğu halda, belə qəbahətlərə gedir ki, tarixiliyin onun üzərində haqqı, basqısı qalmasın.

***

Müsəlman Mənanı görmək üçün başqaları ilə ülvi münasibəti düşünmür, mücərrəd göylərə baxır. Ona görə də yaşamın ülviyyətini dərk eləmir.

Müsəlmanın ən böyük sorunu özünü tanıya bilməməsidir.

***

İnsan sevmək istəyir. Onun meyli, duyğuları hansı ürəyin nəğmələrinə heyran qalırsa, sevgisi o ürəyə doğru boylanır. Bəzən onun sevgisini meyil etdiyi ürək götürə bilməyəndə sevgi yol gedir. Harda, hansı ürəkdə toxum sala bilirsə, orada dayanır...

***

Türk , ruhu işğal olandan bəri, xəlqi prinsiplərlə deyil, tayfa prinsipləri ilə yaşamışdır. Hətta imperiyalar quranda belə, ortada xəlqi prinsiplər olmamışdır. Xəlqi prinsiplər olmadığı üçün türk dağınıqlıqdan yığışa bilmir.

Osmanlı sünni prinsipləri ilə, Səfəvilər şiəlik prinsipləri ilə bir-birini sıradan çıxarmaqla uğraşmışlar.

***

İnsana səcdə qılmaq – Bəşər olmağın özülüdür.

İnsana İnam – Bəşər sivilizasiyasının ən uca aşamasıdır. Bu, Asif Atadan başlayır.

***

İnsan kamilliyinin, şəxsiyyətinin yaranması – xalq üçün bayram olmalıdır.

Ocaqda İnsanilik bayramı keçirilir. İnsaniliyin bayram olunması – xalqın Ocaqlaşmasının yəni ruhaniyyat əsasında yaşamasının dəyəridir.

***

(Asif) Ata sözü – İnsanilikdən doğan fərəhdir!

***

İnsanilik Bayramı – Yeni çağın, yeni sivilizasiyanın bəşəriyyət üçün yüksək örnəyidir.

***

İnsanillik Bayramı – xalqın İnsanlaşma yolu ilə Bəşər olmaq sevincidir!

***

Əski peyğəmbərlər – Budda, Zərdüşt dağlara, tənhalığa çəkilib. Asif Ata kitabxanalara çəkilib.

Bu çəkilmələr 8 il, 10 il sürüb.

***

İndiki qədər insanlarla ünsiyyətə ehtiyacım olmayıb. Arı, çiçəklərdən şirə toplayıb dolandan sonra onu pətəyə boşaltdığı kimi, mən də Məna çiçəklərindən yığdığım şirələri insanların qəlbinə boşaltmaq istəyirəm…

***

İki bir-birinə tərs baxışlı (mövqeli) adamlar hansısa bir məsələdə razılığa gəlmirlərsə, ayrılanda hər biri o birinə gülür, ya da yazığı gəlir. Hər biri özündə düşünür ki, rastlaşdığı adam anlamazın biridir. Ancaq hər birinin qəlbində öz dediyinə şübhə də baş qaldıra bilir.

O kəsin qəlbində öz dediyinə qarşı şübhə baş qaldırmır ki, ünsiyyətdə olduğu adamdan söz güləşdirmədən ayrılır. Çünkü öz dediyinə inanan, içində dönməz yəqinlik olan insan sözü güləşdirməz, onu qəlbində bəsləyər, sevənlərə inananlara sunar.

***

Bir dəliqanlının yanında anasının adını tutarsan (məsələn, "anan mənim arvadım olsun" deyərsən) səni kötəkləyər, hətta qanını

tökər. Ancaq "oğlum, gəl söhbət edək" deyərsən sənə qarşı saygı ilə davranar. Bəs "oğlum" deyə xitab etmək nə anlam daşıyır?! Axı adamın oğlu onun anasının əri olmaq deməkdir. Ancaq "oğlum" müraciətində "mənə doğmasan, yaxınsan, canımdan, bağrımdan qopmuş kimisən" anlamı var. Bu deyilişdə məna dəyişir, gözəlləşir, sevgi yaradır. Ruhaniyyat elə budur. Ruhaniyyatçı olmaq – bu hikməti dərk etməkdir.

***

Keçmiş Amaldaşım mənə qarşı tədbir hazırlayanda mən mühakimə gücümü itirmişdim. Burada mənə qarşı atılan addım qıraqdan deyil, təklikdən qurtarıb yiyə durduğum birindən – öz yanımda dayanandan gəlmişdi. Bir anın içində dost düşmənə çevrilmiş, niyyəti axıra kimi bəlli olmamışdır. Münasibətin sonudurmu, deyilmi, kəsdirə bilməmişdim. Çünkü bunca namərdliyin olacağına inanmamışdım. Ona görə də həyəcanlar, çılğın əhvallar sərgiləmək qaçılmaz idi. Hərçəndi çılğın əhvallar hansısa qırağaçıxmalarla sonuclanmırdı. Sadəcə gərgin yaşantılara çevrilirdi. Necə olacaq, – Ocaq dağılacaqmı, qalacaqmı, gücümüz bərpa olunacaqmı, – bilmək çətin idi.

Ancaq güclü olduq. Hər bir ağırlığı arxada qoyduq. Keçmiş Amaldaşım öz məkrində çabalaya-çabalaya yanındakılarla da döyüşüb ayrıldı, yenidən tək qaldı…

***

M.S.Ordubadi qeyrətli yazıçıdır. Onun "Qılınc və Qələm"i ideoloji ruhda yazılmış bir əsərdir. O, Azərbaycan üçün dövlətçiliyin nə qədər önəmli olduğunu, Azərbaycanın bütövləşməsini, gücə çevrilməsini açıq-aydın ifadə etmişdir. Dinin dövlət işlərinə qarışmasının ancaq zərər gətirdiyini, iki üzlü "ruhani"lərin öz məqsədləri üçün dövləti oyuncağa çevirməsinin bu gün də qorxu olaraq qalmasını qabartmışdır. O, dinə qarşı ateist mövqedən deyil, vətənsevərlik, insansevərlik açısından çıxış etmişdir...

***

İçki bir anlıq insanı dərdin, qəmin əlindən alır. Ancaq dünyanı da insanın əlindən alır. İnsan ani əhval yüksəkliyinə meyil etməklə əbədi dünyasızlıq girdabına düşə bilir…

***

Elə adamlar var ki, doğrunun haqqında danışmaqla özlərinə təsəlli verirlər. Ancaq bircə yol sonadək doğrunun yanında dayanmağa cəhd eləmirlər.

***

Müsəlmanlar daim bir-birindən gileylənir, nəyisə anlamamaqda, nədəsə doğru davranmamaqda bir-birilərini suçlayırlar. Axı din deyir, insan fanidir (heç nədir), yalnız Allah ölməz varlıqdır. Bu deyilişi qəbul edirsənsə, onda "heç nə"dən nə umursan?! Həm insanı heç nə elan elə, həm də ondan yüksək mədəniyyət, qanacaq, mərifət gözlə. Yüksək qanacaq, mərifət "heç nə"yə sığmaz. Umduğun hər şey "heç nə"yə sığmaz. Əgər umursansa, insanı "heç nə" saymaq olmaz.

***

Adamlar kiminsə uğurlu əməlinə, istedadına, şöhrətinə paxıllıq edirlər. Yüksək mənəvi dəyərlərə isə paxıllıq etmirlər, çünkü görmürlər. Görsəydilər paxıllıq yox, heyrət edərdilər. Heyrət onları böyüdər, paxıllıqdan arındırar. Ona görə insanlara yüksək mənəvi keyfiyyətlərlə yanaşmaq gərəkdir. Özündəki yüksək mənəvi keyfiyyətlərlə onları heyrətləndirib böyütmək gərəkdir. Fitrəti kor olanlardan başqa hər kəs yüksək mənəviyyat qarşısında heyrətlənə bilər.

İnsanlara ağıl vermək yox, örnək vermək gərəkdir. Ağıl vermək – gizli xudbinlikdir, özünün ağıllı, üstün görünməsinə çalışmaqdır. Örnək vermək – mənəviyyat üstə yaşamaq, mənəviyyat üstə yaşamağı öyrətmək deməkdir.

***

Peyğəmbər o kəsdir ki, dünyanı bir anda bütöv şəkildə görə bilir. Bu görümü söyləmək üçün ürəkdə söz çırpınır, haraya çevrilir, vəhy (duyğuların uçuşu) başlayır. Bu haray dünyanın özünə söz söyləməkdir...

***

Dünyanın gedişini təhlil eləyə bilərsən, təhlil yoluyla Dünyanın Mənasını izhar eləyə bilməzsən.

Sözə sığmayan Məna ürəyə bir anda yeriyə bilir.

Onu soyuq ağılın diktəsi ilə çatdıra bilməzsən. Onu eşqli, vəcdli bir əhvalla haraylaya bilərsən. Soyuq ağılla danışmaq alovlu ürəyi söndürüb məhv edir.

Haraylar ürəkdə vəcd işığı yandırır.

***

Vəhy – vəcdli halın kamilləşib düşüncə yaradan söz axınına çevrilməsidir.

***

"İnsan daxilində Mütləq gəzdirir" – insanlara bu həqiqəti anlatmaq üçün anladanın da, anladılanın da duyğuları böyüməli, düşüncələri yetkinləşməlidir.

***

İnsanın təbiətində şah da var, dilənçi də; şair də var, filosof da; peyğəmbər də var, Allah da. İnsanı bu təzadlar toplusunun içində dərk eləmək üçün təzadlar aləmindən yüksəyə qalxmaq gərəkdir.

Dünən böyük qüsurlar işləyən insan bu gün qüsurlardan çıxar, saflaşar, kamil varlığa çevrilər.

Bədən dəyişmir, ancaq ruh dəyişir – böyüyür. İnsanı dərk eləmək üçün onu bədənə deyil, ruha bərabər götürmək gərəkdir. Keçmiş qüsurları yeni ruha yamaq vurmaq qüsurdur.

Ruhun dəyişməsi ilə bədənin ifadələri də dəyişir – gözlər saf baxır, üz məsum gülür, ayaq sanballı addımlayır, əl halallıq becərir,

dodaq müqəddəslik söyləyir. Yəni bədən dəyişmir, ancaq ifadələri dəyişir. İnsana inam bunları görməkdir, onu təzadlardan yüksəkdə tanımaqdır.

***

İnsanı tanımadan dünyanı dərk eləmək olumsuzdur!

***

Vətən sevgisi, millət sevgisi, qohum sevgisi, elm sevgisi, gözəllik sevgisi, poeziya sevgisi, Allah sevgisi, övlad sevgisi, qadın sevgisi – bunların hamısından daha yüksək, daha dərin İnsan sevgisidir. İnsan sevgisi bunların hamısını özündə birləşdirir. Ancaq bunların hər biri ayrılıqda insan sevgisini əvəz edə bilmir…

***

İnsanlar gələcəyi az düşünür, keçmişi isə daha çox xatırlayırlar. Bununla da gələcəyi saf qurmağı düşünmək yerinə keçmişin ağrı-acıları ilə ürəklərində kin, ədavət bəsləyirlər. Qisasçılıq niyyətlərinin ehtirasları ilə, gələcəyi düşünməli olan, idrakın işığını söndürürlər.

Özüylədöyüş ideyası – keçmişin qoruyub saxladığı ədavət duyğusunu etkisizləşdirib aradan qaldırmağa yönəlik bir ideyadır.

***

Şər keçmişdə olmur, bugündə yaşayır. Onun sabaha yolunu bağlamaq üçün yaşayıb qorunduğu mühiti dağıtmaq gərəkdir. Bu mühit adamların içində, münasibətində formalaşır.

***

Peyğəmbərin kitabı məzmunca qutsal kitabdır. Elm, tarix kitabları qutsal deyildir. Çünkü İnsanlığı tanıtmaq, yaşatmaq üçün deyil, həyatı tənzimləmək üçündür.

Şairin kitabı da İnsanlığı vəsf edən, sevdirən kitab olduğundan qutsal məzmun daşıyır.

Əgər şairin kitabı qutsal məzmun daşımırsa, deməli, o, şair deyil. Şeir yüksək duyğuları vəsf edib tanıda bilirsə, şair peyğəmbərə yaxınlaşır.

***

Dəniz də sirli həyatdır. Bu həyatın öz qanunauyğunluqları var. Qurunun sakinlərini yaxına buraxmır, məhv edir. Belə götürəndə quru da dənizin sakinlərini məhv edir. Bununla belə, dəniz quru sakinlərinin (insanın) həyatı üçün nə qədər qorxulu olsa da, bir o qədər cazibəlidir. Quru dəniz sakinləri üçün cazibəli deyil, çünkü cazibə anlayışı insan üçündür. Bu cazibə maraq kəsb eləməkdən daha çox yaşam anlamına bağlıdır. Çünkü insanda Tanrının, kainatın sirlərini bilmək meyli yaşayır.

***

Xalq elə bir duruma düşüb ki, ağlı, ləyaqəti olan ona yiyə durmalıdır.

Xalq – ağlı olanın körpəsidir, ağlı olmayan isə özü körpədir.

***

Özüylə döyüş əməlinin kamillik yaratmaq səviyyəsi də var, tərbiyə vermək səviyyəsi də. Kimin içinin gücü nə qədərdirsə, o qədər qalxır. Ancaq insanın kamillik olanağı Mənadan gəlir. Yəni hər bir insan üçün həmin olanaq (imkan) var.

Bütün dünyadakılar kamiləşməsələr də, kamillər öz ömür, yaşam örnəkləri ilə toplumda inam tərbiyəsi yaradacaqlar.

***

Məhəmməd özünün ümmətçilik ideyası ilə başqa millətlərin özəlliklərini ortadan qaldırdı. Ərəbin dilini, mədəniyyətini, hökmranlığını başqa xalqlara sırıdı. Ona görə Məhəmməd başqa millətlərin peyğəmbəri sayıla bilməz.

Asif Ata başqa millətlərin özəlliyinə soxulmur (müdaxilə etmir), onları qoruyur, var edir. Onların “Ol”masına çalışır. Ona görə Asif Ata bəşəri peyğəmbərdir.

Başqa xalqların özəlliklərini ortadan qaldırmaq antibəşərilikdir. Bu açıdan yanaşanda Məhəmməd antibəşəridir.

***

**Adam-heyvan:** Heyvan özlüyündə qorxulu deyil, ancaq adamda heyvan olduqca qorxuludur. Heyvan açıq görünür, ondan qorunmaq çox asandır. Adamda heyvan gizli olur, ondan qorunmaq çətindir.

***

Ürək zülmətə düşəndə bütün alçaq işlərin cazibəsi artır. Ağıl nə qədər doğrunu izah edirsə də, ürəyi alçaq işlərə vurğunluqdan qopara bilmir.

Əslində ürək-ağıl; ağıl-ruh; ürək-ruh – bunların qarşılıqlı bağlantıları (əlaqələri) həm mürəkkəb, təzadlı, həm də sadə məntiqlərə dayanır. Sadəcə, doğru yöndən baxmaq gərəkdir.

***

Adamın içində cani ilə yanaşı vicdan da yaşayırsa, onun həyatını daim faciəvi durum izləyəcəkdir.

Cani üçün vicdan xəstəlik qaynağıdır...

***

Qarnı tox, mənən ölü – varlığa yaramaz.

Qarnı ac, ancaq mənən diri – bütün dünyaya qalib gələr.

***

Nə qədər ki, toplumda adamın nifrət etməsinə səbəb var, cinayət qarşısıalınmazdır. Nifrət cinayətə yol açır. İnsan kamilləşdikdən sonra cinayəti yetirən adi nifrətdən qurtula bilir.

Adi nifrət cinayət törədir, Ali nifrət qurtuluş.

***

Günah içdə elə hazırlıq görür ki, onun daşıyıcısı hər yerdə, hər şeydə günahın səsini eşidir. Ona görə adamın daim gücü azalır. İçdə günahı yenmədikdə günahın səsi adamı yenir.

***

İnsan etiqadlı yaşayanda nəyəsə inamı, ümidi onu içindən diri saxlayır. Ruhlu olmağın anlamı elə budur. Tərsinə olarsa, insan üçün həyatda yaxşı bir şey olmaz, o, ən pis əməllərə belə, getməkdən çəkinməz.

Əqidə vicdanı daim ayaqda saxlayır, insanı ədalətli edir. Söz yox, uydurulmuş etiqadı etiqad saymırıq.

***

Bağı alaq otlarından təmizlədiyin kimi, ağılı da hər gün tüfeyli meyillərdən təmizləmək, gəlişdirmək gərəkdir...

***

Yoxsul yaşamaqda sakınca yoxdur, yoxsul yaşamağı başqalarına nümayiş etdirməkdə çirkinlik var. Bu əməl orta səviyyəli yaradıcı adamlarda olur ən çox. Özünə baxış çəkmək, guya yoxsulluğu mənəviliyindən, aydın (ziyalı) olmasından doğurmuş kimi göstərmək...

***

Tarixdə məbədə sığınanlara toxunulmurdu. Ancaq bu gün bizdə Məscid – sığınanların deyil, dağıdanların ünvanına çevirilib.

***

Çağdaşlarımız elə yazıq duruma düşüblər ki, təkcə həqiqəti deməkdən yox, dinləməkdən də qorxurlar.

***

İnsanı aldatmaq şərdir, adını xeyir qoyurlar. Cəhənnəmlə qorxutmanı xeyir sayırlar. Deməli, işgəncə verməkdə xeyir görürlər...

***

Bir adam özüylə bağlı müsbət bir söz deyəndə o biri dəlillər axtarıb onu inkar etməyə çalışır. Nədənsə adamlarda dinlədiyini təsdiq eləməkdən çox, inkar eləmək bacarığı inkişaf edir.

***

Bir var İnsanlığa qulluq etməyinlə yoxsul olasan (əməyini, enerjini İnsanlığa qulluğa yönəltdiyin üçün), bir də var gediş qarşısında bacarıqsızlıqdan yoxsul olasan...

***

Rastlaşdığım toplumsal fəalların çoxu yekələnib, ancaq böyüməyib.

Yekələnmək – bioloji gəlişmədir, böyümək xəlqi-mənəvi.

Bədənin böyüməsi ilə ruhun böyüməsi arasında az bağlılıq var.

***

Göylərin üzünə çökən gecə qaranlığı onu mürəkkəb göstərmir. Ulduzların qaranlıq içindən görünən işığı göylərin əsrarını bildirir.

İnsanın içinin də gecəsi, gündüzü olur. Bəlkə də kədər çağı için gecəsi, fərəh çağı gündüzüdür.

***

Ürəkdən, – fəhmdən, duyğulardan gələn bilik fəlsəfi kitablardan gələn bilikdən, daha aydın, daha qüvvətlidir.

***

Adamın ağlı ayrı-ayrı məqamda solğuncasına işıqlanır. Bunu özünün həyat təcrübəsi kimi görür. Ancaq bütün varlığı işıqlanmayanda onun düşüncələrində həyatın doğruları da tam aydınlaşmır.

***

Adam (insanın adamlıq səviyyəsi) düşüncələrini nə qədər qəti söyləsə də, yenə şübhələrdən azad deyil. Çünkü onun Adamlığı – özü üçün şübhə qaynağıdır. Bioloji xislətin tabeliyində yaşayan kəsin heç bir düşüncəsi kamil, ürəkaçan ola bilməz. Onun dilində ən gözəl söz belə, çəkici, qurucu deyil. Ürəkdən süzülməyən hikmət duru, işıqlı olmur.

Hikmət – kamil insan qəlbinin övliyasıdır.

***

Heyrət duyğusu ilə sarsılmaq duyğusu birlikdə ürəyə hakim olanda ürək güclü olur. İnsan gerçəkliyin bəsitliyinə sarsıldıqca Həqiqətə heyrəti onu ayağa qaldırır.

***

Soylarımız milli şüurun sönməsini təkrar-təkrar yaşamalı deyil. Ocaq bunun üçün yarandı.

***

Dünyanın Doğu (Şərq) dəyərlərinə baxışı əyridir. Asif Ata Doğu dəyərlərinin özülünü qorumaq, gəlişdirmək, yeniləmək sorumluluğu götürüb üzərinə.

***

Vicdan – İnamla İdrakın birləşdiyi zaman işıqlı, etkili olur. Yəni əgər insan yanlışın yanlış, doğrunun doğru olduğuna inanmırsa (İnam), yanlışı, doğrunu tanımırsa (İdrak) – vicdan yoxdur.

***

Bir çağlar Avropa ölkələri (Fransa, İngiltərə, Almaniya...) bir-birini qırırdılar. Bu gün isə birləşib başqalarını qırırlar.

***

Austerlis Napoleonun, Berlin Hitlerin, Roma Sezarın yenilmək (məğlubiyyət) səhnələridir. Ancaq bu səhnələr öncə onlara yenmək (qalibiyyət) vəd etmişdi...

***

Döyüş olaylarına tarixçi ilə yazıçı çox fərqli yanaşırlar. Biz tarixçinin döyüşü təsvirində yalnız faktları tanıyırıq. Yazıçının təsvirində isə döyüşün yaratdığı faciələri anlayırıq.

***

İnsanın özündə (içində) dəyişməsi ilə zamanda dəyişməsi çox fərqlidir.

Bugünkülərin dəyişməsi əslində uyğunlaşmadır. Məsələn, zaman dəyişir, dəyişiminə uyğun tələblər doğurur. İnsanlar da ona uyğunlaşırlar. Deyək ki, dünənki kommunist bugünkü gedişə uyğunlaşıb demokrat olur. Bu eybəcərlikdir.

Bir də var, zamanın dəyişməsi, tələbi nə olursa olsun, insan ona uyğunlaşmır. O, öz içində dəyişib mənasına, milli ruhun tələblərinə bərabər yaşayır.

Zamanla birgə dəyişən zamana oxşayır – kobud, yaltaq, ikiüzlü, amansız...

Özündə (ömründə) dəyişən yetkin, kamil şəxsiyyət olur.

***

İnsan öz qəlbində hansı duyğuları bəsləməyə meyil edirsə, həyat həmin duyğuların zəfər meydanı kimi şəkillənir.

Məsələn, paxıllıq duyğusumu, fədakarlıq duyğusumu bəslənilir insanın qəlbində...

***

İnsani münasibətin bir saygılı cəhəti var, bir də səcdəli cəhəti. Şəxsin yaxşı əməlləri olar, ona saygı duyarlar. Ancaq davamlı yaxşı əməlləri olan, heyrətli münasibətlər doğuran, böyüklüyün örnəyi kimi yaşayan insana saygı bəsləmək az gəlir. Saygı bəsləyənin içini fərəhlə, sevgi ilə dolduran insana bəslənilən münasibət adi vəziyyətdə qala bilmir, ehtiraslı, vəcdli bir hala yüksəlir. Bu, səcdəli münasibətdir.

Körpəni adam çox sevir, çünkü saf olur, heç nəyə bulaşmır. Ancaq böyüdükcə içində qüsurlar da böyüyür, adamlarda davamlı sevgi yerinə qalxıb-enən münasibət formalaşdırır.

Səcdəli münasibət isə, dediyimiz kimi, hər an saf olan, hər an uca olan, hər an sevə, sevdirə bilən, hər an dodaqlarından hikmətlər, əməllərindən qutsallıqlar süzülən şəxsiyyətə yönəlik yaranan münasibətdir.

...Adamın cibini hər gün doldurana sayğı bəsləmək olar, ancaq səcdə qılmaq olumsuzdur...

***

İsanın çarmıxı olmasaydı, yoxsulların dini sayılan xristianlıq insanların üzərində qutsallaşmazdı...

Allah qorxusu olmasaydı, İslam da sayıldığı qədər qutsallaşmazdı. Quran kimi bəsit təfəkkürlü bir kitabın qutsal olaraq qəbul olunması, onun Allahın kəlamı olmasına görə idi.

Bu paradokslar – insanın özünə çata bilməməsinə görə var. Heç nəyə, heç kimə görə qutsal olmayan bir şeyi qutsallaşdırmaq olmaz. Ya da bir şey gerçək olaraq qutsaldırsa, onun qutsallığını başqa şeyə yamaq eləmək olmaz.

Məbəd – insanın sonsuzluğu dərk eləməsi üçün, ölümün qarşısındakı acizliyini aradan qaldırması üçün seçdiyi ünvandır. Ayrı-ayrı dühalar, elmli, təfəkkürlü insanlar fərdi olaraq ölümsüzlüyü tanıyır, onun sirlərinə yetirlər. Ancaq toplum, elliklə, ümidi birgə qorumaq, birgə təsəlli tapmaq, müqəddəsliyə birgə tapınmaq istəyi ilə Məbədə üz tuturlar. Bununla belə, Məbəd də quru daş-divar deyil. Orada yol göstərən, həqiqəti tanıdan olur, olmalıdır. Hamı Məbədə müqəddəs məktəb kimi yanaşır. Ancaq bu məktəbin təlimi uydurmalara yuvarlanarsa, öyrətməni saxtakarlığa bürünər, Məbəd "müqəddəs" yalanlarla oraya toplaşanları huşsuz, küt bir sürüyə çevirər.

***

Toplum gerçəkliklə mif arasında dayanıb həqiqətləri gerçək olaraq tanıya bilmir. Çünkü özünün xarakterini dəyişməmiş durumda olduğuna görə, öz xarakterinin varlığından, doğruluğundan baxa bilmədiyinə görə işi asanlaşdırır. Yəni Mifin özünü hər şey sayır, gerçəklik sayır. Belə deyək, toplum özünü yola verir. Buna görə hər şey cəfəngləşir. Əgər toplum mifi anlaya, onun (mifin) arxasında gerçəkləri, həqiqətləri tanıya bilsəydi, bəlkə də həyat bu qədər cəfəngləşməzdi. Ancaq bunun üçün doğru səmt, doğru yön, doğru ölçü gərəkdir. O ölçü toplumun cəfəngiyyata enişinin qarşısını

almalıdır. O ölçü toplumu idrak düzeyindən uzaqlaşdırmağa qoymamalıdır. O ölçü mifik baxışlarla maarifləndirmək istəyənin niyyətlərini aydın-açıq bildirməli, göstərə bilməlidir. Belə şeylərə toplumun gücü çatmır. Ona görə toplumun bunu anlaması üçün gərək gerçəkdən həqiqi, ruhani, mənəvi, milli məktəb keçə. Bunların heç biri yoxdu. Ya da, bu məktəblər elə toplumu sakitləşdirmək, yola vermək üçün var. Toplumu sanki birgəyaşayışın tələblərinə kor-koranə icra eləməyə yönləndirmək üçün var. Nə yazıqlar ki, həqiqətləri dərk eləmək üçün deyil.

***

Deyirlər, insanın bir missiyası var. O doğulursa, zəhmət çəkməli, mövcudluğunu sürdürməli, yaşamalıdır. Sonra ölüb getməlidir. Onun işi bundan oluşubdur. Çoxluq belə düşünür.

Ancaq düşünürəm ki, insan özü ilə həşəratın yaşam fərqini bilməyəcək, həm də yaratmayacaq qədər geri düşüncəli yaşamamalıdır. Həm həşəratla fərqini bilməlidir, həm də bu fərqi yaratmalıdır. Nəyə görə deyirəm yaratmalıdır, – çünkü imkanda fərq olduğunu bilir. İmkanda bu fərq var. Gerçək olaraq o fərqi yaratmalı, üzə çıxartmalıdır. Bu insanın başlıca işidir, başlıca görəvi olmalıdır.

İnsan bunu unutduğu dərəcədə həşərata bərabər yaşayır.

***

Azərbaycanda məscidlərin sayını gündən-günə artırırlar. Bu o deməkdir, avaraların sayını artırırlar. Zəhmətə yad ünsürlər özlərinin avaraçılığını, guya Tanrı tələbində xeyirxah işlərlə uğraşırmışlar kimi pərdələyirlər. Elmlə, zəhmətlə, mənəviyyatla uğraşmaq yerinə küt, avam sürüyə çevrilirlər. Bu isə bir ölkənin deyil, bütövlükdə bəşəriyyətin taleyində mənfi rol oynayır.

***

İslam toplumumuzu geriyə, 7-ci yüzilə çəkib bağlayır. İmkan vermir ki, xalqımızın mənəviyyatı böyük ölçüdə tərəqqiyə qovuşsun. Yeni yüzillərin doğurduğu təfəkkür, mənəviyyat tələbləri İslamın 7-ci yüzil təfəkkürü ilə daim buxovlanıb dala çəkilir. Çəkənlə çəkilənin

arasında mübarizəyə yeni impulslar verə biləcək bir qüdrəti elm, siyasət mərtəbəsində axtarmaq sonuc vermir. Yalançı ruhaniyyata qarşı doğruçu ruhaniyyat qoyulmasa, yüz il bundan sonra belə hansısa uğur gözləmək yersizdir.

***

İsanın çarmıxından rəssamlar, heykəltəraşlar, şairlər ilahi surətlər yaratmış, toplumda müqəddəsliyə inam oyatmışlar. Ancaq bu müqəddəsliyin ünvanı mücərrəd göylərə məxsus olmuşdur. Göyün işığı göyün özü üçün yandırılmış, göyün özü üçün sevilmişdir. Yer qaranlıqdan qurtulmamışdır...

***

İnsan nə qədər sevirsə, nə qədər inanırsa, bir o qədər yaşayır. Yalnız öz körpə yavrusuna sevgi verənin yaşaması o körpənin böyüməsinə qədərdir. Xalqa sevgi verənin yaşaması isə xalqın ömrü qədərdir. Əslində əbədidir.

***

"Ölülər dirilib İsanın yanına qayıdacaqlar" çağırışında dəhşətli bir eybəcərlik hökm sürürdü.

Məhəmməd cənnətdə kişilərə qızlar vəd etdiyi üçün cənnət azarı ilə ibadət edənlər yuxuda mələk timsallı gözəllərin yatağına soxulurlar. Xristian qızları da yuxularında İsanın arvadı olacaqlarını görüb ibadət ehtirasına qapılırdılar.

Asif Ata "O dünya" yalanını rədd edib yaşadığımız dünyanı mənalandırmaqla bu kimi əxlaqsızlıqlara son verir.

***

Kölgəni yıxmaq, yerə çırpmaq absurd bir düşüncədir. Kölgə ilə mübarizə etmək – onu yox etmək anlamı daşıyır. Bunun üçün təkcə bir yol var – kölgəni işıqlandırmaq. Cəhalət bir kabus, bir kölgədir. O, insanların ağlına, düşüncəsinə qaranlıq gətirir. Qaranlığı işıqla yarmaq olar. Bu işığın adı – elmlə dolan, mənəviyyatla saflaşan ruhaniyyatdır...

***

Tarixlə gedişlər – yanlış axardan çıxa bilmədikləri üçün toplum daim iki yanlışdan birinə üstünlük vermək zorunda qalır: – azğın inkarçılığa nifrət edir, cahil pərəstişə sayğı duyur.

Bir çox hallarda nadanlığın özünü görmür, təzahürlərini yamanlayır...

***

Monastrda tərki-dünya yaşayanlar niyə alqışlanır, niyə onlara sayğı bəslənilir – ona görəmi ki, onlar özlərinə işgəncə verməklə, həyatdan, toplumdan gizlənməklə bir kimsəyə xətər toxundurmurlar?!

Ona görəmi ki, onların istehzasını, əyri baxışını, gileyini, söyüşünü qəlbimiz duyub bulanmır, qulağımız eşidib həyəcan içində iyrənmirik, gözümüz görüb ikrah hissi ilə zövqdən, səfadan məhrum olmuruq?!

Varlığa, – yox olduğu üçün, yoxluğa çevrildiyi üçün sayğı duymaq nə qədər bizim varlığımızı göstərir, nə qədər həyat hikmətini ifadə etmiş oluruq?!

İnsana sayğı, sevgi – canlı davranışda, hərəkətdə, baxmaqda, yeriməkdə, əlindən tutmaqda, üzünə gülümsəməkdə, düşüncələrinə toplanmış hikmətləri, kəlamları ifadə etməkdə, qəlbində aşkarlanan duyğuları göstərməkdə yaranmalı, yaşamalı deyilmi?!...

***

Bizim çağımızda özünü mömin kimi aparan, ibadət edən dindarlara qıraqdan onları izləyən dindarlar sayğı duymurlar. Çünkü ibadət edənin özünü aparmasını, davranışını mömin insana layiq olmamasını səbəb kimi göstərirlər. Ancaq heç kim fərqinə varmır ki, yalançı ibadət, başqa sözlə, yalana ibadət heç vaxt qəlbin doğrulmasını təmin edə bilməz. Yalan, onun əsasında doğrulma, – ağlın da, düşüncənin də məntiqinə, tələbinə uyğun deyil. Heç vaxt da baş tutmaz. İbadət edəndən soruşsan ki, niyə ibadət edirsən, – deyər, cənnətdə yerimi bulmaq üçün...

***

Şər dünyanın gedişindədir, xeyir mayasında.

Dünyaya münasibətdə həqiqi nikbinliyi itirirlər, bədbinliyin tələbində yaşayırlar. "O dünya" yalançı nikbinlikdir, əslində həqiqi bədbinlikdir.

***

Bəşəriyyət ədalətsizliyin, haqsızlığın əlində çabalayır. Qıraqdan baxanda bütün bəşəriyyət zülmün, işgəncənin içindədir. Ancaq içəridən baxanda günahkarlarla günahsızların ayrıntıları görünür. Dünyaya göz açan bəşər övladı, sosial durumundan, mənəvi imkanlarından asılı olmayaraq, başqalarının günahlarının doğurduğu əzabları yaşamaq zorunda qalır. Biri az günahlıdır, biri çox günahlı. Biri günah əməli becərir, o biri mübarizə aparmır. Mübarizə aparmadığı üçün, az da olsa, günahkardır.

***

Xristianlar ibadətlə, dua eləməklə tərki-dünya olub özünə işgəncə verməklə günahkarların yerinə keçirlər. Bütün günahkarların yerinə özünə cəza vermək, onların bağışlanmasına çalışmaq nadanlıqdır. Nadanlıq özü günahdır.

Bəşəriyyət – ilk əcdadları sayılan Adəmlə Həvvanın işlədikləri günaha görə, məsum, əzazil olmalarından asılı olmayaraq, özlərinə cəza verməlidirlər məntiqsizliyi yaranıb.

***

Mədəniyyət dirçəliş (təkamül) yolu keçməyəndə vəhşi əhvalların ifadəsi ilə çox çulğaşır. Vəhşi mədəniyyətin təzahürü kimi bu gün biz "manikenlik" əməllərini izləyirik. Gənc qadınları çılpaq şəkildə, yalnız cinsiyyətlərini örtən nazik alt geyimində insanların qabağına çıxarır, satacaqları zibilləri reklam edirlər.

***

Ruhaniyyatda mədəniyyət qabağa keçməməlidir. İsanı ilahiləşdirən rəssamların, heykəltəraşların, şairlərin işi böyük mədəniyyət

idi. Ancaq bu böyük mədəniyyət bəşəriyyətin mənəvi qanunlarını əvəz edə bilmədi.

***

Ailələr uşağı həyata necə hazırlayırlar?! – Bu, atanın, ananın tutduğu mövqedən, yaşadığı həyat tərzindən çox asılıdır.

Yoxsulluqdan göz açmayan ata, ana uşağı az yaşlarından ağır işlərdə işlədir. Varidatı özünə ölçü edən başqa kəsim varlı atalar, analar isə zəhmətsiz, tüfeyli ortam yaratmaqla uşağı düşüncədən, mədəniyyətdən, millətdən, vətəndən məhrum edirlər...

Həyat – toplumun anarxiya yaradan əhvalları, antiinsani münasibətləri ilə sərt, amansız, əzən, öldürən bir qaranlıq təlatümüdür.

İnsanın gözəllikləri tanıyıb dərk etməsinin işığında yoxuşlanan əbədiyyət yolları olanda isə həyat dəyişir, mənalanır. Buna ali həyat deyilir.

***

Məhəbbətdən doğulan uşağı İnamın tərbiyəsi ilə xalqa öndər böyütmək mümkündür. Onda xalq doğrusunu, yanlışını dərk edib təkamülün yolunu axtarar, "Bəşər olmaq” sözünün altına imza qoyar.

Övlad məhəbbətdən deyil, sadəcə cinsiyyət istəyindən doğularsa, ona xalqın taleyini etibar eləmək olmaz.

***

Din cəhaləti dünyanı bürüyəndə bəşəriyyət elmə ümid bəsləyirdi. Elm gəldi, nə cəhalət, nə də ədalətsizlik tam aradan qalxmadı. Çünkü bəşəriyyət elmdən ona (elmə) aid olmayan qulluqları umurdu. İndi elm yetərincə gəlişib, ancaq bəşəriyyətin ümidləri doğrulmayıb.

Asif Atanın gərəkliyi ağıllara yeriyəcək.

***

Deyirlər saygı duyulmayan, nüfuzu olmayan adamın yanında görünənə də yaxşı münasibət bəsləməzlər.

Deyirik, ruhaniyyatçının yanında hər kəs görünə bilər. Ruhaniyyatçı ən pis adam üçün də ümid yeridir. Ruhaniyyatçı həqiqəti tanıdığı, özünə inandığı dərəcədə, yanında kimlərin görünməsindən asılı olmayaraq, heç bir dedi-qodu yaradacaq sözdən çəkinməz.

***

Atamın, anamın dayısı qızı (atam-anam xalauşağıdır) xərçəngdən xəstə idi. Dünən əmimqızı Ucataya zəng eləmişdi. Dedi, öldü. Bu gün hazırlaşıb ora getdim – Bakıxanov qəsəbəsinə. Az sayda adamlar vardı. Bir az söhbət edənlərin yanında dayandım. Sonra ölənin böyük qardaşı ilə görüşdüm. Yaşı 75-i keçmiş olar. Ordan-burdan söhbət elədi, məni elin yas yerlərində az-az göründüyümə görə qınadı. O, iki cəhətdən haqlı idi: elin insanları bir-birinin yanında olmalı, bir-birinin əlindən tutmalıdır.

İkinci cəhətdən, mənim nə ilə uğraşmağım, bu yaşlı adam üçün, yas yerlərində az görünməyimə səbəb vermir.

Ancaq bir həqiqəti söyləmək zorundayam: mən elin deyil, millətin insanıyam. Ömrümü, vaxtımı bu millətin gələcəyinə həsr edirəm. Bunu anlamayanları qınamıram. Özümü isə haqsız saymıram. Toplum yığılıb bir elin öləninə ehsan verir, mən isə and içəndə "Azərbaycan haqqı" deyirəm...

***

Napoleon bütün dünya xalqlarını Fransa haqqında danışmağa məcbur buraxmışdır. Bu yaxşıdırmı?! Bəşəriyyətin diqqətini zora, gücə cəlb eləməklə fransızların dünyada sözü olduğuna inandırdı. Ancaq bundan kim nə qazandı, bu başqa məsələ...

Teymurun qılıncı bundan daha kəsərli idi. Bəs o, diqqətləri hara cəlb elədi?! – Böyük anlamda türkə gərək olmayan müsəlmanlığa. Bəlkə buna görə Ata deyirdi: "Teymur türkün hədər getmiş enerjisidir".

***

Güclü düşüncələr olaylara yönəlik yaranmır. Dəyişən, gəlib-gedən olaylar böyük ideyalar doğura bilməz. Böyük ideyalar –

dəyişməyən əbədi həqiqətlər üzərində oluşur. Bu günün ideyaları çox dəyişkəndir, tez aradan gedir. Çünkü ideyaları doğuran gündəlik (gündəlikdə duranlar) tez-tez dəyişir. Yeni olay yeni ideya çıxarır ortaya. Başqa sözlə, ideya – həyata, gedişə yön verməli olduğu halda olayların arxasına düşür.

***

Hiylə əsasında formalaşan dövlətin istiqlalına inanmaq olumsuzdur. Hiylə özünə qarşı nifrət hazırlayır.

***

İmperiya azarına tutulmaq – dövlətin dələduzluğudur. O, gücsüzləşdirdiyi, nəzarət etdiyi bütün dövlətləri amansızcasına soyub-talayır, özünün həyatının əyləncə obyektinə çevirir.

***

ABD – ayrı-ayrı kiçik dövlətlərə özünün imperiya olduğunu, üst olduğunu həmin dövlətlərin başçılarına qəbul etdirmək üçün hər cür basqı göstərir. Guya onlardan, onların öz ölkələrinin insanlarına qarşı ədalətli olmaq tələb edir. O ölkələrin toplumları da elə bilirlər, ABD onlar üçün gerçək bir xilaskardır.

***

Dünyanı faktiki "yox"la gələcək "yox"un arasında qəbul edirlər. Dünən olan bu gün yoxdur, bu gün olan sabah olmayacaq. Ona görə dünyanın bu halına fani deyirlər. Fani sözündə urvat görüb təsəlli tapırlar.

***

Lotereya – rəsmiləşmiş, qanunla təsbit edilmiş qumar oyunudur. Zəhmətsiz gəlir, insanı tüfeyli işə sövq eləmək – onun şüurunda belə bir yaşam uyğunsuzluğuna yol açmaq əslində cinayətdir. Öncə insanları zəlil, yoxsul günə qoyurlar, sonra milyonların içindən birinə "sevinc" bəxş edirlər. Ağır yaşayan hər kəs qumarda (lotereyada) əli gətirəcəyinə elə ümid bəsləyir ki, heç Allaha elə ümid bəsləmir.

***

## İç səslə Dış səsin Dialoqu

- Günəşin parlaq şüaları altında təkcə dağ yamacı, çəmənlik deyil, xarabalıq da mənalı görünür.

- Xarabalığı nə qədər bəzəsən də, yenə adı xarabalıqdır.

- Xarabalığı bəzəsən, bəlkə də, ikrah doğurar. Ancaq Günəş işığı xarabalığı bəzəmir, insana orada keçmişdən bir sirr atılıb qaldığını xatırladır.

- Keçmişin sirri uçqunların altında deyil, insanların oxuduqları kitablarda, yaddaşlardadır.

- İnsanların oxuduqları kitablarda yazılanlar həmin xarabalıqların sükut içində söylədikləri həqiqətlərdir.

- Xarabalıq – həqiqətini itirmiş bir boşluqdur. Bu boşluqda yalnız bayquşların ulamasını dinləmək olar...

- İnsan əməyinin, zəkasının sehri ilə qurulan bir səltənət zorun, gücün, heyvani iradənin vasitəsilə bayquşlara təhvil verilə bilər (xaraba qoyula bilər). Ancaq bu gediş zəkanın əsrarını yoxa çevirə bilməz. Bəşər övladının meyli, marağı xarabalığın öncə bir səltənət olduğunu dərk edir, bununla bağlı sirlərə yetir. İnsan varlığını izah edən bütün aşamalar keçmişin simasıdır, – tarixləşən bir örnək kimi gələcəyin baxışına sunulur...

Bu dialoqda birinci səs ürəyin sevdası, zəkanın tələbi ilə danışırdı (İç səs).

İkinci səs isə gözün görə biləcəyi, ağlın yetdiyi bir ölçü ilə mövqe sərgiləyirdi (Dış səs).

***

Kim olursan ol, – göylərin əsrarı qarşısında dayanıb dərin düşüncələrlə zəka bəsləyən filosof, ya da hər kəsin baxışını özündə birləşdirən dönməz, yenilməz bir qəhrəman, istərsə də yeri-göyü titrədəcək, gələcəyə tarixi bir örnək göstərəcək inqilab carçısı! – Məsum bir qızın sadəlövh, heyrətli bir baxışı gözlərinə sancıldığı anda qəlbinin dərinliyindən yara-yara gəlib titrəyən bir duyğunun əsirinə çevriləcəksən. Titrək, kövrək, heyrətli bir duyğu bütün dünyaya

hökm edən azmanların bir anda əl-qolunu bağlayıb əsir götürür. Hər cür nəşə, hakimiyyətsevərlik, cahangirlik tələbi bu duyğunun sönməz hərarəti qarşısında sarsıla bilir. Bu duyğunun adı məhəbbətdir, gücü – ölməzdir, əbədiyyətdir....

***

Bütün ürək döyüntüləri, həyəcanlar ona görədir ki, bir anda şüurda dəyişikliklər gedir...

***

İnsan özündəki heyvanı islah eləmir, ancaq gerçəklikdəki heyvanları əhilləşdirib ev heyvanına, ya da sirk heyvanına çevirir.

***

...İki şəxsin münasibətində inciklik – əlin üstündə cızılmış yara kimidir. Qısa vaxtda sağalıb gedir. Ancaq üçüncü şəxs incik münasibətlərdə əyintilər yaratmağa girişirsə, cızılmış yaraya virus düşməsi kimi bir şey olur. Virus yaranı irinləşdirir, dərinləşdirir, sağalması çətinə düşür. O yaranı inam, sevgi sağalda bilməyəndə qisas "sağaldır". Qisasın sağaltdığı yara isə nə vaxtsa yenidən iy verə bilər.

- Əlaqələndirilmiş, məntiqləşdirilmiş aldanışlar – suçlar sistemi yaradır. Bir çağlar sevginin dəyərləndirdiyi hərəkətlər, jestlər belə, bu sistemin içinə alınır, suç əhvalını yaşadır.

- Bundan sonra münasibətlərdə ləyaqətin yaşayacağı, yaşaya bilməsi ağlasığmaz bir möcüzə demək olardı.

Yanlışı olanla yanlışa yanlış münasibət bəsləyənin toqquşması daha böyük fəlakətlər yarada bilir.

Yanlışa münasibətin naşılığı yanlışın cızdığı yaranı irinə çevirir.

- Haqlı olan yanlışa münasibətdə müdrik olur. Özü haqsız olan yanlışa münasibətdə eybəcərləşir.

- Yanlışın adaşı, yaşıdı onu (yanlışı) çox bəzəməklə, (qabartmaqla) özünü "xilas" edir. Ancaq kimdən, nədən?!

Köhnə yanlışı eyniləşdirməklə özünü yeni saxlayıb ifşaya hazır duruma gətirir. Gizlənmək bacarığına tapınan yanlışkar bunun ayrımında (fərqində) olmalıdır...

- Aldanışlar – Aldadışların sistemi kimi bitib-bitkinləşib bərkiyir. Aldanışa vərdiş elədikcə üzlər bərkiyir, codlaşır, qabalaşır, gözəlliyini itirir.

- Aldanışlar sistemində heç bir gözəllik dəyərini tapmır. Ürəkləri gözəlliyə qovuşmaqdan qoruyur – hamarlanmış, cilalanmış Aldadışın məntiqi budur.

- Münasibətlər mənada bərkiyirdi, yüksək gücə çevrilirdi. Aldadışın məntiqi bu mənaya uzaq gələcəyin parıltısından yanaşdığını bəyan edir.

- Rəml atılır, fala baxılır Aldanış sistemində. Ovlanan ağıl suda çəkilmiş cızığa baxaraq ali gələcəyin yarandığını, qorunduğunu düşünür. Aldadışın məntiqi deyir ki, indiyə qədər sənin gördüklərin köpükdür. Köpüyün altındakı boşluqları görməmisən. Sən məsum bir Aldanışsan. Gözləriyin qabağında qurulan möhtəşəm aqibətlər kölgədir. Bundan sonra mənim sayəmdə kölgələrə tapınmaqdan ayrılacaqsan, “həqiqət seli”nə qərq olan romantik duyğularla sevinəcəksən.

Gör nə vaxtdır, sən mənim yanımda ola-ola mən səni axtarmışam. Sən mənim şübhəmin kapellasısan. Sən mənim acığımın poeziyasısan. Mən səndən yapışıb uğurların arxasında daim suç axtaracam. Kəşf edəcəm uğurların "yalanını". Könüllərdə əyri tapacam, gözləri yerə dikəcəm, ümidləri mənim “romantikama” bağlayacam...

**Aldadışın həşiri:** Bütün bəşər eşitsin! Mən doğruyam. Heç kim məni anlamır, məni yaxına qoymur. Ancaq heç kim məndən gizlənə də bilmir. Kim burnunu çəkdisə, onun fırtılıqlı olduğunu aləmə car çəkəcəm. Çünkü mən yeni “bəşər halı” yaradıram. Özümün “romantik” macəralarımı da köçürürəm yeni hala....

***

Siz məni aldada bilərsiniz, bu sizin sorununuzdur. Siz məndən nə istəmisinizsə, eləmişəm. Sizin hər birinizə ümid, fərəh verən Ocağın yaşaması üçün mən hər cür əzab çəkmişəm, çəkirəm, çəkəcəm.

Sizin hər birinizi eşitmişəm, bu gün də eşidirəm. Qarşılığında isə heç nə istəmirəm...

- Sizin hər birinizin əhvalı, bir-birinizə münasibətiniz Ocağın taleyini etkiləyə bilir. Ona görə mənim üçün həyəcanlar hər zaman olacaqdır...

***

O sözləri ki biz sevməliyik, onların hamısını toplum çirkləndirib. Sevgimizi gücləndirən yeni sözləri, yeni anlayışları Ata yaradıbdır. Hələlik Atanın dilini ancaq biz anlayırıq, uca sözləri çirkləndirən toplum Atanı anlamaqda hələ çox zorlanacaqdır.

***

Adamları şübhəyə alışdırmaq, bədbinliyə öyrəşdirmək yoldan çıxmaqdır, çıxarmaqdır. İnsanları inama, hünərə öyrəşdirmək, özüylədöyüşün sonuclarını görə bilmək, göstərə bilmək gərəkdir. Təklənməmək üçün xarakterləri özünə uyğunlaşdırmaq – fəlakət gedişidir.

***

Məişət üçün əlimin gördüyü iş ürəyimə, ağlıma işləməyib (almayıb məni).

***

Ocağa üz tutanların hamısı ruh adamı olmurlar. Ona görə Ocaq daim artıb azalacaq.

***

Kamilləşmədə əsas məsələ özüylədöyüş həqiqətini tanımaqdır. Bu ən çətin işdir. Adam çox vaxt özüylə döyüşmək yerinə özünü qılıqlayır. Sonucda özgəsi ilə döyüşləri artır. Bu hal ruhaniyyata yaramır, ən çox siyasətə yarayır.

***

İnsan pis bir yerdə, hətta alaqları çox olan, təmizlənməsi zor görünən bir torpaqda gözəl bağ salır, güllər əkir, məhsul becərir. Ancaq öz içini təmizləyib bəsləməyə gələndə buna inanmır. El məsəlində deyildiyi kimi: "heç kim ayranına turş demək istəmir".

Asif Ata ayranına turş deməyi bacarmağa çağırır.

***

Reallığı əsas götürüb onunla barışanlar özlərini dəyişmək istəməyənlərdir. Reallıq – İnsanlığı öldürən ortamdır. Reallığın planında insanın kamiləşməsi, ideala qovuşması olmur. İnsanlaşma plana əsaslanmır. Reallığın etkisini özündən rədd etməyən adam özünü dərk edə bilməz. Bu səbəbdən reallıqla barışmaq yox, reallıqla döyüşmək, ona qalib gəlmək gərəkdir.

Bir sözlə reallığı özün yaratmalısan. İnsanlığı reallığa çevirməlisən.

İdeal – lamisə duyğuları ilə tanınmır, ruhla tanınır. Lamisə duyğuları reallığı tanıyır, reallığa yarayır. Lamisə duyğularının nəzarətində olan kəs ideala can atmaz, idealın varlığına inanmaz. Belə adamlar mübarizə apara bilməzlər.

İnsanın enerjisi baxışının (diqqətinin) yönəldiyi, uğraşdığı səmtə yönəlir. Baxış meşşanlığa yönəlirsə, enerji meşşanlığın genişlənməsinə həsr olunur. Mənəviliyə yönəlirsə, enerji mənəviliyin gəlişməsinə xərclənir...

***

Yeni Dünyabaxış – bəşəriyyətin insan haqqında, dünya haqqında, Allah haqqında düşüncələrini dəyişməkdir. Asif Ata bu işi yerinə yetirir.

Ataya qədər din deyir: insan quldur (bəndədir), Allah ağadır, Dünya oyun-oyuncaqdır.

Ata deyir: İnsan özündə Mütləq gəzdirir, Dünya mənaca əbədidir, Mütləq – Dünyada dünyadan artıq olan Mənadır.

***

Kimsə öz həyatını pisliyə sürüməz. Sürüyürsə, deməli, pisi tanımır, dərk eləmir.

Deməli, ölçünü tanıtmaq, öyrətmək gərəkdir.

***

Lider ayrı şeydir, Mürşid ayrı şey. Bizim öyrətmənimiz Liderdən də, mürşüdlükdən də üstündür.

***

Bir var dövlətə xəyanət – siyasi manipulyasiya.

Bir var topluma xəyanət – soyğunçuluq, talançılıq, toplumu bireysəl çıxarlarına qurban vermək.

Əgər dülgər yalnız dülgərlik deyil, başqa işlər də görürsə, o halda, ədalətsizliyə meyil etməyəcəyi olumsuzdur. Dövlət ona görə var ki, hər kəsin öz işini görməsi üçün ortam yaratsın. Dövlət elə ortam yaradır ki, biri bildiyi, bilmədiyi hər işi görür. Ədalətsizlik – biz hər şeyi edəndə ortaya çıxır. Siyasət də buradan qaynaqlanır – hər işi görənlə uzlaşmaq, ya da çökdürmək.

Ədalətsizlik nədən doğur – tamah, qorxaqlıq, bilgisizlik.

***

Bəzən düşünürlər, Azərbaycan türkcəsinin olanaqları əbəbi gələnəklərin tələblərindən dala qalır. Ona görə ərəb-fars sözlərindən əl çəkmək istəmirlər. Ən çox da şeirlərdə. Dili ağırlaşdıran fars sözönlüyü, sözsonluğu şəkilçilərindən qulağa yatımlı qafiyələr düzəltməklə ortaya yaradıcılıq örnəkləri çıxartmağa çalışırlar. Yanlış yanaşmadır!

Türkcəmizin olanaqları da genişdir, təsvir gücü də.

Türkcəmiz mübarizənin də, Tanrının da sirlərini aça bilən dildir. Yetər ki, bu dilin gözəlliyini anlayıb işlədəsən.

Yaradıcılıq – adamın qulağını, burnunu olduğu kimi göstərməklə yaranmır, gərək sirlərin gizləndiyi dərinliklərə girə biləsən. Eyni halda, dil ilə sirlərin doğmalığını kəşf eləmək yetənəyin də olmalıdır. Əlin çatmayan ətə iylənmiş deyib pərdələnmək yaradıcılığa yol açmaz.

***

Mənəviyyatdan gəlməyən bilik hiylələşdirir. Mənəviyyatla uğraşmırlar, biliklə uğraşırlar, Mənəviyyatla uğraşmırlar, türkçülüklə uğraşırlar... Ona görə türkçülükləri ingilisçiliyə bənzəyir.

***

Sənayenin gəlişməsi ilə insanda mülkiyyətçilik istəyi güclənir. Ancaq ailəçiliyi, millətsevərliyi geriləyir.

Ata deyir, sənaye səngiməlidir...

***

Bir insanda fərqli davranış ya gözəlləşdirər, ya pozar. Əxlaqın dəyişməsi budur. Mənəviyyat ölçüsündən qıraqda yeni əxlaq yaranır. Bu isə pozuculuqla sonuclanır.

Mütləqə İnam əxlaqı din əxlaqını, eləcə də, texnologiyaların şüurda dəyişiklik yaratmaqla formalaşdırdığı əxlaqı rədd edir. Bir qayda olaraq, əxlaq – şüurlarda dəyişiklik yarananda yenilənir. Bu yeniliyi tanımaq üçün İnsanlığın tələblərini tanımaq gərəkdir.

Yeni əxlaq nəzəriyyəçiləri insanların xarakterlərinə, vərdişlərinə dayanıb təkliflər verirlər, başqa sözlə, yenilik önərirlər. Ancaq bu zaman mənəviyyat gözə alınmır. Eləcə də, milli özəlliklər var sayılmır.

***

Çağdaş türkçülər hindliləri qınayırlar (İnəyi simvollaşdırdıqları üçün). Ancaq özləri həm ərəbin Allahına sitayiş edirlər, həm də Boz Qurda. Bu gün də inanırlar ki, türklər qurdun mayasından, belindən əmələ gəliblər. Bu şüur min illər öncəki şüurdan fərqlənmir.

- Əxlaqın yenilənməsi – insanların dünyaya, doğaya münasibətinin dəyişməsi ilə baş verib.

İlkin (ibtidai) insan heyvana sitayiş edirdi. Bu, onun əxlaq göstəricisi idi. İndi az sitayiş edir, bu onun yenə əxlaq dəyişikliyi sayılır. (Məncə, az əxlaqlılığı sayılmalıdır).

***

Bütün Dünyabaxışlarında "Varlığın Birliyi" ideyası etkisini göstərmişdir. İslamda bu bilgi ziddiyyətli verilmişdir: Tövhiddə bir şey deyilir, ayələrdə ayrı şey. Məsələn, Allah birdir, ortağı yoxdur, məkansızdır. Həm də mələklər ordusu var, axirət adında məkanı var, əzabı, mükafatı var.

- Qədim inanclarda insan öləndə ruhu quş, ya da böcək şəklində uçub gedərmiş. Məncə, türklərdə "uçmaq" sözü buradan yaranıb. Bu sözü İslamın cənnət anlayışı ilə eyniləşdirirlər.

Bektaşilər insanın, günahına görə, əzab çəkəcəyi bir bədəndə yenidən doğulmasına inanmışlar. Bu inam onlardan öncə türklərdə olubmu, bilmirəm. Olmayıbsa, hindlilərdən götürdüklərini demək olar.

Bizim kənddə adam öləndə ağzından kəpənək çıxıb uçduğunu deyərdilər. Bəzən bu kəpənəyi ölən adamın ruhu kimi deyil, onu öldürməyə gələn Əzrayıl kimi anlayırdılar. Məncə, qədim inanclardan gələn bir məsələni çağdaş inanclarının tələbi ilə qarışıq-dolaşıq salırlar.

***

Göytanrıçılıqla panteizm arasında sıx bağlılıqlar var. Ola bilər dünya xalqlarının panteist baxışları Göytanrıçılıqdan bəhrələnmişdir. Çünkü Tanrıçılığın tarixi daha qədim bilinir.

***

Tamahkardan, qorxaqdan, biliksizdən ədalət ummaq avamlıqdır. Adamlar sözdə belə adamları qəbul eləmirlər, ancaq bu çalarlar özlərində də olduğu üçün dərinə də getmirlər.

O zaman deyirəm: Nə üçün Allah adı tutursunuz?! Allah qatında (əslində Mütləq anlamında) bunlar yoxdur axı. Demək, Allahsız olmağın qaçılmaz olduğunu sübut etməyə çalışırsınız.

***

Dua – Allahı bulmaq üçündür. Müsəlman dua edəndə Allahı bulmur, itirir. Çünkü Allahaləlimək, Allahdan maddi güzəran istəmək, ruzi diləmək onu (insanı) qul durumuna salır. Mütiləşən özünü dərk edə bilməz. Özünü dərk eləməyən Allahdan (Allah anlamından) uzaqlaşır.

Öncələr yazmışam: Allahdan maddi nemət dilənməzlər, mənəviyyat umarlar. Mənəviyyata yetməyən insan maddi nemətlərə tamahlı qalır, nəfsi onu maddi nemətlərdən asılı duruma salır. Başqa sözlə,

maddiyyat quluna çevrilir. Mənəviyyata yetən insan Allahla bir olur, haqlı olur. Haqlı olan başqasının haqqına ortaq olmur.

İnsan Allahı fəhm ilə qəbul elədi. Allahın varlığını fəhm ilə bildiyi üçün gərəksiz sübutlar peşində qoşmadı, Allaha qovuşmağın yollarını aradı.

Dinlər – Allaha qovuşmağın yollarıdır, ancaq yanlış yollarıdır. İnsan inamla Allaha qovuşa bilər. Ancaq din inam ola bilmədi, çünkü yalanlara bulaşdı. Əslində dində Allah da Mütləqləşə bilmədi. Yalanlar üzərində gedib Allah anlamına çatmaq olmaz. Yalanlardan keçib (uzaqlaşıb) Haqqa yürümək mümkündür.

- Yuxarıda dedik, toplumlarda dualar, ibadətlər Allahla bazarlığa getmək anlamında, düzəyində baş verir. Belə ibadətlərlə insan kamilləşməz, dünya düzəlməz.

***

Türkdən heterogen toplum yaratmaq – Türklüyü ortadan qaldırmaqdır. Hibrid gen, bir də Türk – bir-birinə tərs anlayışlardır. Türk homogendir.

***

Güney Azərbaycanın əsas məsələsi Türklüyün dərkidir. Türklük – İslamla uyuşmur, ona tərsdir. İslam – Türkün adını, milli şüurunu, gələcəyə baxışını pozur. "O dünya" inamında Vətən yoxdur. "O dünya" üçün döyüşən Vətən üçün döyüşməz, azadlığı "o dünya"da axtarar.

***

Öz qəlbindəkiləri seyr etmək, düşündüklərini müşahidə etmək – özünü tanımanın ən doğru addımlarından biridir. Özüylədöyüş, özünüqurma bundan sonra başlayır.

***

Hər hansı bir alim sevgidən elmi iş yaza bilməz. Sevgi – elmi dərəcə verən qonu deyil. İlahi münasibət alimliyə sığmır.

***

Adamlar yağışdan da gizlənirlər, qızmar Günəşdən də. Ancaq yağışı da, Günəşi də düşünəndə insan xəyallar dünyasında olur, qəlbi şeiriyyətlə dolur, ürəyində həyəcan doğulur, sözə sığmayan sehr sonsuzluğuna düşür.

Birinci hal insanın fiziki varlıq olduğunu bildirir, ikinci hal ruhani. Birinciyə reallıq deyirlər, ikinciyə xəyalpərəstlik. Birinciyə rasionalizm deyirlər, ikinciyə irrasionalizm. Birincini gerçək sayırlar, ikincini mücərrəd.

İnsan gerçəkliklə idealı birləşdiə bilməyəndə ikisindən birini danmalı olur. Dananda isə öz bütövlüyünü danmış olur. Bütövlüyə yetməyən insan özünü danmalarla ömrünü ölümə təslim edir.

***

Doğanın yağışı, qarı, Günəşi, qürubu insanların varlığında elə iz buraxır, sonralar onlar bir-birinə yağışlı, qarlı, günəşli, qürublu xatirələrindən danışanda həyəcanla bir-birini təsdiq etməyə başlayırlar.

Doğa insanların ürəklərini, duyğularını bir-birinə bağlayan möcüzələr, sirlər qaynağıdır.

***

Sanki din insanla mübarizəyə gəlib, onu yerində oturtsun, ona balacasan desin.

Ola bilər, din azğın hökmdarlara mesaj verir ki, siz Allahın yanında balacasınız, Allahlıq iddiasına düşməyin. Ancaq "qaş qayırdığı yerdə göz çıxarır" – insanın şüurunu məhv edir.

***

Sevgi elə bir oddur, yanğısı başa çatmaz, iztirabı tükənməz... İnsan elə bu deməkdir.

***

Məcnuna elə gəlirdi ki, min illərlə ürəkləri dağlayan eşq odu Leyli ilə onun arasında bölünüb. Ancaq Leylini iradəsiz görəndə bu odu,

alovu bütünlüklə öz qəlbinə yüklədi. Ona görə toplumdan ayrıldı. Çünkü toplumda bu odu onunla böləcək adam yox idi. Bütün hiylələrdən, fitnəkarlıqlardan uzaq olan ceyranların, quşların ortamında eşq odunun bakirəliyini qoruyurdu – ceyranla, cüyürlə, güllə, bülbüllə dostluq edirdi.

Doğa ilahi sığınacaq idi Məcnun üçün.

Füzulinin "Leyli Məcnun"u ərəb Allahçılığına yad, Türk Tanrıçılığına doğma idi. Məcnun bəndə ola bilmədi. Onu bəndə eləməyə çalışanlara qarşı yeri-göyü titrədən üsyan qaldırmışdı. Bu üsyanın dalğası yüzillərdi sabaha yol gedir. Hər dönəmdə alovlu ürəkləri özüylə çəkib aparır.

Ən dərin, incə duyğuların çözümünü, dəyərləndirilməsini vaxt itkisi sayan iş-güc adamları həyatda quru, cansız, yovuşmaz, gərəksiz olurlar.

***

Bəzən bir adam bir ortama girəndə özünün sirli, sehrli varlığı ilə bütün çevrəsində olanlara da məzmun verir, – hər şey fərqli görünür, fərqli canlanır. Odur ki, hər şeyi öz varlığının etkisi altında tuta bilir.

***

Ruhani əzabım, harayım, kədərim, fərəhim zamanın bütün boşluqlarını doldura bilsəydi, Ocaq – İnsanlığın yaşam ölçüsünə çevrilərdi.

Sabahın işığını zamanın bütün boşluqlarına salmaq – dahilikdir. Bu aqibəti yaşaya bilmək əzabdır. Bu əzabla yoğrulmaq neçə-neçə soylara yol açıb ruh verərdi. Belə bir bütövlükdə yaşamağa gücüm yetərsizdir. Riyazi dillə desək, bir neçə faiz çatmır. Ancaq bu toplam bir neçə faiz güc, – minilliklərə işıq saçan qüdrət deməkdir...

***

İnsan səmimi olaraq özü ilə dünyanın arasında ciddi bir bağlantını yarada bilmədiyini anlasa, Mütləqsiz (Allah anlamından qıraq) yaşadığının fərqinə varar. O zaman o, rahatsız olmağa, nə etməli

sorusuna cavab verməyə çalışardı. İnsan qarşısındakı, ya da özünün də içərisində olduğu dünyanın sonsuzluğu içində əriyib yoxa çıxır. Onu əridib yoxa aparan gərəksiz yaşantıların pəncəsində çabalaya-çabalaya ömrünü başa vurur. Onu əbədiyyət orbitində yaşadacaq bir üfüqdən qorxur. İnsanlığın əbədiyyət üfüqlərini ağardacaq bir işığa qarışmağa özündə güc yaratmağa çalışmır.

Bu deyilişlərə bədii fantaziya kimi yanaşıb susqunluqla qarşılıq vermək – insan varlığına uyğun olmasa da, bu baş verir. Əslində bədii fantaziya kimi səslənən bu möhtəşəm düşüncə idealı – insanın varlığında ən dərin qatlara enib onu böyütməyə, kamilləşdirməyə qadirdir. "Ol"maq istəməyənlər həqiqətin parlaq işığına fantaziya adı qoyub üstünə örtük salmağa çalışırlar...

***

Bizim həyatımız niyə pozulub?! Bu pozulmalar nədən həyatımızla dünyadakı bütün gözəlliklərin arasına girir?! – İndi biz gözəllikləri də, həqiqətləri də yalnız Doğada görə bilərik. Onları həyatda, dünyanın gedişində görə bilmirik. Nisbi doğruları görəndə isə sevinirik. Sevincimiz uzunömürlü olmur. Çünkü nisbiliyin gözəlliyi başa çatıb eybəcərliyi başlayır...

***

Həqiqəti müzakirə, mübahisə etməzlər, düşünərlər. Bu o vaxt olar ki, üz-üzə oturanlardan biri həqiqətin doğrudan həqiqət olduğunu dərk etmiş olsun, müzakirəyə, mübahisəyə getməsin, qarşısındakı üçün düşünmək halı yaratsın.

***

İnsanın gücünü səmimiyyət yaradır. Səmimiyyətsiz adam istənilən adamın qarşısında maymaq duruma düşür.

***

İkiüzlü adam həqiqətin nə olduğunu bilməz, heç bir davranışında isə ədalətli durum seçə bilməz.

***

Toplumda hər kəs öyrətmək istəyir, hər kəs özünü öyrətmən kimi görür, heç kim öyrənmək istəmir. Öyrənmək istəməyənin öyrətməyə nəyi olur görəsən?!

***

Bir yandan qayğılarla dolu düşüncələr, bir yandan tükənməyən arzular, bir yandan hər şeydən açılıb dincəlmək istəyi. Bir insan varlığında bunların hamısı üz-üzə durur. Həyəcan, təşviş, sevinc, yorğun xəyallar – hamısı bir-birinə qarışır. Hərəsi öz etkisinə xas hallar yaradır. Ona görə insana qiymət vermək çətinləşir. Onu anlamaq üçün mömin, mənəviyyatlı, müdrik düşüncəli insan olmalısan. Bu çox çətindir. Könül loğmanı olmaq üçün könüldə nələrin yaşadığını bilmək gərəkdir.

Hətta könüldə pis şeylərin ona əzab verdiyini anlayışla qarşılamaq, kömək etmək fədakarlığı gərəkdir. İnsanı düşdüyü durumdan qurtarmaq üçün onu anlayan könül loğmanı gərəkdir. Biganəlik, inamsızlıq, acıq, nifrət, yamanlamaq – çirkablar içində çabalayan könülü daha da məhv edir. Bu cür xəstə münasibətlərdən toplum getdikcə daha artıq dərəcədə xəstəliyə uğrayır.

- Mənəvi səfalət həyatı ölümcül duruma salır. Bu gediş Allahsızlıq (əslində İnsansızlıq) deməkdir. Heç kim Allahlı olmaq istəmir, hər kəs Allahlı görünməyə çalışır. Yalançı ibadətlər, yalançı dualar, yalançı öygülər, yalançı təsəllilər, yalançı dostlar, yalançı öyrətmənlər, yalançı müdriklər, yalançı analar, yalançı atalar, yalançı qardaşlar, yalançı bacılar... yalan, yalan!

Doğrunun yaşaması onun haqqında çox danışmaqla olmur, ürəyin doğrunu götürməsiylə, onu ömrə çevirməsiylə olur.

Hər kəs bu həqiqətə nağıl kimi baxır. Həqiqət ağızlarda nağıllaşanda yalan ömürlərdə qabalaşır, sərtləşir, bərkiyir.

***

Avropa İsanın dediyinə əməl eləmir, yəni insanı sevmir. Ancaq insanların hüquqlarını ödəməyə çalışır. Hüquq təsdiq olunur, ancaq

insan var olmur. Çünkü İsa Avropaya insana inanmaq öyrətmədi. İnsana inanmayan onu sevməz. Ona görə insana münasibətlə heyvana münasibət eynidir. Hətta heyvana münasibət bir az da üstündür. Bizə görə heyvana mərhəmət gərəkdir, insana inam, sevgi. Sevgini yaradan inamdır. İnam olmayan yerdə sevgi yaranmaz. Bu açıdan Avropada heyvana sevgi də əslində sevgi deyil. Heyvanın nəyinə inanmaq olar ki?!

***

Doğadakı gözəllikləri anlayan üçün Doğa onun ürəyində yaşamaq eşqi, sevmək yanğısı oyadır, böyüdür, yetkinləşdirir. Türk Tanrıçı, Doğaya bağlı olduğu qədər yüksək, zəngin toplum olmuşdur. Dinin Allahçılığı, bəndəçiliyi onun bu keyfiyyətlərinin üstündən , elə bil, xətt çəkibdir.

***

Kapitalizm sosializmin daxilində yaşayırdı. Sosializm qapısını açan kimi minlərlə kapitalist çıxdı içindən. Kapital toplamağa başladılar. Kapitalistlər fürsət gözləyirmişlər.

Marksizm kapitalizmi ortadan qaldırdığını sözdə elan elədi, içində gizlədiyini gizləməyə çalışdı, həzm eləyə bilmədi, yenidən üzə çıxartdı. Aktiv markisistlər haytalı antimarkisistlərə dönüşdülər. Çünkü insan dəyişmədi, iqtisadi oyunlar dəyişdi.

***

Fədakarlıq – İnamın sınırsızlığının adıdır. Ehtiyatlanan fədakarlıq – şübhəli inam deməkdir. İnsan ona görə fədakarlıq edir ki, İnsaniliyə inamı bütöv olur.

***

Türk ailə qurmağın adına Evlənmək deyir. Çünkü evi olmayan ailə sürülükdən qurtarmaz. Ev – ailə üçündür. Türk ən zəngin imarətləri olanı belə evli saymır.

Evli – ailə qurana dediyinə görə ailə onun üçün qutsal anlam daşıyır. Ev-ailə birliyi – yurd-xalq birliyi deməkdir, anlamı baxımından.

***

Oyun yarışlarının özülündə xudbinlik var. Çünkü yarışlarda özündən üstün olmaq yox, özgədən üstün olmaq istəyi var. Oyunlar əməlsiz xudbinlikdən yaranıb. Həyat öz anlamına bərabər olsaydı, oyun xudbinliyinə gərək duyulmazdı. Ən yaxşı yarışda belə için ləyaqəti ifadə olunmur, süni üstünlük istəyi ifadə olunur. Futbolçu hər cür tərbiyəsizlik edir, ancaq oyunu ilə gəlir gətirdiyi üçün onun tərbiyəsizliyinə göz yumurlar...

***

Vətənli olmaq üçün ömrü işğaldan qurtarmaq gərəkdir.

Ömrü işğal olanlar "Vətən" sözünü mitinqlərdə bağırtılarla çeynəyib atdılar.

Vətəni Dinin işğal elədiyi ömürlərə tapşırdılar, vətən İranlaşdı, Ruslaşdı, İngilisləşdi.

Vətəni qorumağın bir yolu var – ömrü milliləşdirmək, insaniləşdirmək.

***

Azərbaycan "yazar"ları, "aydın"ları balalarımıza zəlillik dərsi keçirlər – onlara avropalaşma, islamlaşma, ruslaşma öyrədirlər, milliləşmə öyrətmirlər. Milli dəyərləri gerilikçilik sayırlar, çağdaşlıqdan uzaqlaşmaq kimi qiymətləndirirlər.

***

Həyat insana dolanmağı öyrədir, yaşamağı yox. Həyat təcrübəsi olanlar dolanışıq təcrübəsi olanlardır.

***

Ölüm həyatın qənimi deyil, yenilənməsidir.
Yaşamağın doğrultusu – ölməzlikdir.

***

Hamı özünə arxa, dayaq axtarır. Hamı özünü başqasından qorumaq haqqında düşünür. Bu hal hamının bir-birinə yadlığının, yağılığının göstəricisidir. Doğmalıq adamların arxası, dayağı olmalıydı, adamlar yadlardan arxa, dayaq quraşdırırlar özlərinə. Adamların arxası onların ağası olur əslində – qəyyumluq biçimində ağalıq.

***

Şəri döyməyənin xeyiri olmur.

***

Vətənin sərvətini çox mənimsəyənlər vətənsevər görünürlər.

***

On Yeddi arvadı olana səcdə qılanlar Asif Ataya səcdəni küfr sayırlar.

***

Dünyalı olmaq üçün Dünyanı yaratmaq gərəkdir.
Şöhrəti öz Dünyası sayanlar dünyanı əyməklə uğraşırlar.

***

Azərbaycanın yönəticiləri sükanı olmayan sürücülərdir. Hara gəldi dönürlər – döndərirlər.

***

Əxlaqsızlıqdan tərəqqi düzəltdilər, dünya uçuruma düşdü.

***

Adam ölümdən gizlənir, ölümdən özünü qorumaq üçün ləyaqəti qurban verir. Başını qorumaq üçün "bacarığını" qəhrəmanlıq hesab edir. Əslində Qəhrəmanlığın qələbəsini öz içində məğlub edir.

***

Aşiqlik – insandakı Mütləqə vurulmaqdır.
Dostluq – insandakı Mütləqə bağlanmaqdır.

Analıq – Fədakarlığı müqəddəsləşdirməkdir.
Övladlıq – böyüklərin müqəddəsləşən fədakarlığını tanımaqdır.

***

Hər şeyi bəzəyirlər, əsilliyə yer qalmır.

***

Adamların yaxşısı: Xudbinlikdən qismən imtina edir, yarımxudbin olur.

Hərislikdən qismən imtina edir, yarımhəris olur.

Vəhşilikdən qismən imtina edir, yarımvəhşi olur...

Qismən imtinanı ali həqiqət sayır. Həqiqəti yarımçıqlayır – şərə qulluq edir, şərə gərək olur.

***

Adam hər şeyi bilir, özünü bilmir. Əslində heç nə bilmir. Özümlükdən böyük həqiqət yoxdur. Özümlüyü bilməyən heç nə bilmir.

***

Adam özüylə döyüşmür, başqası ilə döyüşür. Bu döyüşdən yerəgörə sığmayan yadlıq yaranır. Ona görə toplumda Birlik alınmır. Özüylədöyüş – özünə doğmalıq yaradır. Özünə doğmalaşan özünü başqasında görməyə çalışır.

***

**Bugün** – Dəbləşən xalqsızlıq, dəbləşən vətənsizlik, dəbləşən ləyaqətsizlik.

***

Bir var Böyüklüyə çatmaq, bir də var Böyük sayılmaq.

***

**Oxşarlıq**: İmperiya Qorbaçovu,
Rusiya Yeltsini,
Putin Rusiyası.

***

**Xəzər dənizi**: acların yeyə bilmədiyi,
Azğınların bölə bilmədiyi.

***

Azərbaycan kapitalizmi – maddi kamillik yoxsulluğu.

***

"Milli" riyakar – Məscid tikən kommunist.

***

Tarixə düşmək üçün avamlığı qızışdırırlar.
Avamlıqdan şöhrət yığırlar – ölülər.

***

Demokratlar – demokratiyanın yaratdığı qarışıqlığı çözməklə uğraşırlar.

***

Həyat adama pulla verilsəydi, onu daha abırlı, urvatlı yaşayardı.
Adam pulsuz olan heç bir şeyin qədrini bilmir.

***

Hər bir andan qorxsan, əbədiliyi bula bilməzsən.
Adam daha çox anları qoruyub əbədiliyi qurban verir.

***

Çiçəklər açır ki, dünya solmasın, ağaclar boy atır ki, dünya tükənməsin.
İnsanlar əllərindən gələni edir ki, dünya dağılsın.
Ata ona görə deyir, İnsanlaşın ki, dünya yaşasın.

***

Hər şeyə sevgi bəsləsən, dünya gözəl olar.
Bəşər övladı bu həqiqəti anlamayacaq qədər ötəri yaşayır.

***

Su yoxdursa, çayın yatağı onun çevrəsində bitən ağaclar üçün təsəlli ola bilməz.

***

Adamın xırda arzuları o qədər çoxalır ki, böyük arzuları da gerçəkləşdirməsi mümkün olmur.

***

Arzudan arzular doğur deyirlər. Bu o vaxt olur ki, ürək tamahla nigaha girsin. Ürək azadlıqla doğmalaşanda xırda arzuların peşinə düşməz.

Xırda arzular – azad ürəkdən gəlməz, ürəyə əsarət gətirər.

***

Canını dişinə tutan adam səbrli adam deyildir, əsəbi adamdır – qəzəbini də ifadə eləməyi bacarmır.

***

Kinli adamların səbr göstərməsi çox qorxunc olur.
Ziyan vurmaq üçün fürsət gözləyir.

***

Kinin də səbri var, sevginin də.

Kin ziyan vermək üçün fürsət gözləyir. Sevgi isə böyütmək üçün yanlışlara dözüm göstərir.

***

Güzgü ürəyin gözəlliklərini göstərə bilmir. Ona görə də adamı aldada bilir.

Güzgü gözlə dostluq edir, ürəklə deyil.

***

Ağaclar boy atırlar ki, ucalığı görək.
Ucalığa baxmaqdan qorxanın ürəyi kor olar.

***

İdeal haradadır?! – Bizim varlığımızda.
Ancaq biz onu xəyallarımızla canlandırmağa çalışırıq.

***

İnsanlar idealı ömürləri ilə deyil, daha çox xəyalları ilə canlandırırlar.

Ona görə ideallara xəyallardan baxanlara xəyalpərəst deyirlər.

***

İdealı ömürlərdən izləmək xəyallardan dinləməkdən daha çox inandırar.

***

Xəyal – ömrü qurmaq üçün idraka meydan verir, ancaq idrakın işini görmür.

İdrak xəyal vasitəsilə kəşflər edir, ancaq yerini xəyala buraxmır.

***

Uşaqlıq – şeiriyyətdir, nəğmədir, çünkü özüdür.

Yaşlıların uşaqlığı eybəcərlikdir. Çünkü yaşlıların uşaqlığı – uşaqlığın özü yox, özgəliyidir.

***

Adamlar ən çox kefcil adamlara meyil edirlər, kefin doğurduğu təsəlli ilə vaxt keçirir, həyatın ağırlıqları altında boğulmamaq üçün özlərini aldatmağa çalışırlar.

İdeya, düşüncə adamlarına yalnız özlərini aldatmaq istəməyən adamlar meyil edirlər. Düşündürən, mübarizəyə çağıran insanlarla yol getmək ağırdır. Bu ağırlığı öz üzərinə götürməyi bacaranlar qurtarıcıya çevrilirlər. Dünya onların varlığı ilə mənalı, gözəl olur.

***

Adam mənəviyyata bağlılığı asılılıq sayır, hərcayi ehtiraslara meyl etməyi azadlıq.

Adam əsarəti azadlıq sayır, azadlığı əsarət.

***

İnsanın kamilləşməsinə inanmırlar. Mütləq yoxdur deyirlər. Vüqarsızlıqlarını, xudbinliklərini, həsədli olduqlarını boyunlarına alırlar. Ancaq bunu sözdə deməyən görünürlər.

Vüqarı (nisbi) sınırlı olanın xudbinliyi geniş olur.

Heyrəti sınırlı adamın həsədi geniş olur.

Sədaqəti sınırlı olanın xəyanəti geniş olur.

Nisbilikdən çıxmaq istəmirlər, Mütləqi yox sayırlar.

***

Həyat əsatirləşəndə ölür, əsatir həyatlaşanda gözəlləşir.

***

Ömür danışılanda görünmür.
Görünməyən ömürdən danışmaq uydurmaçılıqdır.

***

Şübhəyə tapınmaq – qorxu ilə görüşməkdir.
Şübhəni ötməmək – qorxunu gerçəkləşdirməkdir.

***

Şübhənin işi öldürməkdir,
İnamın işi diriltmək.
Şübhə – idrakın korluğudur. İnamsız idrak ölü idrakdır.

***

Dinin "o dünya"sı həm qorxuludur, həm də nəşəli.
Qorxu da, nəşə də insanın ölümüdür.

***

Özünə qarşı inamlı ol ki, sənə qarşı inamsız olmasınlar.
Özünü yarat ki, səni özgələşdirməsinlər.

***

Dinin məntiqinə görə insan dünyaya bədbəxtliyi təsdiq eləmək üçün gəlib. Çünkü pislik insanın alnına yazılıb. Ömrü boyu "alın yazısı"ndan çıxa bilməmək bədbəxtçilikdir.

***

"Hər şey yaxşı olsaydı, həyat mənasız olardı" deyirlər.

Həyatı mənalı eləyən yaxşılığın pisliyə bulaşması imiş.

Bu uydurmanı həqiqət sayan adam İnsanlaşa bilmir. Bu uydurma ilə özünün İnsanlaşmasının, kamilləşməsinin yolunu bağlayır.

***

**Teodor Ruzvelt**: "Yüz haldan 75-ində haqlı olsaydım, bundan daha yaxşı heç nə istəməzdim".

Yüz haldan birində haqlı deyilsənsə, haqsızsan. Yarımçıq haqq olmur. Yarımçıqlıq haqsızlıqdır.

***

Deyl Karnegiçilik – İnama şübhə ilə yanaşmaq metodu.
İnama inanma, onda başqası sənə inanacaq.
Absurd məntiq!

***

Adam özündə insanı görsəydi, özündəki Adamlığı müdafiə eləməzdi.

***

İmtina – İnsanlıq tələbidir.
Adam İnsanlıqdan imtina edir – imtinasızlığa düşür.

***

Böyük söz balacaların dilində danışır, Böyüklərin əməlində.

***

Deyl Karnegi təvazökarlığı – səmimiyyət pozaçılığı!

***

Deyl Karnegi özünü tənqid edir ki, başqası onu müdafiə etsin. Özünün müdafiəsindən məmnunluq duyan Karnegi etirafı nümayişə çevirir.

İstənilən münasibət nümayişdə oyunlaşır.

Deyl Karnegi insana oyunçuluq öyrədir.

***

Adam özündə Mütləq gəzdirir. Ancaq həyatın nəşəsinə uyduğu üçün özündəkinə həsrət qalır.

***

Qəriblik: Gerçəkliyə doğmalıq, Mənaya yadlıq.

***

Açıq danışmaq – həqiqətçilik deyil. Çünkü yalanı da açıq danışırlar.
Həqiqəti açıq şəkildə belə yarımçıq danışmaq olmaz.
Açıq yalan olur, yarımçıq həqiqət olmur.

***

Ucalıqdan danışan – söz olsa da, ucalıqda yaranan əməl olmasa, söz yıxılacaq.

***

Ömürləri şeiriyyət gözəlliyinə bənzəməyənlər şeir yazırlar.

***

Şöhrəti üçün şeir adına nəsnələrdən dayaq düzəldir.
Sabah ömrü uçub dağılacaq.

***

Adam həyatı fani sayır, ancaq ondan 4 əlli yapışır.

Adam "fani" həyatdan ayrılmaq istəmir – ölmək istəmir.

Balanı anaya bağlayan ananın südü deyil, fədakarlığıdır.

***

Gecələr ona görə gözəldir ki, anaların fədakarlığı yenilənir.

***

Dövlətin vətəndaşa münasibəti – acıqlı səbr!

***

Hamı qurtuluşu özünün hakimiyyətə gəlməsində görür. Bu, özünə inam yox, hakimiyyət hərisliyidir. Qurtuluşu (xilası) həqiqətdən qurtarmaqdır.

***

Könlü uca olanlar – heyrətlənənlər.
Könlü naşı olanlar – ağız suyu axıdanlar.

***

Böyüklüyün adından danışanlar balacalığa umsunurlar.

***

İqtidar xalqın ləyaqəti ilə zarafat edir, müxalifət xalqın hiddətiynən.

Müxalifət xalqın hiddətinə inanmır.

Ona görə də iqtidar xalqın onu dəstəklədiyini uydurmaqla xalqsız müxalifətə hədə-qorxu gəlir.

Müxalifət iqtidara xalqla deyil, Batı ilə hədə-qorxu gəlir.

***

Bir-biri ilə dil tapa bilməyən partiyalar əslində iqtidarın məğlubiyyətini istəmirlər.

Bu anlamda onlar iqtidarla deyil, bir-biriylə döyüşürlər.

Bu döyüşdə qalib olan iqtidardı.

***

Soykökün "ov", "yev" kimi qalması Azərbaycanın Rusiyanın ovu kimi qaldığını sübut edir.

***

Toplum üçün maddiyyat – mənəvi kamilliyin yaradıcısı hesab olunur.

Halbuki maddiyyat uğrunda başlayan döyüş – insan mənəviyyatını alt-üst edir.

***

Mənəvi kamillik əvəzinə Ruhani kamillik demək gərək. Çünkü Mənəviyyat ruhun bir cəhətidir, bütövlüyü deyil.

***

Yeni azadlıq – Avropanın əli altında yaşamaq sevinci.

***

Pisə pisliklə cavab vermək pisliyi ortadan qaldırmır, qoruyur.
Adamlıq – pisliyi qorumaq xislətidir.
Bu anlamda iudaizm – qorxulu Adamlıq dinidir.

***

Toplum dini əfsanələrlə yaşadığı üçün həqiqəti mücərrəd sayır.

***

Plagiatlıq – özgəsi ilə özünü ucaltmaq yalanı.

***

Ruh psixologiyası – Adamdaki İnsanla söhbət etmək, Adamı saymamaq, Adamdaki İnsanı böyütmək, onunla bir olmaq, onu Adamlıq təqibindən qurtarmaq.

***

Ruhsal məsələlər adi ağılda quraşdırılır, İdrakda düşünülür.

***

İnsan Mənadan başlayır. Məna başlanğıc deyil, əzəlidir.
İnsan Mənada yaşayır. Məna əbədidir.
İnsanlıq – fərdlər sonsuzluğunda aşkarlanır, ifadə olunur.

***

Allahçılıq – insanın hardansa başlayıb hardasa qurtarması bədbinliyidir.
Allah – insanın başlaması-qurtarması xofunda yaşayır.

***

Ruhsal tələb – Adamlığı sarsıdan içsəl Aqibət.

***

Adam öləndə onu daha çox əzizləyirlər. Bu onun qəribliyidir. Ölüm Adamın qəribliyini üzə çıxarır. Adam özündə də qəribdi, toplumda da. Onun qəribliyi sadəcə öləndən sonra bilinir.

***

Məscid – Azərbaycanı özgələşdirən məktəbdir.
Aşama-aşama türk ruhunu hünərdən ayırıb itaətə bağlayan, xurafat qaranlığından idraki buxov yaradan yadlıq, yağılıq ünvanıdır.

***

Babəkin faciəvi ölümü onu böyütdü, ancaq Azərbaycanı min il dala atdı.
Əsarət xalqın aqibətinə qəhrəmanlarının ölümündə gəlir.

***

Siyasət – başqasının içindəki şəri başqasına qarşı çevirmək məharətidir. Siyasətdə İnsanilikdən söhbət gedə bilməz.

Başqasının içindəki şəri başqasına qarşı çevirmək şərdir – içdəki şərin qıraqdakı şərə arxalanması eybəcərliyidir.

***

Yarım şər tam şərə tapınar.
Yarım xeyir tam şərə meyil edər.

***

Yunanların Allahları göysüz olduqları üçün qəddar, amansız bəndədirlər. İsanın Allahı göyə çəkilən göysüzlükdür.

Məhəmmədin Allahı – yer xofuna bağlı göysüzlükdür.

***

Allahın insana məhəbbəti olsaydı, dünya çoxdan düzələrdi.

***

Dinin məntiqinə görə zülmü Allah törədəndə yaxşıdır, bəndə törədəndə pis.

***

Həsədin gülüş səviyyəsi var, xudbinliyin qorxu.

***

Fərəh – duyğunun, diləyin, tələbin əmələ çevrilməsindən, gerçəkləşməsindən yaranır.

Qutsal əməllər – heyrətdən yaranır.

Heyrətdən doğmayan əməl qutsal sayılmaz.

***

Dünyadakılar elə bilirlər, dünya tək kapitalizmdən oluşubdur.
Kapitalizm elə bilir, Məcnunluğu öldürüb.
Pulçuluq insan qəlbinin ucalığına hakim ola bilməz.

***

İnsanlaşma ölçü olanda Doğru yenilənir, Yalan köhnəlir.

Mənəviyyat gəlişdikcə qəbahət köhnəlir.

***

İnsanların bir-biriylə görüşü – tənhalıqdan çıxmaq təsəllisi olmamalıdır, ülvi bağlılıqlar, sevincli anlar yaşanmalıdır.

***

İnsana qulluq eləməyən ideya ideal deyil.
İdeal olmayan ideya İnsana gərək deyil.

***

Yoxuş görməyənin dizləri kövrək olar.
Dizləri kövrək olanın sabahı bugününə bənzəyər.

***

Adiliyi bayram edirlər, təsəllidə könülləri balaca saxlayırlar.
Böyüklüyü Bayram etmək – balacalığı imkansız qoymaqdır.

***

Dinlər insana itaət öyrətdilər, insan səcdəni unutdu.
İtaətlə pisliyi ortadan qaldırmaq istədilər, dünya çirkabla doldu.
İtaətdə insan kiçilir, səcdədə böyüyür.

***

Həqiqətin nə demək olduğunu bilmək istəyirsənsə, gerçəkliyi dəyiş – gerçəkliyi insani əməllərlə doldur.

***

Deyirsən, səni Allah yaradıb.
Deyirəm, Allah səni pis "yaradıb". Özün özünü yenidən yarat.

***

İdeal gözəllik axtarırsan, tapa bilmirsən. Çünkü Qıraqda axtarırsan.
İdeal qıraqdan gəlmir, içdən gəlir.

***

İnsan Dünyanı daim işıqlı, qutsal görmək istəyir. Bu istək – insanda özüylədöyüş ülviyyətini yetirməlidir.

***

İnama çatmayan zəka şərə əyilir.
Şərə əyilən zəka – qorxulu zəkadır.

***

Həyat adama çeviklik öyrədir, ləyaqət öyrətmir.
Ləyaqəti adam özündə özü yaratmalıdır.

***

Zaman insanı kamilləşdirmir, özünə (zamana) oxşadır.

***

Atana, anana belə, həqiqətsizliyi güzəşt eləmə. Güzəşt – sevgini əvəz edir. Bununla da münasibətlərə yalan yeriyir.

Yalan münasibətlə atana, anana gərək olmursan.

***

Həyatında heç kim Doğrunu axıra kimi təmin edə bilmir. Daha çox yalanı təmin edir. Ona görə ömür Yalanla dolub Doğrudan boşalır.

***

Həyat uğrunda döyüş – həqiqət uğrunda döyüş olsaydı, həyat gözəlləşərdi.

***

Nağıllardan möcüzə axtarırlar.

İnsanın insana heyrətində, sevgisində, inamında möcüzələri görmürlər.

***

Adam üçün pis – onun xoşu ilə ölçülür. Xoşuna gəlməyən hər şey pisdir.

İnsan üçün Mənaya zidd olan hər şey pisdir.

***

Ölüm yox edə bilmir. Yox edə bilsəydi – Doğa tükənərdi, dünya qurtarardı.

Ölümün yox etməsi – Şərin mütləq olması demək olardı.

Şər mütləq olsaydı, hər şeyi başa çatardı.

***

Əgər Allah varsa, hökmdardan niyə qorxursan?!
Əgər Allahlısansa, Allahsızdan niyə qorxursan?!
Qorxunu yaradan Allahdır. Həqiqətli olsaydın, qorxmazdın.

***

Kapitalizm partiyaçılığı – xalqı hakimiyyətin basqısından qurtarmaq adı altında görəvə gəlmək, qazanc götürməkdir.

***

Dünyanın halı quyuya mıxlanmış div yuxusundan asılıdır.
Ruhsal İşıq gərəkdir – quyudakılar, – yuxudakılar ayılsın.

***

Nə qədər ki, insana inam yoxdur, ondakı kapitalist seviləcək, ədalət yox.

İnsana inanılmadığı sürədə, ondakı Adam yaşayacaq.

İnsana inam gərəkdir ki, Adam özünü dəyişsin.

***

Ağalıq-nökərlik – instinktlərlə yaşamaqdan yaranır.
İstinktlə davranmaq – heyvaniliyə meyillənməkdir.

***

Nökərin içində ağalığa nifrət yox, meyil yaşayır. Çünkü İnsan deyil. İnsan nökər olmazdı.
Ağalığı yaşadan əslində bu "meyil"dir.

***

Toplumda yarımçıq əməlin, düşüncənin ideallaşdırılması qorxusu var. Toplum daim nisbiliyə qaçır, nisbiliyi qoruyur. Toplumu dəyişmək üçün idealı ona tanıtmaq gərəkdir.

***

Adam yalansız keçinə bilmir. Ona görə də onun dostluğuna güvənmək olmaz.

***

Haqq – İnsanilik imkanıdır. Onun qoruyucusu (mühafizəçisi) olmur, daşıyıcısı olur. Haqq özü qoruyur.

Haqlı var – hüquqşünas yoxdur. Hüquqşünas olmaq – hələ haqlı olmaq deyil.

***

Niyə yalanımı görürsən deyə, acığı tutur.
Niyə yalanımı deyirsən deyə, uzaqlaşır.

***

Siyasətçilər – siyasətə qədər olan ömürlərini göstərəcəklər sonrakılara. Çünkü ömrün gözəlliyi – birüzlülükdür. Siyasətin min üzü var.

***

Ömrü gənclikdə yaratmaq gərəkdir. Qocalanda ömrü yaratmaq olmur. Çünkü duyğular qarıyır.

***

Ömür qayğı ilə yüklənəndə zənginləşir.
Yüksüz ömür yoxsul ömürdür.

***

İnamı ömrünə çevirməsən, İnamlı olmaqdan bezəcəksən!

***

Boyun ucadırsa, görünəcəksən.
Görünmürsənsə, hoppanmaq gərək deyil, böyümək gərəkdir.

***

Bölünməmək üçün Böyümək gərəkdir. Partiyalara bölünən xalqa böyük xalq demək olmaz.

Kapitalizm – xalqı böyüməkdən ayırmaq, bölmək yoludur.

***

Şərin Xeyiri üstələməsini həqiqət sayma. Şər ayağını sənin çiyninə qoyub. Çiynini çirkinliyə dayaq eləmə.

***

İçin yolu qurtaran yerdə özgəlik başlayır.
Özgəlikdə ölüm var, yol gedilmir.

***

Sözü üzə demək – düzə (boşuna) deməkdir.
Sözü ürəyə deyərlər ki, ləyaqəti oyatsın.

***

Vədlər bolluğu – əməl yoxluğundan əmələ gəlir.
Vədlər bolluğu – ömürdəki yalanı şöhrətə mindirməkdir.

***

Çox adama tanınmaq böyüklüyün göstəricisi deyil. Şər səndən qorxmursa, böyük deyilsən. Şərin qorxusu – böhtanlamaq, şərləmək, qaralamaq, danmaq üslubunda özünü göstərir. Xalqı əzənlərin öydürdüyü, sevdirdiyi, şöhrətləndirdiyi adamlar böyük ola bilməzlər. Böyüklər – öz çağlarında söyülür, döyülür, gözdən salınır.

***

Fəxri xiyabanda neçə böyük var görəsən?!
Xalqın sevgisində neçə böyük var görəsən?!

***

Gərək idraka sual verəsən ki, idrak düşünsün. İdraka sual vermirsən, onu düşündürmürsən, bunun çətinliyindən qorxursan – İdrakiliyi sevmirsən.

***

Adam özüylə döyüşəndə özünə doğmalaşır. Başqasıyla döyüşəndə başqasına yağılaşır.

***

Sözün mənası ömürdür. Ömür zəngin olanda söz dəyərli olur. Ömür yoxsul olanda söz bayağılaşır.

Ən uca söz belə, yoxsul ömürdə mənalanmır.

***

İkiüzlülük görəndə insana inamını itirmə! İnsan üzdə görünən deyil, dərində olan imkandır.

***

Deyirlər Mütləq yoxdur, hər şey dəyişir.
- Ədalət dəyişib nə olur görəsən?!

***

Reallıq axtaranlar İdealı tanımırlar.
İdealı tanımayan Adamın qeyrətinə güvənmək olmaz.

***

Əgər insan həyatla yetərlənsəydi, onun ölçüsü əxlaqsızlıq olardı. Çünkü həyatda o, yalnız bədənə tapınır.

***

Ən yaxşı adamlar özlərini kommunizm üçün, kapitalizm üçün tərbiyə edirlər.

Quruluşa qulluq edən tərbiyə tərbiyəsizlikdir. Adam quruluşa bərabər yaşayanda özü olmur.

***

Dünyanın mənasına inanmayanlar dünyaya niyə övlad gətirirlər?!

Dünyanı fani sayıb dünyaya övlad gətirənlərin atalığı, analığı bütövləşə bilməz. Bütövlük olmayan yerdə qutsallıq yoxdur.

***

Dünyanı fani sayan avamı saf saydılar, dünya çirkaba bulandı.

***

...İmtinası yoxdur – müdrik görünmək istəyir.

***

Yubiley – böyüklük elanı, yaradıcılıq elanı, hünər elanı deməkdir.

Ömürdə olmayanlar elan olunur – Yalan bəzədilir, sevdirilir.

***

Şair, yazıçı, rəssam, xadim – yaradıcılığa tələsmir, 50, 60, 70 yaşa – yubiley yaşına tələsir.

Yaşaya bilmir, elan olunmaq istəyir.

***

Siyasətçilər dünyanı ağasız təsəvvür edə bilmirlər. Bu səbəbdən də hamı ağa olmaq istəyir.

***

Dini nikbinlik – Adam pis iş görəndə öz ayağına yazırlar, yaxşı iş görəndə Allahın.

***

İndi hamı siyasətə üz tutur, çünkü mənəviyyatın mənfəəti yoxdur.

***

Hakimiyyətin yönətim üsulu: Dalaşqanları Döyüşkənlərə qarşı ayaqlandırmaq.

***

Siyasi gələnək – Ağalığın yaratdığı durumdan Ağaya şikayət eləmək!

***

Özünü alçaltma: heç kim ədaləti özündən ummur, başqasından umur. Bu, başqasına özündən daha çox dəyər verməkdir.

***

Öz taleyini qura bilməyənlər başqalarının fərəhinə kölgə salmağa çalışırlar. Bunun adı talesizlik yenilgənliyidir. Yenilmişlər ziyana umsunurlar.

***

Nə qədər ki, adam oğurluq eləyə bilmir, oğurluğu qəbahət adlandırır. Elə ki, oğurlaya bildi, onu fərasət hesab edir.

Oğurluq – özünün bəraətində yaşayır.

***

Demokratik nağıl: Ağac bitəcək, bar verəcək, Yoxsul dərəcək.

***

Siyasi gediş: Dünyadakı məkri, bicliyi, yalanı öyrənib "dünya-görüşləri"ni artırırlar.

***

İnsanı Vətəndən ayıra bilərlər, ancaq Vətəni insandan ala bilməzlər.

Vətən dəyərləri ilə insanın varlığında yaşayır.

***

Ocaq – Bəşər Sabahının İnsanilik üfüqləri!

***

Ərəbçilik, farsçılıq, rusçuluq, batıçılıq varsa, müstəqillik yoxdur.
Asılılıq ideoloji biçimdə yaşayır.

***

İslamı bizimkilər milli dəyər sayırlar. İslam millət tanımır, ümmət tanıyır. Millət tanımayanı milli dəyər saymaq ikiüzlülükdür.

***

Zərdüştdə işıqçılıq.
Babəkdə işıqçılıq.
Dədə Qorqudda işıqçılıq.
Nəsimidə işıqçılıq.
Füzulidə işıqçılıq.
Ocaqda işıqçılıq.
İşıqçılıq – bizim özümlüyümüzün adıdır.

***

Xalq qədimliyindən ayrılanda, onun əzabı böyüklərin ömrünə yüklənir.
Böyüklük – xalqı özümləşdirmək Yükündən yaranır.

***

Atatürk Asif Atanın dönəmində yaşasaydı, Mütləqə İnamı dövlət düzəyində qəbul edərdi.

***

Şiə-sünni davası Məhəmmədin qılıncından törədi.
12-ci imamın öldürülməsi Məhəmmədin qılıncından törədi.
Xəlifələr Məhəmmədi davam elədilər – Babəki doğradılar.
Hökmdarlar Məhəmmədi davam elədilər – Nəsimini soydular...

Qanlılığın özülünü Məhəmmədin qılıncı qoydu. Qanlı özül üstə qanlı dünya qurdular, – dünya qana qərq oldu.

Peyğəmbərin söz haqqı var, qılınc haqqı yoxdur.

***

Məhəmmədin əsil Quranı qılınc idi. Kitabla çağıra bilmədi, qılıncla gətirdi. Kitabı da qorxu yayırdı, qılıncı da. Kitabın "qorxusu" ilə qorxuda bilmədiyi üçün qılınca tapındı Məhəmməd. Əslində o, bununla kitabın "qorxusu"nu təsdiq eləmiş oldu.

Kitabla qılınc qorxuya qulluq edirdilər – müqəddəslik adıyla.

İslam qorxunu müqəddəsləşdirdi, ona görə cəsarət tamam azaldı.

***

İslamda Allah adamın özgəliyidir. Çünkü adam Allahdan daim qorxudulur. Adam nə eləyirsə, Allah üçün (əslində özgəliyi üçün) eləyir. Özgəlik üçün yaşayan var olmur.

***

Din həqiqətə inanmadığı üçün Allahı uydurdu; İdraka inanmadığı üçün Qismətçilik uydurdu; Əxlaqa inanmadığı üçün cənnət, cəhən-nəm uydurdu; İradəyə inanmadığı üçün qorxuzdu.

Qorxu uyduran din uydurmanın qorxusunu qoruyur.

***

Din inamsızlıqdan yaratdığı Allahı göyə çıxartdı, bu səbəbdən də insan göysüz qaldı.

***

Bir yandan hər şey öncədən insanın alnına yazılır – əyriliyi də, düzlüyü də. O biri yandan din insanı düzlüyə çağırır. İnsan düzəlsə, Allahın yazısını pozmuş olur ki.

Din insana münasibətdə riyakarlığını gizləyə bilmir.

***

Bir yandan hər şey öncədən insanın alnına yazılır, bir yandan da deyir, Allah sənə ağıl verib. Əgər hər şey öncədən yazılıbsa, ağıl nəyə gərəkdir?!

***

Din insanı "o Dünya"ya çağırır ki, yenidən öldürsün. Çünkü insan qorxuda, nəşədə ölümlüdür.

"O dünya"ya haylanan insan ölümdən sonra bir də ölür.

***

Dinin bir quruculuğu var – Allahla qorxutmaq!

Allah dünyanı qorxu, çirkab içində saxlayır ki, insan ona baş əysin.

"Qorx Allahdan" – yəni Allahın qorxunc işləri var. Onda Allah niyə müqəddəsdir?!

***

Dində insan cəsarətə yox, qorxuya çağrılır.

Qorxu – insanı özünə yadlaşdırır.

***

Cihad – mütilikdən qıraqda qalanları mütiləşdirmək savaşı.

***

Möminlik yalanı: Qorxudan törəyən "mərifət".

Xurafatın əxlaqa yiyə durması.

***

Xristianlığa görə bəşər məhv ediləcək, az sayda əməli salehlərdən yeni bəşər yaranacaq.

Bu, insanın içdən dəyişə bilməsinə inamsızlıq yeritməkdir.

***

Siyasət "qəhrəmanlar"ımız: Kölədən qorxanlar, kölgədən qorxanlar. Qorxa-qorxa bağıranlar.

***

Prezidenti xalqın atası sayırlar – yetimlər.
Bic, vələdüzna atanın "məsum" balaları.

***

Azərbaycansayağı siyasət: Siyasətin xeyrinə, Azərbaycanın ziyanına.

***

Siyasət – əxlaqa inanmır – vara inanır;
Vicdana inanmır – zora inanır;
Din əxlaqa inanmır – qismətə inanır.
Vicdana inanmır – qorxuya inanır.

Siyasətin "var"ı dinin qismətinə, zoru dinin "qorxu"suna bərabərdir.

Siyasətdə insanın ölümlülüyü qorunur, dində insanın ölümlülüyü yaşayır.

İnsanlaşmada isə siyasətin də, dinin də ölümü yaşayır.

***

İndi dilənən adamlar kimi dilənən ölkələr də var. Özünü qurban verir, sonra da dilənir.

***

**Gəlişmə**: Boyunları ilə boyunduruğu sevindirənlər çoxalır.

***

Demokratiya ideolojisi gücləndikcə, xalq müstəqillikdən bezəcək.

***

Din İnamın rəqibi deyil. Həqiqətin rəqibi olmur. Asif Atanın ideyalarını rəqabətlə vermək olumsuzdur. Əgər insan həqiqətə çatmırsa, o, böyüməlidir.

Həqiqət – yalanı heç sayır. Heçlə rəqabət aparılmaz.

***

Biz İnsanillik Məbədi yaradırıq ki, xalqımız öz içində ölçü tapsın.
Məbəd – Milli ruhun İnsanilik üzərində təkamül tapmasıdır.

***

Yalançısan – demokratiyanı qurtuluş sayırsan.
Yalanlar yağışı yağır xalqın üstünə.

***

21-ci yüzili Türk yüzili sayanlar 21-ci yüzilə 7-ci yüzillə girirlər.

Azərbaycan ölkəsi sürətlə məscidlər ölkəsinə dönüşdü. Məscid heç kimi türkləşdirmir.

***

Hakimiyyətçilik tələbi: Başda durmaq üçün başları əzmək gərəkdir.

***

**Ruhsal yük:** Fərəhi qarşılamaq intizarı;
Əzabdan doğulan heyrət – əzabın müqəddəsləşən çağı:
Qorxunun ölümü;
Həyata sığmayan inad;
Əməl Aqibəti!

***

Eşq – ilahi məqamdı. Aşiq surəti ilahi görür. Baxışlar ilahiləşir. İlahi yanğı qəlbə girir. Yanğı harayı yaranır. Haray yanğı ilə işıqlandırır. Aşiqin sevgilisi bütləşir. Büt həqiqətləşir – Bütçülükdən üstün olur.

***

Sözün ölmür – səndən sonra deyəcəklər.
Əməlin ölmür – səndən sonra eləyəcəklər.
Hünərin ölmür – səndən sonra yaşayacaqlar.
Bunun üçün səndən sonrakıları yetirməlisən.

***

Nəsimilik arxada qalmış məqam kimi öyrənilir, bəyənilir. Sığmazlıq, ölməzlik həqiqəti kimi aqibətə çevrilmir.

***

"Öncələr mən də xalq üçün çalışdım, heç nə alınmadı. Özünü yorma, səndə də heç nə alınmayacaq". – Bədbinlik üstə öyüd verirlər, bədbəxtliyi əbədiləşdirirlər.

***

Öygü – gözün verdiyi qiymət;
Heyrət – ruhun verdiyi qiymət.

***

Deyingənlik: Nöqsanı gözə qaldırmaq – özünü gözdən salmaqdır.

***

Bəraət – nöqsanı hörmətə mindirməkdir. Nöqsan hörmətə minəndə ləyaqət nüfuzunu itirir.

***

Bütün dünyəvi "Birliklər" (BMT, AB, MDB..) Vətən yarada bilməməkdən yaranır.

***

Çağdaş imperiyalar – dünyəvi "Birlik"lər adıyla yaranır.

***

"Qız qalası" – gözlə görünən qədimlik.
Zərdüştlük – idrakla görünən qədimlik.

***

Dini baxışları insanlar bir-birinə idrakla deyil, vərdişlə ötürürlər. İnsanları köhnə vərdişlərdən daşındırmaq üçün onların qəlbində

milli-insani duyğuları aktivləşdirmək, daim yeniləmək gərəkdir. Başqa cür onların köhnə vərdişlərdən arınması çox gecikə bilər.

***

Hakimiyyətin özbaşınalığına qarşı nifrət ümumi bəlalara qarşı ayıqlığı gücləndirmir, əvəz edir. Ya da sıradan çıxarır. Bu nifrət həm də fərdi ciddi mübarizələrdən yayındırır. Əslində fərd nə ilə üz-üzə qaldığını dərk eləyə bilmir, ona görə də növbə ilə, hakimiyyət istəyən qüvvələrin etkisinə düşür.

Hakimiyyət ədalətin buxovlayıcısı kimi çıxış etdiyindən fərdin diqqəti hakimiyyət dəyişikliyinin baş tutmaması üzərində dayanır. Ona görə də ədalətsizliyin əsl səbəbi dərk olunmur. Belədə hakimiyyət dəyişikliyi ədaləti bərpa eləmir.

***

Böyük şəxsiyyətlər həqiqətlə uğraşırlar. Bununla onların vətəni, dəyərləri yüzillər boyu bəşərin diqqətinə düşür. Deməli, vətən məzmunu həqiqətlə sevilir. Deməli, həqiqətlə uğraşmaq vətən yaratmaqdır. Öz xalqına azadlığın yollarını axtarmaq bəşərləşməkdir. Yalnız azad xalq – bəşər səviyyəsinə yüksələr.

Bəşər – xalqın özünü həqiqətə sevgi, doğmalıq üzərində ifadə eləməsi ilə bütövləşir, özünə bənzəyir.

***

Əgər mən Asif Atanın Ocağını yaşatmasaydım, onun gerçək strukturunu, arxivini möhkəmlətməsəydim, Ocağın taleyi, əməyi necə olardı?!

***

Xudbinlik, qısqanclıq, dünyagirlik b.k. duyğuları güclü olan adamlarda instinktlər mənəviyyatla idrak üzərində hakim olur. İnstinktlər insanı təbii, daha doğrusu, bioloji varlığa çevirir. Onların rolunu minimuma endirmədən ömürdə ruhsal xisləti təsdiq eləmək olmur. İnstinktləri mütləq heçə çevirmək mümkün deyil, çünkü bioloji mövcudluq buna qarşıdır. Ancaq onların hakim etkisini ortadan qal-

dırmaq olar. Özüylə döyüş əslində instinktlərin hakim etkisindən azad olmaqdır.

***

İki adamı özündə daşıyan biri (Volter kimi) bicliyin, fəndgirliyin güclü bilicisi olur. Xarakterindəki adamın biri ilə görüntü yaradır, o biri ilə niyyətini gerçəkləşdirir.

***

Volterin rasionalizmi ilə Russonun naturalizmi yeniliyə can atan ümidlərdə birlik yaratmışdılar. Ancaq bu birlikdə ümidin axıra kimi yaşaması sual altına düşür...

***

Xoşbəxtliyin bir cəhəti də oxumaqdır (mütaliə eləməkdir). Adam nə qədər çox oxuyursa, bir o qədər çox düşünür. İdrak daim işləyir, əməllər fəzilətlərlə sistemləşir.

***

Tarix – hökmdarları aşağılamamaq (təhqir etməmək) üçün həqiqəti aşağılayıbdır. Ona görə də tarix hər zaman ifşaya layiqdir. Yəni həqiqəti tarix heç zaman vaxtında deməyib. Dünənki tarixin həqiqəti bu gün deyilib, bugünkü tarixin həqiqəti sabah deyiləcək.

***

İnsanlığın tarixi yazılmır, soylar ancaq eybəcərliyin tarixini öyrənirlər. Bununla heç nə əldə etmirlər. Tarix oxumaqla toplumun gəlişməsinə bel bağlamaq olmaz.

***

Avropa bizə soyuqqanlılıq öyrədir. Soyuq hissiyyat, ehtirassız, vəcdsiz əqliyyətçilik.

Avropalaşma – Doğu üçün çox qorxunc standartdır.

Kosmos yüzili ruhsuz yüzildir. Avropaçılıq – intellektual ölüm gətirir dünyaya. Doğu – Avropa yolu ilə intellektual avamlığa doğru gedir.

Ruhçuluqdan intellektuallığa – Avropanın saldığı yol budur.

***

Dövlət – insana həqiqi azadlıq vermir, o, təşkil olunmuş azadlıqdır. Bu azadlığı təşkil eləyənlər azad düşüncəli insanlar deyillər. Ona görə dövlət öz görəvini doğru yerinə yetirmir.

***

Şopenhauer ardıcıl olaraq intellektlə iradəni qarşı-qarşıya gətirir. Həyatda, təbiətdə, heyvanda müşahidələr aparıb iradəyə birincilik statusu verir. "Kor iradə" ilkinliyi yaradır. Heyvana insandan daha çox üstünlük verir. Çünkü onun izləmələrinə görə iradənin yetkinliyini yaradan instinktlərdir. Ruhun sual altına düşməsi çaşqınlıqlara gətirib çıxarır. "Azad İradə" – sınır tanımır...

***

Qədər – insanın cismi quruluşu, cismi təşkil edən orqanlar arasındakı əlaqələr, bunlardan birinin sıradan çıxması ilə xəstəliyin yaranması, daha böyük zədə götürəndə ölümün qaçılmazlığı kimi qanunauyğunluqlardır.

Qəza isə yanlışlar ucbatından bu qanunauyğunluqlara pozuntular gətirməkdir.

Bir var, bədənin doğal olanaqlarının tükənməsi, biri də var, yanlış yaşamaq ucbatından canda balansın pozulması...

Din – Qədəri həm fiziki, həm mənəvi olanaqlarla bağlayır. Adamda müsbət dəyişiklik getmirsə, deməli, Allah onun gözünü bağlayıb, qulağını tıxayıb. (Zatıqırıqlığı Allahın əməli saymaq).

Dinə görə adamın cahilliyi zərurətdir. Yəni onun qəlbi möhürlənib, yəni ömrü belə proqramlaşıb.

Bizə görə cahillik təsadüfdür, o dəyişilə bilər.

***

İnstinktlər – mövcud olmaq uğrunda mübarizə edən keyfiyyətdir. Ruh isə həqiqət uğrunda mübarizə edən qüdrətdir.

***

İnsan dünyaya gəlib elə bir ortama düşür ki, ağlı kəsməyə başlayandan həyat uğrunda mübarizə aparır. Bu mübarizə onu həyatın köləsinə çevirir. Həyat özü amansız bir gediş kimi təsdiq olunur. Həyat uğrunda mübarizəyə nə qədər çox enerji verilirsə, həyat insanı bir o qədər əzir. İnsanın bütün fəlakətlərinin qaynağı həyata təslimçilikdir.

***

Din dış iradəni əsas götürərək, fərdi iradəni itaətdə saxlamaq, bununla da, guya pis əməllərin qarşısını alacağına inam yaratmaq istədi. Ancaq heç kəs öz iradəsini dış iradəyə təslim eləmədi. Əslində heç bunun yolu da yoxdur. Eyni zamanda bu heç gərək də deyil. Çünkü ayrıca insanüstü dış iradə deyə bir şey yoxdur.

Heç bir əsası olmayan, gerçəkliyə dayanmayan tələb dış qüvvənin tələbi sayılır. Bunu gerçəkləşdirməyin mexanizmi isə yoxdur. İradə mənəviyyatın, idrakın tələblərinə doğmalaşmalıdır. Absurd dış iradənin tələbiylə ülviyyət yaranmaz.

***

Bir çox xalqların həyatında reformasiyalar olmuş, onlar gəlişmə əldə edə bilmişlər.

Reformasiya o vaxt baş verir ki, xalqın içində bəlli yaradıcı gələnəklər olur. Öz gələnəklərinin geriliklərini islah edərək qabağa gedir.

Bəs görəsən Azərbaycanda reformasiya nə demək olar?! Azərbaycanın ən böyük gələnəkləri özgələrin ona verdiyidir. Özgələrin verdiyi gələnəklərin üzərində islahat aparmaqla qabağa getmək özünü doğrulda bilməz. Özgəliyi rədd eləmədən reformalardan söz getməz.

***

Xristianlıq yeni başlayanda yoxsulların dini idi. Təsəlli, umid yoxsulları ölməyə qoymurdu. İndi xristianlıq kapitalistlərin dinidir, daha doğrusu, siyasətidir. Yoxsulların əlindən təsəllini, ümidi aldılar. Ona görə Amerika prezidenti İsadan böyük görünür.

***

Sənaye "dünyası" insanın ömrünü yeyir. İnsan istehsala çox qurşandıqca, düşüncədən uzaqlaşır. Düşünməyə vaxtı qalmayanın həyata önəmli bir şey verməsi olumsuzdur.

***

Mifik təfəkkürlə dini təfəkkürün fərqi bəşəriyyəti neçə addım qabağa apardı. Bu qabağa aparma bəşərin idrakca özünü təsdiqinə hansı uğurları verdi?! – Böyük anlamda heç bir uğur. Çünkü dini təfəkkür mifik təfəkkürdən yüksəyə qalxa bilmədi.

***

Demokratik gedişlərin çevrəsində Asif Atanı topluma vermək çətin olacaq. Şəxsiyyətə heyranlıq, səcdə dinin transsendental yalanları ilə, ya da despotizmin insanı aldatmaları ilə eyniləşdirilir. Çağdaş toplumda bütün olanaqlar şəxsiyyətə sağlam münasibətlərin yaranmasının qarşısını almağa yönəldilir. Şəxsiyyətin dəyər səviyyəsinə qaldırılması yolverilməz sayılır. Əslində isə insanı dəyər səviyyəsinə qaldırmadan anarxizm despotizmi, despotizm anarxizmi daim əvəz edəcək. Ədalət, xeyir toplumsal həyatda heç vaxt özünə ortam tapmayacaq. Demokratiya böyüyü kiçiyə, ləyaqəti simasızlığa qarışdırmaqla yaratdığı ortamı "hüquqi cəmiyyət" kimi qələmə verir. Burada pislə yaxşının hüququ birdir. Mənəviyyat ölçü kimi çıxış eləmir.

***

Məişət qayğıları, qanunsuzluqlar, özbaşınalıqlar, hərcayi gedişlər, toplumun balanssızlaşan durumla təbəqələrə bölünməsi kütləvi əsəb xəstəlikləri yaradır. Əsəb xəstəsinə vətən, millət, dövlət

anlayışlarının qutsallığını öyrətmək, sevdirmək çətindir. Ocağın yükü getdikcə ağırlaşır.

***

1400 ildir müsəlman olmağımızla günahlarımız davam edir. Asif Ata bizi bu günahdan qurtarmaq sorumluluğu götürüb üzərinə. Asif Atanın yükünün altına, həqiqi anlamda, çiyin verən şəxs bu günahdan arınmış sayıla bilər...

***

Din insanın sevgisini qazanmayıb, çünkü onun həyatına soxulub. Ona görə də insanın üzərində Allah xofu yaradıb. Allah xofu insanın ideala olan sevgisini əvəz edib.

Qorxu yaradan Allahı insanın başının üzərindən düşürmədən onun ideala olan sevgisini böyütmək çətindir.

***

Hər bir insanın içində bir etiqad nöqtəsi var. Bu nöqtədə insan hansısa bir dünyabaxışa bağlıdır. Məsələn, müsəlman həmin nöqtədə İslama bağlıdır. O insana İslamla bağlı tənqidi düşüncə bildirəndə, bu tənqidin, onu həmin nöqtədən qoparacağını düşünür. Ona görə də necə gəldi özünü savunmağa çalışır. Ömründə uğraşmadığı, bilmədiyi bir yönü (sahəni) öz arzularına uyğunlaşdıraraq savunur. Bu da onu göstərir ki, belə insanlarda yalnız etiqad ehkamlaşmayıb, xarakterləri də ehkamlaşıb. Yəni xarakterini dəyişmək istəmir. Ciddi ağıl işlətmək, xeyiri, şəri tanımaq yönündən zəhmət çəkmək ona olumsuz görünür. Küt qalmağa alışıb, alışdırılıb.

Toplumsal tərəqqi – insanın kütlüyə qarşı etirazından başlaya bilər.

***

Nitşe bir çox məsələlərdə gerçəkliyi uğurlu analiz edir. Ancaq gerçəkliyi diriltmək yerinə öldürür. Həyatı yaşatmaq üçün onu gözəlləşdirmir, gücləndirir. Güclü həyat onun özünə qarşı yönəlir.

***

Nitşenin "Hakimiyyət əzmi"ni oxuyan quyuya düşür. Orada özündə güc tapıb qaranlıq dünyanın "azmanları" ilə döyüşmək həvəsində olur. Ancaq oxuyanın quyudan çıxa biləcəyinə mənim inamım yoxdur.

***

Nitşe xudbinliyi böyüdür, yaşadır, onun fəlsəfəsini yaradır.

Xudbin olmadan yaşamağın sürülük olduğunu vurğulayır. Hakimiyyətə vurulmaq – yalnız xudbin ürəyin həvəsidir. Hakimiyyətə vurulan milli keyfiyyətləri itirir, hər şey onun üçün hakimiyyətin kölgəsi kimi dərk olunur.

***

Nitşe güclü xarakterləri gözəl, məğrur, gümrah sayır. Qalib əhvalnan yaşamayanı zəif, günahkar bilir. Bəs onda uşaqlar, qocalar, qadınlar necə olsun?! Nitşenin "güclü xarakterlisi" mərhəmət duyğusunu itirir – qocaya, qadına hansı xarakterlə yanaşacaq?!...

***

Nitşenin "fövqəl insan" baxışı dinin xeyrinədir. Nitşe bu baxışla dini heç nə ilə əvəz edə bilməz. Çünkü Nitşenin "güclü"ləri tək-təkdir. Çoxluq "zəiflər"dir. "Zəiflər" – onları söyən Nitşenin dinə qarşı baxışını alqışlamayacaqlar. Burada söyülənlə dində aşağılananlar bir-birinə bağlanır. Nitşedə ölümə məhkum olunan "sürü" ilə din bir-birini savunurlar.

***

Nitşenin güclü insanı özünə deyil, başqalarına qalib gələn insandır.

***

Nitşedə Quldar bacarıqlıdır, güclüdür, məharətlidir, ona görə də gözəldir.

Nitşe İsanın azğınlığı islah eləmək çağırışına ikrah edir.

***

Nitşe güclü idrakla qurulan tordur. Çağdaşlaşmanı üzdən anlayanlar bu tora tez düşürlər.

***

Böyük ləyaqətin ətəyindən tuta bilməyənlər yüngül olurlar. İstənilən dalğa onları götürüb aparır.

Nitşe yüngülləri götürə bilən dalğadır.

***

Nitşe kapitalist əxlaqını əxlaq norması sayır, deyir, əxlaq pis şeydir. Ya da din əxlaqını əxlaq norması kimi görüb deyir, əxlaq rədd edilməlidir. Nitşsedə əxlaq (genel əxlaq) – gücə, güclülüyə əngəl olan avantüradır.

Nitşedə başqasını nəzərə almaq əxlaqsızlıqdır. Ona görə Nitşeni İnsanilik ölçümüzə yad görürük, rədd edirik.

***

Allahı göyə qaldırmaqla peyğəmbər (Məhəmməd) nəyə yetdi?! İnsan Allahı içində niyə yaşada bilmir, bunu ona niyə vermirlər?!

Dini də, Allahı da bu məsələ rahatsız eləmir – yəni niyə insan Allahı içində yaşada bilmir?! – Asan həll edirlər məsələni: insan iblisin felinə uyub. Demirlər ki, insana həqiqəti verə bilmirik, onu öz gözündə böyüdə bilmirik. Bunun üçün doğru cavablar da göstərilmir.

İndi biz "Mütləqə İnam"a söykənib min illərdir dinin öldürdüyü insanı diriltməliyik. İşimiz çox çətindir. Ocaqçılığa meyil edən hər bir kəs özündən çox yüksəyə qalxmalıdır.

***

Din hər şeyin yaxşı olması üçün "axirət günü"nü gözləyir. Deməli, yaxşı olmaq – məhv olmaq deməkdir. Dünya məhv olacaq, bəşər qırılacaq, pisliklər aradan gedəcək. Bunu deməkdə avantüradan başqa nəsə axtarmaq doğru olmaz.

***

Həqiqət – Mənanın dərk olunmasından doğan münasibətdir. Bu münasibət yanılanda (Məna dərk olunmayanda) həqiqət təhrif olunur.

***

Dostum yaxşı oğlandır. Ancaq sadəcə yaxşı oğlandır. O, hər məni görəndə deyir: Bir az işlərim var, yoluna qoyum, başım açılsın, oturub Ocağın gələcəyini düşünək. Dostum deyəsən fərqində deyil, güzəransevərliyi onun başını heç vaxt açılmağa qoymayacaq. Çünkü adam həyata tabe olubsa, həyatın tələblərindən irəli gələn işləri yoluna qoyduqca, özü yoldan çıxır, – yolsuzlaşır. Həyatın yoluna qoyulası işləri tükənməzdir. Həyat öz tükənməz işləri ilə adamı tükəndirir.

***

"Qiyamət günü" – Allaha inamsızlıqdır. Din dünyanın, insanın düzələcəyinə, ya da Allahın peyğəmbərlərə "göndərdiyi" kitablarla dünyanı, insanı düzəldəcəyinə şübhə sərgiləyir. Əgər "Qiyamət" mütləq qopacaqsa, deməli, insan düzəlməyəcək. İnsan düzəlsəydi, "Qiyamət" qoparılmazdı.

Deməli, bəri başdan insanın düzəlməyəcəyi bəllidir ki, "Qiyamət"in qopması ilə bağlı hökm verilib.

Peyğəmbər “Qiyamət”in qopmasını müjdələmək üçün gəlib. Əgər “Qiyamət” mütləq qopacaqsa, sən nəyə gərəksən?! Sən ona görə gəlməliydin ki, “Qiyamət” qopmasın...

***

İnsanlar özlərindən Allaha xarakter verirlər. Hər kəs Allahı öz arzularına uyğunlaşdırır. Allah arzularda kiçildilir, nisbiləşdirilir.

... Sonsuzluq – insan arzularında sonlulaşır. Allah – ən çox arzudur. Ancaq xülyəvi arzudur, – gerçəkliyə etkisi olmayan arzudur.

***

Həqiqəti dərk etmək borc deyil, tələbdir. Borc ödənilə də bilir, ödənilməyə də. Tələb isə içdən yaşamağın uyumudur. Bunsuz insan var ola bilməz.

***

Mənim ruhani fəallığımla ruhani bilik əldə edə bilməyim eyni vaxta düşdü. Ona görə üstümə hücumlar çox oldu.

***

Özünə inanan, Xeyiri sevən hər kəs heç kimə, heç nəyə təslim olmur. Bütün yanlış, doğru görünən hücumlar – özünə inam duyğusu qarşısında çox sönük olur.

***

İkrah hissi pis şeydir. Adam hətta xəstənin xəstəliyindən bezəndə belə, şəfqət duyğusunu itirir.

***

Adamlar üçün başqasına ağıl vermək özünün ağıllı olmaq istəyindən daha cazibəli görünür. Ona görə naşılar çoxdur, müdriklər az.

***

İnamın elə zəngin əsaslar üzərində dayanmalıdır ki, şübhələrin müdrikləşə bilsin. Müdrik olmayan şübhələr – şərin öz yoluna tutduğu çıraqdır. İnam qəti olanda şərin sənin içinə başladığı yolda çırağı sönür.

Şübhə şərin tələbi kimi də çıxış edə bilər, xeyirin tələbi kimi də. Bunlardan birinə Asif Ata naşı şübhə, o birinə müdrik şübhə deyir.

***

İçi dayaz olanın içinə nə atsan, o anda dibinə dəyir.

İçi dərin olmayanın şübhəsi dərin olur, sevinci dayaz. Öz içinə əl qatıb dərinləşdirməyən adam dayaz sevgilərdən, naşı inamlardan

təngə gəlib yorulur. Belə adamın çiyninə heç həyat yükü də qoymaq olmur, nəinki Amal Yükü.

***

Günlərin bir-bir gedir. Düş arxasına gör hara gedir?! Gedən günlərini bir yerə yığsan, ondan nə əmələ gətirə bilərsən?! Əgər onları bir-birinə bağlayıb ömür əmələ gətirə bilmirsənsə, deməli, ömür sürməmisən, sürünmüsən – doğanın gərəksiz ünsürü kimi.

***

İdeyanı yaşadanda həqiqətləşir, reklam edəndə xurafatlaşır.

***

Ocaqçı – (həqiqəti) görüb yaşadan.
İnamçı – (həqiqəti) görüb göstərən.

Bizi görə bilib göstərə bilməyən isə İnamçı sayılmır. İnamçı olmayan bizə söykənib özünü göstərməyə çalışır.

Mən özümü deyil, Asif Atanı göstərməyə girişdim, ona görə də göründüm.

***

Əbuhəmid Qəzali – xalis mollabaşı.

***

Yalan – içsəl qutsallığın itirilməsindən sonra başlayır.

***

Özüylədöyüş tələbi: Toplumda barışmadığın cəhətlərin hamısını bir-bir yaz. Sonra öz içinə – münasibətinə, davranışına dön. Gör o cəhətlərin hansıları səndə var, nədə özünü göstərir?!

***

Şərin etkisini ölçü saymayan adam Amalda yol gedə bilməz.

***

Hürufilər fərqli anlayışlarla, rəmzlərlə üstüörtülü davranmalarla İslam amansızlığından davamçılarını qorumaq istədilər. Ancaq sonrakı yüzillərdə özləri haqqında yanlış təsəvvürlərin ortaya çıxacağından qoruna bilmədilər. İstənilən halda, böyük ideyalarda hansısa çalarları toplumun səviyyəsinə hesablamaq sonradan zərərsiz ötüşmür...

***

Görəsən Adəmlə Həvvanın yer kürəsinə qovulmasına qədər cəhənnəm olubmu, – kimlər üçün olub?! Yoxsa "böyük günah"dan bir an sonramı yaradılıb?!...

***

Təbliğat – istənilən bireyin, qrupun, qurumun mövqeyini, mənafeyini təlqin edən fəaliyyət növüdür.

Toplumda özü haqqında bilgi formalaşdırmaq təbliğatla başa gəlir. Təbliğat effekt üzərində qurulur, şişirdilmiş faktlar göstərir. Ona görə də istənilən uğurlu təhlil təbliğatı darmadağın edə bilir.

Bütünlüklə təbliğata dayanan istənilən iş bəlli çağdan sonra gücünü, etkisini itirir. Əslində böyük ideyalar təbliğ olunmalı deyil, öyrənilməli, dərk olunmalıdır.

Ona görə Asif Ata deyir, ağac-ağac, hal-hal, fərd-fərd yetişməli, qurulmalı.

***

Kamilliyə can atan adam özünə qarşı layiq olmadığı münasibət umursa, doğru münasibətin, əsilliyin həyata gəlməsinə əngəl olur.

Qeyri-kamil bir səviyyəyə qarşı kamil münasibət ummaq – İnsanlığın təsdiqinə mane olmaqdır.

***

Məna yoxdur demək – obyektiv baxış sayılmaz. Kim deyirsə Məna yoxdur, onun üçün gerçəkdən yoxdur.

Mənayla yaşamayan üçün, sözsüz, Məna yoxdur.

***

Tanrı-insan, Tanrı-dünya münasibətlərini din izah edə bilmir. Çünkü Tanrını insanın, dünyanın içində görmür. Ona görə dinçi, insanla dünyanın əlaqəsini dərk eləmir.

***

Maddi bərabərlik o demək deyil ki, işləyənin əlindən alıb işləməyənə verəsən. Maddi bərabərlik odur ki, hər kəsə yaşam gərəyini (ehtiyacını) ödəmək üçün eyni dərəcədə olanaq tanıyırsan. Eyni halda, başqalarının qaçılmaz ehtiyaclarını mənimsəmək olanaqlarını qapayırsan.

***

Sabir Yanardağ Stalinə də vurğun idi, Səməd Vurğuna da. Bu, imkanla niyyəti ayıra bilməməkdən irəli gəlir. Stalin dönməz kommunist idi. Ancaq kommunizm üçün hər kəsi, hər şeyi qurban verirdi. Əslində insan kommunizm üçün yox, kommunizm insan üçün olmalı idi.

S.Vurğun gözəl vəsf edirdi, ancaq bir çox hallarda şərin gücünü vəsf edirdi.

S.Yanardağ dönməzliyə vurulanda insanı unudurdu. Vəsfin gözəlliyinə vurulanda xeyirin yıxıldığını unudurdu.

***

Rusiya Azərbaycanda təfəkkürlərin yetişməsinə yardımçı oldu, sonra da məhv elədi.

***

Hegelə görə ruh hərəkətdədirsə o, heç vaxt ziddiyyətdən qurtara bilməz. Hegeldə kamilləşmə özünü doğrultmur. Yəni kamilləşmə ruhun "dinc" dayanması deməkdir.

***

Asif Atada toplumsal şər başa çatmır. Ancaq bireydə şər başa çatır – insan kamilləşə bilər...

***

Nə məqamı öymək həqiqəti tanıtmaz, nə də məqamı söymək. Məqamı ötməklə həqiqətə yetmək olar.

***

Allah – ən çox hissi yaşamın təsvir elədiyi obrazdır.

Allah – idraki yaşamın gedişinə, – qavranılan, dərk olunan obraz kimi girmədiyi üçün bütöv bəlirtisini (müəyyənliyini) tapmayıb. Allah anlamını, ya da varlığı idraki proseslərin axarına salmaq olduqca çətindir. Ona görə bütöv dərk olunmur, ona fantastik keyfiyyətlər verilir.

***

Hind ruhaniyyatı deyir, – dünyanın Atman adlı ruhu var, o, dünyanı yönətir (idarə edir).

Mütləqə İnam ruhaniyyatı deyir, – dünyanın Mənası var. O, dünyanı yönətmir. Dünya öz Mənası ilə yenilənir.

***

Hegeldə anlayışlar bir-birinə qarışır. Allahla ruh eyniləşir; Ruhla ideya eyniləşir. Ruh – Mənanın əvəzi kimi hallandırılır.

***

Azadlıq – sinifli cəmiyyətin yaşadığı Quruluşun növünə görə (Feodalizm, kapitalizm, sosializm...) izah ediləndə nisbi dəyərə çevrilir.

Azadlıq – bütöv bir keyfiyyətdir, Quruluşdan Quruluşa dəyişmir.

***

Siyasət – mübarizlər yetişdirmir, rəqabətçilər yetirir – özünəyarar (faydacıl), pozaçı, başıpiylənən, başpiyləndirən.

***

Vəhdəti-vücud fəlsəfəsində insanla Tanrı ayrı-ayrı obyektlər kimi götürülür.

Asif Atada insan Mütləqi özündə daşıyır.

***

Asif Ata – min ildir dinin öldürdüyü insanı diriltmək yolu tutub.

***

Həqiqət zərurətdən yüksəkdir. Zərurəti ötə bilməyən həqiqətə yetə bilməz.

Zərurət yaşamaq üçündür, Həqiqət – Azadlıq üçün.

Zərurətlə yaşayanlar Azadlığı qoruya bilmirlər.

***

Həqiqət yalnız bir zərurət tanıyır – Həqiqətlə bir olmaq.

***

Həqiqətdən qıraqda vicdan da zərurətə aldanır.

***

**Özüylədöyüşün soruları**:

Niyə səksəkəli yaşayıram?!

Niyə qulağım səsdədi (kimsə mənim haqqında nə deyəcək)?!

Niyə özüm üçün qorxu qaynağı hazırlayıram (yanlış davranışlarımla)?!

Niyə paxırım var?! Niyə paxırım açılmasın deyə gizlənirəm?!

Evim niyə mənim balaca yalanlarıma ortaq olmalıdır?!

Niyə ruhumun səksəkəsi evimin yalançı təsəllisi ilə ortadan qalxan kimi görünməlidir?!

Niyə imtinalardan qaçmalıyam?!

Niyə özümə yad yaşamalıyam?!

***

**Özüylədöyüşün tələbi:**
Kölgələr, gözümdən çəkilin!
Ləkələr, üzümdən silinin!
Qayğı yalanları, vicdanımı tərk edin!
Görüntülər nümayişi, əməlimdən rədd ol!
Acılar, könlümdən uzaqlaşın!
Şübhələr, ürəyimi yormayın!
Fərəhim, sel kimi içimə qayıt!
İnadım, iradəmi döyülməkdən qoru! –
Yoxuşlarda yorulmayım.
Cəsarətdən arınmayım.
Risqlərdən usanmayım.
Yarı yolda qırılmayım.
Hünərlərə arxa olum.
Varlığımda Mütləqi doğruldum.

***

Gələcəyi qurmaq – keçmişin inamsızlıq əhvalından çıxmaqla başa gəlir. Keçmişin əhvalında qalıb qabaqcıl olmaq istəyi baş tutmaz. Keçmişin əhvalında qalıb sədaqəti yaşatmaq da beləcə...

***

Dilək böyük olanda dilə gətirmək olmur.

***

Kor – köhnə dəyirmandan başqa ünvan tanımaz.

***

Şöhrət elə bir xəstəlikdir ki, ona yoluxmayan özünü var saymır.

***

O şeyi ki, zaman yaradır, – o ölümlüdür. Zaman özünə tay yaradır, – əbədiliyə tay yaratmır, yarada bilmir. Zamanın dediyini deyən zamanın içində qalır. Zamanın dediyini deməyən əbədiliyə tay olur.

***

Bilik əldə etməyin əsas koşulu (şərti) inamdır. Bir şeyə şübhə edirsənsə o, adamın düşüncəsində oturuşmur. Ya da informasiya xarakteri daşıyır. Məsələn, göyel dinlərə görə mələklər adamların əməllərini "hesabat dəftəri"nə yazır. Bunun belə olduğuna inanmırsan, ancaq belə bir deyilişin olduğunu bilirsən. İnanmadığın bilik sənin olmur – sənin ömründə iş görmür. İnandığın yalan bilik də sənin ömründə iş görmür. Başqa sözlə, kamilliyə yönləndirmir, gerilikdə saxlamaqla iş görür.

***

İnsan daim İnsanlığın sirlərini, gözəlliklərini öyrənməlidir ki, pislik eləmək olanaqları ortadan qalxsın.

Bizə ayrı-ayrı dönəmlərdə İnsanlığın gözəlliklərini öyrədənlər olur. Ancaq hər gün, hər an bizə nələrsə öyrədənlər (təhsil, maarif) İnsanlığın gözəlliklərini öyrətmirlər. Bunu ruhaniyyatla uğraşanlar öyrədə bilərlər. Biz də ruhaniyyat adamlarını dinləyir, oxuyur, bəhrələnirik. Ancaq bir də bizə milliliyi, onun dəyərlərini, gözəlliyini öyrədənlər gərəkdir. İstənilən ruhaniyyat adamı bizə bu öyrətmənliyi etmir, edə bilmir. Onlardan İnsanlığın ayrı-ayrı gözəlliklərini öyrənə bilərik. Ancaq biz, İnsanlığı Milliliyə bağlı olan öyrətməni daha çox eşitməliyik. Onun öyrətisini (təlimini) ölçü götürməliyik. Yoxsa, bütün dünyada ruhaniyyat öyrədicilərini mürşidimiz, öyrətmənimiz seçsək, içimiz dağınıq, dolaşıq duruma düşər. Bizim millətləşməyimiz Asif Atanı öyrənməklə, Milli-İnsani biliyə yetməklə baş tuta bilər.

***

Təfəkkür ruhsal biliklərlə dolanda, həyatı gözəlliklərlə zənginləşdirə bilər.

***

İstənilən bir olayı qavramaq üçün ilkin faktın, bir də əqli nəticənin olmasına dayanırlar. Ancaq bir çox hallarda əqli nəticə düzgün olmaya bilər. Bununla da olayı bütöv qavramaq alınmaya bilər. Məsələn, deyək ki, qaranlıqda yol gedən yolçu birdən uzaqda bir işıq görür. İlk gördüyü ilə bağlı əqli mühakimələr yürütməyə başlayır. İşıq

varsa, deməli, ev var. Evin içində adamlar var, onlar çay içirlər, ya da şahmat oynayırlar. Bu mühakimələr sadəcə işığın görünməsiylə ortaya gəlmişdir. Doğru da ola bilər, yanlış da. Əgər mühakimə yürüdən dediklərində doğru kimi israr edərsə, bu artıq normal durum deyil...

Böhtanlar da beləcə yaranır. Bəzən bilərəkdən uydurulur (buna məkr deyirlər), ya da yanlış olaraq şübhəyə qapılıb deyilir. Deyirlər, "od olmasa tüstü çıxmaz". Ancaq tüstü bütün hallarda odun xeyirxahlıqla yandığını, deyək ki, fəlakətli yanğın baş vermədiyini əks etdirmir...

***

Baxışımıza subyektiv baxış deyib bizi dinləyən şəxs! İndi sənin başqa cür düşündüklərin, danışdıqların hansısa düşüncə adamından öyrəndiklərin, eşitdiklərin deyilmi?! Sənin istinad elədiyin baxış da subyektiv sayılarsa, obyektivliyə necə gedib çatmaq olar?! Yəni bütün baxışlar subyektiv sayılmalıdırsa, həqiqəti necə bulmaq olar?!...

***

Bədən yaranandan ölənə qədər onda proses gedir: duyma, qavrama, anlama, öyrənmə, bilmə, yetmə – var olma. Bizi var edən yəni Mənada saxlayan bu cəhətlərdir, ölümlü şeylər haqqında düşüncələr deyil. Təfəkkür prosesləri ən dərin həqiqətlərə aparan yoldur. Biz Mənaya yetirik, bədən ölür, ancaq yetə bildiyimiz üçün Mənada qalırıq.

***

İdrakı, mənəviyyatı bədənin hissəsi ya da xüsusiyyəti kimi qəbul eləmək doğru deyil. Çünkü bədənin xüsusiyyətləri maddi proseslərdir.

İdrak, mənəviyyat – ruhun gücüdür, ya da xüsusiyyətidir.

***

Gərəkən (zəruri) tələbləri ödəməkdə yaranan asılılıq azadlığa qarşı deyil. Məsələn, yemək, geyinmək kimi mövcudluğa gərək olan aracları əldə etmək üçün çəkilən zəhmət – azadlığı yaşatmaq üçün gərəkən addımlardır.

Bədənin asılılığı zorakı asılılıq deyil, qaçılmaz asılılıqdır. Məsələn, ərin arvaddan, arvadın ərdən asılılığı qutsal istəkləri – evlilik koşullarını gerçəkləşdirir. Yəni istənilən asılılıq əsarət deyil. Başqa sözlə, azadlığa qarşı deyil. Özünü başqasında tapmaq azadlığın tələbidir, əsarətin deyil. Bu üzdən azadlığı nisbi saymaq yersizdir. Mənəviyyatdan asılı olmaq – azadlığın təsdiqidir. Mənəviyyatın danılması üzərində qurulan azadlıq isə azadlıq deyil, əsarətdir – hərcayilik əsarəti...

***

Əzab, gərginlik, rahatsızlıq – azaldıla bilər, ortadan tam qalxa bilməz. Bəlkə də guşənişin yaşamaqla bunu eləmək olar, ancaq bu ömrü ideal yaşam saymaq olmaz. Əzabsız yaşam "Ver yeyim, ört yatım"la əvəzlənə bilir.

***

Həyatın gedişi ilə məqsədi arasında bərabərlik olarsa, yaşamağın anlamı itər. Gedişi nə qədər keşməkeşli olsa da, məqsədi Mənasına uyğun biçim almaq olmalıdır.

***

Asif Atanı ehkamlaşmaqdan, xurafatlaşmaqdan qorumaq üçün tənqidi münasibətlərə dözümlə yanaşmaq gərəkdir, məkrli münasibətlərə isə qoşulmamaq. Gərək duyulduğu durumda yanlış yanaşmalara aydınlıq gətirmək olar.

***

Dindarlar çoxluq baxımından Allaha cismi tələblərlə üz tuturlar. Maddi firavanlıq, ruzi-bərəkət ummaq cismani həzz istəklərinin göstəricisidir. Hətta cənnəti belə, cismani həzz ortamı kimi təsəvvür

edirlər. Bu, əslində materialist dünyagörüşü əsasında yaşamaq yönüdür. Çünkü onlar yüksək varlıq sayılanı saya (adi) nəsnələrlə, cismi varlıqlarla tanıyıb qəbul edirlər. Əslində dindar Allahı dərk etmir, təsəvvürünə sığışdırıb qavramağa çalışır. Varlığı cisim kimi qavramaq olmur, çünkü varlıq lamisə duyğularının (iy, dad, toxunuş, görmə, eşitmə) tələblərinə cavab vermir. Varlığı ancaq yüksək idrakla dərk etmək olar. Dərk prosesi qavram yolunda doğrulmur. Qavram – dərk prosesinin gerçək predmetlərinə münasibətlə yardımçı olur. Aksiom, teorem məsələsi. Aksiomun texniki isbatı yoxdur...

***

İbadətlər, rituallar insanı tərbiyə etmək üçün düşünülüb. İnsanlar bəlli bir yaşama vərdiş edirlər (bəlli yaşam normalarına). Bu vərdişlər birgəyaşayış nizamına uyğun gəlməyəndə yeni ibadətlər, rituallar düşünülür ki, məşq yolu ilə öncəki vərdişlərdən uzaqlaşdırsınlar. Ancaq bu ibadətlər, rituallar yeni dünyagörüşlə birlikdə ortaya çıxır. Başqa sözlə, yeni ideya (yeni düşüncə sistemi) – ona tapınanları köhnə vərdişlərdən daşındırmaq üçün öz rituallarını, ibadət biçimlərini də yaradır. Əgər ritual biçimi sağlam ideyaya uyğun olmasa (nələrsə yamaq kimi ideyaya pərçimlənərsə), ideya yeriməz, sağlam yaşam ölçüsünə çevrilməz (ideya, dediyimiz kimi, sağlam olsa belə).

... Ancaq belə ritualların arxasında həqiqi axtarışlar olmasa, yəni təfəkkür yolu dəyişməsə (deyək ki, idealı aydınlaşdıran düşüncə sistemi sağlam olmasa), birgəyaşayış ölçüsü saflaşmır. Sonucda rituallar kobud yalançılıqlar doğurur, özünü aldatmalar baş alıb gedir. Davranışlar insanın mahiyyətinə (İnsanlığa) uyğun olmur, əzbərlənmiş görüntülərdən yüksəyə qalxmır. Bir sözlə, insan üzdə bir cür görünməyə çalışır, arxada tamam başqa cür yaşayır (namaz qılanlar kimi). Dediyimiz kimi, idealı aydınlaşdıran, öyrədən təfəkkür yolu olmadığına görə ibadətlər, rituallar insanları aldadıb xaraktersizləşdirir. Azadlıq yerinə mütilik güclənir. Gərək rituallar sorumluluğu daim diri tutsun. Yoxsa ritualları quru-qurusuna yerinə yetirməklə – tənbəllik, unutqanlıq, özbaşınalıq, hərcayilik kimi pisliklər insanın xarakterinə hakim olur. Sonucda birgəyaşayışda münasibətləri çətin duruma salır.

***

Dünya malına göz dikməmək İslama hindililərdən gəlib. Hindlilərin dünya malına tamah salmaqdan imtina edənləri gerçəkdən örnək ola biliblər. Məhəmməd isə onları sözdə yamsılayıb, əməli yaşamayıb (Qənimət surəsi).

***

Bədən, onun tələbləri bir sıra məsələləri anlamağa əngəl olur. Çünkü insan həyatda ən çox bədənin tələbləri ilə yaşayır. Belə olduğu üçün həqiqəti dərk eləməsi çətinləşir. Gərək bədənin tələblərini minimuma endirəsən. Söz yox, bədənin tələbləri mütləq aradan qalxmaz, bunsuz mövcudluq alınmaz.

Bəzi hind fəlsəfi məktəblərinin baxışlarına görə mütləq azadlıq – bədəndən tam qurtulmaqdadır. Atada isə bədəni eşitməməklə ruhu ən yüksək düzəyə qaldırmaqda (gəlişdirməkdə).

Həqiqəti anlamağa bədəni qoruyan nəfs əngəl olur. Nəfs Asif Atanın fəlsəfi, ruhani baxışında "ilan", "tülkü", "canavar" anlayışları ilə izah olunur. "İlan"ı, "tülkü"nü, "canavar"ı öldürməklə nəfsi tam nəzarətə götürmək olar. Bunun üçün bədənin gərəkən (zəruri) tələblərini tanımaq gərəkdir. Tamaha "gərəkən tələb" adı qoymaqla adam özünü aldadır, içində heyvani əhvalları, yaşantıları qoruyur. Ən ufaq biçimdə özünü aldatma ruhun gəlişməsinə, azad olmasına əngəl olur.

***

İnsan yetkinliyə çatmamış çağında hər səsə, hər sözə, hər biliyə açıq olur. Onun idrakının qulağı səsdə olur. Bəlirsizliklər içində olur. Bəlirti tapmaq üçün həyatın yaratdığı basırıqlardan çıxmaq gərəkdir.

***

Əqli nəticə qavramaqla çıxarılır. Qavram isə gerçəkliyə (görünən predmetə) bağlı məsələdir. Ona görə istənilən əqli nəticə məhduddur (yanlışdır yox).

***

Hər şey zərurət olsaydı, yaşamaq olumsuzlaşardı – yəni hər şeyin səbəbini, anlamını qabaqcadan bilsəydik. Məsələn, uçurumdan ehtiyatla keçən bir adamı qıraqdan həyəcanla izləyirik, hər an düşüb ölə bilməsi gözləniləndir. Uçurumu keçəndən sonra həyəcan başa çatır. Burada adamın yıxılmaması da, yıxılması da zərurət deyil, təsadüfdür...

***

Nadan bilmədiyi, öyrənmədiyi məsələ ilə bağlı qovğa edər. Yanlış, yararsız bildiklərinin, eşitdiklərinin məntiqi ilə üzləşdiyi düşüncəyə dirəniş göstərər.

***

Bir var sadə insanlar üçün gərək olan bilik, bir də var uzmanlar üçün gərək olan bilik. Məsələn, sadə insanın bilməsi yetərlidir ki, filankəs xəstədir. Ancaq həkim üçün daha çox bilik gərəkdir ki, onu necə sağaltmağı bəlirləsin.

Sadə insan bilməlidir ki, başqaları ilə davranışda qanacaqlı olmalıdır. Ancaq filosof qanacağın necə formalaşdığını, hansı halda pozulduğunu aydınlaşdırmağa çalışır.

***

Ürəyi naşı şübhələr qapsayanda beyinə qurd düşür. Beyni qurddan qurtarmaq ağır müalicədir. Ürəyə inam işığı düşməsə, qurd beynin axırına çıxır.

***

Sevgi limiti sıfıra yaxınlaşan pessimist adam idealın vayına oturur. Pessimist elə bilir, ideal onun qabağına sərilib, o da onun üstündə həşir qoparmalıdır.

***

Güzgünü sındırıb deyirsən səni gözəl göstərsin. Yazıq güzgü gözəlliyini itirirsə, səni necə gözəl göstərsin?!

***

Ağıl bəzənəndə gözəl görünə bilər. Ancaq gələcəyə nə verə bilər ki?!

***

Müdrik kin! Necə cazibədarsan. Şirin, həlim, duyğusal, tərbiyəli, həm də işvəli. Sənə heyran qalıram...

Necə mürəkkəbsən, yumşaqsan, rəngarəngsən – bozsan, qarasan, qırmızısan, – lap Tovuz quşunun quyruğunun tükləri kimi...

***

Ocaqda bir Güntay (Maniçöhr) vardı. Özü boyda dərd idi. Yanında durmaq belə əsəb xərclənməsi hesabına alınırdı.

Asif Ata ona deyirdi, sənin halın sətəlcəm keçirmiş orqanizmin istiliyi kimi bir durumda dayanmır, – qalxıb-enir.

Ancaq onun halı "Müdrik kin"in yanında toya gedəsidir.

***

Ürək köksüz qalanda yorğun havalar çalır. Bu havalarda nə sevgi oxunur, nə səadət. Kədəri kədərə bənzəmir, həsrəti həsrətə. Belə hallarda hər şeyə bənzəmək olar – Allahın köləsinə də, mələyinə də. Kölənin ürəyində xof daşınır, mələyin ürəyində şirin yalanlar...

***

Bir adamı ikiüzlü görəndə "gözüm səndən su içmir" deyirlər. Ziddiyyətli, bulanlıq ömürdən göz içməyə duru nə tapa bilər ki?!

***

"Müdrik kin" öz halından ilhamlanıb böhtanlarını fəlsəfəyə çevirir. Ulamaq məharəti filosofanədir, nizamlıdır, ardıcıldır.

***

Dişinlə kəmər yerindən yapışmaq üçün boyun qurşaqdan aşağıda durmalıdır. Bu boyla necə mübarizə apara bilərsən?!

***

Biz ağrılarla yüklənmişik,
Ağrılarla yaşayırıq,
Ağrılardan güc alırıq.

***

Bölgələrdə, kəndlərdə məscidlər tikilir. Burada idrak, mənəviyyat gərək olmur. Məscidləri tikməyə sadə adamın, mömin olanın pulu yoxdur. Məscidi pulu olan tikir. Əslində oğurluğu, haramlığı Allaha sırıyır. Çünkü halallıq heç kimə çox pul qazandırmır.

***

Elə bil heç kim bilmir ki, Babək var idi, Nəsimi var idi. Bunları bir qırağa qoyub bəndəliyi ilahi nemətə çevirirlər.

***

Dinin yalanlarına inana bilmədim, Ateizmin quruluğuna, antiqutsallığına tapına bilmədim. Ona görə İnama gəldim...

***

Bir var Türkçülük anlamı, bir də var Türkçülük dəbi. Bu gün Türkçülük də hər şey kimi dəbləşib. Türkçülüyün anlamını bilməyənlər dəbə qaçırlar.

***

Gənclik taleyini Milli Ruhdan başlamalıdır. Yəni Mütləqə İnamdan başlamalıdır, dindən, Avropaçılıqdan yox!

***

Bizə biri din verir, biri ateizm. Çünkü özümüz özümüzə heç nə vermirik. Bununla da biz – bir-biriylə rəqabət aparanların meydanına çevrilirik.

***

Mütləqdən böyük Allah yoxdur!
İnsandan üstün Məbud yoxdur!

İnamdan yüksək təsdiq yoxdur!
Sevgidən uca hikmət yoxdur!

***

Adam danışa bilməyəndə dayanmalıdır. Ancaq dayanmır. Ona görə də sözçülük, boşboğazlıq baş alıb gedir.

***

Mənəmlik heç kimin xoşuna gəlmir. Ancaq heç kəs də mənəmlikdən yan keçə bilmir.

***

Toplumun içində hoppanmaqla uca görünmək istəyənlər – boy yaratsaydılar, toplum ucalığı tanıyardı...

***

Gəncliyə informasiya yox, ruh vermək gərəkdir ki, çağıranda gəlsin.

***

Bəşəriyyət həmişə dahilərdən min il dala qalır. Ona görə heç bir dahi sağlığında alqışlanmır.

***

Nadanın acığı da nadan olur.
Nadan acıq şərin hər bir üzünü təmsil edə bilir.

**Ata-Ocaq Günsırası (Təqvimi)**

**1 mart 1979-cu ildən başlanır.**
Aylarda günlərin sayı miladda olduğu kimidir.

**Aylar:**
I ay Günəş – mart,
II ay Çiçək – aprel,
III ay İşıq – may,
IV ay Şölə - iyun,
V ay Od – iyul,
VI ay Qürub – avqust,
VII ay Ata – sentyabr,
VIII ay Xəzan – oktyabr,
IX ay Yağış – noyabr,
X ay Sərt – dekabr,
XI ay Qar – yanvar,
XII ay Köçəri – fevral.

**Həftənin günləri:**
I gün Arzu – Bazar ertəsi,
II gün Ümid – Çərşənbə axşamı,
III gün Dözüm – Çərşənbə,
IV gün Mərhəm – Cümə axşamı,
V gün Qismət – Cümə,
VI gün Murad – Şənbə,
VII gün İnam – Bazar.



# Ocaq - Türk Abesi



## Ocaq Bayramları:

15 Günəş Ayı (mart) – İnsanilik Bayramı.
13 Şölə Ayı (iyun) – Xəlqilik Bayramı.
12 Ata Ayı (sentyabr) – Şərqilik Bayramı.
12 Sərt Ayı (dekabr) – Bəşərilik Bayramı.

## Ocaq Törənləri

1 Günəş Ayı – Yeni İl
25 Çiçək Ayı – Ruhani İdrak Günü
5 Şölə Ayı – Ata Sonevini Ziyarət Günü
7 Od Ayı – Ruhani Evlad Günü
25 Ata Ayı – Ata Günü
13 Yağış Ayı – İnam Evi Günü
27 Sərt Ayı – Ruhani Səfər Günü
6 Köçəri Ayı – Ailə Günü

## Asif Atanın – İnam Atanın 45 kitabının, 7 "Kəlam"ının çeşidlənib sistemləşdirildiyi

### On Qutsal Bitiq – Onluq

1. Mütləqə İnam
2. Mütləqləşmək – Var olmaq
3. Anlam İnsaniliyi
4. Görmək İnsaniliyi
5. Fəlsəfənin Təməli
6. Qutsal Quruculuq
7. Yetməli Olduğunuz
8. Özüllər Özülü
9. İçdən Yaranma
10. Hüquqdan Haqqa

**3 Yan Bitiq**:

1. Ruhani Sənədlər
2. Yollaşan Aqibət
3. Həqiqətlər

**Asif Atanın – İnam Atanın Mütləqə üztutma quralı**
**(Mütləqə İnam açısından ibadət yönü)**

## Özündəki Mütləqlə Səhər Təması

Məndə Məndən Yüksək olan Mütləq Məna!
Məndəki Qorxunu Məndən al!
Məndəki Həsədi Məndən al!
Məndəki Köləni Məndən al!
Məndəki Xəbisi Məndən al!
Məndəki Cahili Məndən al!
Məndəki Vəhşini Məndən al!
Məndəki Hərisi Məndən al!
Məndəki Zalımı Məndən al!
Məni Özümə çatdır!

Nisbi Cəsarəti Məndən al!
Nisbi Heyrəti Məndən al!
Nisbi Vüqarı Məndən al!
Nisbi Saflığı Məndən al!
Nisbi Doğruluğu Məndən al!
Nisbi İnsaniliyi Məndən al!
Nisbi Ləyaqəti Məndən al!
Nisbi Mərhəməti Məndən al!
Məni Özümə çatdır!

Nisbi İnamı Məndən al!
Nisbi İdrakı Məndən al!
Nisbi Mənəviyyatı Məndən al!
Nisbi İradəni Məndən al!
Məni Özümə çatdır!

Mütləqə tapınım – Nisbiyə tapınmayım!
Həqiqətə tapınım – Yalana tapınmayım!
Vicdana tapınım – Zora tapınmayım!

İnsana tapınım – Zamana tapınmayım!
Özümə çatım!

## Təbiətdəki Mütləqlə Gündüz Təması

Təbiətdə Təbiətdən Yüksək olan Mənə!
Dağların Vüqarında Mənliyim yaşayır – Ona çatım!
Çayların Axarında Mənliyim yaşayır – Ona çatım!
Səmanın Ucalığında Mənliyim yaşayır – Ona çatım!
Günəşin Şəfqətndə Mənliyim yaşayır – Ona çatım!
Qürubun Qübarında Mənliyim yaşayır – Ona çatım!
Səhərin Cəzbində Mənliyim yaşayır – Ona çatım!
Gecənin Sehrində Mənliyim yaşayır – Ona çatım!
Səndəki Özümlüyümə çatım!

## Dünyadakı Mütləqlə Axşam Təması

Dünyada Dünyadan Yüksək olan Mənə!
Əzəliyə qovuşum – Ötəridən keçim!
Əbədiyə qovuşum – Keçicidən keçim!
Sonsuza qovuşum – Sonludan keçim!
Kamilə qovuşum – Qeyri-Kamildən keçim!

Ötərini Əzəli saymayım!
Keçicini Əbədi saymayım!
Sonlunu Sonsuz saymayım!
Qeyri-Kamili Kamil saymayım!

Hadisədə qalmayım – Mahiyyətə çatım!
Gerçəklikdə qalmayım – Mahiyyətə çatım!
Şəraitdə qalmayım – Mahiyyətə çatım!
Mühitdə qalmayım – Mahiyyətə çatım!
Səndəki Özümlüyümə çatım!

# Soylu Atalı

**(Talıblı Zülfüqar Qara oğlu)**

# Özümlü Yaşamağın Həqiqətləri

**(Deyimlər. Türk dilində)**

**Bağlantı: (051) 585-56-97**
**www.asifataocagi.com**
**atali.soylu@mail.ru**

Kitab "Elm və təhsil" nəşriyyat-poliqrafiya
müəssisəsində səhifələnib, çap olunmuşdur
E-mail: elm.ve.tehsil@mail.ru
Tel: 497-16-32; 050-311-41-89
Ünvan: Bakı, İçərişəhər, 3-cü Maqomayev 8 /4